Azərbayjan Respublikası
Milli Təhlükəsizlik Nazirliyinin
90 illik
yubileyinə həsr olunmuşdur

Vəkil Şükürov

"Qara kəmər" əməliyyatı

(Sənədli xronika)

Bakı - 2009

Vəkil Şükürov: «Qara Kəmər» əməliyyatı
Bakı, “NURLAR“ Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009, 288 səh.

Kitabda 1994–2005-ci illərdə Bakı şəhərində mütəşəkkil cinayətkar dəstənin fəaliyyətindən, həmin cinayətkar dəstə üzvlərinin saysız-hesabsız qətl, adam oqurluğu, mənzillərə, ayrı-ayrı şəxslərə silahlı basqınlar törətməsindən və onların uzun müddət cəzasız qalmasından bəhs edir.

Nəql olunan hadisələr cinayət işinin materiallarına, məhkəmənin qanuni qüvvəyə minmiş ittihamedici hökmünə, təqsirləndirilən, zərərçəkən şəxslərin, şahid ifadələrinə və işdə olan digər materiallara əsaslanmışdır.

Bu, uzun illər məhkəmə sistemində çalışmış təcrübəli hüquqşünas Vəkil Şükürovun sayca ikinci kitabıdır.

«Qara Kəmər» əməliyyatı son illərin hadisələrindən bəhs edən sənədli xronika olduğundan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978 - 9952 - 450 - 22 - 4

© Vəkil Şükürov, 2009

“Dövlət iki şeydən sarsıla bilər:
günahkar cəzasız qalanda və
günahsıza cəza veriləndə”

Ümummilli lider Heydər Əliyev

ÖN SÖZ

MTN-in «qara kəmər» əməliyyatı Hacı Məmmədovun onillik qara əməllərinə son qoydu

1988-ci ildən başlayaraq Azərbaycan Respublikasında hökm sürən hərc-mərclik, qeyri-sabitlik, hakimiyyət boşluğu və daxili çəkişmələr şəraitində Ermənistan hərbi birləşmələri Azərbaycan torpaqlarını bir-birinin ardınca işğal etməyə başladı.

Vətənin müdafiəsinə qalxan əsl vətənpərvərlərlə, könüllülərlə yanaşı, cəbhə bölgəsində ayrı-ayrı şəxslərə tabe olan başıpozuq çoxsaylı silahlı dəstələr, onların sırasında qənimət məqsədi güdən cinayətkar xislətli şəxslər də var idi. Axırıncılar cəbhədə rəsmi və qeyri-rəsmi əldə etdikləri silahları düşmənə deyil, öz xalqına qarşı çevirdilər. Onlardan biri Yevlax-Şəki bölgəsində «yevlaxlı Alik» kimi tanınan Əli Əliyev, xalası uşaqları «qara Vəli» kimi ad qazanan Vəli, Məhərrəm, qohumları Meydan və həmçinin Rəşid İsmayılov kimi cinayətkar banda üzvləri cəzasızlığını hiss edərək uzun müddət ayrı-ayrı şəxslərə, ticarət obyektlərinə, idarə və müəssisələrə silahlı basqınlar edirdilər.

Əli Əliyevin başçılıq etdiyi cinayətkar banda üzvləri qənimət ələ keçirmək məqsədi ilə törətdikləri ayrı-ayrı silahlı basqınlardan başqa, 14 nəfərin həyatına qəsd edir və nəticədə onlardan 8 nəfəri dünyasını dəyişir.



Yenicə müstəqillik qazanan Azərbaycan Respullikası 1992–95-ci illərdə də çətin günlərini yaşayırdı. 1993-cü ilin iyun-avqust hadisələri, Gəncə şəhərindəki gərgin vəziyyət, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart ayındakı dövlət çevrilişinə cəhd hadisələri buna əyani misaldır. Daha sonra Surət Hüseynovun, Elçin Əmiraslanovun silahlı dəstələri və Əlikram Hümbətovun «Talış Muğan Respublikası» yaratmaq xülyası Respublikada ictimai gərginliyi bir qədər də artırdı. Yaranan vəziyyətdən istifadə edərək kriminal qüvvələr də baş qaldırmağa başladılar və bir sıra böyük ictimai təhlükəli cinayətlər törətdilər. Elə həmin dövrdə xüsusi idarənin rəisi Ş. Rəhimov və Parlamentin sədr müavini A.Cəlilov da qətlə yetirildi.

Lakin bu dəfə cinayətkarlar uzun müddətə cəzasız qalmadılar. Azərbaycan xalqının Ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin qətiyyətli siyasəti sayəsində Respublikanın hüquq-mühafizə orqanlarının birgə səyi ilə həmin cinayətkarlar qısa müddətdə zərərsizləşdirilərək məhkəmə məsuliyyətinə cəlb olundu və layiqli cəzalarını aldılar.

Lakin həmin illərdə qonşu Rusiya Federasiyasının Çeçenistan Respublikasında baş verən məlum hadisələr və həmin dövlətin vətəndaşlarının Bakı şəhərinə, eləcə də Azərbaycan Respublikasının digər bölgələrinə kütləvi axını və onların çoxunun paytaxtda məskunlaşması kriminogen vəziyyətə təsir etməyə bilməzdi. Onların arasında olan bəzi cinayətkarlar yerli kriminal aləmin üzvləri ilə «işbirliyi» qurmağa başladılar. Elə bu vaxtlar Bakıda və şəhərətrafı kəndlərdə ayrı-ayrı şəxslərə silahlı basqınlar mərhələsi başlanır.

8 avqust 1994-cü ildə İlqar Əsədov, 13 dekabr 1994-cü ildə Binəli Allahyarov, 6 yanvar 1995-ci ildə Cəmil Kərimov və Mehman Əhmədov, 26 may 1995-ci ildə Sabunçu rayon polis idarəsi Mühafizə şöbəsinin əməkdaşları Kazım Həsə-

nov, Bəşir Abdullayev və Çingiz Şəbəndiyev, 29 iyul 1995-ci ildə isə Elmar Muradov silahlı basqınların qurbanına çevrilir və basqına məruz qalan zərərçəkənlər xəsarət alır. Binəli Allahyarov aldığı xəsarətdən dünyasını dəyişir. Digərlərinin isə əmlakı əllərindən alınır. Əməliyyat-axtarış tədbirləri həyata keçirilsə də, istintaq aparılsa da, bu cinayətlərin üstü açılmır, cinayətkarlar ifşa olunmur, onlar cəzasız qalırdılar.

Törətdikləri cinayətlərə görə cəza almayacaqlarına arxayın olan bu şəxslər cinayətkar fəaliyyətlərini davam etdirir və bundan sonra adam oğurlayıb onların yaxınlarından külli məbləğdə pul almaq istiqamətində fəaliyyət yoluna qədəm qoydular.

19 sentyabr 1995-ci ildə Nazim Paşayev və Natiq Abbasov, 27 fevral 1996-cı ildə Elşən Həsənov, 5 avqust 1996-cı ildə İlham Qədimzadə, 4 noyabr 1996-cı ildə Cavid Manafov, 10 fevral 1997-ci ildə Ülvan Bağırov, 29 mart 1997-ci ildə Ələddin Salayev, 2 sentyabr 1997-ci ildə Əhməd Məmmədov silahlı basqına məruz qalaraq oğurlanırlar.

Bunlarla kifayətlənməyən cinayətkarlar 29 oktyabr 1997-ci ildə Tərlan Abdullayevi, 26 fevral 1999-cu ildə Zeynalabdin Babayevi, 6 dekabr 1997-ci ildə Tofiq Hüseynovu, 12 yanvar 2000-ci ildə Oqtay Babayevi, 4 noyabr 2000-ci ildə Çingiz Yaradanquliyevi, 9 noyabr 2000-ci ildə Murad Kazımovu və 6 mart 2003-cü ildə isə Məcid Məmmədovu oğurlayırlar.

Bu qədər adamın oğurlanması və sonralar bəzilərinin qohumlarından küllü məbləğdə pul alınaraq müəmmalı şəkildə azad edilməsi, cinayətkarların şəxsiyyətlərinin müəyyən edilməməsi, onların zərərsizləşdirilməməsi və son nəticədə yenə də cəzasız qalmaları cəmiyyətdə gərginliyi gücləndirir və hər bir vətəndaş özünün və yaxınlarının təhlükəsizliyindən narahat olmağa başlayır. Cəzasızlıq nəticəsində cinayətkar-

lar daha da fəallaşır və onların yolunda durmaq istəyənləri aradan götürmək və ifşa olunmamaq üçün törətdikləri cinayətlərin izini itirmək məqsədi ilə qurbanlarına qətl metodu tətbiq etməyə başlayırlar.

18 dekabr 1998-ci ildə Dilbər Novruzova, Ruslan Ukuşev və Boris Ayyubov, 10 fevral 2000-ci ildə Mehman Səmədov, 28 mart 2000-ci ildə Novruz İsmayılov, 21 iyun 2000-ci ildə Azər İsmayılov, 13 mart 2002-ci ildə Rövşən Əliyev və 14 iyun 2004-cü ildə Fətulla Hüseynov qətlə yetirilir.

Hüquq-mühafizə orqanları tərəfindən hər bir konkret halla bağlı fakta görə cinayət işləri başlanılsa da, əməliyyat-axtarış tədbirləri keçirilib, istintaq hərəkətləri aparılsa da, bəzi versiyalar ətrafında fikirlər cəmləşsə də, yenə də son nəticədə cinayəti törədənlər müəyyən edilmədiyinə görə cinayət işlərinin istintaqı dayandırılırdı. Bundan istifadə edən və uzun müddət cəzasız qalan cinayətkarlar da hər dəfə cinayətkar fəaliyyətlərində bir dəyişiklik edirlər.

Hüquq-mühafizə orqanları əməkdaşlarının çoxsaylı açılmayan cinayət işlərinin əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə intensiv məşğul olduqları bir vaxtda, yəni 10 fevral 2005-ci ildə cinayətkarlar sonuncu dəfə Zamirə Hacıyevanı da oğurlayırlar.

Həmin vaxta kimi cinayətkarlar ayrı-ayrı vətəndaşlara silahlı basqın edib küllü məbləğdə pul almaq məqsədi ilə onları oğurlayıb və ya qətlə yetirilərkən zərərçəkən tərəfdə əsasən kişilər olurdu. İndi isə onlar kriminal fəaliyyətlərinin səmtini dəyişib cinayətkar qəsdlərini qadınlara qarşı yönəltməklə daha təhlükəli bir hərəkətə əl atırlar.

1994-cü ildən bəri davam edən silahlı basqınlar, adam oğurluqları və çoxsaylı qətl hadisələri ciddi bir məsələyə çevrildiyinə və cəmiyyətdə geniş rezonans doğurduğuna görə 2005-ci ildə nəhayət dövlət başçısı işə qarışır. Z.Hacıyevanın

və digər adam oğurluğu, onlarla bağlı qətl hadisələrinə dair işlərin əməliyyat-axtarış tədbirləri və istintaqının operativ surətdə təşkil olunması məsələsi yaranan vəziyyətlə əlaqədar yenidən nəzərdən keçirilir.

Milli Təhlükəsizlik Nazirliyinin son vaxtlar yeni yüksəliş, təkmilləşmə və peşəkarlıq dövrünü yaşaması, milli maraqların və təhlükəsizliyin təmin olunması üzrə görülən qətiyyətli tədbirlər nəzərə alınaraq Z.Hacıyevanın oğurlanması işi həmin nazirliyə tapşırılır.

Bütün qüvvə və imkanları səfərbər edən MTN Z.Hacıyevanın oğurlanması işinin üstünün açılmasına bir aydan da az vaxt sərf edir. Həmin nazirliyin əməkdaşları nazir Eldar Mahmudovun bilavasitə rəhbərliyi ilə bir gecədə yüksək peşəkarlıqla hazırlanan və eyni vaxtda müxtəlif istiqamətlərdə Respublika Baş Prokurorluğu ilə birlikdə keçirilən «Qara Kəmər» şərti adı altındakı əməliyyatla Z.Hacıyeva cinayətkarların girovluğundan heç bir xətər almadan azad edilir. İctimai təhlükəli «cinayətkar birlik» zərərsizləşdirilir, əksər üzvləri həbs edilir və böyük həcmdə silah-sursat ələ keçirilir.

Bu uğurlu əməliyyat nəticəsində 10 ildən artıq bir müddətdə davam edən, lakin açılmamış qalan silahlı basğınlar, adam oğurluqları, qətl cinayətlərinin təşkilatçıları, himayəçiləri və üzvlərinin şəxsiyyətləri məlum olur.

Kitabın müəllifi Vəkil Şükürov uzun illər respublikanın rayon məhkəmələrinin hakimi və sədri, 14 ilə yaxın Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü, Ağır Cinayətlərə dair İşlər Üzrə Azərbaycan Respublikasının hakimi işləmişdir. Hacı Məmmədov və onun banda üzvlərinin məhkəmə proseslərini diqqətlə izləyən Vəkil Şükürov bir hakim kimi, yaradıcı bir insan kimi dövlətçiliyimizə zərbə vuran bəzi cinayətkar vəzifəli şəxslərin və ünsürlərin iç üzünü açıb ifşa etməklə, eyni zamanda MTN-in «Qara Kəmər» əməliy-

yatının bütövlükdə cəmiyyətə faydasını təlqin etməyə çalışmışdır.

Sənədli xronika janrında işlənmiş bu kitabda hadisələr və personajlar öz adı, ünvanı və dəqiq tarixi ilə göstərilir. Kitabda mətbuatda dərc olunmayan və ictimaiyyətin bilmədiyi bir çox məqamlar açılır.

«Qara Kəmər» əməliyyatı milli təhlükəsizlik orqanları əməkdaşlarının öz peşə bayramlarına, bu qurumun yaranmasının 90 illik yubileyinə peşəkar və nümunəvi töhfələrdəndir.

İlqar Quliev, yazıçı-jurnalist

«Qarabulaq» Qara əməllər məskəni

Hacı Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində 1977-ci ildən işə başlayıb. Nazirliyin aparatına keçməmişdən əvvəl Abşeron rayon DİŞ-də müxtəlif işlərdə, o cümlədən, növbətçi baş inspektor vəzifəsində çalışıb. 1995-ci ilin mayında isə vəzifəsi yüksəldilərək Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi aparatında əvvəlcə Baş Cinayət Axtarışı İdarəsində əmlak cinayətlərinə qarşı mübarizə şöbəsinə əməliyyat müvəkkili, bir neçə aydan sonra isə baş əməliyyat müvəkkili təyin olunub.

1995-ci ildə Hacının atası vəfat edir. Həmin vaxta kimi o, müxtəlif gəlir növlərindən kifayət qədər vəsait toplaya bilmişdi. Atasının vəfatından sonra o, həmin əmlakı atasından qalan əmlak adı ilə ondan istifadə etməyin yollarını axtarır. Belə qənaətə gəlir ki, o, artıq respublikanın ən hörmətli nazirliyinin əməkdaşıdır, yaxşı mövqedədir, kifayət qədər dost-tanışı var. Lazımi yerlərdə sözü keçəcək və onun hər bir istəyinə hörmətlə yanaşılacaqdır. Yaranan şərait onun arzu və istəklərini daha asan, daha rahat reallaşdırmasından xəbər verirdi. O, elə bir fəaliyyət sahəsi seçmək istəyirdi ki, oraya az pul qoyub, daha çox gəlir əldə edə bilsin.



Onun Daxili İşlər Nazirliyinə işə gəldiyi həmin illərdə respublika keçid

dövrünü yaşayırdı. Azərbaycan Respublikası yenicə müstəqillik əldə etmişdi. Bütün fəaliyyət sahələri üçün işgüzar mühit yaranmaqda idi. Sovet dövrünə xas olan çoxsaylı yasaqlar yox idi. Artıq heç kimi partiya cəzası gözləmirdi. Hər bir şəxs istədiyi fəaliyyət sahəsi ilə məşğul olmaqda sərbəst və azad idi.

Hacı Məmmədov da bu imkandan faydalanmaq istəyirdi. Odur ki, o, ilk vaxtlar üçün dövlət işi ilə yanaşı geniş fəaliyyət sahəsinə çevrilən bizneslə də məşğul olmağı lazım bildi. Lakin bu fəaliyyət sahəsi ilə məşğul olmağa ona yalnız qanun mane olurdu. Qanunun tələbinə görə bəzi kateqoriyadan olan işçilərin, o cümlədən, hüquq-mühafizə orqanları əməkdaşlarının kommersiya fəaliyyəti ilə məşğul olması yolverilməz hal hesab olunurdu. Lakin Hacının bu barədə narahatçılığı yox idi. Ona görə ki, o, özünü işlədiyi nazirliyin yaxşı mövqedə duran əməkdaşı hesab edirdi. Fikirləşirdi ki, nazirlikdə işləməklə və lazımi insanlarla ümumi dil tapmaqla hər cür qadağalardan yan keçməyə ona imkan yaranacaqdır.

Belə də oldu. Hacı Məmmədov fikrini artıq dəqiqləşdirdi. Həmin dövrdə Bakı şəhərində dəbdəbəli şadlıq evləri, restoranlar, kafelər açmaq işi dəbdə idi. İmkanlı insanlar öz vəsaitlərini ilk öncə daha çox gəlir gətirən bu sahələrə sərf edirdilər. Onların arasında hüquq-mühafizə orqanı əməkdaşları da az deyildi. Lakin əksər hallarda onlar sovet dövründə olduğu kimi yaratdıqları obyektləri yaxın adamlarının adına sənədləşdirirdilər ki, onların adları hər yerdə hallanmasın. Hacı Məmmədov üçün də bu, problem yaratmırdı. Ona görə də o, əlində olan vəsaitlə restoran açmaq qərarına gəldi. Lakin restoranı Bakı şəhərində yox, gözdənuzaq və daha əlverişli yerdə açmaq üçün məkan axtarırırdı. Belə bir yer Azərbaycanın şimal bölgəsində Qusar rayonu oldu. Qusarın təmiz dağ havası, səfalı və mənzərəli təbiəti, digər rayonlara nisbətən Bakı şəhərinə yaxın olması və Rusiyaya gedən İpək yolunun üstündə yerləşməsi Hacı Məmmədovun diqqətini cəlb edirdi. Yay aylarında Böyük Qafqaz sıra dağlarının ətəyində olan

Quba-Qusar rayonunun ərazisi Bakı və digər bölgələrin sakinlərinin sərinləşmək və istirahət etmək istədikləri ən yaxşı məkan idi. Qusar rayonunun Qayakənd kəndi və onun ərazisi bu sahədə daha çox seçilirdi. Onun seçimini yerli orqanlar dərhal təmin etdilər. O, heç bir çətinlik çəkmədən ilk vaxtlardan «Qarabulaq» yeməkxanası, daha sonra Malik Məmmədov və qeyriləri ilə birlikdə qeyri-rəsmi arvadı Nailə Quliyevanın adına «Qarabulaq» Məhdud Məsuliyyətli Cəmiyyət təsis edir. Həmin ərazini getdikcə genişləndirir. Əslində özünəməxsus, lakin oğlu Teymur Məmmədovun adına rəsmiləşdirərək Qayakənd kəndinin qərb hissəsində 5,200 kv.m. torpaq sahəsinə sahib olur. Həmin adda istirahət, sağlamlıq və idman mərkəzi yaratmaqla ərazidə 34 bağ təsərrüfat sahəsinə rəhbərlik edir.

O, burada təkcə özü üçün deyil, həm də gələcəkdə ona lazım olacaq idarə rəisi Zakir Nəsirovun oğlunun adına rəsmiləşdirilən bağ evi tikdirir. Həmin mərkəzin təsərrüfat fəaliyyətinə rəhbərliyi həyata keçirmək məqsədi ilə gələcək cinayətkar dəstənin fəal üzvləri olan Qusar rayon sakinlərindən Malik Məmmədov, Yagir Məmmədov və Zakir Nəsirovun qohumu İbrahim Bağırovu işə götürür.

Qısa müddətdə Hacı Məmmədovun tikdirdiyi istirahət mərkəzinin adı məşhurlaşır və oraya insan axını başlanır. Oraya təkcə adi adamlar deyil, işlədiyi nazirliyin vəzifəli və yüksək rütbəli şəxsləri, digər orqanların hörmətli adamları, elm və incəsənət adamları, tanınmış müğənnilər istirahətə gəlirlər. Bu insanlar öz gəlişləri ilə Hacı Məmmədova hörmət etdiklərini bildirirlər. İlk baxışda polkovnik-leytenantın davranışı, lazımi adamlara qiymətli hədiyyələr verməsi və digər xidmətləri onun özünə lazım olan hörmət qazandırır. Onun daxili aləmindən xəbərsiz olan insanlar sahibkar-polis barəsində tərifl ər, sağlıqlar deməyə başlayırlar.

Təbiətin bu gözəl məkanından Hacı Məmmədov təkcə hörmətli və tanınmış şəxslərin, adi insanların istirahət yeri

kimi istifədə etmədi. O, əslində buradan gələcək bəd əməllərini reallaşdıracaq yer kimi istifadə etmək niyyətində idi.

Qısa müddətdə «Qarabulaq»dakı biznesi Hacıya kifayət qədər gəlir gətirirməyə başladı. Lakin bu, onu qane etmirdi. Gizli sahibkarın gözündə bu heç nə idi. Sel kimi gələn gəlirlər onun nəfsini söndürmürdü. İştahası günbəgün artmaqda idi. O, daha çox var-dövlətə, sərvətə sahib olmaq niyyətində idi. Əlavə vəsait sərf edib yeni-yeni kommersiya obyektləri yaratmaq istəmirdi. Bu, artıq xərc tələb etməklə baha başa gəlirdi, əziyyətli idi. Odur ki, hər hansı əlavə sərmayə qoymadan, asan yollarla küllü məbləğdə pul qazanmaq yolları barədə düşünür və yeni-yeni planlar qururdu.

Hacı Məmmədovun düşüncələri özünü çox da gözlətmədi. Onun fikirləri ilə yaranan planlar xeyirxah və ya öz xalqına, dövlətinə xidmət edəcək, dövlətin mövcud qanunlarına əməl olunacaq planlar olmadı. Əksinə bu, deyilənlərin üstündən qara xətt çəkən və mənsub olduğu dövlətin imicinə ağır zərbə vuran, xidmət etdiyi nazirlikdə and içdiyi «Polis Haqqında» Qanunu pozan bir plan oldu.

O, yaşadığı dövlətin imkanlı adamları və ya onların yaxın qohumlarını oğurlayıb həmin şəxsləri gizli saxlanc yerlərində saxlamaqla, öldürəcəyi ilə hədələməklə şikarlarının azad edilməsi üçün küllü məbləğdə yaxınlarından pul almaqdan ibarət oldu. Lakin Hacı bilirdi ki, belə planları həyata keçirmək tək adamın işi deyil. Bunun üçün millətindən və ya hansı dövlətin vətəndaşı olub-olmamasından asılı olmayaraq öz ətrafına sadiq və ona sözsüz itaət edəcək adamlardan ibarət etibarlı dəstə toplamalı idi.

Həmin dövrdə Çeçenistan Respublikasında baş verən məlum hadisələrlə bağlı yaşamaq üçün Bakı şəhərinə çoxlu çeçenlər pənah gətirmişdi. Onların arasında narahat şəxslər, cinayətə meyilli ünsürlər də az deyildi. Bəziləri artıq 1993–1994-cü illərdə Bakı şəhərində bir sıra oğurluq və silahlı quldurluq cinayətləri törətmişdilər. Bu cinayətkar ünsürlərin

bəzi fəalları olan Husain və Sidek Abdulvahabov qardaşları, Şirxan Albiyev, Aslanbek Çintamirov və qeyriləri Hacı Məmmədovla əlaqə saxlayır və bir yerdə yeyib içirdilər.

1995-ci ilin yay aylarında Hacı çeçenlərlə əvvəlcə Bakı şəhərindəki evində, şəhər ətrafındakı ona məxsus, lakin anası Almaz Məmmədovanın adına qeydiyyata alınmış Saray qəsəbəsindəki bağ evində görüşürdü. Sonradan görüş yeri Qusar rayonunun Qayakənd kəndi ərazisində olan «Qarabulaq» istirahət mərkəzində baş tuturdu. Bu məclisdə Sidek Abdulvahabov, onun qardaşı Husain, Hacının şəhərdəki evində yaşayan Şirxan Albiyev və digərləri ən əziz qonaq hesab olunur, müntəzəm olaraq görüşlərini davam etdirirdilər.

Həmin görüşlərdə Hacı Məmmədov artıq adam oğurlamaq barədə fikirlərini yavaş-yavaş onlara eşitdirməyə başlayırdı. Bu yolla o, çeçenləri yaratmaq istədiyi cinayətkar dəstənin formalaşdırılmasına hazırlayırdı.

Hacının ehtiyatla səsləndirdiyi ideya çeçenlər üçün gözlənilməz olmadı. Sidek Abdulvahabov, Şirxan Albiyev Hacının hər bir söz-söhbətindən, həyat tərzindən artıq başa düşürdülər ki, sahibkar-polis də onların yol yoldaşıdır. Lakin başqa dövlətin vətəndaşı olduqlarına görə, bir də ki, Hacı Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəsmi məsul işçisi və zabiti olmasına görə ehtiyatlanıb öz fikirlərini açıq bildirmirdilər və elə güman edirlər ki, Hacı Məmmədov bəlkə də onları sınayır və onlardan söz çəkmək istəyir.

Həmin şəxslər hələ 1994-cü ildə Rusiyadan Azərbaycan Respublikasına gələndən az sonra Bakı şəhərində Husain Abdulvahabovun rəhbərliyi ilə cinayətkar dəstə yaradıb, bir çox cinayətlər törətmişdilər.

8 avqust 1994-cü ildə Sidek və Husain qardaşları, Aslanbek, Albert, Osman, İsa, Alı, Nicat İsmayılov cinayətin istiqamət verəni Hacıqabul Rayon Hərbi Komissarının köməkçisi işləyən Elşən Mirzəyevin köməyi ilə İraq dövlətinin Bakıdakı səfirliyi qarşısında İlqar Əsədov adlı şəxsə silahlı

basqın edib, onun 40 min ABŞ dolları məbləğində pulunu ələ keçirmişdilər.

1994-cü il dekabrın 13-ü tarixində də çeçenlər Binəqədi rayon polis şöbəsinin əməkdaşı mayor Ədalət Əsədullayevin iştirakı ilə Abşeron rayonunun Mehdiabad qəsəbəsində yaşayan Binəli Allahyarovun evinə silahlı basqın edərək ev sahibinə ağır dərəcəli bədən xəsarətləri yetirməklə, ailə üzvlərini döyüb evdən xeyli miqdarda qızıl-zinət və digər əşyaları ələ keçirib öz aralarında bölmüşdülər. Sonradan ev sahibi Binəli aldığı xəsarətdən dünyasını dəyişmişdi.

1995-ci ilin 6 yanvar tarixində cinayətkar dəstə yenə də Elşən Mirzəyevin planı ilə Bakı şəhəri 3-cü mikrorayon ərazisində yerləşən evlərin birinə gələrək evin girəcəyindəcə silahlı basqın etməklə Mehman Əmirov və Cəmil Kərimov adlı şəxslərə Rusiyadan göndərilən 100 min ABŞ dolları məbləğində pulu ələ keçirmiş, onu da öz aralarında bölüşdürmüşdülər.

Ən nəhayət, həmin il may ayının 26 da banda üzvləri cinayətkar fəaliyyətlərini davam etdirərək Bakı şəhəri Bakıxanov qəsəbəsi Sabunçu rayon Polis İdarəsinin Mühafizə şöbəsinin polis əməkdaşı Həsən Kazımova silahlı basqın edərək «TT» markalı tapançadan ona atəş açmaqla yaralamışdılar.

Xeyli vaxt keçsə də bu cinayətlərin heç birinin izinə düşmək mümkün olmayıb. Xidməti işinə görə özü cinayətkarlara qarşı mübarizə aparmalı olan və çiynində dövlətin paqonunu gəzdirən Hacı Məmmədov kimilərin cinayətkar meyilli şəxslərlə birgə cinayət birliyinə girmələri həmin cinayətlərin açılma ehtimallarını xeyli çətinləşdirirdi.

Elə buna görə də törədilən cinayətlərdən zərərçəkən insanların qohumlarının ümidləri «ümid» olaraq qalırdı. Adamlar inana bilməzdilər ki, özlərinə, əmlaklarına, hüquq və azadlıqlarına qəsd olarkən dərhal köməyə çağırdıqları dövlətin əsas güc nazirliyinin birində işləyən Hacı Məmmədov və ya onun digər həmfikirlərinin özləri onların yaxınlarını oğurlayır və qətlə yetirirlər.

Hacı Məmmədov özünün yaratdığı cinayətkar dəstəni Şirxan Albiyev, Sidek, Husain Abdulvahabov qardaşları, Aslanbek Çintamirov və qeyrilərinin əvvəlcədən mövcud olan cinayətkar dəstəsi ilə birləşdirib vahid cinayətkar cəbhədə iştirak etmək fikrinə düşür. Bu təkliflə onlarla cinayət əlaqəsinə girir. Milliyyətcə çeçen olan cinayətkar dəstənin üzvləri Hacı Məmmədovun təklifini məmnuniyyətlə qəbul edirlər. Hacı Məmmədovun bu təklifi onlara heç də qəribə görünmürdü. Ona görə ki, çeçenlər onsuz da mənsub olduğları Rusiya dövlətində də narahat insanlar olmuşdular. Azərbaycana gələn cinayətkar dəstə üzvləri pənah gətirdikləri dövlətdə zəhmətlə məşğul olub yaşamaq əvəzinə asan pul qazanmaq yolunu yalnız bir şeydə – silahlı basqınlar edib özgə əmlakını ələ keçirməkdə görürdülər.

Şirxan Albiyev, Sidek Abdulvahabov, Aslanbek Çintamirov, Husain Abdulvahabov və digər çeçenlər Hacı Məmmədovun birgə cinayətkar ittifaqı barədə təklifindən sonra öz fəaliyyətlərini daha da genişləndirməyə başladılar. Onların fəallaşması üçün geniş imkanlar yarandı. Artıq onların sabit cinayətkar təşkilatı yaranırdı. Arxaları möhkəmlənirdi. Texniki və təşkilati cəhətdən də güclənən cinayətkar birlik silahsursatla, nəqliyyatla, rabitə ilə təmin edilir və onlar üçün gizli görüş yerləri yaranırdı. Bu cinayətkar birliyin tərkibinə təkcə sıravi üzvlər deyil, hüquq-mühafizə orqanlarının əməkdaşları da daxil idi. Bununla da həmin birlik Hacı Məmmədovun rəhbərliyi altında böyük ictimai təhlükəli cinayətkar bir təşkilata çevrilirdi.

Lakin cinayətkar birliyi yaratmaqla Hacı kifayətlənmədi. Gələcəkdə daha nüfuzlu, hörmətli və yüksək rütbəli adamların oraya cəlb edilməsini istəyirdi. Hər şeyi qabaqcadan yüz ölçüb-biçib bu qənaətə gəlmişdi ki, törədəcəkləri cinayətlər səs-küylü də ola bilər. Belə yerdə qabaqlayıcı tədbirlər görmək üçün yüksək rütbəli şəxslərin məlumatlarına, yardımlarına ehtiyac yarana bilər ki, onlardan da istifadə etmək olar.

Çox keçmir ki, Hacı Məmmədov bu istəyinə də nail olur.

1995-ci ilin yayında Ukrayna Respublikasının Donetsk şəhərində Müstəqil Dövlətlər Birliyi xətti ilə cinayət axtarış orqanlarının əmlak cinayətlərinə qarşı mübarizə ilə əlaqədar tədbir keçirilirdi. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyini bu tədbirdə həmin nazirliyin əmlak cinayətlərinə qarşı mübarizə idarəsinin şöbə rəisi Kamil Sədrəddinov və həmin şöbənin baş əməliyyat müvəkkili Hacı Məmmədov təmsil edirdi. Ezamiyyət vaxtı onlar tədbirlərdə birgə iştirak edirdilər. Birlikdə şəhərin görməli yerlərini gəzib, bir yerdə yeyib-içir və həmçinin birgə də istirahət edirdilər. Artıq onların bir-birləri ilə müxtəlif mövzularda söhbətləri olurdu. Sahibkar-polis hər vasitə ilə çalışırdı ki, rəisilə törədəcəyi cinayətlərlə bağlı söhbətlər aparsın, bununla da onun daxili aləmindən xəbər bilsin.

Elə də olur. Onların eyni əqidənin sahibi olması çox çəkmir. Hacı daha rəisi ilə işçi kimi deyil, açıq-açığına bir cinayətkar yolun yolçusu kimi, öz bərabəri kimi davranaraq qəlbindəki niyyətləri reallığa çevirməyə başlayır.

Beləliklə, Hacı Məmmədov öz rəisini rəhbərlik etdiyi cinayətkar birliyə cəlb etməyə nail olur. Ona imkanlı adamları və ya onların yaxın qohumlarını oğurlayıb, gizlin saxlanc yerlərində saxlayıb, onlardan küllü məbləğdə pul aldıqdan sonra buraxmaqla yaxşıca qazanc əldə etmək fikrini təklif edir. Xatircəmlik üçün bildirir ki, işi görənlər tamamilə başqa insanlar olacaq. Onların adı heç bir yerdə çəkilməyəcək və heç kimsə də şübhələnməyəcək. Bir neçə gündən sonra sahibkar-polis sevincək internasional mobil dəstənin hazır olmasını Sədrəddinova söyləyir və fəaliyyətə başlamaq üçün onun göstərişini gözləyir. Kim külli məbləğdə pul qazanmaq istəyirsə, onun dəstəsinin üzvü ola bilər. Kamil Sədrəddiniov «külli məbləğdə pula sahib olmaq» ifadəsini çoxdan gözləyirmiş kimi bu hərəkətlərin nə ilə nəticələnəcəyi ilə maraqlanmadan dərhal razılığını bildirir. Bundan əlavə o, daha qabağa gedir və Hacı

Məmmədovun işini yüngülləşdirmək məqsədilə adam oğurluğuna başlayanda birinci namizədi onun özü verəcəyini bildirir.

Hacı Məmmədov artıq dörd aya yaxın idi ki, nazirliyn işçisi hesab olunurdu. Öz xidməti işi üçün o qədər çalışmasa da, yaratdığı cinayətkar birliyi tam formalaşdıra bilmişdi. Burada əhəmiyyətli fiqurlardan biri onun qeyri-rəsmi arvadı Nailə Quliyeva idi. Bandanın bir hissəsi hələ 1994-cü ildə Husain Abdulvahabovun başçılığı ilə bir neçə cinayət törətmişdilər. Bilavasitə Hacının rəhbərlik etdiyi 19 sentyabr 1995-ci il tarixdəki birinci adam oğurluğuna kimi olan dövrdə həmin «cinayətkar birlik»də şəxsiyyətləri məlum olan 13 nəfər var idi. Onların ən fəalları təşkilatçı kimi Hacı Məmmədovun özü, qeyri-rəsmi yaşadığı arvadı Nailə Quliyeva, polis əməkdaşları Eldar Rəhimov, Ədalət Əsədullayev, polis polkovniki Kamil Sədrəddinov, milliyətcə çeçen olan Musa Dabuyev, Aslanbek Çintamirov, Husain və Sidek Abdulvahabov qardaşları və qeyriləri idi. Digərləri isə 1996-2004-cü illərdə cinayətkar birliyə cəlb olunmuşdular. Hacı Məmmədovun başçılıq etdiyi cinayətkar birliyin tərkibində ayrı-ayrı əməliyyatlarda şəxsiyyətləri tam aydınlaşmayan milliyyətcə çeçen olan xeyli, o cümlədən, İsa, Albert, Əhməd, Osman, Rizvan və Ramazan adlı şəxslər də iştirak edirdilər. Həmin şəxslər ayrı-ayrı əməliyyatlarda cinayətin icraçısı kimi tapşırıqları icra edirdilər. Cinayətkar birliyin daimi üzvlərinin isə hər birinin vəzifələri vardı. Hacı Məmmədov onların arasında vəzifə bölgüsü aparmışdı.

Kamil Sədrəddinovun məqsədi imkanlı adamlar barədə sifarişlər verməklə yanaşı, əsasən, Hacı Məmmədovun cinayətkar fəaliyyətlə məşğul olması üçün sərbəst şərait yaratmaq idi. Böyük rəislə şöbə rəisi Hacının adını pul cədvəllərində saxlanmaqla yanaşı həmin cinayətkar dəstə tərəfindən törədilən cinayətlərlə əlaqədar yerli polis şöbələrində əməliyyat-axtarış xətti ilə görülən işlərin məlumatını toplayıb sahibkar-

polisə vermək və dara düşdükdə səlahiyyətlərindən istifadə edib onlara arxa durmaq idi.

Şirxan Albiyev, Husain Abdulvahabov və sonradan cinayətkar birliyə cəlb edilən Elçin Əliyev isə imkanlı adamlar axtarışı ilə məşğul olurdular.

Əmisi oğlu Fərhad Məmmədbəyovun və sonrakı ili cinayətkar birliyə cəlb olunan Nizami Abdullayevin və o cümlədən, Hacı Məmmədovun özünün də oğurlanan adamların qohumları ilə əlaqəyə girib tələb olunacaq məbləğlər barədə danışıqlar aparmaq, pulu verdikdə həmin pulları almaq və bilavasitə adam oğurluqlarında iştirak etmək vəzifələri var idi.

Dəstənin arasında önəmli fiqur olan Nailə Quliyeva şəxsi yaşadığı evini oğurlanan şəxslərin saxlanması üçün bunker kimi istifadəyə verməklə yanaşı, orada saxlanan girovlar üçün yemək hazırlamaq, cinayət törətməyə gedən kişilər üçün qadın paltarları tikib hazırlamaq və onları makiyaj etmək kimi işləri də yerinə yetirirdi.

Qusar rayonunun Qayakənd kəndindəki «Qarabulaq» istirahət mərkəzinin ərazisində qətlə yetirilənlər üçün çalalar qazmaq, meyitləri basdırmaq, həmçinin orda olan təsərrüfatı idarə etmək, ailəsinə sürücü kimi xidmət etmək Yagir Məmmədov və Rövşən Ağayevin vəzifəsi idi. Cinayətkar birliyin digər üzvləri isə konkret işlərdə Hacı Məmmədovun birbaşa göstərişlərini yerinə yetirirdilər.

1995-ci ilin may ayından sentyabr ayının ortalarına kimi Hacı Məmmədov cinayətkar birliyin fəaliyyətində adam oğurluğu ilə bağlı hazırlıq işlərini tam başa çatdırır və həmin ayın ikinci yarısından isə planlaşdırdığı cinayət əməllərinin aktiv icrasına başlayır.

Günahsızların qətlinə buludlar da ağladı

1995-ci il sentyabr ayının əvvəlləri olardı. Kamil Sədrəddinov və Hacı Məmmədovun Çeçenistan Respublikasının rayonlarının birində milis rəisinin müavini işləmiş və həmin respublikada baş verən məlum hadisələrlə əlaqədar Azərbaycana pənah gətirən Şirxan Albiyevlə növbəti görüşləri olur. Həmin vaxtdan Şirxan Albiyev Hacı Məmmədovun Bakı şəhərinin mərkəzində anasının adına aldığı evdə yaşayırdı. Həmin görüşdə onlar əsasən bir qədər əvvəl yaratdıqları cinayətkar birliyin işinin gedişindən söhbət edirlər.



Xeyli söhbətdən sonra Hacı Məmmədov əsas məsələyə qayıdır və cinayətkar birliyin fəaliyyəti, işin gedişi barədə Kamil Sədrəddinova məruzə edir ki, dəstə üzvlərini artıq formalaşdırıb, verilən hər bir tapşırığı yerinə yetirməyə hazırdır. Dəstə üzvlərinin hər hansı tapşırığın öhdəsindən gəlməsi üçün artıq nəqliyyat və rabitə vasitələrinin də əldə olunmasını söyləyir. Kifayət qədər müxtəlif növdə silahları, döyüş sursatı, lazımi sayda qandalları, maskaları, gizlin saxlanc yerləri də yerli-yerindədir. Oğurlanacaq adamları saxlamaq, onların mühafizəsini təşkil edəcək və yeməyini hazırlayacaq adamları, hətta lazım gələrsə cinayətlərin izini itirmək məqsədilə qətlə yetirəcəkləri adamların meyitlə-

rini basdıracaqları əraziləri də dəqiqləşdirirlər. Dəstə üzvlərini hərəkətə gətirmək vaxtı artıq yetişibdir. Təkcə imkanlı adamları axtarıb tapmaq, onların dairəsini dəqiqləşdirmək, iş və yaşayış yerlərini, hərəkət marşrutlarını müəyyənləşdirmək qalıbdır. Kamil Sədrəddinov cinayətkar birliyin fəaliyyətə başlaması üçün Hacının yaxşı işləməsini, qısa müddətdə çoxsaylı məsələləri həll etməsi barədə gördüyü işləri yüksək qiymətləndirir və ondan razı qaldığını bildirir.

Hələ Donetsk şəhərində olarkən Kamil Sədrəddinov bildirmişdi ki, imkanlı adamları oğurlamağa başlayanda birinci «navodka»nı məhz onun özü verəcəkdir. Elə də olur. Kamil Sədrəddinov bildirir ki, o, bir nəfər imkanlı şəxs tanıyır. Həmin şəxsin çoxlu pulu var və onu oğurlamaqla qohumlarından nə qədər istəsələr, o qədər də pul almaq mümkün olacaqdır. Həmin imkanlı şəxsin qardaşı da onunla birlikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində işləyir. Hər gün bir-biri ilə görüşürlər və hətta onunla bir kabinetdə oturur.

Həmin şəxs «Azərmebelsənaye» Konserninin prezidenti Nazim Paşayevdir. O, adam həddindən artıq imkanlıdır. Birinci ondan başlamaq lazımdır ki, maddi durumlarını qaydaya sala bilsinlər. Onu oğurlayıb, qohumlarından küllü məbləqdə pul almaq olar. Məsləhət görür ki, xırda-xuruşla kifayətlənmək lazım deyil. İş görürlərsə, imkanlı adam oğurlanırsa, küllü məbləğdə də onlardan pul almaq lazımdır ki, itirdikləri vaxta və çəkilən əziyyətə dəysin.

Hacı Məmmədov Kamil Sədrəddinovun razılığını aldıqdan və dəstəyinə arxayın olduqdan sonra Nazim Paşayevin oğurlanması planını işləməyə başlayır. Bunun üçün o, Nazim Paşayevin hərəkət etdiyi marşrutu və işə gedib-gəldiyi vaxtın öyrənilməsini banda üzvlərindən Husain və Sidek Abdulvahabov qardaşlarına, Aslanbek Çintamirova və Bakı şəhər Nərimanov rayon mühafizə idarəsində növbətçi baş inspektor vəzifəsində işləyən Eldar Rəhimova tapşırır. Husain Ab-

dulvahabova isə əlavə olaraq Nazim Paşayev oğurlandıqdan sonra həm də onu yol boyunca müşayiət etmək tapşırığını verir. Bir müddət həmin çeçen millətindən olanlar, o cümlədən, dəstə üzvləri Nazim Paşayevin işə gəldiyi və evə getdiyi marşrutu dəqiqliyi ilə öyrənirlər.

Bütün bu planları işləyib tamamladıqdan sonra Hacı vəziyyət barədə bir gün qabaq Kamil Sədrəddinovu məlumatlandırır. Ona deyir ki, əməliyyatı 19 sentyabr 1995-ci ildə iş vaxtı qurtardıqdan sonra həyata keçiriləcəkdir. Kamil Sədrəddinov həmin sifarişi özü verdiyi üçün etiraz etmir. Hacı Məmmədov Kamil Sədrəddinovdan adam oğurluğu barədə əməliyyatı «başlamaq olar» deyə qəti razılığını aldıqdan dərhal sonra banda üzvlərini hazır vəziyyətə gətirərək onlara qabaqcadan şərtləşdirilmiş axırıncı tapşırığını verir və lazımi qaydada təlimatlandırır və xatırladır ki, onların bütün hərəkətləri dəqiq olmalıdır. Hər hansı ehtiyatsızlıq əməliyyatın pozulmasına səbəb ola bilər.

Hacı daha sonra onlara izah edir ki, axşam hava qaralan vaxt Nazim Paşayevi «Hyatt Regensy» mehmanxanasından evə gedən yoldan keçən tramvay xəttinin yanında qarşılamaq lazımdır. Həmin yerdə avtomaşın istər-istəməz sürətini azaldır. Ona görə də Eldar Rəhimov «VAZ–2106» markalı maşınla Çapayev küçəsindəki işıqforun yaxınlığına getməli, orada Musabəyov küçəsinin tininə çatanda tramvay xəttinin yanında gözləməlidir. İçərisində Nazim Paşayevin oturduğu və sürücüsünün idarə etdiyi «QAZ–31029» markalı 00 A 085 Az dövlət nömrə nişanlı avtomaşın tramvay xəttinə çatdıqda sürətini azaldan zamanı qəza görüntüsü yaratmaq adı ilə yüngülcə həmin avtomaşına toxunmaqla onu zədələmək, baş vermiş hadisəni araşdırmaq üçün sürücülər avtomaşınları saxlayıb düşərkən və hadisəni araşdıran vaxtı Nazim Paşayevi sürücü ilə birlikdə oğurlamaq lazımdır. Hacı Məmmədov ən sonda bildirir ki, Nazim Paşayevin sürücüsünü Saray qəsəbəsinə doğru gedən yolda, imkan olarsa, başına kisə geydirilmiş

vəziyyətdə azad etmək olar. Onlara yalnız Nazim Paşayev lazımdır. Onu da istədikləri yerə aparsınlar.

Hacı Məmmədov axırıncı göstərişləri verəndən sonra idarə etdiyi «Niva» markalı maşında gəzdirdiyi bir ədəd saxta dövlət nömrə nişanını Eldar Rəhimova verir ki, həmin «Jiquli» avtomaşını hadisə yerində tanınmasın. O, həmçinin «Niva» markalı avtomaşında qabaqcadan gətirdiyi qundağı olmayan avtomat silahı, «Valter» markalı Almaniya istehsalı olan tapancanı, 2 ədəd qandalı, rezin dubinka və kisəni banda üzvlərinə paylayır. Milliyyətcə çeçen olan İsa avtomatla, Aslanbek Çintamirov tapança ilə silahlanırlar. Həmçinin qandalın birini Aslanbek, digər qandalları isə Sidek Abdulvahabov kisəqarışıq götürür.

Sentyabr ayının 19-da axşam saat 18 radələrində Hacı Məmmədov «Niva» makalı avtomaşınla, Husain və Sidek Abdulvahabov qardaşları, Aslanbek Çintamirov və şəxsiyyəti tam aydınlaşmayan İsa adlı şəxs isə başqa avtomaşınla şərtləşdikləri küçənin kəsişdiyi yerə gəlib ayrı-ayrı məsafələrdə durmaqla lazımi mövqeləri tuturlar. Eldar Rəhimov isə idarə etdiyi «VAZ–2106» markalı maşını tramvay yoluna çatmamış saxlayır və Nazim Paşayevin qəhvəyi rəngli «QAZ–31» markalı avtomaşınının gəlməsini gözləyir.

Nazim Paşayevin gəldiyi avtomaşın Çapayev küçəsindəki işıqforun yanına çatır və tramvay xəttini keçərkən maşının sürəti azalır. Həmin vaxt Musabəyov küçəsinin sağ tinindəki tut ağacının qarşısında duran Eldar Rəhimov idarə etdiyi qırmızı rəngli «VAZ–2106» markalı maşınla arxadan Nazim Paşayevin maşınına yaxınlaşıb arxa sol fənər tərəfdən onu yüngülcə vurur. Nazim Paşayevin sürücüsü Natiq Abbasov idarə etdiyi maşını yolun sağ tərəfinə kənara çəkib saxlayır və aydınlıq gətirmək üçün maşından düşür. Arxa tərəfinə keçib maşının əzilmiş yerinə baxır. Arxadan sol tərəfdəki fənərin şüşəsinin qırılıb yerə töküldüyünü görür. Bu zaman Hacı Məmmədov kənarda durub həmin səhnəni müşahidə edirdi.

Eldar Rəhimov isə idarə etdiyi maşını bir qədər qabağa sürüb maşını yolun sağ tərəfində saxlayır. O, maşından düşüb Nazim Paşayevin oturduğu avtomaşına yaxınlaşır. Nazim Paşayevin sürücüsü Natiq Abbasov ilə Eldar Rəhimov hadisə ilə əlaqədar bir-biri ilə mübahisə edərkən Musabəyov küçəsinin aşağı tinində gözləyən Aslanbek, Sidek, Husain və İsa adlı şəxs də dərhal yolun sağındakı səki ilə iri addımlarla «QAZ–31» markalı maşının dayandığı yerə gəlirlər. Maşının arxa oturacağında sağ tərəfdə əyləşən Nazim Paşayev sürücülərin mübahisə etdiyini görüb, qapını açıb düşmək istəyir. Bu zaman İsa adlı çeçen yaxınlaşaraq sinəsindən maşının içərisinə tərəf itələyərək onun düşməsinə imkan vermir. O, Nazim Paşayevi maşının arxa oturacağına sıxır, özü də onun yanında otururaq Nazim Paşayevin qollarını qandallayır və kisəni onun başına keçirir. Aslanbek Çintamirov, Sidek və Husain Abdulvahabov qardaşları isə Nazim Paşayevin sürücüsü Natiq Abbasovu da dartıb maşının arxa oturacağına itələyir və başına kisəni keçirdikdən sonra ətrafdan görünməsin deyə onun başını oturacağın arxa tərəfinə əyməyə məcbur edirlər. Natiq Abbasovun idarə etdiyi «QAZ–31» markalı avtomaşının sükanı arxasına Sidek Abdulvahabov oturur və onlar hadisə yerindən uzaqlaşırlar.

Kənarda durub Nazim Paşayevin oğurlanma səhnəsini müşahidə edən Hacı Məmmədov əvvəlcədən razılaşdıqları kimi idarə etdiyi «Niva», Eldar Rəhimov isə «VAZ–2106» markalı avtomaşınları onların arxasınca sürür və Abşeron rayonunun Saray qəsəbəsindəki bağ evinə gəlirlər.

Banda üzvləri Nazim Paşayevi və sürücüsünü «Bağlar» deyilən ərazidəki evin birinci mərtəbəsindəki iki iç-içə olan otaqların birinə salır və çöldən qapını açarla bağlayırlar. Sürücü Natiq Abbasovu Hacının təlimatı ilə yolda azad etməli olduqları halda onu nə yolda, nə də ki, bağ evində azad edirlər. Hacı Məmmədov fikrini dəyişərək Natiq Abbasovu buraxmağa razılıq vermir və bildirir ki, Saray yolunda və ya bağ evində Natiq Abbasov azad olunsa, onların hərəkət koor-

dinatları məlum olar. Natiq Abbasov maşından düşürüldüyü yeri, həmçinin bağ evini, oğurluqda iştirak edən çeçenləri tanıyar, bu barədə hüquq-mühafizə orqanlarına xəbər verər və Nazim Paşayevi həmin koordinatda və ətraf yerlərdə axtararlar. Ona görə də sürücü Natiq Abbasov da Hacı Məmmədovun zirzəmisinə salınır.

Hacı Məmmədov əməliyyatı başa çatdırdıqdan sonra oğurluq hadisəsindən əvvəl banda üzvlərinə payladığı silahların bir hissəsini onlardan götürüb idarə etdiyi maşına yığır, bir hissəsi isə onun göstərişi ilə həmin bağ evində Nazim Paşayev və sürücüsünün mühafizəsini çəkən Aslanbek Çintamirov və İsa adlı şəxslərdə qalır. O, Sidek Abdulvahabovu isə gecə evə buraxır.

«Azərmebelsənaye» Konserninin prezideti Nazim Paşayev bir qayda olaraq həmişə işdən çıxıb birbaşa evə gedərdi və saat 19-20 radələrində evdə olardı. Lakin həmin gün ailə üzvləri onu saat 24-00-ə kimi gözləsələr də, gəlmədiyini görüb narahat olmağa başlayırlar. Xidməti avtomaşında olan telefon da cavab vermirdi. Sürücünün özü və evi ilə telefon əlaqəsi yaratsalar da onu görən tapılmır. Narahatçılıq daha da artır. Ailə üzvləri qapıdan, pəncərədən boylanmaqla həyətə maşının girib-çıxmasını izləyir və hər siqnaldan diksinirlər. Gecədən xeyli keçir. Qardaşların və digər qohumların telefon zəngləri ara vermir. Lakin Nazimi və onun sürücüsünü gördüm deyən olmur. Onun Şamaxıdakı evində olmadığı və bağ evinə getmədiyi də müəyyən edilir.

Ailə üzvləri və digər yaxınları gecəni ayaqüstə keçirirlər. Şəhərdəki rayon polis şöbələrinin növbətçilərinə zəng edilir, meyitxanalar axtarılır və travmatoloji xəstəxanalara baş çəkilir, lakin heç bir nəticə əldə etmək mümkün olmur.

Nazim Paşayev və onun sürücüsünün oğurlandığı gecə Hacı Məmmədov Eldar Rəhimova deyir ki, Nazim Paşayev artıq onların əlindədir. Ona görə də nə tələsmək lazımdır, nə də ki, arxayınlaşmaq. Onun yaxınlarına bildirilsin ki, istədik-

ləri məbləği alana kimi onları saxlayacaqlar. Lazım gələrsə, saxlanma yerini də dəyişəcəklər. O, Eldar Rəhimova tapşırır ki, Nazim Paşayevin qohumları ilə əlaqə yaratmağa başlasın, onun xidməti avtomaşınını da Bakı şəhərinə aparıb elə bir yerə qoysun ki, onu ordan gəlib götürsünlər və inansınlar ki, həqiqətən Nazim Paşayevi onlar oğurlayıblar.

Odur ki, Eldar Rəhimov Hacı Məmmədovun tapşırığını yerinə yetirmək məqsədi ilə Nazim Paşayevin xidməti «Qaz–31» markalı avtomaşını sürüb Bakı şəhərinə gətirir və onu Nərimanov prospektindəki keçmiş «Almaz» qızıl mağazasının həyətində saxlayır. Avtomaşının qapılarını bağlayıb, açarlarını arxa sol təkərin üstünə qoyur. Sentyabrın 20-də günün ikinci yarısında, Eldar Rəhimov Nazim Paşayevin qardaşlarına zəng etmək üçün şəhərin tünlük olmayan hissəsində avtomat telefon axtarmağa başlayır. Avtomat telefon tapdıqdan sonra həmin telefondan Nazim Paşayevin qardaşı Namiq Paşayevə zəng edərək bildirir ki, Nazimi onlar oğurlayıb. Onu ancaq pul verdikdən sonra buraxa bilərlər. Nazimin azad edilməsi üçün 500 min ABŞ dolları verməsini tələb edir. Həmçinin xəbərdarlıq edərək bildirir ki, onu sağsalamat görmək istəyirlərsə Nazimin oğurlanmasını hüquq-mühafizə orqanları bilməməlidir. Hüquq-mühafizə orqanlarına xəbər verilərsə, Nazimi bir daha görməyəcəklər. Eldar Rəhimovun Hacı Məmmədovla qabaqcadan olan razılaşmasına əsasən Nazimin qardaşına həmçinin bildirir ki, Nazimin xidməti «Qaz–31» markalı avtomaşını Nərimanov prospektindəki keçmiş «Almaz» qızıl mağazasının həyətindədir. Maşının açarları da arxa sol təkərin üstünə qoyulub.

Nazim Paşayevin Daxili İşlər Nazirliyində işləyən qardaşı Namiq avtomat telefondan ona zəng edən şəxsin dediyi yerə gedir və həqiqətən «QAZ–31» markalı avtomaşının «Almaz» mağazasının həyətində və açarların da təkərin üstündə olduğunu görür. Onlarda əminlik yaranır ki, artıq Nazim cinayətkarların əlindədir.

Nazim Paşayev və onun sürücüsü oğurlandıqdan sonra Hacı Məmmədov və Eldar Rəhimov bir neçə dəfə onların saxlandığı həmin bağ evinə gəlirlər. Oğurlanan şəxslər sonradan onları tanımasın deyə hər ikisi başlarına maska taxır, özləri ilə videokamera və auidiomaqnitofon götürərək Nazim Paşayev və sürücü Natiq Abbasovun qaldıqları otağa girib onları sorğu-sual edir, qardaşlarının və digər qohumlarının telefon nömrələrini götürürlər. Həmçinin Hacı Məmmədov Nazim Paşayevə təklif edir ki, o, qardaşlarına olan müraciətini onların gətirdikləri videokaset və audiolentə yazsın. Nazim Paşayevin qardaşlarına ünvanlanmış müraciətini mətnini də özü diktə edərək yazdırır ki, onun buraxılmağını istəyirlərsə, tələb olunan pul məbləğini toplayıb onu oğurlayanlara versinlər. Nazim Paşayev bunu etmək istəməsə də, Hacı Məmmədov onu ölümlə hədələyir və bildirir ki, müraciət səsi lentə və kasetə yazılmasa, həmin evdə də çürüyəcəkdir.

Nazim Paşayev artıq pula görə oğurlandığını başa düşür. Natiq Abbasovdan cinayətkarların heç bir tələbi yox idi. O, imkansız adam idi. Sürücünü ondan ayıra bilmədiklərinə və həmçinin ifşa olunmalarından qorxduqlarına görə saxlayırlar. Qohumlarından pul alınmasa, nə onu, nə də ona görə oğurlanan günahsız sürücünü də buraxmayacaqlarını bildirirlər. Nazim Paşayev götür-qoydan sonra Hacı Məmmədovun təhrik və təklifinə razılıq verir. O, Hacı Məmmədovun təkidi ilə səsi lentə və kasetə yazılmaqla qardaşlarına müraciət edir ki, onun və sürücüsünün azad edilməsi üçün onları oğurlayan şəxslərə istədikləri məbləğdə pulu toplayıb versinlər.

Hacı Məmmədov və Eldar Rəhimov Nazim Paşayevin qardaşlarına etdiyi müraciəti audiolentə yazdırmaqla məqsədlərinə nail oldular. Sonra onlar Nazim Paşayevin səsi yazılmış audiolent və videokaseti götürərək ayrı-ayrı yerlərə qoyurlar. Bir gün sonra isə Nazim Paşayevin qardaşlarına zəng edib kasetlərin qoyulduğu yeri xəbər verib, onları həmin yerlərdən götürməyi tələb edirlər.

Nazim Paşayev və sürücüsü Natiq Abbasov bu işlərin nə ilə nəticələnəcəyini və harada saxlandıqlarını bilmədən özlərindən asılı olmayaraq gözləmək məcburiyyətində idilər.

Bir müddət keçdikdən sonra Nazim Paşayev və Natiq Abbasov onların keşiyini çəkənlərin istər onlara yemək gətirəndə, istərsə də ayaqyoluna aparanda dinib-danışmasalar da özlərini aparmalarından artıq başa düşürlər ki, onları yerli adamlar milliyətcə çeçen olan şəxslərlə birlikdə oğurlayıblar.

Hacı Məmmədovun tapşırığı ilə Nazim Paşayev və onun sürücüsünə həmin saxlanc yerində saxlandıqları dövrdə gündəlik yemək verilirdi. Lakin yeməklər kənarda hazırlanırdı. Əksər hallarda gündəlik yeməkləri növbə ilə restorandan Hacı Məmmədov və Eldar Rəhimov alıb gətirirdi. Aslanbek Çintamirov və İsa adlı çeçen isə həmin yeməkləri zirzəmidə saxladıqları Nazim Paşayev və onun sürücüsünə verirdilər. Nazim Paşayev və Natiq Abbasov saxlandıqları müddətdə zirzəmidən kənara çıxarılmırdı. Onları yalnız ayaqyoluna gedərkən həyətə çıxarırdılar və ətrafı görüb tanımasınlar deyə başlarına kisə keçirirdilər.

Nazim Paşayev və sürücüsünün oğurlanması artıq həm onların qohumlarına və həm də hüquq-mühafizə orqanlarına məlum idi. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və həmin nazirliyin yerli orqanları əməliyyat tədbirlərinə başlamışdılar. Onları oğurlayanların kimliyi və saxlandıqları yerin müəyyənləşdirilməsi istiqamətində tədbilər görülürdü. Yeni-yeni versiyalar ətrafında iş gedirdi. Lakin onlar bu cinayətin həm təşkilatçılarının, həm də icraçılarının bilavasitə paqonlu və hətta yüksək rütbəli polis əməkdaşları olmasını belə ağıllarına gətirə bilmirdilər.

Nazim Paşayev Saray qəsəbəsində saxlanılan müddətdə Kamil Sədrəddinov da Nazimin qardaşı Namiq Paşayevin və digər qohumlarının yanında özünü elə aparırdı ki, guya onun heç nədən xəbəri yoxdur. Nazimin qardaşı Namiq də polis işçisi olduğuna və onunla bir kabinetdə oturduğuna görə Ka-

mil Sədrəddinov nazirliyin şöbə rəisi kimi Namiq Paşayevlə tez-tez əlaqə saxlayır, onların evlərinə gedib gəlirdi. Nazim Paşayevin azad olunması üçün onların nə iş görmələrini, kimlərlə əlaqə saxladıqlarını, hüquq-mühafizə orqanlarının hansı tədbirlər hazırladıqlarını, həmçinin həmin məsələ ilə bağlı gedən söz-söhbətlər barədə məlumatlar toplayıb, qabaqlayıcı tədbirlər görülməsi üçün dərhal Hacı Məmmədova çatdırırdı. Kamil Sədrəddinov eyni zamanda Namiq Abbasovla olan görüşlərindən sonra Hacı Məmmədova bildirirdi ki, Nazim Paşayevin polisdə işləyən qardaşı Namiq özünü elə aparır ki, guya qardaşının azad edilməsi üçün Bakı Baş Polis İdarəsində işləyən iş yoldaşlarından pul yığır. Əslində isə onun pul vermək fikri yoxdur. O, milliyyətcə çeçen olan tanışları ilə əlaqə yaratmaq istəyir ki, qardaşını azad etdirsin və pul verilərkən qardaşını oğurlayanları cinayət başında tutdursun.

Nazim Paşayevin azad edilməsi istiqamətində görülən tədbirlər barədə bir tərəfdən Kamil Sədrəddinov, digər tərəfdən Nazim Paşayevin keşiyini çəkən çeçenlər Hacı Məmmədova çatdırırlar ki, Nazim Paşayev onun çeçenlər tərəfindən oğurlandığını başa düşüb və hətta Ruzbek adlı çeçen millətindən olan şəxsin adını çəkərək onunla tanış olduğunu da deyib.

Ruzbek bir müddət Çeçenistan Respublikasında nazir vəzifəsində işləyib. Həmin cinayət törədilən dövrdə də tez-tez Bakıya gəlib. Hər dəfə Bakıda olanda burada məskunlaşan çeçenlərlə də bir neçə dəfə görüşləri olub. O, çeçenlər arasında böyük nüfuza malik, tanınmış şəxsdir. Ruzbek həmçinin Çeçenistanda rayon milis rəisinin müavini işləmiş və bu cinayətin iştirakçısı olan Şirxan Albiyevlə də yaxın münasibətdə olmaqla onunla müntəzəm əlaqə saxlayırdı.

Eldar Rəhimov Nazim Paşayevin qardaşları ilə şəhərin hər dəfə müxtəlif yerlərindən avtomat telefonla təkrar əlaqə saxlayır və bildirir ki, artıq qardaşının saxlama vaxtı tamam olmaq üzrədir. Səbrləri tükənib və bu axırıncı telefon danışı-

ğıdır və bir daha telefon əlaqəsi saxlamayacaq. Nazimin qohumları onun azad edilməsi üçün 120 min dollar məbləğində pul topladıqlarını bildirirməklə onu kimə və necə çatdırmaq barədə soruşurlar. Eldar Rəhimov pulun azlığından narazılığını bildirsə də, hər halda təklif olunan pulun məbləği barədə məlumatı Hacı Məmmədova çatdırır.

Hacı Məmmədov başda olmaqla cinayətkar birliyin üzvləri onlara təklif olunan pulu almağa hazırlaşdqıqları bir vaxtda Nazim Paşayevin Ruzbek adlı çeçenlə tanış olması məsələsi Hacı Məmmədovu artıq narahat etməyə başlayır. Bir tərəfdən ortada 120 min ABŞ dollar məbləğində pulun olması və onun əldən çıxa bilməsi qorxusu, digər tərəfdən Hacı Məmmədovu məsələnin daha təhlükəli tərəfi düşündürməyə məcbur edir. O, əvvəlcə öz-özlüyündə düşünür ki, 120 min dollar məbləğində pulu aldıqdan sonra Nazim Paşayev və sürücüsünü buraxmaq lazım gələcəkdir. Lakin Nazim Paşayev buraxıldığı təqdirdə bununla sakitləşməyəcək. O, bu cinayətin izinə düşə bilər və son nəticədə Şirxan adlı çeçeni müəyyənləşdirə bilər. Şirxan Albiyev Bakı şəhərində yaşadığı dövrdə bir müddət anası Almaz Məmmədovanın şəhərin mərkəzində olan evində yaşayıb. Belə vəziyyət heç də onun xeyrinə cərəyan etməyəcək, ondan şübhələnib izinə düşə bilərlər.

İfşa olunmaq təhlükəsi Hacı Məmmədovu rahat qoymur və gecələr də yuxusuna haram qatılır, gözünə yuxu getmir. O, səhərə kimi bu barədə fikirləşir və yaranmış vəziyyətdən çıxış yolu axtarır. Bu məsələ ilə bağlı cinayətkar birliyin üzvləri ilə məsləhətləşməyi qərara alır. Birliyin fəal üzvlərindən Husain Abdulvahabov və Şirxan Albiyev onun köməyinə gəlirlər. Xeyli müzakirələrdən sonra belə qərara gəlirlər ki, Nazim Paşayevin azad edilməsi üçün qohumlarının topladıqları 120 min dollar məbləğini alıb, sonra da ifşa olunmaqdansa təklif olunan məbləğdə pulu almaqdan imtina etsinlər, Nazim Paşayev və sürücüsü Natiq Abbasovu öldürsünlər.

Hacı Məmmədov cinayətkar bandanın aparıcı üzvləri ilə olan söhbətin nəticəsi barədə Kamil Sədrəddinovu da məlumatlandırır. Kamil Sədrəddinov da onların qərarını bəyənir və bildirir ki, ifşa olunmaq istəmirlərsə və canlarını salamat görmək istəyirlərsə, gəldikləri nəticə ən yaxşı variantdır. Onların təklifi ilə o da razı oldğunu bildirir.

Hacı Məmmədov Husain Abdulvahabov və Şirxan Albiyevin razılığını və Kamil Sədrəddinovun dəstəyini aldıqdan sonra Eldar Rəhimovla birlikdə Saray qəsəbəsinə gəlirlər. O, yolda Eldar Rəhimova bildirir ki, Nazim Paşayevin və Natiq Abbasovun oldürülməsini elə onların keşiyini çəkən Aslanbek və İsa adlı keşikçilərə tapşırsalar daha yaxşı olar. Ona görə də Hacı Məmmədov Saray qəsəbəsinə gələn kimi Nazim Paşayevlə sürücüsünün keşiyini çəkən Aslanbek və İsa ilə görüşür və onlara bildirir ki, Nazim Paşayevin qohumları tələb olunan məbləğdə pulu vermədiklərinə görə onları öldürmək lazımdır.

Aslanbek Çintamirov və İsa iki aya yaxın idi ki, girov saxlanılan Nazim Paşayev və Natiq Abbasovun keşiyini çəkirdi. Onlar həmin girovlara yemək verirdilər. Cinayətkar dəstənin üzvləri nədənsə Nazim Paşayev və Natiq Abbasovu öldürmək barədə Hacının təklifini qəbul etmir və bundan qəti olaraq imtina edirlər.

Gözlənilməz cavabdan Hacı Məmmədov özünü sındırmır və həmin çeçenlərlə münasibəti qırmaq istəmir. O, Nazim Paşayev və Natiq Abbasovu öldürməyi Eldar Rəhimova təklif edir. Eldar Rəhimov Nazim Paşayev və Natiq Abbasovu öldürməkdən imtina etməsə də bildirir ki, nədənsə bu işdən çox narahatdır, qorxu keçirir. Hacı Eldar Rəhimova ürək-dirək verir, onu sakitləşdirir. Lakin eyhamla eşitdirir ki, oyuna giriblərsə bütün şərtlər hamı üçün eynidir. O, çeçenləri məcbur edə bilməz. Ona görə ki, onlar narahat insanlardır.

Nazim Paşayevi və Natiq Abbasovu Hacı Məmmədov daha saxlamaq istəmirdi. Ruzbek adlı çeçenin adının hal-

lanması onu narahat edirdi. Məsələni tezliklə həll etmək qərarına gəlmişdi. Hər saatın, hər günün də onun üçün böyük əhəmiyyəti vardı. Canına düşən qorxu Hacını sakit qoymurdu. Öz canından qorxan sahibkar-polis başqasının canını asanlıqla almağa tələsirdi. Digər tərəfdən o, girovları Saray qəsəbəsində öldürmək istəmirdi. Cinayətin izini itirmək məqsədi ilə münasib yer axtarırdı. Belə qərara gəlir ki, Nazim Paşayevi və Natiq Abbasovu Saray qəsəbəsindən çıxarsın, uzaq bir yerə aparıb orada öldürsün və sonra da həmin yerdə basdırsın. Xızı rayonunun ərazisini münasib hesab edir. Həmin rayon başqa rayonlara nisbətən həm Bakı şəhərinə yaxındır, həm də ki, bir gündə oraya gedib yer tapıb onu hazırlamaq, geri qayıdıb girovları aparmaq mümkün olacaqdır.

15 noyabr 1995-ci ildə Hacı Məmmədov və Eldar Rəhimov hərəsi bir bel götürüb «Niva»ya əyləşib Xızı rayonunun Altıağac qəsəbəsinə gəlirlər. Baxışlı kəndinin girəcəyində yolun solunda meşənin içərisinə girib təxminən 50 metr getdikdən sonra öldürəcəkləri iki nəfərin meyitlərini basdırmaq üçün yer axtarırlar. Orada ekskavatorla bir çalanın qazıldığını gördükdə Hacı Məmmədov bildirir ki, həmin çalada da onları basdırmaq olar. Lakin çalanı bir qədər də dərinləşdirmək lazım gəlirdi. Polis zabitləri indi yeni bir peşə də əldə edərək gor qazmaqla məşğul olurdular. Ekskavatorun qazdığı həmin çalanı özləri ilə gətirdikləri bellərlə daha da dərinləşdirirlər. İşlərini başa çatdırıb gəldikləri «Niva» ilə axşama yaxın Saray qəsəbəsinə qayıdırlar.

Nazim Paşayevi və sürücüsünü Xızı rayonunun ərazisinə aparmaq üçün «Niva»nı hazır vəziyyətə gətirirlər. Bağ evindən aralıda avtomaşının arxa oturacağını çıxartmaq qərarına gəlirlər. Bunun üçün Hacı maşının arxa oturacağının boltlarını açdırır, lakin oturacağı maşından çıxartdırmır. O, axşam şər düşəndə maşını Nazim Paşayev və sürücü Natiq Abbasovun saxlandıqları bağ evinin həyətinə sürür və boltları açılmış arxa oturacağı maşından çıxardıb bağ evinin həyətində kəna-

ra qoyur. Sonra isə Eldarla başlarına maska keçirib Nazim Paşayev və Natiq Abbasovun saxlandıqları zirzəmiyə daxil olurlar. Qətlə yetiriləcəklərini qabaqcadan başa düşməsinlər deyə Hacı onları aldadaraq eşitdirir ki, nəhayət ki, qohumları razı olub, onlara istədikləri pulu gətirib veriblər. Buna görə onları artıq buraxmaq istəyir. Nazim Paşayev və Natiq Abbasova təklif edir ki, hazırlaşsınlar. Zavallıların isə bir dəst paltardan başqa heç nələri yox idi. Bu paltarlar isə 19 sentyabr 1995-ci ildən onların əyinlərindən çıxmamışdır.

Girovlar ilk baxışda buna inansalar da, lakin qarşı tərəfin hərəkətləri şübhəli görünürdü. Bu işin axırını gözlədiklərinə görə dinib danışmırdılar. Hacı Məmmədov sözünü deyib qurtardıqdan dərhal sonra keşik çəkən Aslanbek Çintamirov və İsa adlı şəxslərə işarə edir ki, həyətdəki işıqları keçirsinlər. Onlar da dərhal Hacı Məmmədovun tapşırığını icra edirlər. Eyni zamanda Hacı Məmmədov mühafizəçilərə göstəriş verir ki, Nazim Paşayevi və sürücüsünü zirzəmidən çıxarıb maşına aparsınlar. Aslanbek və İsa Nazim və sürücüsünü öldürməkdən imtina etsələr də, onun bu tapşırığına dərhal əməl edərək girovların ağızlarını və gözlərini yapışqanlı lentlə sarıyıb, qollarını qandallayıb sürüyə-sürüyə «Niva» markalı avtomaşına tərəf dartırlar. Onları maşının yük yerinə qaldırıb yerə uzanmağa məcbur edirlər. Üstlərinə isə boş karton qutuları yığır, onu da örtüklə örtürlər.

Eldar Rəhimov «Niva» markalı avtomaşını sürmək üçün sükan arxasına keçir. Hacı isə sağ qabaq oturacaqda onun yanında oturur və özü ilə götürdüyü 7,65 mm. kalibrli desant avtomat silahı da oturduğu oturacağın altına qoyur. Maşın Xızı rayonuna istiqamət alır. Aslanbek Çintamirov və İsa bağ evində qalırlar.

Hacı və Eldar Rəhimov həmin gün ikinci dəfə idi ki, bu istiqamətdə yola çıxırdılar. 200 km-dən artıq yol qət edib yorulsalar da, həmin gecə girovları qətlə yetirməyə tələsirdilər. Yolboyu Hacı dinib-danışmırdı. Onun bu susqunluğu

Eldar Rəhimovu vahimələndirirdi. Lakin geriyə yol yox idi. Məqsədləri adam oğurlayıb pul qazanmaq olsa da canlarına düşən qorxu hissi onları 120 min dolları almaqdan imtina etməyə vadar edirdi. Bir tərəfdən gecənin qaranlığı, digər tərəfdən göy üzünü qara buludların örtməsi Eldar Rəhimovu maşını ehtiyatla sürməyə məcbur edirdi. Həmin gecə yolda onları Saray və Xızı rayonu ərazisində saxlayan olmadı. Saxlansaydılar da problem olmayacağına qəti əmin idilər. Çünki onların hər birinin cibində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları olmasını təsdiq edən vəsiqələri vardı. Bir də ki, sahibkar-polisi bu yolda tanıyanlar çox idi. «Qarabulaq»ın əks-sədası ətrafa yayılmışdı.

Onlar gecədən xeyli keçmiş Altıağac qəsəbəsinin Baxışlı kəndinin ərazisinə çatırlar. Gecə yarıdan keçdiyinə görə artıq 1995-ci il noyabrın 16-sı idi. Avtomaşını yolun soluna, meşəlik sahəyə döndərib əlli metr getdikdən sonra qazdıqları çalanın yanında saxladılar və Nazim Paşayevlə Natiq Abbasovu maşından düşürdürlər. Günahsız girovlar artıq yəqin etmişdilər ki, bu gün onların taleyi həll olunur. Cinayətkarlar onları buraya heç də azad etməyə gətirməyiblər.

Həmin anda Nazim Paşayev və sürücüsü Natiq Abbasovun hansı hisslər keçirdiklərini təsəvvürə gətirmək dəhşətli idi. Onlar yalnız bircə şeyi anlaya bilmirdilər ki, axı nədir onların günahı! Cinayətkarlar nə üçün onları öldürmək istəyir.

Nazim Paşayev və Natiq Abbasovun gətirildiyi yer meşənin içərisində olsa da, yoldan o qədər də uzaq deyildi. Ona görə də yoldan təsadüfi keçə biləcək insanların diqqətini cəlb etməsinlər deyə, avtomaşının işıqlarını da söndürürlər. Hacı Məmmədov bir qədər aralanıb yola tərəf gedir və burada təsadüfi adamın olmamasına bir daha əmin olur. Eldar Rəhimov isə əlində avtomat silahla Nazim Paşayev və Natiq Abbasovun arxa tərəfində hazır vəziyyətdə dayanıb Hacının işarəsini gözləyir.

Gecədən xeyli keçmişdi. Həmin vaxt meşədəki quşların civiltisi, heyvanların səsi eşidilmirdi. Bütün canlılar sanki baş

verəcək dəhşətli hadisənin şahidi olmamaq, günahsız girovların al-qan içində çapalayaraq həyatla vidalaşma səhnəsini görməmək üçün qeybə çəkilmişdilər. Ətraf sükut içində idi. Bu sükutu ancaq həzin-həzin yağan yağış və yarpaqların xışıltısı pozurdu. Nazim Paşayev və Natiq Abbasovun işıqlı dünya ilə vidalaşacağı dəqiqələri, saniyələri qalmışdı. Zaman da onların əleyhinə işləyirdi. El arasında deyirlər ki, hər dəqiqənin bir hökmü var. Lakin bu günahsızların həmin andakı hökmünə Kamil Sədrəddinovun razılıq və dəstəyi alınmaqla Hacı Məmmədov və Eldar Rəhimov artıq qol qoymuşdu. Onları ölümdən ancaq möcüzə qurtara bilərdi. Əfsuslar olsun, belə möcüzə də baş vermədi. Bu qaranlıq gecədə və qaranlıq meşədə yalnız buludlar göz yaşı töküb ağlayırdı. Nə ətrafı vahiməyə salan göy gurultusu, nə leysan yağışı Hacı Məmmədovu və Eldar Rəhimovu tutduqları bəd əməldən çəkindirmədi, qəlblərinə mərhəmət, rəhm salmadı.

Hacının işarəsi ilə Eldar desant markalı avtomatın tətiyini çəkdi. Bir andaca Nazim Paşayev və Natiq Abbasovu çox soyuqqanlılıqla qətlə yetirdi.

Hər iki meyiti – Nazimin və Natiqin meyitlərini sürüyüb çalaya saldılar, üstlərini daş, kəsək, ağacla örtdülər. Sonra gətirdikləri bellə torpaq töküb çalada onların üstünü görünməz etdilər.

Bununla da Hacı Məmmədov və Eldar Rəhimov meşədəki gecə əməliyyatını başa vurub səhərə yaxın Saray qəsəbəsinə qayıtdılar.

İndi onları bir şey narahat edirdi: törətdikləri cinayətin izini itirmək. Törətdikləri qətlin izini itirmək üçün avtomat silahı Nardaran qəsəbəsindəki hündür təpədən dənizə tulladılar.

Sonra Eldar Rəhimov Nazimin qardaşı Namiqə zəng edib tələb olunan məbləği vermədikləri üçün, «indi gedib onun mağarını qura bilərsən» deyə bildirir. Namiq elə bilir ki, bu da növbəti bir hədə-qorxudur. Namiq Paşayev isə öz

növbəsində Eldar Rəhimova bildirir ki, onlar qardaşı Nazimin azad edilməsi üçün 120 min dollar toplaya biliblər. Eldar pulu götürməyə razılıq verir. Onlar bu məbləği götürüb əvəzinə Nazimin meyitini vermək qərarına gəlirlər. Lakin Namiq Paşayev ehtiyatlı tərpənərək deyir ki, onlar həmin 120 min dolları bu şərtlə verirlər ki, qabaqcadan Nazimin sağ olub-olmamasını bilsinlər. Bunun üçün ona Nazimin videoçəkilişini və öz xətti ilə yazılan məktubunun göndərilməsini təklif edir. Bir neçə gündən sonra Hacı Məmmədov və Eldar Rəhimov Nazim Paşayevin əvvəllər lentə aldıqları videokaseti və kim tərəfindənsə Nazimin adından yazılan məktubu Namiq Paşayevə göndərirlər. Namiq və Adil qardaşları yazıya baxdıqda məktubun Nazimin xətti ilə yazılmadığını görürlər. Videokasetə baxdıqda isə onun lentə alınması vaxtı şübhə doğurur. Ona görə də üzünü görmədikləri və adını bilmədikləri, lakin onlara növbəti dəfə zəng edən Eldar Rəhimova deyirlər ki, Nazimin videoçəkilişi hansı gündə aparılırsa, həmin gündə dərc olunmuş qəzetlərin biri ilə aparılsın ki, həqiqətən həmin qəzetin dərc edildiyi tarixdə çəkilişin aparılmasını müəyyən etmək olsun. Bununla da onların telefon əlaqəsi kəsilir.

Əlləri qana bulaşmışlar bir həftə ifşa olunmaq qorxusu altında yaşayırlar. Girovlara avtomatdan dörd-beş atəş açsalar da, onların hələ də öldüyünə inana bilmirdilər. Qorxulu yuxular onları rahat qoymurdu. Həqiqətən də onların ölüb-ölməməsinə bir daha əmin olmaq istəyirdilər. Faciəli hadisədən bir neçə gün keçmiş Hacı Məmmədov Eldar Rəhimova təklif edir ki, həmin yerə gedib Nazim Paşayev və Natiq Abbasovun meyitlərinin basdırıldığı yerə yenə də baxsınlar. Eldar Rəhimov onunla razılaşır. Ona görə də Hacı Məmmədov qeyri-rəsmi yaşadığı arvadı Nailə Quliyevanı da götürüb birlikdə limonad və kolbasa alaraq istirahət etmək adı ilə Xızı rayonunun Baxışlı kəndinin meşəlik sahəsinə gəlirlər. Maşını meyitlərin basdırıldığı yerdən bir qədər aralıda saxlayıb, kapotun üstündəcə özləri ilə gətirdikləri kolbasadan

yeyir, üstündən limonad da içirlər. Əvvəlcədən razılaşdıqları kimi Eldar Rəhimov Hacı Məmmədovun işarəsindən sonra aralanıb meyitlərin basdırıldığı yerə gedir və bir azdan sonra qayıdıb gəlir. «Nə səfalı yerlərdir, burda hər şey qaydasındadır» deyə Hacıya eşitdirir. Bununla o, bildirmək istəyir ki, narahat olmasın, təhlükə artıq sovuşub, öldürdükləri şəxslər dirilməyib. Bundan sonra Hacı Məmmədov bildirir ki, yaxşı istirahət etdilər və indi rahat gedə bilərlər.

Lakin nə Hacı Məmmədov, nə də ki, Eldar Rəhimov birinci adam oğurluğunun onlar üçün nəticəsiz, uğursuz qurtarması ilə barışa bilmirlər. Əməliyyatı pulsuz başa vurmaları, 120 min dolların əllərindən çıxması onlara pis təsir edir. Ona görə də özlərinə yer tapa bilmirlər.

Hacı və Eldar Nazimi qətlə yetirdikdən 8 gün sonra Nazimgilin evlərinə naməlum bir nəfəri göndərirlər ki, Sumqayıt şəhərində yaşayan Cavanşir adlı şəxsin Moskvada şərab zavodu işlədən Bəhlul adlı qardaşında Nazim Paşayev haqqında lazımi məlumat var. Bu məsələni də 150 min ABŞ dolları həcmində həll etmək istəyirlər. Nazim Paşayevin Namiq və Adil adlı qardaşları bununla da razılaşırlar. Ona görə Adil qardaşı Nazimin azad edilməsi üçün tələb etdikləri məbləği də özü ilə götürüb Bəhlulun Bakı şəhərinin Yasamalda olan evinə gedir və orada 3-4 saat gözləyir. Lakin oraya nə Nazimi gətirən olur, nə də ki, xəbər göndərənlər gəlib çıxır. Göndərdikləri naməlum şəxs sonra onlara bildirir ki, işin sahibinin tələbinə görə 5 min ABŞ dolları Moskvaya getmək üçün, Nazimin azad edilməsi üçün tələb olunan məbləğdən 30 min ABŞ dolları Moskvadakılara çatdırmaq üçün verilməlidir.

Nazimin öldürüldüyündən xəbərsiz qardaşlar Namiq və Adil «təki qardaşı azad olunsun» deyə Nazimin qətlindən 35 gün sonra digər qardaşını Bəhlulun kiçik qardaşı ilə Moskva şəhərinə göndərirlər. Lakin onlar Moskva aeroportuna çatan kimi həmin pullar ondan tanınmayan şəxslər tərəfindən götürülür, qardaşı da bir həftə orada saxlanılır və sonra onu

yola salırlar ki, iş düzəlmir. Bir müddət sonra pulların kim tərəfindən götürülməsi bilinməsin və məsələnin üstü açılmasın deyə Bəhlulun qardaşı Moskvada öldürülür. Bəhlulun özü də sonradan Moskvada tutulur.

Beləliklə, Nazim Paşayev və Natiq Abbasovun ölümü qohumları üçün uzun müddət bir sirr kimi qaranlıq, hüquq-mühafizə orqanları üçün isə açılmayan bir cinayət işi olaraq qalır.

Onun özü də çeçəndir



Hacı Məmmədov cinayətkar dəstəni konkret bir cinayət üçün deyil, daimi fəaliyyət göstərən silahlı, sabit birlik məqsədi ilə yaratmışdı. Vəzifəsi müntəzəm olaraq yeni-yeni cinayətlərin törədilməsi üçün digər cinayətkar ünsürlərlə əlaqə saxlamaq, oğurlamaq üçün yeni-yeni imkanlı adamların axtarışı ilə məşğul olmaq və özgə əmlakını əvəzsiz ələ keçirilməsi məqsədi ilə silahlı basqınlar həyata keçirməkdən ibarət olmuşdu.

Nazim Paşayev və Natiq Abbasovu oğurlayıb Abşeron rayonunun Saray qəsəbəsində saxladıqları dövrdə milliyyətcə ləzgi olan Albert adlı şəxs digər cinayətkar dəstənin rəhbəri milliyyətcə çeçen olan Husain Abdulvahabova yeni bir kriminal iş barədə məlumat verir. O bildirir ki, Bakı şəhəri, Əzizbəyov rayonunun Albalılıq (Vişnyovka) qəsəbəsində yaşayan bir nəfərin yaxşı pulu və bahalı xarici avtomaşını var. Onu ələ keçirə bilsələr xeyli qabağa düşərlər. Husain Abdulvahabov Albertin verdiyi istiqaməti bəyənir. Bu işi xırda hesab edən Husain Abdulvahabov qabaqcadan Hacı Məmmədova bildirmədən onsuz dəstə üzvlərindən qardaşı Sidek Abdulvabova, Aslanbek Çintamirova, Ədalət Əsədullayevə və Fariz Həmidova tapşırır ki, bu işlə məşğul olsun-

lar. Ona görə də Sidek Abdulvahabov Alberti götürüb həmin qəsəbəyə gedir. O, maşın olan bağ evini Sidekə göstərir. Sidek Abdulvahabov həmin bağ evinin yerləşdiyi yeri, evə girmək yollarını və vaxtını müəyyənləşdirir və bundan sonra şəhərə qayıdırlar.

Bakı şəhərinə qayıtdıqdan sonra dəstə üzvlərindən Husain, Sidek Abdulvahabov qardaşları, Aslanbek Çintamirov, Fariz Həmidov və Albert bağ evinə basqın planını götür-qoy etmək məqsədi ilə Aslanbekin kirayədə qaldığı evin yanındakı kafedə yenidən bir yerə toplaşırlar. Toplantıda Husain Abdulvahabov bağ evinə basqında iştirak edəcək iştirakçılara lazımi tapşırıqlar verir. O, təklif edir ki, 4 noyabr 1995-ci il tarixdə səhər tezdən hava işıqlaşmamış həmin bağ evinə basqın edilsin. Basqında da iştirak edən şəxslərin dairəsini müəyyənləşdirərək bildirir ki, Albalılıq (Vişnovka) qəsəbəsinə Sidek Abdulvahabov, Aslanbek Çintamirov, Fariz Həmidov polis əməkdaşı Ədalət Əsədullayevin idarə etdiyi avtomaşınla getsinlər. Bu tapşırıqlardan sonra Aslanbek Çintamirov özü ilə «TT» markalı tapança da götürür. Basqın vaxtı qarşılarına çıxan təsadüfi adamlar Alberti tanımasınlar deyə onun getməsini lazım bilmirlər. Sidek Abdulvahabov əvvəlcə Farizi aparmaq istəmir. Ona görə ki, bir neçə ay əvvəl Farizin təklifi ilə onlar Siyəzən rayonunun Yenikənd kəndinə Farizin dediyinə görə əvvəllər kolxoz sədri işləmiş və imkanlı hesab etdiyi Eldar Muradov adlı şəxsin evinə basqın etmişdilər. Lakin həmin evdən Eldar Muradovun barmağındakı üzüyünü, digər xırda qızıl əşyalarını və bir ov tüfəngi götürsələr də Farizin onlara dediyi kimi küllü məbləğdə pul tapa bilməmişdilər. Farizdən narazı qaldıqlarından ona daha inanmırdılar. Fariz isə Siyəzəndəki uğursuzluğa görə özünü doğrultmağa çalışırdı. Dəfələrlə həmin banda üzvlərindən xahiş edirdi ki, növbəti basqınlara gedəndə onu da aparsınlar. Albalılıq (Vişnovka) bağ evinə gedərkən Fariz onlardan əl çəkmədiyinə görə lap axırda onu da özləri ilə aparmalı olurlar.

4 noyabr 1995-ci ildə səhər saat yeddi radələrində Sidek Abdulvahabov, Aslanbek Çintamirov, Fariz Həmidov Ədalət Əsədullayevin idarə etdiyi «VAZ–2107» markalı avtomaşınla Albalılıq qəsəbəsinə yola düşürlər. Ədalət özü həm avtomaşını idarə edir, həm də cibində polisin xidməti vəsiqəsini də gəzdirirdi ki, son anda lazım ola bilər. Albalılıq qəsəbəsinə çatdıqda Ədalət avtomaşını evinə basqın ediləcək Nazim Şəkixanovun bağ evindən bir qədər aralıda saxlayır. Əvvəlcədən olan razılaşmaya görə Ədalət Əsədullayev maşında qalır. Digər üç nəfər isə maşından düşür. Fariz, Aslanbek və Sidek bağ evinin hasarına kimi birgə gəlirlər. Farizin həmin əməliyyatda vəzifəsi qapıda durub kənar adamın gəlməsini gördükdə dərhal Aslanbek və Sideki məlumatlandırmaq idi.

Aslanbek və Sidek başlarına maska keçirib hasardan aşaraq bağ evinin həyətinə keçirlər. Fariz isə keçmir, durduğu yerdə də dayanır. Aslanbek və Sidek Farizin keçmədiyini görüb səs-küy düşməsin deyə bir daha onu çağırmırlar. Fariz Həmidov bir qədər divarın yanında durduqdan sonra qorxunun təsirindən Aslanbek və Sidekdən xəbərsiz qaçıb kənarda gözləyir.

Aslanbek Çintamirov özündə olan «TT» markalı tapançanı hazır vəziyyətə gətirir, evə girmək istəyir. O, dəstəyi tutub qapını itələyir, lakin qapı açılmır. Sonra isə onu yavaşca döyür.Həmin vaxtı yaşlı bir qadın qapını açır. Əlində tapança olan Aslanbek qadını itələyib özünü içəri salır. Sidek də onun dalınca otağa girib qapını örtür və arxadan onu bağlayır. Özünü itirən yaşlı qadın Gözəl Şəkixanova qışqırmaq istədikdə Aslanbek Çintamirov yaşlı qadının sifətindən yumruqla vurur. Gözəl Şəkixanova Aslanbek Çintamirovun yumruq zərbəsinə dözməyib və arxasıüstə yerə yıxılır. Onlar qadından başqa evdə oğlu Nazim Şəkixanovu, 12-13 yaşlarında oğlan uşağını gördükdə həmin şəxslərə yerlərindən tərpənməmək barədə göstəriş verir və öldürürəcəkləri ilə hədələyirlər. Eyni zamanda növbə ilə evin bütün əşyalarını alt-üst edərək hər

yeri axtarırlar. Lakin evdən qiymətli heç nə tapa bilmədikdə, pulların yerini soruşurlar. Evdə olan həmin qadın yalvarır ki, uşağa əl vurmasınlar. Nazim Şəkixanov isə bildirir ki, pulları yoxdur, lakin qarajda maşını var, həmin maşını götürüb çıxıb getsinlər. Cinayətkarlar onsuz da maşın üçün gəlmişdilər. Nazim maşının açarını onlara verir. Həmin oğlan qarajın qapısını da açır. Qarajda ağ rəngdə təzə həmin dövrün kursu ilə 56 milyon manat dəyəri olan «Prins STD DEU» markalı avtomaşını gördükdə Aslanbek və Sidek Albertin məlumatının düzlüyünə inanırlar. Sidek Abdulvahabov maşının açarını Aslanbek Çintamirovdan alır, özü sükan arxasında oturub maşının mühərrikini işə salır. Aslanbek də onun yanında qabaq oturacağda oturub maşını sürüb həyətdən çıxır, Ədalətin durduğu yerə gəlir. Ədalətin yanında Farizi görüb bağ evinə girmədiyinə görə Sidek onu danlamağa başlayır. Aslanbek Çintamirov Sidek Abdulvahabovu sakitləşdirərək «bunun vaxtı deyil, sonrakı məsələdir, tələsin yola düşək» – deyir. Fariz Həmidov isə onları inandırmağa çalışır ki, divarın yanında tək qalanda canına elə bir qorxu düşdü ki, özünü saxlaya bilməyib tez Ədalətin yanına qayıtdı. Aslanbek və Sidek tələm-tələsik maşına minir və Ədalətə də bildirirlər ki, onlar şəhərə ələ keçirdikləri maşınla gedəcəklər. O da Farizi götürüb öz maşını ilə şəhərə qayıtsın, orada görüşərlər. Lakin yolda Aslanbek də Sidekin sürdüyü «Prins STD DEU» avtomaşınından düşüb Ədalətin və Farizin olduğu avtomaşına minir. Sidek Abdulvahabov isə ələ keçirdiyi avtomaşınla tək sürüb gedir.

Ertəsi gün Husain və Sidek Abdulvahabov qardaşları, həmçinin Aslanbek Çintamirov şəhərdə görüşüb gecə ələ keçirdikləri maşının taleyi barədə söhbət aparırlar. Husain Abdulvahabov bildirir ki, quldurluq etdikləri evin sahibi qorxudan maşının açarlarını könüllü verib, yəqin ki, polisə məlumat verib və polis artıq maşını axtarır. Onu şəhərdə sürmək təhlükəlidir. «Prins STD DEU» markalı bütün maşınları saxlayıb yoxlayacaqlar, tez də ələ keçə bilərlər. Ona görə də onu

aparıb Saray qəsəbəsində Hacı Məmmədova vermək lazımdır. Hacı polis işçisidir. Onu cürət edib saxlayan olmayacaq, çünki hamı onu tanıyır. Maşının satışı ilə də qoy Hacının özü məşğul olsun. Hacı onlara nə pul versə, onu bölərlər.

Sidek Abdulvahabov həmin günün axşamı quldurcasına basqın zamanı ələ keçirdikləri avtomaşını Saray qəsəbəsindəki bağ evinə aparıb Hacı Məmmədova təhvil verir və ona deyir ki, satıb onların payını da versin.

Sidek Abdulvahabov maşını verib getdikdən sonra Hacı Məmmədov saxta dövlət nömrə nişanı düzəldib həmin avtomaşına bağlayır və maşını 5-6 il dövlət yol polis işçilərinin gözü qarşısında Bakı şəhəri və respublikanın digər bölgələrində heç bir problemlə rastlaşmadan idarə edir. Həmin müddət ərzində heç kim ondan axtarışda olan «Prins STD DEU» markalı maşın barədə heç nə soruşmur.

Maşın Hacıya verildikdən bir neçə gün sonra Husain Abdulvahabov Hacı Məmmədovla Saraydakı bağ evində görüşdə maşına görə Sidek Abdulvahabova 5 min ABŞ dolları məbləğində pul verir. Həmin banda üzvlərinin qabaqcadan olan razılığına görə əldə olunan qazanc onların arasında bölünməli idi. Husain və Sidek Abdulvahabov qardaşları isə öz vədlərini pozub, digər dəstə üzvlərindən xəbərsiz həmin məbləği öz aralarında bölürlər.

Hacı Məmmədov həmin maşını tam yararsız hala düşənə kimi sürür, sonra onu aparıb Novxanı qəsəbəsində dəniz kənarına tullayır.

Aslanbek Çintamirov, Ədalət Əsədullayev və Fariz Həmidov isə bundan xəbərləri olmadığına görə silahlı basqınla ələ keçirdikləri maşına görə Hacı Məmmədovdan hələ də pul gözləyirdilər. Bağ evinə girən digər banda üzvlərindən Ədalət və Fariz qazancın bölünməsi məsələsinə o qədər fikir verməsələr də, Aslanbek Çintamirov səbrsizliklə gözləyirdi ki, maşının satışından əldə olunan puldan ona da versinlər. Aslanbek bir müddətdən sonra maraqlanıb bu barədə Sidek Abdulva-

habovdan soruşduqda Sidek qardaşı ilə bölüşdürdüyü pulu ondan yenə də gizlədir və Aslanbekə bildirir ki, Hacı maşını sata bilmir. Sidek Abdulvahabovun cavabı onu təmin etmir və onun dediklərinə inanmır. Aslanbek artıq Sidek və Husain Abdulvahabov qardaşlarından şübhələnməyə başlayır. O, artıq hiss edir ki, özü çeçen olsa da, hər iki çeçen qardaş onu təkləyib və aldadaraq ona atıblar. Ona görə də Sideklə olan söhbətdən bir-iki gün sonra o, digər banda üzvlərindən xəbərsiz Hacı Məmmədovun Saraydakı bağ evinə gedir və Hacı ilə görüşür. Xeyli söhbət etdikdən sonra Aslanbek Hacıdan onu narahat edən «Prins STD DEU» markalı maşın barədə soruşur Hacı bildirir ki, həmin maşına görə o, Sidekin qardaşı Husainə 5 min ABŞ dolları pul verib.

Aslanbek Çintamirov Hacı Məmmədovla olan söhbətdən sonra artıq başa düşür ki, bu iki qardaş onu aldadıb. Bakıya qayıtdıqdan sonra o, Sideklə əlaqə saxlayır və Hacı Məmmədovun dediklərini ona danışır. Sidekdən nə üçün onların belə hərəkət etdiklərini soruşur və bildirir ki, axı onun özü də çeçendir, cinayəti bir yerdə törədiblər. Həmin maşın onların birgə ələ keçirdikləri qənimətdir və ona da pay verilməli idi. Sidek isə Hacı Məmmədovun ona və qardaşı Husainə pul verməsini inkar edərək Aslanbek Çintamirovu yenidən aldadır. Sidek dərhal bu barədə qardaşı Husainə xəbər çatdırır ki, Aslanbek Hacı ilə görüşüb və pulun verilməsindən xəbəri var. Husain Abdulvahabov da Hacı Məmmədovla görüşdükdə narazılığını bildirir və deyir ki, o, pulun verilməsini Aslanbekə deməyə bilərdi.

Aslanbek Çintamirov təkrarən Hacı Məmmədovla görüşdükdə Hacı yenə də əvvəl dediyini təsdiq edir. Lakin Aslanbekə deyir ki, aralarında olan söhbəti Sidek bilməməli idi. Sideklə Husain qardaşdılar. Aralarında olan söhbəti Sidek qardaşına xəbər verdiyinə görə Husain də onun yanına gəlib, verdiyi 5 min ABŞ dollara görə narazılığını bildirib və ondan inciyib.

Rayon hərbi komissarının köməkçisi istiqamət verir



Abdulvahabov Husain və Sidek qardaşları «cinayətkar birlik»də özlərini başqalarına nisbətən həddindən artıq arxayın və sərbəst aparırdılar. Onların dediklərinə etiraz edən olmurdu. Özləri də hiss edirdilər ki, Hacı Məmmədov və digər dəstə üzvləri həmişə onlarla hesablaşır. Bu isə bir tərəfdən onların qardaş kimi sirlərinin və məsləhətlərinin bir olması, digər tərəfdən banda üzvlərinin əksəriyyətinin çeçenlərdən ibarət olması ilə əlaqədar idi.

«Cinayətkar birlik»də iştirak edən yerli azərbaycanlıların əksəriyyəti dövlət vəzifələrində, daha dəqiq deyilsə, hüquq-mühafizə orqanları sistemində işləyir, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində yüksək rütbə daşıyırdılar. Ona görə də həmin dəstəyə qoşulan yerli azərbaycanlı cinayətkar ünsürlər çeçen millətindən olan şəxslər tərəfindən şantaj oluna biləcəklərindən ehtiyat edərək istər-istəməz Husain və Sidek qardaşlarını və digərlərini eşitməli olurdular. Eyni zamanda vəzifə sahibləri olan yerli cinayətkarlar öz əməllərini həyata keçirmək məqsədi ilə çeçenlərdən məharətlə istifadə edirdilər.

1995-ci ilin dekabrında Hacıqabul rayon hərbi komissarının köməkçisi işləyən Elşən Mirzəyev bir neçə il Bakı şəhəri Binəqədi rayonunun Vo-

rovski qəsəbəsində yaşadığına görə bəzi imkanlı şəxslər barəsində onda məlumatlar vardı. Ona görə də o, Sidek və Aslanbekə Binəqədi qəsəbəsindəki bir evdə yaxşı pul və qızıl-zinət əşyaları olması barədə istiqamət verir. Bunun üçün o, basqın ediləcək evi Sidek Abdulvahabov və Aslanbek Çintamirova göstərir. Sidek və Aslanbek bir neçə dəfə evi və evin ətrafını müşahidə edirlər. Binanın giriş və çıxış yollarını öyrənir, evə girən və çıxanları güdürlər. Sidek də Elşən Mirzəyevin verdiyi bu məlumatı qardaşı Husain Abdulvahabova çatdırır.

Husain Abdulvahabov qardaşı Sidekin dedikləri ilə razılaşır. Lakin Sidekə bildirir ki, bunu da Hacıya demək lazım deyildir. Bu dəfə də Hacısız keçinmək olar. Bu əməliyyatın rəhbərliyini əsasən Husain və Sidek qardaşları öz əllərinə alırlar. Lakin Husain Abdulvahabov Hacı Məmmədovun cinayət birliyinə daxil olan dəstənin rəhbəri olduğuna görə özü əməliyyatda bilavasitə iştirak etmək istəmir. Ona görə əməliyyatın keçirilməsini qardaşı Sidek və Aslanbekə tapşırır. Bundan əvvəl Viktor Əhmədovun bağ evinə basqın zamanı əldə etdikləri 5 min dollardan Aslanbek Çintamirova verməsələr də, Aslanbek onlarla əməliyyatda iştirak etməyə yenə də razılıq verir. Onları bir-biri ilə təkcə maddi maraqlar deyil, yerlilik, bu qərib yerdə bir-birinə arxa durmaq əlaqəsi də birləşdirirdi.

Dəstə başçısı Husain Abdulvahabovun tapşırığından sonra Sidek və Aslanbek həmin basqının hazırlanması ilə məşğul olurlar. Cinayətkar dəstənin tərkibinə əvvəlki basqında onlarla birlikdə iştirak edən polis əməkdaşı Ədalət Əsədullayevi və Alberti də daxil edirlər. Ədalət Əsədullayev polis işçisi olduğuna görə gecələr onların təhlükəsiz və maneəsiz hərəkətləri üçün, həmçinin avtomaşınından nəqliyyat vasitəsi, özündən isə sürücü kimi istifadə etməkdə onlara lazım idi.

Sidek Abdulvahabov, Aslanbek Çintamirov və Albert yeni əməliyyatın xırdalıqlarını bir daha müzakirə edir və həmin evə ediləcək basqının günü və saatını dəqiqləşdirirlər.

Belə qərara gəlirlər ki, 16 dekabr 1995-ci il tarixdə saat 3-4 radələrində hamı yatandan sonra deyilən evə basqın etsinlər. Evə basqın etməzdən əvvəl onlar özləri ilə «TT» markalı tapança, həmçinin avtomat silah götürürlər. Bunlardan başqa evə girəndə tanınmasınlar deyə, hər biri özü ilə maska da götürür. Sidek, Aslanbek, Albert vədələşdikləri kimi gecə saat 3-4 radələrində Ədalət Əsədullayevin idarə etdiyi VAZ-2107 markalı avtomaşınla Binəqədi (Vorovski) qəsəbəsi, Koroğlu küçəsi 16 saylı evin qabağına gəlirlər. Ədalətdən başqa əməliyyatda iştirak edənlər maşından düşüb hasarboyunca gedib dəmir darvazanın qabağında dururlar. Ədalət Əsədullayev isə idarə etdiyi avtomaşını həmin küçədə bir qədər irəli sürüb gözləmə mövqeyində dayanır.

Vorovski qəsəbəsində banda üzvlərinin basqın etdikləri həmin ev Rəna Paşayevaya məxsus idi. Basqın edilən gecə evin ikinci mərtəbəsində Rəna öz qızı Aytənlə, birinci mərtəbədə isə oğlu Rəşad öz dostu Zöhrab adlı oğlanla yatırdı. Rəna Paşayevanın əri həmin gecə işlə əlaqədar evdə yox idi. Gedərkən həyat yoldaşına bildirmişdi ki, gec də olsa, evə qayıdacaq. Eyni zamanda tapşırmışdı ki, darvazanı bağlasalar da evin qapılarını açarla bağlamasınlar. Rəna Paşayeva ərinin dediyi kimi darvazanı bağlamış, lakin evin qapılarını isə örtmüşdü.

Sidek Abdulvahabov, Aslanbek Çintamirov və Albert həyətə girməmişdən qabaq başlarına maska keçirirlər və darvazanı bir neçə dəfə döyürlər. Zəngin düyməsini bassalar da çölə çıxan olmur. Ona görə də onlar hasardan keçərək həyətə düşürlər. Evin qapıları arxadan bağlanmadığından heç bir maneəyə rast gəlmədən birinci mərtəbəyə daxil olurlar. Birinci mərtəbədə iki nəfər oğlanın yatdığını görüb onların ağızlarını yapışqanlı lentlə, əllərini arxaya burub kəndirlə bağlayıb, hər ikisini üzüüstə iki çarpayının arasına uzadırlar. Albert əlində tapança onların yanında durur, Sidek və Aslanbek isə yatanlar oyanmasınlar deyə asta-asta evin ikinci mərtəbəsinə qal-

xırlar. Əvvəlcə qonaq otağına girib otağın işığını yandırırlar. Yerində uzanan, lakin hələ gözünə yuxu getməyən evin sahibəsi Rəna Paşayeva qonaq otağının işığının yandığını görəndə elə başa düşür ki, əri bağdan qayıdıb. Rəna Paşayeva başını yastıqdan qaldıranda yataq otağının qapısında maskalı bir nəfərin dayandığını görüb, qorxusundan qışqırmaq istərkən qapıda duran maskalı Sidek Abdulvahabov onun üstünə gəlir və xırıltılı səslə rus dilində bildirir ki, səs-küy salmasın və yataqdan durmalarını tələb edir. Həmin vaxtı Aslanbek Sidekin yanına gəlir və rus dilində bir-biri ilə nəsə pıçıldaşırlar. Yataq otağına girən Aslanbek əlindəki avtomatı, Sidek isə tapançanı Rənaya və qızına tuşlayır. Rəna Paşayeva ayağa durub Azərbaycan dilində onların kim olmasını və nə istədiklərini soruşduqda Sidek rus dilində «qde denqi, day denqi» deyə Rənanın üstünə qışqırır. Rəna Paşayeva isə pulun olmadığını bildirir. Sidek Abdulvahabov onu və uşaqlarını öldürəcəyi ilə hədələdikdə Rəna Paşayeva daha da qorxuya düşür və onu birinci mərtəbəyə düşürtməyi xahiş edir. Sidek əlindəki tapançanı qadının üzünə tuşlamaqla onu birinci mərtəbəyə düşürdür. İkinci mərtəbədə isə əlində avtomat olan Aslanbek Çintamirov qızın yanında qalır. Birinci mərtəbəyə düşürdülən Rəna Paşayeva oğlunun və onun dostunun da ağızlarının yapışqanlı lentlə bağlandığını, əllərinin arxaya burulub üzüüstə yerdə – çarpayının yanında uzadıldığını və onların yanında da əlisilahlı bir nəfər maskalının durduğunu görəndə özünü itirir. Sidek yenidən onun üstünə acıqlanaraq pulun yerini soruşduqda Rəna birinci mərtəbədə yataq otağı kimi istifadə etdikləri otaqda saxladığı 5 min dolları götürüb Sidekə uzadır. Bundan sonra Rəna Paşayevaya məxsus üç ədəd kürkü, plaşı, oğlu və ərinin gödəkçəsini də götürürlər. Bu vaxt Aslanbek Rəna Paşayevanın ikinci mərtəbədə saxladığı qızını da birinci mərtəbəyə düşürür. Sidek, Aslanbek və Albert onların hamısını birinci mərtəbədəki yataq otağı kimi istifadə etdikləri otağa salır. Sidek Abdulvahabov Aslanbek

və Albertə ikinci mərtəbəyə qalxıb otaqları yenidən axtarmağı tapşırır, özü isə otaqda bir yerə topladıqları ailə üzvlərinin yanında qalır.

Aslanbek və Albert evin ikinci mərtəbəsində otaqları alt-üst edərkən birinci mərtəbədə qalan Sidek Abdulvahabov otaqdakıları qorxutmaq məqsədi ilə ağzı yapışqanlı lentlə və əlləri kəndirlə bağlanan Rəşadı ayağa qaldırıb əlindəki tapançadan oğlanın ayaqları arasından yerə atəş açır. Güllə oğlanın ayaqlarına deyil, çarpayının üstündən sallanan döşəyə dəyir və döşək alovlanıb yanmağa başlayır. Dərhal evi tüstü basır, nəfəs almaq çətinləşir. Alovun artmasını görən Sidek Abdulvahabov içində su olan güldanı götürür, suyunu yanan döşəyin üstünə tökür, alov sönsə də, otaq kiçik olduğundan tüstü və buxarla dolur.

İkinci mərtəbədə evdə axtarış aparan Aslanbek və Albert isə Rəna Paşayeva və qızına məxsus 53 ədəd qızıl-zinət əşyasını, bir ədəd «Panosonik» markalı videokameranı, bir ədəd «Motorolla» markalı mobil telefonu, maqnitofon və digər əşyaları toplayıb çantaya yığırlar. Bundan sonra Albert çantanı götürüb Aslanbeklə birgə aşağı – birinci mərtəbəyə düşürlər. Onları gözləyən Sidek Abdulvahabova bildirirlər ki, yuxarıdan qurtarıblar, hər şey qaydasındadır. Sidek Abdulvahabov başı ilə işarə edərək çıxıb getməyi bildirir və otaqda saxladıqları şəxslərə 15-20 dəqiqə ərzində yerlərindən tərpənməməyi əmr edir. Dəstə üzvü Albert həmçinin onlara hədə-qorxu gələrək eşitdirir ki, tez durmasınlar, əks təqdirdə yenidən qayıdıb evi də partladarlar. Onlar evi tərk edib küçəyə çıxırlar. Bir qədər aralıda öz şəxsi avtomaşınında oturub onları gözləyən Ədalət Əsədullayevə yaxınlaşırlar. Tələsik maşına minib həmin yerdən uzaqlaşırlar.

Dəstə üzvləri səhər onları əməliyyata göndərən Husain Abdulvahabovun yanında yığışırlar. Onlar gecə Rəna Paşayevanın evinə etdikləri silahlı basqın zamanı əldə etdikləri pul və qızıl-zinət əşyalarını öz aralarında bölürlər.

Qonşunun mənzilinə basqın planı

Silahlı bandanın bəzi üzvləri arasında quldurluqla əldə etdikləri pulun bölünməsi ilə bağlı yaranan narazılıq onları heç də birgə növbəti cinayətlər törətməkdən çəkindirmədi.1996-cı il yanvar ayının axırlarında Saray qəsəbəsində Hacı Məmmədovun bağ evində Husainlə Sidek Abdulvahabov qardaşları növbəti dəfə Hacı Məmmədovla görüşəndə əsas söhbətləri ancaq törədəcəkləri yeni cinayətlər ətrafında oldu. Söhbətin gedişində Hacı Məmmədov onlara bildirir ki, Şirxan Albiyev varlı bir qadının evinə basqın etməyi təklif edir. Həmin qadını onun özü də tanıyır. Afaq Məlikova adlı bu qadın onun və anasının qonşusudur. O, Bakı şəhərində Rəşid Behbudov küçəsindəki 8 saylı evdə yaşayır. Şirxan Albiyev də həmin ünvanda olan mənzillərin birində kirayədə qalır. Əslində onun özü də əvvəllər Şirxanın indi təklif etdiyi fikirdə olub. Lakin qonşu olduğuna görə fikrindən daşınıb. Şirxan Albiyev həmin qadında çoxlu pul olmasını deyir. Bildiyinə görə həmin imkanlı qadın xaricə getməyə hazırlaşır. Məlumata görə onun evində 40-50 min ABŞ dolları məbləğində pul və qızıl-zinət əşyaları var. Hacı onu da bildirir ki, həmin qadının evinə hər gün qoca bir dayə gəlib gedir, evdə kişi xeylağı yoxdur, varsa da, evə gec-



gec gəlir. Evdə əsasən qadın və qızlar qalır. Yaxşı olar ki, səhər vaxtı dayə içəri keçərkən bundan istifadə edib mənzilə girsinlər. Husain və Sidek Abdulvahabov qardaşları Hacının təklifi ilə razılaşırlar. Sidek Abdulvahabov eyni zamanda əlavə edərək bildirir ki, onlara pul lazımdır, evin kimə məxsus olması onları maraqlandırmır. Təki imkanlı olsun, pulu çox olsun. Onların ovu da belə adamlardır. Bununla da onların həmin günə olan söhbətləri başa çatır .

Husain və Sidek Abdulvahabov qardaşları mənzilə girməli idilər. Lakin Husain belə qərara gəlir ki, əvvəlcə özləri də həmin yeri təkrar öyrənsələr yaxşı olardı. Bundan sonra Hacının deməsinə baxmayaraq Husain və Sidek Abdulvahabov qardaşları həm onun qonşusu Afaq Məlikovanı, həm də evinə gələn dayəni bir neçə dəfə güdürlər. Hacının dedikləri düz çıxır. Mənzilin qapısı da dəmir qapıdır, evdəkilər ancaq gözlükdən baxandan sonra tanıdığı adamlar üçün qapını açırlar. Cinayətkar bandanın üzvləri güdmə işlərini tamamladıqdan sonra Afaq Məlikovanın evinə basqın planını işləməyə başlayırlar. Lakin belə qərara gəlirlər ki, həmin mənzilə başqa yolla girmək mümkün olmayacaq. Yalnız bir yol var. Onlar dayənin qapını döyməsini gözləməli, qapı açılanda isə dayəni qabaqlayıb onunla birlikdə içəri keçməli.

Husain Abdulvahabov qardaşına tapşırır ki, həmin mənzilə basqın edəcək dəstəni yığsın və əməliyyata hazırlaşsınlar. Bundan sonra Sidek Aslanbeklə görüşür. Əvvəlki silahlı basqından əldə etdikləri puldan Aslanbekə verilməsə də, onlar bu dəfə görüşdükdə bir daha həmin söhbəti təzələmirlər. Sidek Aslanbekə bildirir ki, bu Hacı Məmmədovun təklifidir. Şəhərin mərkəzində yaşayan bir imkanlı qadının evinə basqın etmək lazım olacaq. Həmin evdə çoxlu pul və qızıl-zinət əşyaları var. Sidek həmçinin Aslanbekə bildirir ki, basqın edəcəkləri mənzil Hacının anasının qonşuluğundadır. Ona görə də Hacının özü oraya yaxın getmək istəmir. Birdən onu orada görən olar. Ondan şübhələnə bilərlər.

Aslanbek və Sidek həmin əməliyyata əvvəlki basqınlarda onlarla iştirak edən və özlərini doğruldan Alberti, Ədalət Əsədullayevi və Faiqi də cəlb edirlər. Ədalətin vəzifəsi maşını idarə etmək idi. Dili bilmədiklərindən mənzilə girərkən Azərbaycan dilində danışa bilən adama onların ehtiyacı var idi. Ona görə də Faiqi dəstəyə cəlb etdilər.

Hacı Məmmədovun göstərişi ilə Aslanbek və Sidekin cinayətkar dəstəsi 1996-cı il fevralın 14-ü tarixində səhər saatlarında Afaq Məlikovanın evinə basqın etməyi razılaşırlar.

Evə basqın təyin olunan günü səhər Sidek, Aslanbek, Albert və Faiq Ədalətin idarə etdiyi qırmızı rəngli «VAZ–2107» markalı avtomaşınla basqın edəcəkləri evin qabağına gəlirlər.

Yolda ikən Sidek Abdulvahabov Faiqə tapşırır ki, ola bilsin ki, dayə onlardan tez gəlib evə girsin. Belə olanda onların planı pozula bilər. Ona görə də bir qədər gözləyirlər, dayə gəlib çıxmasa, onda qapıya yaxınlaşıb qapını döymək, soruşan olsa, demək lazımdır ki, ustadır, gördüyü işə görə Afaq xanımdan pulunu almağa gəlib. Belə deyilsə, ola bilsin ki, qapını açsınlar.

Banda üzvləri Afaq Məlikovanın yaşadığı evin qabağına çatdıqda Sidek, Aslanbek və Faiq maşından düşür, Ədalət isə maşını sürüb küçədə bir qədər irəlidə saxlayaraq onları gözləyir. Əvvəlcədən danışıldığı kimi evin həyətinə birinci Faiq, onun ardınca Sidek və Aslanbek daxil olurlar. Həyətə daxil olduqdan dərhal sonra basqınçıların dördü də başlarına qara maska keçirirlər. Afaq Məlikovanın mənzili dördüncü mərtəbədə olduğundan Faiq dördüncü mərtəbəyə qalxır, digərləri isə birinci mərtəbədə gizlənir, dayəni gözləyirlər. Lakin onlar artıq gecikmişdilər. Dayə kimi gözlədikləri həmin qadın artıq onlardan qabaq gəlmişdi. Xeyli gözlədikdən sonra dayənin gəlmədiyini görüb qabaqcadan şərtləşdikləri planla hərəkət edərək Faiqə işarə edirlər. Sidekin tapşırığını alan Faiq Afaq Məlikovanın qapısına yaxınlaşıb zəngin düyməsini ba-

sır. Onların tanımadığı, lakin mənzildə olan dayə Yekaterina Kasımskaya içəridən qapıya yaxınlaşır və zəngi basanın kim olmasını soruşur. Qapı arxasından Faiq cavab verir ki, gələn ustadır. Gördüyü işə görə Afaq xanım ona pul borcludur, pulun dalınca gəlib. Faiq bu sözləri dedikdən sonra Yekaterina Kasımskaya evin sahibəsinə demədən qapını açır. Əllərinə fürsət düşən maskalılar – Aslanbek, Sidek, Albert və Faiq qapını açan Yekaterina Kasımskayanı itələyib yerə yıxır özlərini içəri atıb, qapını arxadan bağlayırlar. Yekaterina dərhal ayağa durub onların qabağına keçmək istədikdə basqın edənlərdən biri yumruqla onu vurub, yenidən yerə yıxır. Mənzilə daxil olanda onların əllərində tapança, bıçaq və polis dubinkası vardı. Onlar ev sahibəsi Afaq Məlikovaya, qulluqçu Yekaterina Kasımskayaya, 20 yaşlı Nərminəyə və onun iki uşağına səslərini çıxarmamağı tapşırırlar, əks təqdirdə öldürəcəkləri ilə hədələyirlər. Buna baxmayaraq qəfil başlanan basqından vahiməyə düşən evdəkilər qışqırmaq istərkən basqınçılar qonşuların eşidəcəklərindən ehtiyat etdiklərindən hədə-qorxu gələrək bir daha səslərini çıxarmamağı tələb edirlər. Bu zaman Aslanbek qapının arxasında durur ki, gözlükdən hər-hansı bir adamın gəlib gəlməməsi barədə xəbər verə bilsin. Sidek Abdulvahabov isə tapançanı Nərminə və ev sahibi Afaq Məlikovaya tuşlayaraq onları yataq otağına salır. Hədə-qorxu gəlməklə evdəki pulun və qızıl-zinət əşyalarının yerini deməyi tələb edir. Sidek Azərbaycan dilini bilmədiyi üçün onun rus dilində dediklərini Faiq Quliyev Azərbaycan dilində Afaq Məlikovaya və Nərminəyə tərcümə edir. Afaq Məlikova evdə pulunu və qızıl-zinət əşyalarının olmadığını dedikdə Sidek onun saçlarından tutaraq darta-darta pulların yerini deməyi tələb edir, deməsə öldürəcəyi ilə hədələyir və dubinka ilə bir dəfə onu vurur. Bundan qorxan Afaq Məlikova yalvarır ki, onlara toxunmasınlar, nə istəyirlərsə evdən götürüb getsinlər. Lakin yalvarışların heç bir təsiri olmur. Afaq Məlikova şifonerdən qızıl-zinət əşyaları olan mücrünü

götürüb Sidekə verir. Sidek yenə də bununla kifayətlənmir və bildirir ki, evdə bundan başqa yenə də nə isə olmalıdır. Pulun yerini göstərməyi tələb edir və əks təqdirdə qızı, iki nəvəsini və onu da öldürəcəyi ilə hədələyir. Qorxu içərisində olan Afaq Məlikova velur materialdan olan və içərisində qızılzinət əşyaları yığılan başqa bir mücrünü də Sidekə verir. Bu da onları təmin etmir və ona görə də Sidek və Faiq evi alt-üst edərək axtarmağa başlayırlar. Axtarışda əldə etdikləri 10 min ABŞ dolları və Afaq Məlikovanın kürkünü, yarımkürkünü, nəvələrinin geyilməmiş paltarlarını üç çantanın içərisinə yığaraq evdən çıxırlar. Onları dərhal izləməsinlər deyə, mənzildən çıxmamış evdəkilərin əl-ayağını bağlayıb yerə uzadırlar. Onlar gedənə kimi yerdən tərpənməməyi tapşırırlar. Yoxsa qayıdıb öldürəcəkləri ilə hədələyirlər. Qapıdan çıxarkən telefonun şnurunu da dartıb yerindən qoparırlar.

Aslanbek Çintamirov, Sidek Abdulvahabov və digərləri evi tərk etdikdən sonra əli qolu bağlılar köməkləşib birbirlərinin qollarındakı ipləri açırlar. Nərminə qonşuluqda yaşayan qaynatasıgilə gedib basqın barədə xəbər verir.

Aslanbek, Sidek və Faiq küçədə onları gözləyən Ədalət Əsədullayevin idarə etdiyi maşına minib hadisə yerindən uzaqlaşırlar.

Səhər quldurlar əldə etdikləri pulu və qızıl-zinət əşyalarını Husain Abdulvahabovun iştirakı ilə öz aralarında bölürlər. Lakin bu cinayətin istiqamət verəni Şirxan Albiyev və Hacı Məmmədov olsa da, Husain və Sidek Abdulvahabov qardaşları bu dəfə də Hacı Məmmədov və Şirxan Albiyevi aldadaraq onlara pay vermirlər.

Cinayət hadisəsindən bir gün sonra Bakı şəhərinin 9-cu mikrorayon yaşayış massivində Hacı Məmmədov Sidek Abdulvahabovla görüşür. Hacı Afaq Məlikovanın evinə basqın edilib-edilmədiyini soruşanda Sidek ona bildirir ki, onlar Afaq Məlikovanın evinə giriblər. Lakin mənzildən pul tapılmayıb. Evdən ancaq bir qədər qızıl-zinət əşyaları götürüblər.

Sidek Abdulvahabov digərləri ilə götürdükləri 10 min ABŞ dollarını da Hacı Məmmədovdan gizlədir. Sidek Hacını nə qədər inandırmağa çalışsa da, Hacı ona inanmır və bildirir ki, həmin evdə küllü məbləğdə pulun olması qabaqcadan ona məlum olub. Hacı Məmmədovun yadına düşür ki, çeçen qardaşlar bundan əvvəl də törətdikləri cinayətdən ələ keçirdikləri gəlirdən Aslanbekə verməyərək onu da aldatmışdılar.

Hacı Məmmədov bilirdi ki, onsuz da qardaşlar ona bundan sonra da pul verməyəcəklər. Lakin nə etməli? Axı onları irəlidə qardaşların iştirakı və köməyi ilə törədəcəkləri çoxsaylı və səsli-küylü cinayətlər gözləyir. Ona görə də onlarla münasibəti pozmaq istəmirdi.

«Qarabağ» əməliyyatı

Hacı istəyirdi ki, bandanın üzvləri ancaq onun dediklə-ri ilə oturub dursunlar. Lakin həmi-şə belə olmurdu. Xüsusilə, çeçenlər özləri lazım olan hallarda ona bildir-mədən ayrı-ayrı şəxslərə və mənzillərə basqınlar təşkil edirdilər. Əldə olunan qənimətlərin bölgüsü zamanı Hacı Məmmədov aldadılaraq kənarda qa-lırdı. Qonşusu Afaq Məlikovanın evi-nə basqın etməyi Şirxan Albiyevin məsləhəti ilə çeçenlərə təklif etsə də, qənimət bölgüsü zamanı ona nə pul və nə də qızıl-zinət əşyalarından pay düşmədi. Rəna Paşayevanın evinə də ondan xəbərsiz silahlı basqın edildi və həmin basqın zamanı əldə olunan qənimətlərin bölgüsündən də Hacı kə-narda qaldı. Silahlı basqınlar barədə ona məlumat çatsa da, «cinayətkar birlik»də parçalanma əmələ gəlməsin deyə Hacı Məmmədov heç nəyi açıb-ağartmırdı. Ona görə də o, qərara gəl-di ki, bundan sonra ediləcək basqınla-ra onun özü bilavasitə rəhbərlik etsin.

Bu dəfə Hacının diqqətini yaxın-lıqda işləyən və yaşayan bir nəfərin oğlu cəlb etdi. Bu şəxs barəsində də ona Şirxan Albiyev təklif vermişdi. Onun qonşusu «Abşeron» mehman-xanasında fəaliyyət göstərən kazino-nun sahibi, «Kazino» ləğəbli, Əbdül kimi çağırılan iş adamı Əbdülməcid kişinin oğlu idi.



Əbdülməcidin oğlu Elşən Hacının yaşadığı evin yaxınlığında avtomat oyun qurğularını işlədirdi. Özü də sürücünün idarə etdiyi «QAZ–31» markalı avtomaşında gəzirdi. Şirxan Albiyev də həmin vaxt Hacı Məmmədovun anasının yaşadığı evin həyətində kirayədə qalırdı. Elşən Həsənovun oğurlanmasını da Hacı Məmmədova o təklif etmişdi. 1995-ci ilin payızından başlayaraq Hacı ilk əvvəl Elşən Həsənovu güdməyə, onun yaşadığı və işlədiyi yerlərə gediş-gəlişinin vaxtını və marşrutunu izləməyə başlayır. Saray bağlarında Elşəni oğurladıqdan sonra saxlamaq üçün xüsusi saxlanc yeri düzəldir. Həmin yerin zirzəmisinin bir hissəsini daşla hörüb ayırır. Dəmir qapı qoyur, ortasından da dirək formasında bir dəmir boru yerləşdirir ki, oğurladığı şəxsi həmin boruya bağlasın. Hacı zirzəmidəki otağı həddindən çox balaca düzəldir. Otağın tavanı betondan, divarları isə suvanmış vəziyyətdə olur. Qapının iç üzünə səs-küy eşidilməsin deyə xalça asır. Yatmaq üçün köhnə döşək, yorğan və balış, tualet üçün plastik vedrə qoyur.

Elşənin gediş-gəliş vaxtı və marşrutunu müəyyən etdikdən sonra Hacı Aslanbek, Husain və Sideklə məsləhətləşir və onlara bildirir ki, Elşənin atası imkanlıdır. Ondan yaxşı pul qoparmaq olar. Elşən hər gün axşam «Qaz–31» markalı maşınla «Qarabağ» mehmanxanasından bir az aralıda yerləşən evinə gedib-gəlir. Hacı Məmmədovun özü onlara Elşənin iş yeri və evini də göstərir. O, Elşənin oğurlanmasına görə əldə ediləcək pulun təxminən 30-40 faizini onlara verəcəyini vəd edir. Sidek və Aslanbek bir neçə dəfə Elşənin gediş-gəliş yerlərini təkrar izləməli olurlar. Bundan sonra Hacı Məmmədov və Husain Abdulvahabov «Qarabağ» mehmanxanası yanında yaşayan Elşənin oğurlanması əməliyyatını Sidek və Aslanbekə tapşırır və dəstəyə digər etibarlı çeçenləri də cəlb etməklə həmin dəstəni bir daha möhkəmləndirir. Hacı Məmmədovun bu əməliyyatı Dağlıq Qarabağı işğal edən ermənilərə qarşı təşkil olunan əməliyyat deyildi. O, həmin əməliyya-

tı Bakı şəhərinin mərkəzində «Qarabağ» mehmanxanasının qonşuluğunda yaşayan öz xalqının nümayəndəsinə qarşı təşkil edirdi.

Sidek Abdulvahabov və Aslanbek Çintamirov Elşəni oğurlamaq üçün Faiq Quliyevi, Eldar Rəhimovu, Ədalət Əsədullayevi və İsanı da bu işə cəlb edirlər. Onlar «AKM» markalı avtomat silahla və tapança, dubinka ilə, qandal və maskalarla silahlanırlar. Onlar 2-3 gün Elşəni güdsələr də, onu oğurlamaq üçün yaxşı imkan əldə edə bilmirlər.

27 fevral 1996-cı ildə axşam Sidek, Aslanbek, İsa, Faiq və Ədalət «QAZ–24» markalı maşınla Elşən Həsənovun yaşadığı binanın yanına gəlib gözləməyə başlayırlar.

Sidek Abdulvahabov və Aslanbek Çintamirovun minib hadisə yerinə gəldikləri ağ rəngli «QAZ-24» markalı avtomaşın Sidekə məxsus olsa da həmin gecə onu Ədalət Əsədullayev idarə edirdi. Saat 22–23 radələrində Elşən Həsənovun olduğu «QAZ–31» markalı avtomaşın həyətə daxil olur. Sidek və Aslanbek gələn maşını müşahidə etdiyi bir vaxtda Faiq Quliyev qorxduğundan hadisə yerindən qaçır. Sürücü Vaqif Bəkirov maşını saxladıqda Elşən Həsənov maşının arxa oturacağından düşüb yaşadığı binanın blokuna doğru hərəkət etməyə başlayır. O, binanın blokuna girən kimi Aslanbeklə İsa Elşənin üstünə hücum çəkir. Elşən qışqırıb, onlara müqavimət göstərmək istəyir. Lakin İsa avtomatın qundağı ilə Elşən Həsənovun başına zərbə endirir, qolundan tutaraq onu zorla «QAZ–24» markalı avtomaşının arxa oturacağına basaraq qara kisəni başına keçirir. Qollarını da arxaya burub qandallayır, arxa oturacağın altına uzadırlar. Elşənin qışqırığına «QAZ–31» markalı avtomaşının sürücüsü Vaqif Bəkirov bloka girmək istəyir. Lakin Sidek Abdulvahabov onun qarşısını kəsib zorla «QAZ–31» markalı avtomaşının arxa oturacağına basır.

«Qaz–31» markalı maşının sükanı arxasına Sidek Abdulvahabov oturur. Sürücünün yanında isə arxa oturacaqda Faiq

oturub başına kisəni keçirir və əllərini qandallayır, ayaqlarını isə sürücünün belinə qoyur. Hər iki maşın binanın həyətindən çıxır. Banda üzvlərinin hərəkətlərini kənardan müşahidə edən Hacı Məmmədov idarə etdiyi avtomaşınla Saray qəsəbəsindəki bağ evinə yollanır.

Basqınçılar Elşən Həsənovu Saray qəsəbəsinə aparmaq üçün Binəqədi qəsəbəsinə gətirirlər. Həmin yerdə onlar avtomaşınları saxlayıb yerdəyişmə edirlər. Sidek özünə məxsus «QAZ–24» markalı avtomaşının, Ədalət isə «QAZ–31» markalı avtomaşının sükanı arxasına keçir və Albert də həmin maşında onun yanında oturur. Avtomaşında yerdəyişmə etdikdən sonra Sidek Abdulvahabov içərisində Elşən Həsənov olan avtomaşını Saray qəsəbəsi istiqamətinə sürür. Ədalət isə içərisində «Qaz-31» markalı avtomaşının sürücüsü olan Vaqif Bəkirovu öz maşınında əli-qolu bağlı vəziyyətdə Bakı şəhərinin 3-cü mikrarayon yaşayış sahəsinə aparır.

Gecədən xeyli keçmiş Sidek, Aslanbek və digərlərindən ibarət dəstə Elşəni Saray qəsəbəsindəki bağ evinə gətirirlər. Onları Hacı Məmmədov qarşılayır. Maşını həyətə saldıqdan sonra başına torba keçirilmiş Elşəni zirzəmiyə salır, qollarındakı qandalı isə zirzəminin ortasında basdırılmış dəmir dirəyə keçirirlər. Silahlar Hacı Məmmədova təhvil verilir və onlar gecə Bakıya qayıdırlar.

Sidek Abdulvahabov getdikdən sonra Ədalət Əsədullayev içərisində «QAZ–31» markalı avtomaşının sürücüsü Vaqif Bəkirov olan maşını 3-cü mikrorayon ərazisindəki ağaclıqda saxlayır. Ədalət Vaqif Bəkirovun başından qara kisəni, qollarındakı qandalı açır və ona xəbərdarlıq edir ki, sağ-salamat qalmaq istəyirsə 10 dəqiqə yerindən tərpənməsin. Ədalət isə Albertlə birlikdə maşından düşüb həyətlərin arası ilə oradan uzaqlaşır.

Vaqif Bəkirov on dəqiqə maşının arxa oturacağında başıaşağı uzanmış vəziyyətdə qalır və qorxusundan tərpənmir. Xeyli vaxtdan sonra o, yavaş-yavaş başını qaldırıb ətrafa baxır.

Yenə də heç kimi görmür. Avtomaşından düşdükdə yaxınlıqda beşmərtəbəli binanın olduğunu görür. Həmin beşmərtəbəli binanın şəhərin harasında olduğunu fikirləşir. Telefonu götürüb baş verənlər barədə xəbər vermək istədikdə onu qoyduğu yerdə tapa bilmir. Onu gətirənlər maşının açarını üstündə qoyub getmişdilər. Vaqif Bəkirov şəhərin harasında olduğunu bilmək üçün sükan arxasına keçərək maşını saxlandığı yerdən bir qədər qabağa sürür. Xeyli yol gedəndən sonra yoldan keçən bir nəfərdən şəhərin harasında olduğunu soruşur. Həmin şəxs buranın 3-cü mikrorayonun ərazisi olduğunu deyir.

Bundan sonra Vaqif Bəkirov idarə etdiyi avtomaşını Elşən Həsənovun yaşadığı evin yaxınlığında olan avtodayanacağa sürür. Avtodayanacaqdakı telefondan o, Elşən Həsənovun qonşusu İlyasa zəng edib Elşənin evdə olub-olmamasını xəbər alır. İlyas bildirir ki, xəbəri yoxdur, evdə olsa da, yəqin ki, yatıblar. Vaqif ona təcili deyiləsi sözü olduğunu dedikdə, İlyas onu evinə dəvət edir. Vaqif isə evə gəlməyə qorxduğunu bildirir. İlyas məsələnin ciddi olduğunu başa düşür və «yaxşı, orda gözlə» – deyə cavab verir. İlyas gecədən xeyli keçmiş avtodayanacağa Vaqifin yanına gəlir. Vaqif Bəkirov baş vermiş hadisəni İlyasa danışır. Qərara gəlirlər ki, məsələni təcili olaraq Elşən Həsənovun atasına çatdırsınlar. Birlikdə Elşən Həsənovun evinə gəlirlər. Sürücünün Elşənsiz gəldiyini görən ailə üzvlərinin narahatçılığı daha da artır və dərhal «Elşən haradadır, nə baş verib?» – deyə soruşurlar. Vaqif başına gələn hadisəni Elşənin atasına və digər ailə üzvlərinə danışır.

Sidek Abdulvahabov, Aslanbek Çintamirov və qeyriləri Elşəni Hacı Məmmədova təhvil verdikdən sonra Hacı həmin gecə onların hamısını evə buraxır. Özü isə bağ evində qalır. Səhər Hacı Məmmədov Eldar Rəhimovu Saraydakı bağ evinə çağırır və ona bildirir ki, Sidek və Aslanbek Elşən adlı bir nəfəri oğurlayıb bağa gətiriblər. Hazırda o, zirzəmidədir. Hacı Məmmədov daha sonra Eldara bildirir ki, həmin oğlanın atası imkanlı adamdır. Onun atasından yaxşı pul qoparmaq olar.

O, Eldara təklif edir ki, Elşənin keşiyini çəksin, alınacaq pulun 10 faizini ona verəcək. O, sözünə davam edərək bildirir ki, bu işi başqa adama etibar etmək istəmir. Eldar Rəhimov Hacı Məmmədovun təklifini dərhal qəbul edir.

Eldar Rəhimov Nərimanov Rayon Mühafizə İdarəsində növbətçi baş inspektor vəzifəsində işləyirdi. O, Hacı Məmmədovun təklifini qəbul etdikdən sonra iş yerindən məzuniyyət götürür və ailə üzvlərinə bildirir ki, Rusiyanın Dağıstan Respublikasına ezamiyyətə gedir. Əslində isə o, Hacı Məmmədovun bağ evində Elşənin keşiyini çəkir. Elşən Həsənovun keşiyini çəkən Eldar tək olmur. Ona adı məlum olmayan başqa bir çeçen də kömək edir.

Eldar Rəhimova yemək aparan çeçen başına maska keçirir və girovdan üzünü divara çevirməyi tələb edirdi. Elşən Həsənovun yeməyini Hacının özü gətirir, Eldar Rəhimov və həmin çeçen isə Elşənə çatdırırlar.

Bir qədər sonra keşiyini çəkənlər qandalı onun bir qolundan açıb, digər qolunu dəmir boruya bağlayırlar. Bu hal bir neçə dəfə təkrar olunur. Elşənə günortalar istisna olmaqla, pərdənin arxasından hər səhər soyulmuş iki yumurta, bir neçə tikə çörək, termosda çay, axşamlar isə kolbasa çörək, tualet üçün istifadə etməyə 10 litrlik plastmas vedrədə su verirdilər. Yatmaq üçün verilmiş çirkli yorğan-döşək isə pis gündə idi.

Hacı Elşən Həsənovdan evlərinin və qohumlarının telefon nömrələrini götürür və Eldar Rəhimovla birlikdə şəhərdəki avtomat telefonlardan atası Əbdülməcid Həsənova zəng edib, oğlunun azad edilməsi üçün 500 min dollar tələb edirdi. Hacı Məmmədov Elşənə diktə ilə məktub yazdırıb, atasına ünvanlayır. Həmin məktubları aparıb şəhərin ayrı-ayrı yerlərinə qoyur və sonra Əbdülməcid Həsənova zəng edərək məktubu qoyduğu yeri ona xəbər verir. Hətta telefon danışıqlarında Hacı Əbdülməcid Həsənova hədə-qorxu gələrək bildirir ki, tələb olunan pul verilmədiyi təqdirdə oğlu Elşənin qulağını kəsib, yaxud da gözünü çıxarıb ona göndərəcəkdir.

Əbdülməcid Həsənov isə Hacının tələb etdiyi məbləği toplaya bilmirdi. Hər dəfə Hacı Məmmədov Əbdülməcidlə telefon əlaqəsi saxlayanda tələb olunan məbləğ dəyişdirilirdi. Hətta tələb olunan məbləğ 200 min, 150 min, 120 min ABŞ dolları məbləğinə endirildi. Lakin həmin məbləğlərlə də Əbdülməcid Həsənovla Hacı Məmmədov arasında razılıq əldə olunmurdu.

Növbəti telefon danışıqlarında Hacı Məmmədov Eldar Rəhimovu da özü ilə götürdü. Lakin Hacı Məmmədov Eldar Rəhimovu özü ilə aparmazdan əvvəl Elşən Həsənovun keşiyini çəkmək üçün bağ evinə çeçenlərdən birini çağırdı və keşik çəkməyi ona tapşırdı. Əvvəllər Elşən Həsənovun atası ilə Hacı Məmmədovun özü danışırdısa, indi həmin sözləri Eldar Rəhimov deyirdi. Bunların hamısı Hacı Məmmədovun diktəsi ilə həyata keçirilirdi. Artıq polis orqanlarında bu oğurluq barədə məlumat vardı. Bununla əlaqədar polis orqanlarında əməliyyat-axtarış tədbirləri həyata keçirilirdi. Əbdülməcid Həsənovun yaşadığı evin telefon nömrəsi nəzarətdə idi və ona aparat qoşulmuşdu. Hacı Məmmədov isə artıq bunu başa düşmüşdü. Ona görə də o, Eldar Rəhimov vasitəsi ilə Əbdülməcid kişiyə çatdırdı ki, oğlunun azad edilməsi ilə bağlı danışıqların davam etdirilməsini istəyirsə, təzə çıxan «Motorola» markalı bir mobil telefon alıb nömrəsini də onlara versin.

Əbdülməcid Həsənov də Hacı Məmmədovun tələbinə uyğun olaraq özünə «Motorola» markalı mobil telefon alır və növbəti telefon zəngindən sonra nömrəsini Eldar Rəhimova verir.

Artıq danışıqlar bu telefonla aparılırdı. Həmin telefona zənglər çeçenlərin verdikləri «Panasonik» markalı radiotelefon vasitəsi ilə Hacı Məmmədovun avtomaşınında olan antenaya birləşdirilmişdi və maşını çoxmərtəbəli həyətlərə sürüb telefonu tez-tez yandırıb söndürməklə hansısa evdə olan radiotelefon dalğasına düşdükdən sonra həmin dalğada başqasının telefon nömrəsi vasitəsi ilə Əbdülməcidin mobil

telefonuna zənglər edilirdi. Bu üsüldan istifadə edən Hacı bir dəfə Elşəni gözübağlı vəziyyətdə maşına mindirib naməlum istiqamətə aparır və Əbdülməcidin evinə quraşdırılan telefonla Elşən anası ilə danışır. Danışıq vaxtı məlum olur ki, həmin hadisədən sonra Əbdülməcid Həsənov infarkt keçirib, hazırda xəstəxanadadır. Elşənin anası bildirir ki, onun azad edilməsi üçün tələb olunan pul artıq hazırlanmaq üzrədir. Yaxın vaxtlarda pul çatdırılacaqdır.

Elşən Həsənov Hacı Məmmədova məxsus Saray qəsəbəsindəki bağ evində 73 gün idi ki, saxlanılırdı. Hacı ilə Elşənin atası arasında pul tələbi barədə razılıq hələ ki, yox idi. Lakin Elşənin qaldığı zirzəmidəki tam yararsız şərait onun səhhətinə artıq təsir edirdi. O, təmiz havaya həsrət qalmışdı, gəzintiyə isə çıxarılmırdı. Qaranlıq, havasız zirzəmi onu haldan salmışdı. Bu müddət ərzində demək olar ki, Elşən insan sifəti belə görmürdü. Ona yemək gətirənlərin də sifətləri maskada olurdu. O, ancaq həyətdə hürən itin səsini eşidirdi. Belə vəziyyətdə onun keşiyini çəkən Eldar Rəhimov Hacı Məmmədova Elşən Həsənovun yerini dəyişməyi təklif edir. Hacı onunla razılaşır. Onu qəbiristanlığın yanında gələcəkdə oğurlanacaq insanlar üçün tikmək istədiyi ikinci evə aparmağı qərarlaşdırırlar. Odur ki, Elşən Həsənovun gözlərini bağlatdırırlar. Qırmızı rəngli «Jiquli» markalı maşına mindirib Eldarla birlikdə yeni saxlanc yerinə aparırlar.

İkinci bağ evindəki zirzəmi əvvəlkinə nisbətən yer səthindən on pilləkən aşağıda idi. Zirzəmidə sauna və hovuz üçün də yer düzəldilmişdi. Lakin Elşən Həsənov ora gətirildiyi vaxt təmir işləri tamamlanmamışdı. Elşən Həsənova görə Hacı Məmmədov işi dayandırmışdı. Bu ev də oğurlanan şəxslər üçün nəzərdə tutulurdu. Elşənin saxlandığı otağın qapısından tünd rəngli pərdə asılmışdı. Bu deşikli pərdədən onlar Elşən Həsənova baxırdılar. Həmin zirzəminin üstündə Hacı əlavə bir otaq da tikdirmişdi və burada arvadı Nailə Quliyeva və Aysel adlı qızı qalırdı.

Elşən Həsənov ikinci gizli saxlanc yerinə gətirildikdən sonra Eldar Rəhimovun məzuniyyət müddəti başa çatdı. O, daha Elşən Həsənovun keşiyini çəkə bilmirdi. Bu səbəbdən Hacı Elşən Həsənovun oğurlanmasında iştirak edən çeçenlərdən birini Eldar Rəhimovun yerinə gətirir. Lakin buna baxmayaraq Eldar Rəhimov tez-tez Elşənin saxlandığı yerə gələrək orada Hacı Məmmədovla görüşürdü. Eyni zamanda Nailə Quliyevanın Elşən Həsənov üçün bişirdiyi yeməkləri zirzəmiyə aparıb Elşənə verirdi.

Elşən Həsənovun qaldığı yer dəyişdiriləndən sonra da onun azad edilməsi ilə bağlı Hacı Elşənin atası ilə bir neçə dəfə telefon əlaqəsi yaratdı. Həmin telefon danışıqları zamanı Elşənin atası Əbdülməcid kişi Elşənin azad edilməsi üçün 100 min ABŞ dolları verməyə razılıq verir. Hacı Məmmədov da həmin məbləğlə razılaşır. Lakin Elşənin atası əvvəlcə oğlunun buraxılmasını, sonra isə pulu verəcəyini bildirir. Əbdülməcid kişinin bu şərtinə Hacı Məmmədov razı olmur. Ona görə də Elşən Həsənovun azad edilməsi işi yenə də düyünə düşür.

Hacı Məmmədov Elşənin atasının qoyduğu şərtlə razı olmadığı üçün Elşəni məcbur edir ki, atasına məktub yazsın və xahiş etsin ki, atası pulu verməyə razı olsun, yoxsa axırı pisliklə qurtara bilər. Hacı Məmmədov bəzən belə məktubların mətnini özü yazır, onu qeyri-rəsmi yaşadığı arvadı Nailə Quliyevaya verirdi. Nailə də sol əllə həmin məktubların mətnini köçürür və Elşənin atasına çatdırırdılar. Bu yollarla onlar Əbdülməcid kişini inandıra bilmədikdə, Elşənin səsini audiolent və videokasetə yazıb göndərsələr də, Əbdülməcid kişi öz inadından dönmürdü. İki dəfə də Elşənin fotoşəkillərini «Polaroid» markalı fotoaparatla çəkirlər. İkinci fotoşəkli çəkəndə Elşəni yerə uzadıb əynindəki paltaprının üstünə ürək nahiyyəsi tərəfdən qırmızı boya tökürlər ki, guya Elşən artıq öldürülüb və pulu indi onun meyitinin verilməsinə görə istəyirlər.

Elşən Həsənovun atasından pul almağın mümkün olmadığını görən Hacı Məmmədov bu işə tanışı Şirxan Albiyevi

cəlb edərək ondan kömək istəyir. Şirxan adı məlum olmayan özünə yaxın bir şəxsin vasitəsilə Elşənin atasına yol tapır və onunla görüşür. O, Əbdülməcid kişiyə Elşənin azad olunmasında kömək göstərmək imkanında olduğunu bildirir. Adı məlum olmayan həmin şəxs oğlunun azad olunması üçün Elşənin atasından onu oğurlayanlar üçün 100 min ABŞ dolları, özünün vasitəçiliyi üçün isə 20 min ABŞ dolları tələb edir. Elşənin atası əvvəlcə həmin şəxslə razılaşsa da, sonradan hansı səbəbə görəsə fikrini dəyişir. O, əvvəlki tələbinin üstündə dayanaraq bildirir ki, yalnız oğlu Elşən buraxılandan sonra pulu verə bilər. Şirxan Albiyev həmin şəxsin Elşənin atası ilə olan söhbətinin nəticəsini Hacı Məmmədova çatdırır. Hacı Məmmədov bir müddət Elşən Həsənovun azad edilməsi ilə bağlı danışıqları dayandırır.

Bir neçə gündən sonra Hacı Məmmədov Sidek Abdulvahabova zəng edərək onun yaşadığı evin yaxınlığında olduğunu və görüşmək istədiyini bildirir. Sidek Abdulvahabov Hacı Məmmədovun çağırışına müsbət cavab verir və onunla şəhərdə bir qədər fırlandıqdan sonra Hacı maşını yolun sağına verib saxlayır. O, söhbət zamanı Sidek Abdulvahabova bildirir ki, Elşənin atasından pul almaq mümkün deyildir, ona görə də Elşəni öldürmək istəyir. «Pul vermədiyinə görə bu atası üçün bir dərs olsun» deyir. Sidek Abdulvahabov isə Hacı Məmmədovla razılaşmır. Sidek Abdulvahabov bildirir ki, Elşən Həsənovu öldürmək asandır, lakin qazandığı nə olacaqdır. Elşənin atası 100 min ABŞ dolları verirsə, xeyli puldur. O da qorxur ki, ola bilsin, həqiqətən də oğlu öldürülüb və oğlu öldürülübsə, nə üçün pul versin. Əbdülməcid Həsənovu başqa yolla inandırmaq lazımdır.

Sidek Abdulvahabov digər tərəfdən Hacının yadına salır ki, Nazim Paşayevin qohumları da Nazimin azad edilməsi üçün 120 min dollar təklif edirdi. Həmin təklifi də qəbul etməyib tələm-tələsik Nazim Paşayevi və sürücüsünü öldürməklə nə əldə olundu. Heç nə!

Hacı Məmmədov bir qədər fikirləşməli olur. Əbdülməcid kişinin pul vermədiyini görüb danışıqları başqa şəxslə davam etdirmək qərarına gəlir. Bu barədə Hacı Məmmədov Elşəndən danışığı kiminlə davam etdirmək lazım olduğunu soruşur. Elşən Həsənov Hacı Məmmədova xalasının əri Familin və ya Göyçay şəhərində yaşayan Zöhrabın adını çəkir.

Bundan sonra Hacı Məmmədov Zöhrab və Famil haqqında məlumat toplayır. Son nəticədə o, Familin namizədliyi üstündə qalır və danışıqları onunla davam etdirmək qərarına gəlir və zəng edib Elşənin atasına da bunu deyir. Zəng olunan gecə Əbdülməcid kişi Famil Məmmədovu evinə dəvət edir və ona bildirir ki, cinayətkarlar danışığı onunla aparmaq istəyirlər. Famil Əbdülməcid kişinin evinə gəldikdən bir az keçmiş Hacı Məmmədov boğuq səslə Familin mobil telefonuna zəng edir. Famil zəng edən Hacı Məmmədovdan xahiş edir ki, Elşəni onun atasının dediyi qaydada azad etsin və özü bu işdə zamin duracaqdır.

Elşən Həsənovun azad edilməsi ilə bağlı Hacı Məmmədov Famil Məmmədovla üç dəfə telefon əlaqəsi saxlayır. Sonuncu danışıqda Hacı Famildən onun harada işləməsi və yaşamasını, neçə uşağının və onların neçə yaşda olmalarını soruşduqdan sonra Familə təklif edir ki, Əbdülməciddən 100 min dolları və onda olan «Motorola» markalı mobil telefonu götürüb evinə getsin, onun növbəti zəngini gözləsin.

Famil Məmmədov telefon danışığının məzmununu Əbdülməcidə bildirir. Əbdülməcid kişi də artıq qohumunun da bu işdə onunla olduğunu görüb bir qədər ürəklənir. O, yüz min dolları kağıza büküb özündə olan «Motorola» mobil telefonu ilə birlikdə Familə verir. Famil Məmmədov Hacı Məmmədovun dediyi pulu və mobil telefonu Əbdülməciddən götürüb evinə gedir. Famil Məmmədov evinə qayıtdıqdan bir az keçmiş Hacı Məmmədov Elşənin atasının Familə verdiyi «Motorola» mobil telefonuna zəng edərək Famildən pulu Əbdülməciddən götürüb-götürmədiyini soruşur. Famil

də Hacıya bildirir ki, tapşırıqlarının hamısını yerinə yetirib. Hacı Familin cavabından razı qalır və bildirir ki, evdə oturub gözləsin, ona bir sürprizi olacaq.

Hacı Məmmədov tərəfindən 27 fevral 1996-cı ildə oğurlanan Elşən Həsənovu həmin ilin may ayının 26-da axşam, hava qaralananda buraxırlar. Onun gözlərini bintlə bağlayır, həmçinin başına qara kisə keçirərək həmin vəziyyətdə iki nəfər çeçenlə birlikdə «Jiquli» markalı avtomaşınla Bakının Digah kəndi ilə Məhəmmədli kəndi arasındakı razılaşdırılan yerə gətirirlər. Maşını saxlayıb başlarına maska keçirirlər. Elşən Həsənovun başından qara kisəni çıxarıb həmin dövrün məzənnəsi ilə ona 40 manat yol pulu verirlər. Tapşırırlar ki, yalnız onlar gedəndən sonra gözlərindən sarğını açsın. Eyni zamanda Elşən Həsənova tapşırırlar ki, oradan birbaşa xalası Qənirənin evinə getsin. Hacı Məmmədov və onunla gələn banda üzvləri öz vəzifələrini yerinə yetirib gəldikləri maşınla da həmin yerdən uzaqlaşırlar.

Elşən Həsənov Hacı Məmmədov və dəstəsi getdikdən sonra üz-gözündən sarğını açır və yanında heç kimi görmür. O, belə sərbəst buraxılmasına inana bilmir. «Bəlkə məni sınayırlar və birdən gəlib apararlar» – deyə fikirləşdikcə harada olduğunu da aydınlaşdıra bilmir. Bir qədər getdikdən sonra təsadüfən rast gəldiyi bir nəfərdən harada olmasını soruşur. Digah kəndi ilə Məhəmmədli kəndləri arasında azad etdirildiyini başa düşür. Digahda bir yol maşınına oturub, Hacı Məmmədovun verdiyi tapşırığa əsasən Teymur Əliyev küçəsində yaşayan xalası Qənirəgilə gəlir.

Elşənin xalasının əri Famil Əbdülməcid kişiyə zəng edir. Zavallı ata-ana ürəyi çırpına-çırpına bir göz qırpımında özlərini Familin evinə çatdırırlar. Həmin anı, yəni Elşənin ata-anası ilə görüş səhnəsini olduğu kimi təsvir etmək üçün söz nə qədər acizdir.

Artıq Elşən Həsənov evdə, azadlıqda idi. Cinayətkar bandanın başçısı Hacı Məmmədov onu avans şəklində Familə

vermişdi. Hacı Məmmədovun ilk tələbi əvvəl pulu alıb, sonra da Elşən Həsənovu buraxmaq idi. Əbdülməcid kişinin təkidi isə əvvəlcə oğlunun buraxılmasını, sonra da pulun verilməsindən ibarət idi. Bir-birinə zidd təkliflər məsələni düyünə salmışdı. Hacı Məmmədov 100 min ABŞ dollarından, Əbdülməcid kişi isə oğlundan keçmək istəmirdi. O, eyni zamanda oğlunun sağ-salamat olmasından xəbəri olmadığından, cinayətkarlara da etibar edib əvvəl pulu vermək istəmirdi. Qorxurdu ki, oğlu da gedər, pulu da. Həmin düyün Elşən Həsənovun cinayətkarların zirzəmisində qalma müddətini uzatmışdı.

Lakin xalası Qənirənin əri Famil Məmmədovun zaminliyi düyünü açdı.

Bəli, Elşən artıq ikinci həyatını yaşayırdı.

Elşən Həsənov buraxılmış, Əbdülməcid kişi istəyinə nail olmuşdu. Lakin cinayətkar birliyin tələbi hələ təmin olunmamışdı. İndi isə onların gözləri yolda, qulaqları səsdə idi. Əgər Famil zaminliyə əməl etməsə, onda onun özünün və bütün ailə üzvlərinin həyatı təhlükədə qalacaqdı. Hacı Məmmədov Famil Məmmədovun zaminliyinə razılıq verməzdən əvvəl onun haqqında bütün məlumatları toplamışdı.

Elşən Həsənovun xalası evinə gəlişindən bir qədər sonra Hacı Məmmədov Famil Məmmədova zəng edərək Elşənin gəlib-gəlmədiyini soruşur. Famil ona Elşənin gəlməsini xəbər verir. Hacı sonra Familə bildirir ki, o, sözünə əməl etdi, indi isə növbə onundur. O, Familə pulu götürüb avtomaşınla metronun «Nərimanov» stansiyasının qarşısına gəlməsini tapşırır. Avtomaşının dövlət nömrə nişanını öyrəndikdən sonra Hacı bildirir ki, avtomaşının qapıları ortülü olsada, qıfılla bağlanmasın. Pulu maşının «bardaçok»unda qoysun, özü isə maşından aralanıb park tərəfə getsin. Famil Hacının görüşünə tək getmək istəmirdi. O, bir tərəfdən tək getməyə ehtiyat edir, digər tərəfdən isə söz vermişdi ki, Elşən buraxılsa, danışıldığı kimi deyilən tələbə əməl edəcəkdir. Famil bu barədə hüquq-mühafizə orqanlarına məlumat verə bilərdi.

Lakin özünün və ailə üzvlərinin gələcəkdə təhlükəli vəziyyətlə üzləşə biləcəyindən ehtiyat edirdi. Bundan başqa gələcəkdə Elşən üçün də yaxşı olmaya bilərdi. Ona görə də Hacıya bildirir ki, arvadının qardaşı Zöhrabla gəlmək istəyir. Lakin Hacı qəti etiraz edir və bildirir ki, onunla əvvəldən necə danışıbsa, elə də hərəkət etsin.

Elşən cinayətkarların girovluğundan azad olunmuşdu. Famil Məmmədovunsa həyəcanlı dəqiqələri başlanırdı. Onun tək getməsinə görə ailəsi çox narahat idi. Famil gecə qaranlığında tanımadığı, üzünü görmədiyi silahlı və təhlükəli cinayətkarlarla görüşə gedirdi. Riskli və təhlükəli səfərə çıxırdı. Nə etməliydi. Famili ailəsi, yenicə girovluqdan azad olunan Elşən Həsənov və onun valideynləri yola salırdı. Hamı narahat idi və bir-birinin üzünə baxmadan düşünürdülər: «Birdən Famili tutub saxlayarlar».

Famil söz verdiyi kimi idarə etdiyi avtomaşını metronun «Nərimanov» stansiyasının qarşısına sürür. Bağlamada olan yüz min dolları «bardoçoka» qoyur və avtomaşının qapılarını astaca örtür, yaxınlıqdakı parka girir. Hacının telefon zəngini gözləyir. Həmin vaxtı Familin xəbəri olmadan Hacı da başqa bir çeçenlə ondan qabaq həmin yerə gəlib onun bütün hərəkətlərini müşahidə edirdi. Familin hüquqmühafizə orqanlarına xəbər verə biləcəyindən ehtiyat edərək onu yoxlamaq məqsədi ilə maşına yaxınlaşmırdı. Famil bir qədər parkda gəzdikdən sonra Hacı Məmmədov ona telefon açır «Nərimanov» metrostansiyasında olduğu halda, Familə bildirir ki, o, həmin yerə gələ bilmir, ona görə də «Elit» əyləncə və ticarət mərkəzinin yanındakı avtodayanacağın 3-cü mərtəbəsinə qalxıb orada onu gözləsin. Famil parkdan çıxıb maşını Hacının dediyi yerə – «Elit» əyləncə və ticarət mərkəzinin avtodayanacağına tərəf sürür. Hacı Məmmədov da idarə etdiyi maşınla onu yolboyunca izləyir. Famil Məmmədov dayanacağa çatmamış Hacı ondan tez deyilən yerə gəlib Familin oraya kiminlə gəlməsini müşahidə edir.

Hacı bu dəfə Familə zəng edərək ona yeni tapşırıq verir: «Metronun «20 yanvar» stansiyası yaxınlığında yerləşən «velotrekin» qarşısına gələrsən. Orada sənə bir nəfər yaxınlaşacaq. Əmanəti ona verərsən». Famil Məmmədovun başqa çarəsi qalmır və bu tapşırığa da əməl edir. Maşını Hacı Məmmədovun dediyi yerə sürür və «velotrekin» qarşısında dayanıb gözləyir.

Famil xeyli gözləyir. Lakin ona heç kim yaxınlaşmır. Famil Məmmədovun xəbəri olmadan Hacı Məmmədov da kənarda dayanıb onu müşahidə edir. Bütün bu yoxlamalardan sonra Hacı Məmmədov artıq əmin olur ki, onun arxasınca gələn yoxdur, pulu almaq olar. Həmin yer tünlük olduğuna görə Hacı bu dəfə də Familə zəng edərək axırıncı tapşırığını verib bildirir ki, onun dediklərinə diqqətlə qulaq assın. Bu dəfə o, Familə deyir ki, sürdüyü maşının spidometrini əvvəlcə «0» üstünə qoysun və başqa tərəfə döndərmədən birbaşa Biləcəri qəsəbəsinə tərəf sürüb iki kilometr yol getdikdən sonra yolun sağ tərəfində saxlasın. Maşını saxlayacağı yerin kənarında şam ağacı görünəcək. Şam ağacının altında taxta yeşik qoyulub. Pulu həmin şam ağacının altındakı taxta yeşiyin içərisinə qoysun və oradan uzaqlaşsın. Hacı Məmmədov axırıncı tapşırığı verdikdən sonra başqa bir çeçenlə Famil Məmmədovu qabaqlayaraq təyin etdiyi görüş yerinə ondan tez gəlir və hündürlükdə başqa bir ağacın altında Familin gəlməsini gözləyir.

Famil Hacının axırıncı tapşırığını aldıqdan sonra Tbilisi prospekti ilə Biləcəri qəsəbəsinə gedən yoldan aşağı düşür və maşını yolun sağında, şam ağacının tuşunda saxlayır. Maşından düşüb ətrafa diqqətlə baxır. Yolun sağındakı şam ağacının altında taxta yeşiyi görür və onu izləyən olmadığına əmin olduqdan sonra əlindəki bağlamanı yeşiyin içərisinə qoyur. Famil Məmmədov oradan uzaqlaşdıqdan sonra Hacı bir qədər gözləyir. Ətrafda tam sakitlik yarandıqdan, şübhəli bir şeyin olmadığına əmin olduqdan sonra aşağı düşür və taxta yeşiyin içərisindəki bağlamanı götürür.

Famil Məmmədov gecədən xeyli keçmiş evə çatır. Evdə pulu silahlı bandaya necə və hansı çətinliklə çatdırdığını danışır. Bundan sonra Əbdülməcid kişi banda üzvləri ilə əlaqə saxladığı «Motorola» markalı telefonu Famildən alır. Əbdülməcid kişi belə çətin vəziyyətində ona göstərdiyi köməyə görə Famil Məmmədova minnətdarlığını bildirir.

Elşən Həsənovun girovluqdan azad edilməsi üçün Əbdülməcid Həsənovdan alınan yüz min dollar Hacı Məmmədov tərəfindən bölünür. Altmış min dolların iştirakçılar arasında bölünməsi işini Husain Abdulvahabova tapşırır. Husain Abdulvahabov iyirmi beş min dolları Eldar Rəhimova, otuz beş mini isə özünə götürür.

Ailəvi dostunun oğluna da qıydı

Hacı Məmmədov ilk dəfə cinayət işinə iş yoldaşının qardaşını oğurlamaqla başlamışdı. İndi isə o, uzun illər dostluq etdiyi, bir yerdə çörək kəsdiyi, oturub-durduğu Vaqif Qədimovun oğlu İlham Qədimzadəni oğurlamaq və onun azad edilməsi üçün küllü məbləğdə pul tələb etmək fikrinə düşür. O, bu barədə əvvəlcə Kamil Sədrəddinovla məsləhətləşir. Rəisi də buna razılıq verir.



Hacı Məmmədov rəisin dəstəyinə nail olduqdan sonra 1996-cı ilin iyul ayında günün birinci yarısında saat 12 radələrində şəhərdəki evinin yaxınlığında Eldar Rəhimov və Aslanbek Çintamirovla görüşür və birlikdə Saray qəsəbəsindəki bağ evinə gəlirlər. Hacı Məmmədov onlara təklif edir ki, onun yaxın bir dostu var. Azərbaycan Respublikası Dövlət Neft Şirkətində məsul vəzifədə işləyir, adı da Vaqifdir və çox varlıdır. Çoxdandır bu ailəni tanıyır və bir-birlərinə gediş-gəlişləri var. Vaqifin iki oğlu var. Oğlanlarından İlham ilə münasibəti yaxşı deyil. Barəsində onda çox məlumat var və özü də xarici markalı avtomaşın sürür. İlhamı oğurlamaq lazımdır ki, həm onun bir qədər dərsini versinlər, həm də atasından yaxşı pul alsınlar. Hacı onlara söz verir ki, İlhamı oğurladıqdan sonra valideynlərindən alınacaq pulun çox hissəsini onlara verəcəkdir.

Eldar Rəhimov və Aslanbek Çintamirov Hacı ilə razılaşırlar.

Təklifinin qəbul edilməsini görən polkovnik-leytenant bildirir ki, üçlükdə bu işin öhdəsindən gəlmək çətindir, bu işə bir nəfəri də cəlb etmək lazımdır. Onun bu sözündən sonra Aslanbek milliyyətcə çeçen olan Əhməd adlı öz tanışını da bu işə cəlb etməyi məsləhət görür. Hacı Əhmədi tanıdığı üçün razılaşır və bildirir ki, onunla özü əlaqə saxlayacaq. Ayrılarkən Hacı Aslanbekə tapşırır ki, lazım olduğu məqamda Əhmədi də götürüb gətirsin. Bununla da İlhamın oğurlanması ilə bağlı üçlüyün ilk görüşü başa çatır.

Bir neçə gündən sonra onların ikinci görüşü baş tutur. Hacı Məmmədov günün birinci yarısında Aslanbekə zəng edir və ona Əhmədlə birgə Saraydakı bağ evinə gəlməyi tapşırır. Aslanbek Hacının tapşırığı ilə Əhmədin 7-ci mikrorayondakı oniki mərtəbəli binanın 7-ci mərtəbəsindəki evinə gəlib onunla görüşür və birlikdə Hacı Məmmədovun yanına gəlirlər. Artıq Eldar Rəhimov Hacıgildə idi. Hacı Məmmədov söhbət zamanı bir daha xatırladır ki, oğurlanacaq şəxs varlı adamın oğludur. Onun qırmızı rəngli xarici maşını var. Maşını özü sürür. Cangüdəni yoxdur. Hacı Məmmədov təklif edir ki, İlhamı ya çimərliyə gedəndə, ya da ki, evinə qayıdanda oğurlamaq lazımdır. Lakin sonradan belə qərara gəlirlər ki, onu yaşadığı evin qarşısında oğurlasalar daha yaxşı olar. Hacı Məmmədov onlara bildirir ki, silahı, İlhamın başına keçirmək üçün kisəni, qandal və nəqliyyatı özü təşkil edəcəkdir. Bu barədə narahat olmağa dəyməz. Pul barəsində də problem olmayacaq. Bu işə görə Aslanbek Çintamirova və Əhmədə ayrılıqda on beş min dollar verəcəyini vəd edir. Bütün bu tapşırıqlardan sonra bildirir ki, əməliyyatda şəhərdən kənara çıxmaq lazım gəlməyəcək. Ən uzağı beş gün müddətində bu işi başa çatdırmaq mümkündür.

Hacı Məmmədov həmişə ən çətin tapşırıqlarını Eldar Rəhimova və Aslanbek Çintamirova tapşırırdı. O, Aslanbe-

kin adam oğurlamaq, sərrast atəş açmaq qabiliyyətinə yaxşı bələd idi. Adam oğurlayarkən və kimisə qətlə yetirərkən heç bir səhvə yol verməzdi. Vəzifə bölgüsünə görə də onun vəzifəsi əsasən lazım olan adamı tutub maşına basmaq və onları müəyyən edilən yerlərə aparmaq idi. Aslanbek bunların da öhdəsindən gəlirdi. Hacı Məmmədov onun bu keyfiyyətlərini bildiyinə görə ona daha çox etibar edirdi.

1996-cı il avqust ayının 5-də Eldar Rəhimov Hacı Məmmədovun tapşırığı ilə axşam saat 19 radələrində Aslanbekə zəng edərək bildirir ki, Əhmədi də götürüb 8-ci mikrorayondakı yolayrıcında yerləşən dayanacağa gəlsin. Aslanbek Çintamirov həmin zəngi çoxdan gözləyirdi. Hacı Məmmədovla axırıncı görüşdən sonra demək olar ki, o heç bir yerə çıxmamış və Hacının zəngini gözləyirdi. Ona görə də Eldar Rəhimovun telefon zəngindən sonra dərhal Əhmədlə əlaqə saxlayır, onu evinin yanına çağırır. Onlar taksi ilə deyilən yerə gəlib orada Eldar Rəhimovla görüşürlər. Eldar həmin görüş yerinə ağ rəngli «QAZ–24» markalı maşınla gəlmişdi. Aslanbek Çintamirov və Əhməd Eldar Rəhimovun idarə etdiyi maşına otururlar.

Adam oğurluğuna getdikləri üçün Aslanbek Çintamirov Eldar Rəhimovdan hər şeyin hazır olub-olmamasını soruşur. Eldar Rəhimov da narhatçılığa əsas olmadığını və özləri ilə lazım olan şeyləri götürdüyünü bildirir və arxa oturacaqdakı kisəni göstərir. Kisədə iki ədəd «Makarov» tipli tapança, həmin tapançalar üçün üç ədəd patronla dolu daraq, bir ədəd qandal və bir ədəd qara rəngli kisə olur. Aslanbeklə Əhməd elə maşının içindəcə silahlanırlar. Əhməd bir tapança və bir güllə darağı, Aslanbek isə bir tapança və iki güllə darağı götürür. Eldar Rəhimov avtomaşınla «Hyatt Regensy» mehmanxanasının yanından keçib evlərin arasına dönür. İlham Qədimzadənin yaşadığı İnşaatçılar prospektindəki binanın həyətinə girirlər.

Eldar Rəhimov və Aslanbek Çintamirov həmin həyətdə bir neçə dəfə olmuş, İlham Qədimzadənin evə nə vaxt gəl-

məsini, avtomaşının saxlanma yerini və evdən çıxıb getmə vaxtlarını müəyyənləşdirmişlər. Həmin gün İlham Qədimzadə təxminən saat 20:30 radələrində «Honda» markalı avtomaşınla evə gəlir və maşını həmişə saxladığı yerdə saxlayır. Maşını saxladığı yerdən təxminən bir metr aralıda içində üç nəfər şəxs olan bir maşının dayandığını görür. Maşından düşüb pultla qapılarını bağlayır və evə tərəf gedir. Həyətdəki qonşularla salamlaşır və mənzilinə qalxır.

Həmin vaxt İlhamın atası Vaqif, anası Tərlan, qardaşı Kənan xarici ölkələrdə səyahətdə idilər. İlham Qədimzadə evə daxil olub qohumların bir-ikisinə zəng vurur. Sonra da əmisi Akifin Novxanıdakı bağında dincəlmək fikrinə düşür. Lakin tək getmək istəmir. Ona görə də tanışı «Y»-ə zəng edir ki, Novxanıya gedib-gəlməkdə ona yol yoldaşı olsun. «Y»-la razılıq əldə etdikdən sonra o saat 23 radələrində həyətə düşür. Maşına tərəf gedə-gedə pultla qapını açır. Həyətdə «QAZ–24» markalı avtomaşını görəndə yadına düşür ki, içərisində üç nəfər şəxsin olduğu bu maşını evə qalxanda həyətdə görmüşdü.

İlham Qədimzadə əlini maşının qapısına uzatmaq istədikdə Aslanbek Çintamirov «QAZ–24» markalı maşından düşüb İlham Qədimzadədən saatı soruşur. İlham Qədimzadə saatı olmadığını deyib maşına oturmaq istəyir. Aslanbek Çintamirov İlhamın sol əlini tutur, sağ əlini isə boynuna dolayaraq onu Eldar Rəhimovun idarə etdiyi maşına dartır. İlham Qədimzadə əlləri və ayaqları ilə müqavimət göstərmək istəyir. Lakin Aslanbek Çintamirov İlhamdan fiziki cəhətdən güclü olduğundan onu dartıb maşına salır, Əhməd isə maşından düşüb qara kisəni başına keçirir, qollarını qandallayır.

İlham Qədimzadənin yaşadığı beşmərtəbəli binanın üçüncü mərtəbəsində yaşayan Həmid Mərdəliyev evin eyvanında «QAZ–24» markalı maşının İlhamın maşının yanında saxladığını, maşının salonunda da üç nəfərin oturub söhbət etdiyini görmüşdü. Lakin əhəmiyyət verməmişdi. Həmid Mərdəliyev bir-iki dəfə eyvana çıxır. Axırıncı dəfə Aslanbek

Çintamirovla milliyətcə çeçen olan Əhmədin İlham Qədimzadə ilə əlbəyaxa olub onu maşına itələdiklrini və maşının içərisindən boğuq səs gəldiyini eşitdikdə «dava etməyin» – deyə onlara acıqlanmışdı. Bundan sonra «QAZ–24» markalı avtomaşın işıqlarını söndürülür. Maşın arxa tərəfə hərəkət edəndə bir nəfər cavan oğlan tələsik özünü arxa qapıdan maşının salonuna atır. Maşın sürətlə həyətdən çıxır və «Olimp» mağazası istiqamətində gözdən itir. Həmid Mərdəliyev tez otağa keçib, Vaqif Qədimovun evinə zəng edir və İlhamı soruşur. Vaqifin qızı Rəhimə İlhamın evdə olmadığını bildirir.

Aslanbek, Eldar və Əhməd «QAZ–24» markalı maşınla «Olimp» mağazası, oradan da «Avropa» oteli istiqamətində hərəkət edib Bakı–Sumqayıt yoluna çıxırlar. Bir qədər getdikdən sonra maşını saxlayıb, avtomaşına bağlanmış saxta dövlət nömrə nişanını digər saxta nömrə ilə əvəz edirlər. Eldar idarə etdiyi avtomaşını Xırdalan dairəsindən sağa döndərib Sumqayıta deyil, Masazır yolu ilə Saray qəsəbəsi istiqamətində hərəkət edir.

Eldar Rəhimov maşını Masazırla Saray qəsəbəsi arasındakı «Duz gölü»nün üstündə saxlayır və İlham Qədimzadəni sorğu-suala tutur. Kimin oğlu olmasını, harada işləməsini soruşsalar da, müsbət cavab ala bilmirlər. Aslanbek və Əhməd bildirirlər ki, səhvən başqa adam kimi gətiriblərsə, açıb buraxsınlar. Lakin Eldar təklif edir ki, onu Hacı Məmmədova təhvil vermək lazımdır. Hacı hər şeyi özü aydınlaşdırar və nə məsləhət görsə onu da edərlər. Onlar maşını saxlayarkən maşının arxasınca iki nəfər hərbçinin yaxınlaşdığını görüb, aradan çıxmağa çalışırlar. Bu vaxt arxadan göyə iki atəş açılır. Lakin Eldar Rəhimov maşını saxlamır və oradan uzaqlaşıb Hacı Məmmədovun Saraydakı bağ evinə gəlirlər. Hacı Məmmədovu bağda tapmasalar da Eldar Rəhimovda açar olduğuna görə qapını açır, maşını həyətə salıb qapıları arxadan bağlayır. Evdə Hacının arvadı Nailə Quliyeva ilə rastlaşırlar. İlham Qədimzadənin oğurlanıb gətiriləcəyindən

Nailə Quliyeva da xəbərdar idi. Eldar Rəhimov mobil telefonla Hacı Məmmədova zəng edərək bildirir ki, onlar bağdadır və əmanəti də özləri ilə gətiriblər. Hacı Məmmədov gələnə kimi İlham Qədimzadəni maşından düşürmürlər. Özləri də maşında oturub onun gəlişini gözləyirlər. 20 dəqiqədən sonra Hacı Məmmədov gəlib çıxır. Eldarla Aslanbek maşından düşüb Hacı Məmmədovla görüşürlər və bildirirlər ki, oğurladıqları şəxsin İlham Qədimzadə olub-olmamasına tam əmin deyillər. Hacı Məmmədov göstəriş verir ki, gətirdikləri adamı zirzəmiyə salsınlar. Aslanbek Çintamirov onu qucağına alıb zirzəmiyə düşürür ki, harada saxlandığını bilməsin. Zirzəmidə onun boynundakı qızıl zənciri, cins şalvarının cibindəki siqareti və evin açarlarını götürürlər. Üzündən qara rəngli kisəni çıxarır və qollarından qandalı açırlar. Üzünü divara çevirməyi və onların razılığı olmadan arxaya baxmamağı əmr edirlər. Aslanbek və Əhməd zirzəmidən çıxırlar. Hacı Məmmədov və Eldar Rəhimov isə zirzəmidə İlham Qədimzadənin yanında qalırlar. Hacı Məmmədov İlhamı qabaqcadan tanıdığına görə elə belə sözarası ata-anasının kim olmasını soruşur. Bir azdan Hacı Məmmədov ilə Eldar Rəhimov da zirzəmidən çıxır və Hacı sevincək halda «düz gətirilib, onların istədikləri adamdır» – deyə bildirir. Aslanbek və Əhməd vəzifələrini yerinə yetirdiklərinə görə tapançaları, qandalı və güllələri Hacıya təhvil verib şəhərə qayıdırlar. Hacı Məmmədovla Eldar Rəhimov isə bağ eində qalırlar.

Zirzəmidə səs-səmir kəsilən kimi İlham qaldığı yeri diqqətlə nəzərdən keçirir. Çox kiçik, dar, uzun otaq, çarpayı, döşək, qanlı balış, sağ tərəfdə ayaqyolu, qara rəngli şlanqla birləşdirilən su kranını görür.

Həmid Mərdəliyev o gecə İlham Qədimzadənin bacısı Rəhimədən qardaşının evdə olmadığını öyrənəndən sonra artıq ona aydın olur ki, İlham həqiqətən oğurlanıb. O, Vaqif Qədimovun Bakıda olmadığını bilirdi. İlhamın bacısı Rəhiməyə də gecə vaxtı bəd xəbəri demək istəmirdi ki, o bu xəbərdən

qorxar. Gecədən xeyli keçmiş Həmid Akifin oğlu Bəhrama xəbər verir ki, İlham maşınına minmək istərkən naməlum şəxslər onu zorla ağ rəngli «Qaz–24» markalı avtomaşına basıb apardılar. Bəhram gecə saat 2 radələrində Novxanıya gedir, atasına İlhamın oğurlandığını xəbər verir. Akif Qədimov yubanmadan şəhərə gəlir və səhər Həmid Mərdəliyevlə görüşür.

Bu vaxta qədər İlhamın evə gəlməməsi, olduğu yer barədə evdə tək qalan bacısına və ya digər qohumlarına xəbər verməməsi artıq Akifdə İlhamın oğurlanması barədə şübhələri artırır. O, Bakı şəhəri Yasamal rayonunun 27-ci polis bölməsinə gəlir və yazılı surətdə qardaşı oğlunun 5 avqust saat 23-24 radələrində yaşadığı evin həyətindən oğurlandığını bildirir. Yasamal rayon pols idarəsində əməliyyat-axtarış tədbirləri başlanır.

Səhərə kimi İlham Qədimzadənin yanına gələn olmur. Ona səhər yeməyi də verilmir. Yalnız günortaya yaxın Eldar Rəhimov zirzəmiyə daxil olur. Zirzəmiyə girməmişdən qabaq İlhama göstəriş verir ki, üzünü divara çevirsin. Bundan sonra Eldar İlhama bildirir ki, atasından pul alınana kimi o, bu zirzəmidə qalacaq. Ondan daha heç nə soruşulmur. Yalnız saat 14 radələrində Hacı Məmmədov Vaqif Qədimovgilə zəng edərək bildirir ki, İlhamı onlar oğurlayıblar, sağ-salamatdır və onun azad edilməsi üçün pul hazırlasınlar.

Telefon zəngindən bir-iki gün sonra İlhamın İtaliyada olan qardaşı Kənan zəng edib evdən hal-əhval tutanda bacısı Rəhimə ona bildirir ki, naməlum şəxslər İlhamı oğurlayıb aparıblar, onun azad edilməsi üçün pul tələb edirlər. Bu xəbərdən sonra Kənan dərhal Bakıya qayıdır. Kənan, Rəhimə, Akif İlhamın atasının ürəyinin zəif olmasını, bu xəbərin daha pis nəticə verə biləcəyini nəzərə alıb ona heç nə bildirmirlər. Vaqif Qədimov tez-tez qızına və qardaşı Akifə zəng etsə də hər şeyin qaydasında olmasını deyirlər. Vaqif Qədimov avqust ayının axırlarında Bakıya qayıdır.

Hacı Məmmədov sonralar da dəfələrlə müxtəlif avtomat telefonlardan zəng edib, İlhamın azad edilməsi üçün 100 min dollar tələb edir. İlham Qədimzadənin yaşadığı evdə Hacı Məmmədovun telefon zənglərinə əsasən bacısı Rəhimə, qardaşı Kənan və əmisi Akif cavab verirlər. Hacı Məmmədovun tələbi dəyişilmir. Pulun verilməməsini görən Hacı Məmmədov İlhama diktə ilə məktublar yazdırır. Bu məktubları Hacı Məmmədov şəhərin müxtəlif yerlərində qoyur, sonra isə ev telefonuna və ya İlhamın qardaşı Kənanın «Motorola» markalı telefon nömrəsinə, əmisi Akifə zəng edib məktubların qoyulduğu yerləri deyir. İlhamın atasına ünvanlanmış həmin məktublardan birini Eldar aparıb «Olimp» mağazasının qabağındakı yeraltı keçiddə tavana bağlanmış lampanın altına qoyur.

İlhamın əmisi Akif onun oğurlanması barədə polisə xəbər verdikdən sonra Vaqifin ev telefonu, ailə üzvlərinin və digər qohumlarının mobil telefon nömrələri nəzarətə götürülür. Polislər gələn zəngləri tədqiq etsələr də, onun yerini müəyyənləşdirə bilmirlər.

Vaqif Qədimovun xarici səfərdən qayıtmasından bir neçə gün əvvəl Hacı Məmmədov yenə də İlhamın atasının ev telefonuna zəng edir. Bu dəfə telefonu Akif Qədimov götürür. Bu vaxt Kənan və Rəhimə də evdə olur. Hacı Məmmədov yenə də 100 min dolların üstündə dayanır. Akiflə Kənan məcbur olub Hacı Məmmədovun tələbini qəbul edirlər. Akif pulun hara və kimə veriləcəyini soruşduqda Hacı Məmmədov onlara pulu Bakıxanov qəsəbəsindəki, 129 saylı avtobus marşrutunun axırıncı dayanacağına gətirilməsini söyləyir.

Akiflə Kənan İlhamın azad olunması üçün qohumlardan və dost-tanışdan toplanan 100 min dolları götürüb Hacı Məmmədovun dediyi yerə gəlirlər. 129 saylı avtobus marşrutunun axırıncı dayanacağında Hacı Məmmədovun telefon zəngini gözləyirlər. Akif və Kənan həmin yerə gələrkən Hacı nədənsə şübhələnir, elə bilir ki, onlar görüş yerinə polislərlə gələcəklər. Ona görə də onlarla ikinci dəfə telefon əlaqəsi sax-

lamır. Akif və Kənan Qədimzadələr xeyli gözlədikdən sonra evə qayıdırlar. Bir qədər keçdikdən sonra Hacı Məmmədov Akif Qədimova zəng edir, polisə xəbər verdiklərinə görə onlara hədə-qorxu gəlir və tez də telefonu söndürür.

İlham Qədimzadənin oğurlanmasından 23 gün keçsə də onun yaxınları ilə Hacı Məmmədovun cinayətkar dəstəsi arasında heç bir razılıq əldə olunmur. Hacı Məmmədov İlhamın atası Vaqifin qayıtmasından xəbər tutan kimi onunla telefon əlaqəsinə girmək qərarına gəlir. Odur ki, həmin il avqust ayının 28-də xırıltılı səslə Vaqif Qədimova zəng edir. Əvvəllər İlhamın azad olunması üçün 100 min dolları tələb etmişdisə, indiki telefon danışığında polislərə xəbər verildiyinə görə həmin məbləği iki dəfə artıraraq Vaqif Qədimovdan oğlunun azad olunması üçün 200 min dollar tələb edir, əks təqdirdə onu öldürəcəyi ilə hədələyir.

Vaqif onun tələbini rədd edir və bu qədər pulu olmadığını bildirir. İlhamı öldürərsə hesab edər ki, oğlu Qarabağ uğrunda döyüşlərdə, ya da avtoqəza hadisəsi nəticəsində həlak olub. Vaqif Qədimovun belə kəskin cavab verməsinə baxmayaraq o, yenə də pul tələb edir və bir daha xəbərdarlıq edir ki, polislə iş görməsin.

İki gündən sonra Hacı Məmmədov təkrarən zəng edərək Vaqiflə əvvəlki kimi boğuq səslə danışır və bildirir ki, oğlunu salamat görmək istəyirsə onun tələbini qəbul etməlidir, yoxsa əli qana bata bilər. O, hədə-qorxu gəlib pul tələb etməklə yanaşı Vaqif Qədimova deyir ki, Tibb Universitetinin qarşısındakı heykəlin özülü üstündə onlara çatası məktub və audiokaset var, polisə xəbər vermədən oraya gedib deyilənləri götürsün. Vaqif Qədimov bu dəfə oğlunun həyatını təhlükədə qoymamaq üçün ona nə cavab verir, nə də ki, polisə xəbər verir. Hacı Məmmədovun dediyi yerə gedib məktubu və audiokaseti götürür.

Vaqif Qədimov götürdüyü məktubu və audiokaseti evə gətirir, məktubu açıb oxuyur, audiokasetə qulaq asır. Mək-

tubda və audiokasetdə oğlu atasına bir daha müraciət edir və xahiş edir ki, imkan daxilində onların tələblərini yerinə yetirsinlər, yoxsa onu öldürəcəklər. İlhamın bu müraciəti atasının əhvalını pisləşdirir. Oğlunun xahişinin artıq yalvarma dərəcəsinə çatdırıldığını, işgəncələrə məruz qaldığını, cinayətkarlar tərəfindən hər dəqiqə onun həyatına son qoyula biləcəyini başa düşür və «Allah, oğluma kömək et» – deyə tanrıya üz tutur.

Hacı Məmmədov da inadından dönmür. O, nəyin bahasına olursa-olsun ailəvi dostundan tələb olunan məbləği almaq istəyir. Vaxtın uzanmağı Hacı Məmmədovu narahat edir və bu işi tez qurtarmaq üçün banda üzvlərindən olan Nizami Abdullayevi də bura cəlb edir. O, da Vaqif Qədimovu tanıyırdı.

Nizami Abdullayev də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı olub. Əvvəl nazirliyin 5-ci şöbəsinə işə qəbul olunub, leytenant rütbəsi alıb, sonra ictimai təhlükəsizlik şöbəsində, oradan da Hacı Məmmədovla birlikdə Abşeron rayon polis şöbəsində əvvəlcə kadr üzrə müfəttiş, qərargah rəisi və nəhayət, həmin cinayətlər törədilən dövrdə əməliyyat növbətçisi vəzifəsində işləyib.

Nizami Abdullayev də Hacı Məmmədovla tez-tez oturub-duran adam olub. Günlərin birində yeyib-içdikdən sonra əhvalının yaxşı vaxtında maddi vəziyyətinin yaxşılaşdırılması üçün aralarında cinayətlə bağlı söhbət açılır. Həmin fürsətdən istifadə edən Hacı fikirləşir ki, onu da dəstəyə daxil etsə, pis olmaz. Nizami Abdullayevə təklif edir ki, adam oğurlayacaqlar, həmin adama baxmaq və ona yemək vermək lazım olacaq. Onsuz da maddi çətinlik içindədir, boş vaxtlarında gəlib həmin adama baxmaq və ona yemək verməklə pul qazanıb maddi vəziyyətini düzəldə bilər.

Bu söhbətdən sonra Nizami Abdullayev Hacı Məmmədovun təklifini qəbul edir. O, Hacı Məmmədova bildirir ki, onsuz da boş vaxtı çoxdur. Bir gün əməliyyat növbətçisi kimi işdə, iki gün isə evdə olur. Bu yolla Nizami Abdullayev də

çox asanlıqla Hacı Məmmədovun yaratdığı cinayətkar birliyin ən fəal üzvlərindən birinə çevrilir.

İlhamın oğurlanmasının iyirmi yeddinci günü Hacı cinayətkar birliyin təzə üzvü Nizami Abdullayevə zəng edib tapşırır ki, Aslanbeki də götürüb Saray qəsəbəsindəki qəbiristanlığın yanındakı bağ evinə gəlsinlər. Nizami deyilən tapşırığı yerinə yetirir. O, Aslanbeki tapır, onunla birlikdə Hacı Məmmədovun Saray qəsəbəsindəki bağ evinə gəlirlər. Eldar artıq Hacının yanında idi. Hacı Məmmədov burada toplaşmağın məqsədini açıqlayır: «İlhamın atası xeyli vaxt keçməsinə baxmayaraq istədiyimiz məbləği vermir. Onu cəzalandırmaq lazımdır. Bunun üçün İlhamın qulağını kəsib atasına göndərərik. Qoy bu ona bir dərs olsun». Bu məqsədlə Hacı Məmmədov Nizami Abdullayevə bir ədəd şpris verir və deyir ki, keyləşdirici iynədir, İlhamın qulağına vurulacaq.

Hacı Məmmədovun İlhamın atası Vaqiflə axırıncı danışığından iki gün sonra Hacı, Eldar Rəhimov, Nizami Abdullayev və Aslanbek Çintamirov İlhamın salındığı zirzəmiyə girirlər. Tanınmasınlar deyə başlarına maska keçirirlər. Dördü də İlhamın çarpayısının yanında dururlar. Həmin vaxtı Eldar Rəhimov İlham Qədimzadəyə deyir ki, atası tələb olunan pulu vermir. Ona görə də bu gün qulağı kəsiləcək və atasına göndəriləcək. İlhamdan tələb edir ki, çarpayıda qarnıüstə uzansın. Çarəsiz qalan İlham dinməz-söyləməz ağzıaşağı çarpayıya uzanır. Əllərini arxa tərəfdən qandallayırlar. Daha sonra başını çarpayının dəmirlərinin arasına salırlar. Otaqdakı tumbanın üstünə əski sərdikdən sonra üstünə nikeldən cərrah bıçağı, bint, pambıq və yod qoyulur. Bütün bu hazırlıqlar qurtaran kimi Nizami Abdullayev yaxınlaşıb İlhamın sol qulağına keyləşdirici iynə vurur. Bir qədər keçəndən sonra Nizami Abdullayev rus dilində İlhamdan «çuvstvuyeş» – deyə qulağının keyləşib-keyləşmədiyini soruşur. İlham Qədimzadənin sağ tərəfində duran Eldar Rəhimov ona «niyə soruşursan, kəs getsin» – deyə acıqlanır. Hacı Məmmədov

İlhama psixi təsir etsin deyə, Aslanbekə orta əsr cəlladlarının paltarını xatırladan xalatı geyindirib İlhamın qulağını kəsmək üçün qabağa buraxır. Aslanbek Çintamirov İlhama yaxınlaşıb tumbanın üstündəki bıçaqla İlhamın sol qulağını kəsir. Eldar Rəhimov dərhal İlhamın qulağına yod sürtüb, bintlə sarıyır. Əməliyyat başa çatan kimi dördü də zirzəmidən çıxır. Sonradan Hacı Məmmədov və Eldar Rəhimov yenidən zirzəmiyə qayıdırlar. İlhamın qolunu da bintlə sarıyıb çarpayıda oturdub, şəklini çəkirlər, səsini isə diktofona yazırlar. Hacının diktəsi ilə İlham həmin vəziyyətdə atasına yenə də müraciət edərək özünü çox pis hiss etdiyini, qulağının kəsildiyini bildirir. İlham ağrını hiss etməsin deyə, Eldar Rəhimov stəkanda spirt gətirir və içməyi təklif edir.

Sentyabrın 2-də günün ikinci yarısında Vaqif Qədimovun mobil telefonuna zəng gəlir və bildirilir ki, inadkarlıq etdiyinə görə oğlunun qulağını kəsdilər. Onu da əlavə edirlər ki, «Ramstor»un qarşısına gəlib, girişdən sağda ağacın altında qoyulan qutuda İlhamın kəsilmiş qulağını götürə bilərlər. Vaqif Qədimov məsələnin daha da gərginləşdiyini görüb polisə xəbər verməyi lazım bilmir və qardaşı Akifi Hacının dediyi yerə göndərir. Akif deyilən yerə gəlir və ağacın altındakı bükülünü götürür.

Hacı Məmmədov bundan sonra bir neçə dəfə də zəng edir, lakin tələb etdikləri pulun məbləğini dəyişmir. İlham Qədimzadənin məcburən yazdığı məktubları və səsi yazılan audiokasetləri bir dəfə «Naxçıvan» mehmanxanası ilə üzbəüz telefon köşkünün yanında, bir dəfə isə keçmiş «Lenin» muzeyinin yanındakı zibil yeşiyinə qoyurlar.

İlham Qədimzadənin oğurlanmasının otuz altıncı günündə Hacı Məmmədov Vaqifə zəng edir və hədə-qorxu gələrək bildirir ki, pul verilməsə, İlhama qarşı bundan sonra da müxtəlif işgəncələr və digər zorakı hərəkətlər ediləcək, bunu foto və videolentə alıb onları qohumlarına, qonşularına göndərəcəkdir.

Hacı Məmmədovun hədə-qorxuları, şantaj xarakterli məktubları, videolentlər və audiokasetlər öz təsirini göstərir. Nəticədə Vaqif Qədimovla Hacı arasında razılıq əldə olunur.

Axırıncı razılaşmada Hacı Məmmədov tələb etdiyi 200 mindən 20 min dolları güzəştə gedir.

İlham Qədimzadənin oğurlanmasının otuz yeddinci günündə Hacı Məmmədov Eldara deyir ki, işlər düzəlmək üzrədir. İlhamın atası nəhayət ki, pulu vermək istəyir. Eldar Rəhimova tapşırır ki, Nizami, Aslanbek və Əhmədi də bağ evinə çağırsın. Eldar Rəhimov Nizamiyə zəng edib tapşırır ki, Aslanbek və Əhmədi də götürüb təcili Saraya – Hacı Məmmədovun yanına gəlsinlər.

Cinayətkar dəstə bir yerə toplaşdıqdan sonra Hacı Məmmədov onlara deyir ki, İlhamın valideynləri oğlunun azad olunması üçün pulu verməyə razılaşıblar. Əvvəlcə o, Nizamiyə tapşırır ki, Aslanbek və Əhmədi pulun alınacağı yerə o aparsın. Eldarı isə başqa tapşırığın ardınca göndərəcəkdir. Bir qədər sonra Hacı Məmmədov Aslanbek Çintamirovu kənara çəkib, pulu şəxsən özü götürməyi tapşırır. Çünki Nizamiyə o qədər də etibar etmirdi. Bundan sonra o, Aslanbek və Əhmədin hər birinə bir ədəd «Makarov» markalı tapança verir. Vaqif Qədimovla əlaqə yaratmağı isə Eldar Rəhimova tapşırır.

Hacı Məmmədov əməliyyat ilə bağlı vəzifə bölgüsü apardıqdan sonra axşam saat 21 radələrində Aslanbek, Əhməd və Nizami «Niva» markalı maşında, Hacı Məmmədov isə qırmızı rəngli «Jiquli» markalı maşınla yola düşürlər.

Cinayətkar dəstənin üzvləri getdikdən sonra Hacı Məmmədovun tapşırığı ilə Eldar Rəhimov Vaqif Qədimova zəng edib pul qoyulacaq yeri ona izah edir: «Babək» prospekti ilə 8-ci kilometr qəsəbəsi istiqamətinə getsin. Dairəni keçəndən sonra sol tərəfdəki qayalıqdan asılmış zənbil görünəcək. Gətirdiyi bağlamanı zənbilə qoysun və oradan dərhal uzaqlaşsın.»

O, eyni zamanda Vaqif Qədimova xəbərdarlıq edir ki, polisə xəbər verməsin. Bu axırıncı şansdır.

Vaqif Qədimov telefon danışığını qurtarsa da, Eldar Rəhimovun xırıltılı səsi hələ də onun qulağından getməmişdi. Lakin o, dözürdü. Onun başqa çarəsi yox idi. Oğlu bir aydan artıq idi ki, onların girovluğundaydı. Oğlunun qulağını kəsib ona göndəriblərsə, deməli, onlardan nə desən gözləmək olar.

Vaqif Qədimov qabaqcadan hazırladığı pul bağlamasını götürüb çıxarkən oğlu Kənan və qardaşı Akif də onunla getmək istəyirlər. Lakin Vaqif Qədimov buna razı olmur. O, ikinci oğlunu da itirmək istəmir. Vaqif Qədimov «özüm gedəcəyəm» deyə içərisində pul olan bağlamanı götürüb həyətə düşür və maşını Eldar Rəhimovun dediyi yerə sürür. Eldar Vaqifə bir daha zəng edib gəlib-gəlmədiyini soruşur. O, bildirir ki, artıq yoldadır.

Vaqif Qədimov deyilən yerə getdiyi bir vaxtda Hacı Məmmədov da öz dəstəsi ilə Babək prospekti ilə 8-ci kilometr qəsəbəsi istiqamətində hərəkət edir. Dairəni keçəndən sonra sol tərəfdəki qayalığın yanına gəlib, maşını saxlayır. Nizami Abdullayev isə maşının yük yerindən bazar zənbilini və kəndiri götürüb onları Aslanbek Çintamirova verir ki, kəndiri zənbilə bağlayıb onu qayalıqdan salsın və kəndiri əlində tutub saxlasın. İlhamın atası pul olan bağlamanı zənbilə qoyandan və bir qədər aralanandan sonra onu yuxarı dartıb çıxarsın.

Bu vaxt Hacı Məmmədov idarə etdiyi «Jiquli»də bir qədər aralıda dayanıb həm onları, həm də pulu gətirən Vaqif Qədimovu müşahidə edirdi. Vaqif Qədimov ətrafını nəzərdən keçirib əlindəki bağlamanı zənbilin içərisinə qoyur və avtomaşına minib oradan uzaqlaşır. Aslanbek Çintamirov kəndiri dartıb zənbili qaldırır. Zənbilin içərisindəki bağlamanın pul olduğuna əmin olduqdan sonra maşına tərəf gedir. Hacı Məmmədov pulun gətirilib zənbilə qoyulduğunu və Vaqif Qədimovun çıxıb getdiyini gördükdən sonra əməliyyatlarının baş tutduğuna sevinir və cinayətkar yoldaşlarını qorxutmaq

üçün bir dəfə fit də çalır. Fit səsini eşidən Nizami Abdullayev ilə Əhməd maşına tərəf qaçırlar. Aslanbek Çintamirov və Əhməd özlərində olan tapançaları tez atəş vəziyyətinə gətirirlər. Maşına yaxınlaşıb heç kimin olmadığını görürlər. Hacı Məmmədov idarə etdiyi «Jiquli» ilə, Aslanbek Çintamirov və İsa isə Hacı Məmmədova məxsus «Niva» markalı avtomaşınlarla Saray qəsəbəsinə yola düşürlər.

Vaqif Qədimovu səbrsizliklə gözləyənlər İlhamı gətirməsə də onun qayıtmasından xeyli yüngülləşirlər.

İlham Qədimzadə otuz səkkicinci gün idi ki, Hacı Məmmədovun əsirliyində idi. Qulaq seyvanının kəsilməsindən sonra sağ-salamat qalacağına da ümid etmirdi. Bu müddət ərzində vaideynlərini, əzizlərini və qohumlarını görmək həsrətindəydi. Atasından tələb olunan pulun alınması ona deyilməmişdi.

Hacı Məmmədov İlhamın atasından aldığı 180 min dolların saxta olub-olmamasını «Ramstor»da yoxlatdırır. Xoşbəxtlikdən Vaqif Qədimovun verdiyi dollarlardan saxta çıxanı olmur. Hər şeyin qaydasında olduğunu görən Hacı Məmmədov və Eldar Rəhimov 180 min dolları Kamil Sədrəddinov və cinayətdə iştirak edənlər arasında bölüşdürürlər. Axşama yaxın İlhamın salındığı zirzəmiyə düşüb, sevinəcək halda bildirirlər ki, atasından tələb etdiklərini almışlır. Zirzəmidən çıxarkən İlhama eşitdirirlər ki, onu bir azdan azad edəcəklər.

Gecə İlham Qədimzadə yarım saat da olsa gözünü yuma bilmir. Gözü qapıda, qulağı səsdə olsa da heç kim zirzəmiyə də düşmur və qapını açan da olmur.

1996-cı il sentyabr ayının 13-dən 14-nə keçən gecə hava işıqlaşmamış Hacı Məmmədov, Eldar Rəhimov və Nizami Abdullayev zirzəmiyə düşür, onu azad etməyə gəldiklərini bildirirlər.

Cinayətkar birliyin başçısı Hacı Məmmədov artıq tələsirdi. Onlar hava işıqlaşmamış İlhamın azad edilməsini başa çatdırmalı idilər. Eldar Rəhimov İlhamın qollarını qandallayır,

gözlərini qara rəngli parça ilə bağlayır və başını bintlə sarıyır. Sonra onu 39 gün əvvəl zirzəmiyə necə düşürmüşdülərsə, eləcə də qucaqlarına götürüb zirzəminin pilləkənlərindən yuxarı qaldırıb bağ evinin həyətinə çıxarırlar. Onu qabaqcadan qapıya yaxın yerdə saxladıqları Hacı Məmmədova məxsus arxa qapıları açıq və üstünə saxta nömrələr taxılan avtomaşının arxa oturacağının ayaqaltısına uzadırlar. İlham Qədimzadə şəhərin harasında olmasını başa düşməsin deyə bəzən maşının sürətini əvvəl artırır, sonra isə azaldaraq dövrə vururlar. Eldar Rəhimov maşınla dövrə vuranda eyni zamanda istiqaməti azdırmaq məqsədi ilə İlhama eşitdirir ki, Azneft dairəsini fırlanır, onu şəhərdə gəzdirirlər. İlham deyir ki, onu gəzdirməkdənsə elə burada buraxsalar daha yaxşı olar. Maşın xeyli gedəndən sonra İlhamı maşından düşürdüb və ağaca söykəyirlər.

Hacı Məmmədov İlhamın əlindən qandalı çıxarır, həmin dövrün kursu ilə 15 min manat yol pulunu onun sağ cibinə qoyur. Heç bir söz demədən onu orda qoyub gedirlər. İlham Qədimzadə onu artıq azad etdiklərini başa düşür və gözünə bağlanmış qara parçanı açır. Özünü zeytunluqda görür. Əlini sağ cibinə salanda pula toxunur, başa düşür ki, ona yol pulu qoyublar. İlham zeytunluqdan çıxıb doqquz mərtəbəli binalar tərəfə addımlamağa başlayır. Bir az keçmiş «QAZ–31» markalı avtomaşının gəldiyini görüb onu saxlatdırır. Sürücüyə onu «Əzizbəyov» metro stansiyasına aparmağı xahiş edir. Metronun «Əzizbəyov» stansiyasında maşından düşüb, başqa bir taksiyə oturub evlərinə gəlir.

Artıq İlham Qədimzadənin iki aya qədər çəkdiyi iztirablara son qoyulmuşdu. Onun gəlişi gecənin sakitliyini pozmuşdu. Bu sevinc təkcə evdəkilərin deyil, həm də qonşuların sevinci idi. Bu gecə xəstə atanın və oğul intizarlı ananın aramsız göz yaşları tanrıya ünvanlanan şükranlıq anlarına çevrilmiş, 40 günlük həyəcan bitmişdir.

Qardaşların Hacı ilə son cinayəti

Çeçenistandakı məlum hadisələr zamanı minlərlə insan Azərbaycana pənah gətirmişdi. Onların arasında qadın, uşaq, yaşlı insanlar çoxluq təşkil edirdi. Xəstə, yaşlı və şikəstlər qaldıqları yaşayış yerlərində hər cür tibbi xidmətlərdən də istifadə edirdilər. Azərbaycan xalqı onlara hər cür köməklik edirdi. Lakin bu insanların arasında yaxşılığa qarşı pislik etməyi özlərinə ar bilməyənlər də az deyildi. Onlar Bakı şəhərində həm dəstə halında, həm də bir-birindən xəbərsiz oğurluq, quldurluq və sair cinayətlər törətməklə məşğul idilər. Hacı Məmmədov da bu cinayətkarlardan yararlanmaq üçün onların bəzilərini öz dəstəsinə cəlb edə bilmişdi. Lakin vaxtı çatanda onlarla haqq-hesab çəkməkdən də çəkinmirdi.



1996-cı il oktyabr ayının 24-də Qobustan Kəşfiyyat Qazma İşlər İdarəsində idarə rəisi işləyən Namiq Hacıyev iki nəfər işçisi ilə sürücü Mübariz Abdullayevin idarə etdiyi təzə, tünd qırmızı rəngli «Niva» markalı avtomaşınla Bakı şəhərindəki Baş İdarəyə gəlirlər. Saat 15-16 radələrində Baş İdarənin olduğu «Azneft» dairəsinə çatdıqda hansısa dövlət tədbirinin keçirilməsi ilə əlaqədar Heft Şirkətinin qarşısında avtomaşınların saxlanmasına icazə verilmədiyindən

rəis və digər əməkdaşlar maşından düşüb Baş İdarəyə girirlər. Sürücü isə maşını üzbəüz paralel küçədə saxlayır. Maşının qapılarını açarla bağlamadan tez qayıdacaqdır deyə, çörək almaq və vaxtını keçirmək üçün yaxınlıqdakı dükana və qəzet köşkünə tərəf gedir. Bu vaxt «Niva»ın saxlandığını, rəisin düşüb Baş İdarəyə girdiklərini, sürücünün isə qapıları açarla bağlamadan mağazaya tərəf getdiyini müşahidə edən Husain Abdulvahabovun cinayətkar dəstəsinin üzvü Osman avtomaşının təzə olduğunu görüb onu qaçırmaq qərarına gəlir. O, şunurları bir-birinə bağlamaqla maşını işə salıb dərhal oradan uzaqlaşır.

Sürücü Mübariz Abdullayev əlində çörək və qəzet maşının saxlandığı yerə qayıdır. Maşını saxlandığı yerdə görmür. Sürücü Baş İdarənin qabağından bir neçə dəfə yuxarı-aşağı qaçır, lakin maşını tapa bilmir. Başa düşür ki, səhlənkarlıq edib maşının qapılarını bağlamadığına görə onu oğurlayıblar. Rəisinə nə cavab verəcəyi barədə fikirləşən sürücü Mübariz Abdullayev Heft Şirkətinin binasındakı növbətçi hissəyə yaxınlaşaraq bildirir ki, onlara məxsus maşını qaçırıblar. İdarə rəisi Namiq Hacıyev məsələdən xəbər tutan kimi Səbail rayon polisinə məlumat verir. Lakin nə həmin gün, nə də sonrakı günlər axtarışın heç bir nəticəsi olmur.

Osman oğurladığı «Niva» markalı avtomaşını 3-cü mikrorayon bazarının yanındakı evlərin birinin həyətində saxlayır. O, başa düşür ki, yəqin maşın sahibi artıq polisə xəbər verib, onu axtaracağlar. Onu şəhərdə sürmək təhlükəlidir. Osman Aslanbek Çintamirova zəng edir və bildirir ki, «Bulvar»a yaxın yerdən təzə bir maşın oğurlayıb, 3-cü mikrorayon bazarının yaxınlığındakı evlərin birinin həyətində saxlayır. Ona təcili pul lazımdır. Maşını etibarlı bir adama 3 min dollara satmaq istəyir. Hələlik satmaq mümkün olmasa da ona kömək etsin maşını tanış bir adamın həyətində saxlasınlar. Aslanbek Çintamirov Osmana deyir ki, ona köməklik edər, lakin buna bir-iki saat vaxt gedəcək.

Aslanbek Çintamirov Hacı Məmmədovun mobil telefonuna zəng edir və ona bildirir ki, onda qırmızı rəngli təzə «Niva» markalı maşın var, onu satmaq istəyir. Hacı Məmmədov razılaşır, lakin bildirir ki, həmin maşını Saray qəsəbəsindəki bağ evinə gətirsin ki, həm maşına baxsın və həm də ki, orada sövdələşsinlər. Aslanbek Çintamirov öz evində Osmanla görüşür və onunla birlikdə maşının saxlandığı yerə gəlirlər.

Aslanbek Çintamirov maşının xarici görünüşünə və içərisində olan qeydiyyat vaxtına baxdıqdan sonra onun təzə olduğuna əmin olur və bildirir ki, onu yaxşı qiymətə satmaq olar. Aslanbek avtomaşının sükanı arxasına keçir, Osman da onun yanında oturaraq Hacı Məmmədovun bağ evinə gəlirlər.

Maşını çox axtarsalar da Hacı Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin polkovnik-leytenantı olduğundan həmin bağ evi şübhələrdən kənarda qalır. Həyətində oğurluq maşının saxlana biləcəyinə həmin vaxt heç kim inana da bilməzdi. Digər tərəfdən Hacı Məmmədovun bağ evinin ərazisi yalnız cinayətkar birliyin üzvləri üçün açıq idi.

Üç-dörd gündən sonra Hacı Aslanbek Çintamirova zəng edib görüşmək istədiyini bildirir. Aslanbek Saray qəsəbəsindəki bağın yaxınlığına gedir və orada Hacı ilə görüşürlər. Hacı Osmanın oğurladığı maşına görə ona 2 min dollar pul verir. Aslanbek isə həmin pulu Osmana çatdırır. Azərbaycana pənah gətirib buranın havası və suyu ilə dolanan Osman Dövlət Neft Şirkətinə məxsus oğurladığı maşının satılmasından əldə etdiyi pulu yol xərci edərək Çeçenistana qayıdır.

Hacı Məmmədov oğurlanan avtomaşını bir müddət öz istifadəsində saxlayır. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin balansında olan, lakin hüquq-mühafizə orqanları tərəfindən axtarılan qırmızı rəngli təzə «Niva»nı Hacı Məmmədov onların gözü qarşısında sağa da, sola da sürür. Hacını nə saxlayan olur, nə də ona gözünüstə qaşın var deyən. Son-

radan Hacı Məmmədov maşını Qusar rayonunda bandanın digər üzvü Malik Məmmədova verir. Malik Məmmədov da maşından Hacı Məmmədovun sahibkarı olduğu «Qarabulaq» istirahət mərkəzində istifadə edir. Hacı Məmmədova görə Qusar rayon polis şöbəsinin əməkdaşları da cəsarət edib həmin maşını saxlaya bilmirlər.

Hacı Məmmədov Dövlət Neft Şirkətinə məxsus maşının gec-tez ilişəcəyindən ehtiyat etdiyindən onu Saray qəsəbəsinə gətirdir. O, bağ evində gözətçi işləyən Vaqif adlı şəxsdən əvvəllər ağ rəngdə köhnə «Niva» markalı avtomaşın almışdı. Ona görə də cinayətkar birliyin üzvü sürücüsü Rövşən Ağayevi çağırıb, onun istifadəsində olmuş köhnə «Niva» markalı avtomaşının banını, qeydiyyat nömrəsini həmin avtomaşından çıxartdırıb, oğurlanan qırmızı rəngli «Niva»nın üstünə vurdurur. Sonra da oğurlanan maşını ağ rəngdə rənglətdirib, saxta sənədlərlə Qusar rayonuna göndərib, yenidən Malikin istifadəsinə verir.

Hacı Məmmədov bundan əvvəl də bir neçə dəfə oğurluq və quldurluqla ələ keçirilən bir neçə avtomaşını alıb onlardan törətdikləri cinayətlərdə nəqliyyat vasitəsi kimi istifadə etmişdi. Amma o, xırda işlərlə məşğul olmağı sevmirdi. Banda üzvləri də bunu bilirdilər. Onlara böyük pullar gətirən cinayətlər törətməyi məsləhət görürdü. Lakin əvvəlki cinayətkar dəstənin başçısı olan Husain, qardaşı Sidek Abdulvahabovlar və onlara yaxın olan dəstə üzvləri belə işlərdən çəkinmirdilər. Digər banda üzvü Aslanbek Çintamirovun da həmin banda üzvləri ilə tez-tez münaqişələri baş verirdi. Dəfələrlə Aslanbek Çintamirovu pay bölgüsündə aldatmışdılar. Onların Hacı Məmmədovla əlaqələri zəifləsə də Sidek Abdulvahabovun cinayət əlaqəsi davam edirdi. Banda üzvü Şirxan Albiyev şəhərin mərkəzində toxum mağazasının müdiri, iş adamı Məmmədhüseyn adlı şəxsin oğlunu oğurlamağı Hacı Məmmədova təklif edir və onu böyük imkana malik olan bir adam kimi təqdim edir. Hacı Məmmədov da həmişə onla-

ra böyük, yaxşı maddi imkanı olan adamlardan başlamağı məsləhət görürdü. Onların bu təklifi Hacı Məmmədovu qane edirdi. Odur ki, o, dərhal razılıq verir və həmin əməliyyatın hazırlıq işlərinə başlayır.

Hacı Məmmədov bu məqsədlə Sidek Abdulvahabovu, Ədalət Əsədullayevi, Osmanı və onun adları və şəxsiyyətləri məlum olmayan iki çeçen dostunu bir yerə toplayır. Onların arasında vəzifə bölgüsü aparıldıqdan sonra dəstəyə rəhbərliyi Husain Abdulvahabovun kiçik qardaşı Sidekə tapşırır. Sidek Abdulvahabov dəstə üzvləri ilə birlikdə Osmanın idarə etdiyi «VAZ–2109» markalı maşınla bir neçə dəfə Məmmədhüseyn Manafovun işlədiyi dükanın yaxınlığına gəlib oğluna məxsus «Daevo» markalı maşının sahibi Cavid Manafovu izləməyə başlayırlar. Onlar dəfələrlə Cavidin işdən çıxıb 9-cu mikrorayondakı yaşadığı binanın qarşısında maşını dayanacağa qoyub piyada evlərinə getməsini müşahidə edirlər. Bir sözlə, Cavid Manafovun bütün hərəkət marşrutunu dəqiqləşdirirlər.

Sidek Abdulvahabov və digərləri qısa vaxtda oğurlamaq istədikləri insanla bağlı güdməni başa çatdırır və müəyyən edirlər ki, şəhərin mərkəzində mağazası olan Cavidin atası Məmmədhüseyn «Flora» kiçik müəssisəsinin sahibidir. Evləri Binəqədi rayonu ərazisindəki 9-cu mikrorayon, Mir Cəlal küçəsindədir. «Daevo-Reyser» markalı avtomaşını var. Hər axşam saat 22 radələrində evə gələndə avtomaşınını evin qabağındakı dayanacaqda saxlayıb, evə piyada gedir.

Bu barədə Hacı Məmmədov məlumatlandırılır. Hacı da onun necə, haradan ogurlanması məsələsini və qaydasını bir daha götür-qoy edir, Cavid Manafovun oğurlanmasını planlaşdırır, oğurlanacaq günü və saatı dəqiqləşdirir. Əməliyyatda iştirak edəcək Sidek, Osman, onun iki nəfər çeçen dostu «AKM» tipli avtomat və tapançalarla silahlandırılır. Qollarını bağlamaq üçün qandal və sifətləri görünməsin deyə başlarına keçiriləcək maskaları da götürürlər. Onlar bir-iki dəfə

9-cu mikrorayona gəlib Cavid Manafovu evin qabağında dayanıb gözləyir və onu oğurlamaq istəyirlər. Lakin həmin ərazidə adamlar çox olduğundan işləri baş tutmur.

Axırıncı dəfə 4 noyabr 1996-cı il tarixdə Sidek, Osman və iki çeçen Osmanın idarə etdiyi dövlət nömrə nişanı məlum olmayan ağ rəngli «VAZ–2109» markalı avtomobillə 9-cu mikrorayona gəlirlər. Cavid Manafovun yaşadığı 9 mərtəbəli yaşayış evinin həyətində maşında oturub onun işdən gəlməsini, maşını dayanacaqda qoyub piyada evə getməsini gözləyirlər. Cavid Manafov vaxtında gəlib çıxmır. Ona görə də xeyli gözləməli olurlar. Onun evə gec gəlməsinin də əsas səbəbi həmin gecə Odessa şəhərində olan atası Məmmədhüseyn Manafovun ezamiyyətdən qayıtması olur. Məmmədhüseyn Manafovun gəldiyi gecə onun yaxınları, o cümlədən, oğlu Cavid də atasının ezamiyyətdən gəlməsi ilə əlaqədar orada, atasının evində olur. Saat 23 radələrində isə Cavid Manafov evinə gəlir.

Sidek Abdulvahabov Hacı Məmmədovla telefon əlaqəsi saxlayır və ona deyir ki, evin qabağındadırlar, «obyekt»in gəlişini gözləyirlər. Hacı Məmmədov da öz növbəsində Sidekə bildirir ki, Cavidi götürən kimi dərhal ona xəbər versin ki, Binəqədi rayonunun «Duz gölü» ətrafında – Saray qəsəbəsinə gedən yolda onları qarşılaya bilsin.

Saat 23 radələrində Cavid Manafov avtomobil dayanacağında maşını saxlayır. Sidek və onun dəstəsinin üzvləri tez maşından düşürlər. Onlardan biri kapotu qaldırıb mühərrikin nasazlıgı ilə bağlı iş görürmüş kimi görüntü yaradır. Digərləri isə özlərini ağaclığa verərək gizlənirlər. Cavid isə piyada iki binanın arası ilə evə tərəf gəlməyə başlayır. Bu vaxt o, dayanacaqla üzbəüz altıbloklu doqquzmərtəbəli binanın sol tərəfində kapotu açıq vəziyyətdə olan ağ rəngli «VAZ–2109» markalı avtomaşının dayandığını, bir nəfərin isə arxası ona tərəf qurdalandığını görür. Cavid Manafov oradan keçəndə bir nəfər qəfildən onun çiyinlərindən yapışıb əynindəki gö-

dəkçəni başına keçirməyə cəhd edir. Cavid həmin şəxsi çiynindən yerə tullamağa imkan tapır. Elə bu vaxt binanın qarşı tərəfindəki ağaclıqdan başlarında maska olan Osman və başqa bir çeçen Cavidin üstünə hücum edirlər. Onlar birləşərək gödəkcə ilə onun başına bükməyə və gözlərini örtməyə nail olurlar. Cavid dayanacaqdakı qarovulçunu köməyə çağırır. İkinci dəfə də qışqırmaq istəyir, lakin kisəni başına keçirdiklərinə görə səsi eşidilməz olur. Cavidi müqavimət göstərdiyindən əllərini qandallaya bilmirlər. Osman avtomatın çaxmağını çəkir ki, onu qorxutsun. Bu da mümkün olmadıqda avtomatın qundağı ilə onun qarın boşluğuna iki dəfə zərbə vurub onu haldan salır və qandalı Cavidin qoluna keçirirlər. Maşına oturub sürətlə oradan uzaqlaşırlar. Vədə verdikləri yerdə onları Hacı Məmmədov, Nizami Abdullayev və Hacının arvadı Nailə Quliyeva gözləyirdi. Sidek maşından düşüb və Hacı Məmmədovla təkbətək görüşür və tapşırığı yerinə yetirdiklərini bildirir. Əlavə olaraq məlumat verir ki, gətirdikləri adam onlara güclü müqavimət göstərib. Onu çox çətinliklə maşına basa biliblər. Bundan sonra Hacının və Sidekin göstərişi ilə Osman və iki nəfər Cavid Manafovu «VAZ–2109» markalı avtomaşından düşürdüb Hacı Məmmədovun gəldiyi dövlət nömrə nişanı məlum olmayan «Jiquli» markalı maşına mindirərək ona təhvil verirlər. Hacı, arvadı Nailə və Nizami Cavidi Saray qəsəbəsinə gətirirlər.

Saraya gedən yolda Cavid Manafov eşitsin deyə Hacı asta-asta: «Atası bir milyon pul verəndən sonra hər şey qaydasına düşər. Həm bizim işimiz düzələr, həm də ki, Cavidin atasının. Bundan sonra hər şey ondan asılıdır. Özünü yaxşı aparsa, heç bir problem olmayacaq».

Nizami Abdullayev Cavidi Saraydakı bağ evinə gətirir. Onu kürəyinə alıb pilləkənlərdən zirzəmiyə düşürür. Cavidə tapşırırlar ki, onların göstərişi olmasa, geriyə dönüb baxmasın. Qollarından qandalı açır, başından kisəni çıxarır və qapını bağlayıb gedirlər.

Bir saatdan sonra Cavidin atası oğlunun evə çatıb-çatmadığını dəqiqləşdirmək üçün zəng edir. Evdən bildirirlər ki, maşını dayanacağa qoymağa aparıb, lakin bu vaxta kimi hələ də qayıtmayıb. Təkrarən zəng edildikdə Cavidin evə gəlmədiyini bildirirlər. Məmmədhüseyn Manafov narahat olmağa başlayır. O, evlərinin qarşısındakı avtomobil dayanacağına gəlir və Cavidin maşınını orada görür. Dayanacaqda duran qarovulçudan oğlunu soruşduqda, qarovulçu deyir ki, Cavid maşını bağlayıb evə gedib. Oğlunun evinə tərəf gedərkən Cavidin yaşadığı binanın birinci mərtəbəsinin tinindən keçəndə çörək mağazasının qabağında əynində ağ xalat olan oğlanı görüb ondan burada hər hansı bir hadisənin olub-olmamasını soruşur. Oğlan ona bildirir ki, saat 24 radələrində ağ rəngli «VAZ–2109» markalı avtomaşından düşən 3-4 nəfər silahlı adam cavan bir oğlanla əlbəyaxa olub, onu zorla maşına basıb apardılar. Həmin oğlan əlbəyaxa olarkən dayanacaqda işləyən qarovulçunu köməyə çağırırdı. Qarovulçu yaxınlaşmaq istədikdə silahlı adamlar avtomatın çaxmağını çəkdiklərinə görə o, qorxusundan yaxın gələ bilmədi. Bundan sonra silahlılar sürətlə oradan uzaqlaşdılar.

Məmmədhüseyn Manafov çörək mağazasında işləyən oğlanın dediyi yerə baxanda oğlu Cavidin bir tay ayaqqabısının və silahlı adamlardan birinin hərbi kəmərinin yerə düşdüyünü görür və onları götürür. Cavidin atası artıq başa düşür ki, oğlu basqınçıların hücumuna məruz qalıb.

Məmmədhüseyn Manafov Bakıdan magistrallara çıxan postlardan, o cümlədən, Saray posdundan «VAZ-2109» markalı avtomaşında hərbi geyimli şəxslərin keçib-keçmədiyini soruşur. Lakin axtarışların heç bir müsbət nəticəsi olmur. Səhərə yaxın oğlu barəsində hər hansı məlumat əldə etmədən evə qayıdır. Hüquq-mühafizə orqanlarına rəsmi məlumat verib-verməməsi barədə fikirləşir.

Saraydakı bağ evində Cavidi zirzəmyə salandan on dəqiqə sonra Hacı Məmmədov zirzəminin qapısına yaxınlaşıb

Caviddən atasının, dayısı Əliheydərin mobil telefonunu və evin nömrəsini soruşur. Cavid Manafov da qapının arxasındakı, üzünü görmədiyi və adını bilmədiyi Hacı Məmmədova deyir ki, onu oğurlayıb gətirənlər yolda barmağından atasının yadigarı olan üzüyünü çıxarıb götürüblər. Üzüyün qaytarılmasını xahiş edir. Hacı Məmmədov telefon nömrələrini aldıqdan sonra çıxıb gedir. Sabahısı gün ona yemək gətirilən boşqabın içərisində üzüyünün də olduğunu görür.

Hacı Məmmədov telefon nömrələrini əldə edib onları Eldar Rəhimova və Nizami Abdullayevə verir. Onlara Cavidin atası ilə əlaqə yaratmağı, həmçinin pul alınana kimi bu işlə məşğul olmağı və Cavidin keşiyini çəkməyi tapşırır. Hacı Məmmədov Cavid Manafovun keşiyini çəkməyi arada milliyətcə çeçen olan Ramazan adlı şəxsə də tapşırır. Zirzəmidə saxlandığı müddətdə Cavid Manafovun yeməyini Nailə Quliyeva hazırlayır, keşikçilər isə hazırlanan yeməyi ona çatdırırlar.

Hacı Məmmədov belə qərara gəlir ki, Cavidin atası ilə əvvəl özü danışsın və tələb olunan məbləği istəsin.

Səhər tezdən Hacı Məmmədov Eldar Rəhimovla birlikdə şəhərə gəlir. Nizami Abdullayev isə Cavidin keşiyini çəkmək üçün bağda qalır. O, saat yeddi-səkkiz radələrində Bakıdakı avtomat telefonlardan Cavidin atası Məmmədhüseyn Manafovun ev telefonuna zəng edir. Telefonu Məmmədhüseyn Manafov götürür. Hacı sakit tərzdə səsini dəyişərək Məmmədhüseynə çatdırır ki, Cavidə görə narahat olmasınlar, o sağ-salamatdır. Onlarla düşmənçilikləri yoxdur, sadəcə olaraq onlara pul lazımdır. Cavidin azad edilməsi üçün 500 min dollar hazırlasınlar. Eyni zamanda o, Məmmədhüseyn Manafovu xəbərdar edir ki, polisə xəbər verməsin. Əks təqdirdə oğlu Cavidi də, «Vaqifin oğlunun gününə» salarlar, aqibəti pis olar. Bu sözlərdən sonra Hacı Məmmədov dəstəyi yerinə asır. Xeyli fikrə gedir. Görəsən, Vaqif kimdir, oğlunun başına nə gətiriblər ki, onun da oğlunu o günə sala

bilərlər deyə onu hədələyirlər. Məmmədhüseyn kişi narahat olmağa başlayır. Lakin telefonda ona deyilənləri evdəkilərə bildirmir.

Xeyli götür-qoydan sonra Məmmədhüseyn Manafov oğlundan əvvəl oğurlanan şəxslər barədə məlumat toplamaq istəyir. Fikirləşir ki, atılan hər hansı tələsik addım oğlunun taleyi üçün təhlükəli ola bilər.

Odur ki, Məmmədhüseyn Manafov oğlu oğurlandığı gecənin səhəri digər oğurlananlar barədə maraqlanmağa başlayır. Rəsmi olmasa da qeyri-rəsmi öyrənir ki, həqiqətən də oğlunun oğurlanmasından bir az əvvəl oğurlanan, lakin pul alınandan sonra azad edilən şəxslər olub. Onlardan biri telefonda ona deyilən Vaqifin oğlu idi. Amma Vaqif oğlunu oğurlayan şəxslərin sözünə baxmayıb polisə xəbər verdiyi üçün oğlunun qulağını kəsiblər. Eyni zamanda həmin şəxslər acığa düşüb tələb olunan məbləği iki dəfə artırıblar. Yalnız artıqlaması ilə pulu aldıqdan sonra oğlunu qulağı kəsilmiş vəziyyətdə buraxıblar. Mebel Konserninin prezidenti Nazim Paşayevin və sürücüsünün taleyi isə daha acınacaqlı olub. Pulu gec çatdırdıqlarına görə onları öldürüblər.

Məmmədhüseyn Manafov bunları eşitdikdən sonra bu işin nə qədər ciddi olduğunu anlayır və oğluna hər hansı bir xətər yetircəklərindən ehtiyat edərək polisə və ya digər müvafiq orqanlara xəbər verməkdən vaz keçir. Yaranmış vəziyyətdən çıxış yolunu tələb olunan məbləği toplayıb verməklə oğlunun sağ-salamat və digər xəsarətlər yetirilmədən azad olunmasına nail olmaqda görür.

Artıq Hacının işlədiyi nazirlikdə onun bu nazirliyin əməkdaşı olması ilə bağlı yalnız adı qalırdı. Dövlət işinin, xidməti işin nə olduğunu o artıq unutmuşdu. Dövlətdən ayda bir dəfə pul cədvəlinə imza atmaqla maaş alırdısa, artıq onun bir ayda törətdiyi cinayətlərə görə əldə etdiyi qazanc on minlərlə idi. O, cədvəl olmadan, heç bir yerə imza atdırmadan özü pul paylayırdı. Bu əsginazların haradan götürülməsi, kimdən

alınması və ya göz yaşları ilə toplanması onu qətiyyən maraqlandırmırdı.

Cavidin oğurlanmasının ikinci günü Hacı Məmmədovun tapşırığına əsasən Eldar Rəhimov və Nizami Abdullayev Məmmədhüseyn Manafova zəng edib tələb olunan pulun 150 min dollara endirildiyini bildirirlər. Məmmədhüseyn kişi onda bu qədər pulun olmadığını bildirir. Evində cəmi 2500 dolları olduğunu deyir. Eldar Rəhimov və Nizami Abdullayev bu məbləğlə razılaşmırlar. Eyni zamanda Məmmədhüseyn Manafova bildirirlər ki, oğlunun ona məktubu var. Həmin məktubu Tibb Universitetinin qarşısındakı abidənin bünövrəsinin yanındakı siqaret qutusunun içindən götürə bilərlər.

Telefon zəngindən sonra Məmmədhüseyn Manafov deyilən abidənin ətrafına baxdıqda həqiqətən «BT» siqaret qutusunu görüb onu götürür. Bundan başqa oğlunun girovluqda saxlandığı müddətdə ona bir ədəd audiokaset və bir ədəd də videokaset göndərilir. Hər iki kaseti o, iş yerindən iki yüz-üç yüz metr aralıda yerləşən yaşayış binasının girişində birinci mərtəbədə pilləkənlərin arxa tərəfində olan yerdən götürür. Məktub, audiokaset və videokasetlərin məzmunu əsasən Cavidin atasına olan müraciətlərindən ibarət olur. Müraciətlərdə o, atasından xahiş edir ki, tələb olunan pulu versin. Əks təqdirdə ona işgəncə verəcəklər.

Hacı Məmmədov Cavidin azad olunması üçün pul tələb etdikdə və həmin məbləği qısa müddətdə toplamaq mümkün olmadığından Məmmədhüseyn kömək üçün qohum-əqrəbaya müraciət edir. Qohumlar hadisə ilə əlaqədar evə toplaşdıqda Məmmədhüseyninin anası silahlılar tərəfindən Cavidin oğurlanmasını eşidir. Yaşlı qadının nəvəsinin başına gələnlərdən halı pisləşir və yorğan-döşəyə düşür. Bir neçə gündən sonra dünyasını dəyişir.

Qohum-əqrəbadan pul yığılmasını Məmmədhüseyn qaynı Əliheydərə tapşırır.

Cavid Manafovun dayısı Əliheydər noyabrın axırına kimi tələb olunan məbləğin bir hissəsini toplaya bilir. Lakin Hacı və onun adamlarının tələb etdiyi məbləğə çatdıra bilmirlər. Hacı Məmmədov işin uzanmamasına görə tələb olunan məbləği azaldır. Odur ki, növbəti telefon danışığı zamanı Eldar Rəhimov tələb olunan məbləqdən 50 min dollar güzəşt etdiyini deyərək qalan 100 min dolları iki günə hazır etməyi tapşırır. İki gündən sonra Məmmədhüseyn Manafov Eldar Rəhimovla telefon danışığında 100 min dolların hazır olduğunu bildirir. Eldar Rəhimov pulun verilmə yeri, vaxtı və qaydası barədə ona bir daha zəng edəcəyini deyir.

Cavid Manafovun oğurlandığı iyirmi doqquzuncu gündə keşik çəkən Eldar Rəhimov zirzəmiyə düşür və ona bildirir ki, atası ilə razılaşıblar, pulu almağa gedirlər. Hər şey qaydasında olsa onu azad edəcəklər.

Məmmədhüseyn Manafov tələb olunan 100 min dolları hazırlayıb Hacı Məmmədovun telefon zəngini gözləyir. Axşamdan xeyli keçsə də, o, heç bir yerə tərpənmək belə istəmir. Nəhayət telefon zənginin səsi gəlir. Hacı Məmmədov zəng edib bildirir ki, əmanəti özü ilə götürsün və deyəcəyi istiqamətdə hərəkət etsin.

Məmmədhüseyn Manafov dərhal maşınla yola çıxır. Hacı Məmmədov pulu alacağı axırıncı görüş yerindən əvvəl onu yoxlamaq məqsədi ilə maşını bir neçə yerə sürməyi təklif edir. O Məmmədhüseynin arxasınca kiminsə gələ biləcəyindən ehtiyat edir. Hacı Məmmədhüseynə tapşırıq verir ki, Fəhlə prospekti (indiki Nobel) ilə «Poti Fani» (indiki «Nizami») parkının qarşısına gəlsin və orada onun zəngini gözləsin.

O parkın qarşısına gəlir və telefon zəngini gözləyir. Bir azdan telefonda Hacı Məmmədovun xırıltılı səsi eşidilir. O, Məmmədhüseynə deyir ki, maşının spidometrini «0»a qoysun və həmin yerdən başqa tərəfə döndərmədən maşını düz səkkiz kilometr sürüb getsin. Həmin yerə çatanda yolun sağında iri lövhə görünəcəkdir. Həmin lövhədə peşə məktəbinə

gedən yol göstərilir. Lövhənin qarşısında onun zəngini gözləsin. Məmmədhüseyn Manafov onun dediyi qaydada hərəkət edir. Fəhlə prospektində yanacaqdoldurma məntəqəsini bir qədər keçib dayanır. Hacı Məmmədov zəng edir və yenidən ona deyir ki, yolun solunda lövhə ilə üzbəüz boş yeşik qoyulub, pulu həmin yeşiyin içərisinə qoysun. O, yeşiyi görsə də 100 min ABŞ dollarını boş yeşiyə qoyub getməkdə tərəddüd edir. Lakin onun Hacının dediklərinə əməl etməkdən başqa çarəsi qalmır. Yaxınlaşıb əlindəki pul bağlamasını yeşiyin içərisinə qoyur və oradan uzaqlaşır.

Bir qədər sonra Hacı zəng edərək bildirir ki, hər şey qaydasındadır və oğlunu qaytaracaqlar. Lakin nə vaxt qaytarılacağını bildirmir.

Bir neçə saat qabaq Eldar Rəhimov Cavidin yanında olanda ona eşitdirmişdi ki, pulu almağa gedirlər. 4-5 saatdan sonra Eldar Rəhimov yenidən zirzəmiyə düşür, Cavidə bildirir ki, artıq hər şey yaxşıdır. Pulu alıb, sayıb və yoxlayıblar. Hazırlaşsın bir saatdan sonra onu azad edəcəklər.

Dekabr ayının 3-dən 4-nə keçən gecə Cavidin zirzəmidə saxlandığı otuzuncu gecə idi. Hacı Məmmədov və Eldar Rəhimov başlarında maska zirzəmiyə düşüb Cavidin başını bintlə sarıyaraq bildirirlər ki, onu azad edirlər. Lakin buraxılandan sonra onları axtarmağa çalışmasın. Yoxsa nəticəsi pis ola bilər. Eldar Rəhimov onu yenə də kürəyində zirzəmidən həyətə çıxarır və onu maşının arxa oturacağında oturdur. Eldar Rəhimov maşının sükanı arxasına keçir, Hacı Məmmədov isə sürücünün yanında oturur. Bir saatdan sonra maşını saxlayıb başı sarıqlı Cavidi C.Naxçıvanski adına hərbi məktəbin yaxınlığında azad edirlər. Hacı Məmmədov onlar gedənə kimi tərpənməməyi, sürdükləri maşının səsi eşidilməz olana qədər binti açmamağı tapşırır.

Xeyli vaxtdan sonra Cavid səs-səmirin eşidilmədiyini, ətrafda tam sakitlik yarandığını hiss edir. O çətinliklə də olsa başındakı sarğını açır və ətrafda heç kimi görmür. O, 10-15

metr gedib avtomobil yoluna çıxır və taksiyə oturub şəhərə sürməyi xahiş edir.

Hacı Məmmədov və cinayətkar birliyin digər üzvləri Cavid Manafovun oğurlanmasından əldə etdiyi 100 min dolları öz aralarında bölüşdürürlər. Alınan pulun 50 minini Hacı Məmmədov özünə götürür. 40 min dolları əməliyyat dəstəsinə rəhbərlik edən Sidek Abdulvahabova verir. Sidek Abdulvahabov da həmin məbləğdən 10 min dolları cinayətə istiqamət verən Aslanbek Çintamirova, qalan hissəni isə əməliyyatda iştirak edən adı məlum olmayan çeçenlərə paylayır.

Bununla da cinayətkar birliyə daxil olan digər cinayətkar dəstənin başçısı Husain və Sidek Abdulvahabov qardaşları ilə Hacı Məmmədovun cinayət əlaqələri sona çatır.

Qonşuların qənimi

İnsanlar cəmiyyətdə təklikdə deyil, bir-birinin yaxınlığında və qonşuluqda yaşayır. Hər bir insan həmişə yaxşı qonşuları ilə fəxr edir, bir-birinə həyan olur. Adamlar bir yerə gedəndə evin açarlarını, bağ-bağçalarını bir-birinə etibar edir, Uşaqlarına və həyət-bacalarına göz olmağı qonşuya tapşırır. Ona görə də el arasında deyilir: «Uzaq qohumdan yaxın qonşu yaxşıdır».

Hacı Məmmədov isə bu fikirdən uzaq olub. Törətdiyi ilk silahlı basqınları qonşularına qarşı tətbiq edib. Özü də anası Almaz Məmmədovanın və özünün Bakı şəhəri, Rəşid Behbudov küçəsində divar qonşusu Afaq Məlikovanın evinə silahlı basqın edərək evdəki əmlakını ələ keçirmişdi. İndi isə növbə ikinci qonşunun idi.

Sahibkar-polisin qonşulardan ikinci qurbanı Ülvan Bağırov idi. Ülvan Bağırov «Ruzigar Xoldinq» Azərbaycan-Yunanıstan Birgə Müəssisəsinin Azərbaycandakı nümayəndəliyinin Azərbaycan prospekti, 14 saylı ünvanda yerləşən ofisində işləyirdi.



Ülvan Bağırovu oğurlamaq ideyasını Şirxan Albiyev vermişdi.

Məğrur çeçen olmağı ilə fəxr edən Şirxan Hacı Məmmədovun evində yeyib-içdikləri vaxt onların Ülvan adlı qonşularının həddindən artıq maddi imkana malik olması və neft məhsul-

larının satışı ilə məşğul olması barədə söhbətləri olur. Hacı bildirir ki, Ülvanı oğurlaya bilsələr, onun qohumlarından istədikləri qədər pul ala bilərlər. Həmin görüşdən sonra Hacı Məmmədov Ülvan Bağırovun oğurlanması barədə hazırlıq işlərinə başlayır. Ona görə də onlar bu işi görə biləcək dəstəni tezliklə formalaşdırmağı qərara alırlar. Hacı Ülvanın oğurlanması işinə özü şəxsən rəhbərlik etmək istəyirdi. Bu məqsədlə yenə də milliyyətcə çeçen olan Bilal adlı bir nəfəri yanına çağırıb dəstəni toplamaq barədə onunla məsləhətləşir. Bilal da dəstənin tərkibinə daxil ediləcək şəxslərdən birinin – Aslanbekin adını çəkir. Hacı Məmmədov adam oğurluqlarında hələ əvvəldən Aslanbekin bacarığına bələd idi və ona görə də Aslanbek Çintamirov barədə onunla razılaşır. Cinayətkar qrupa Aslanbek Çintamirovun özünün tanıdığı çeçenləri – Rizvanı, Ramazanı və adı məlum olmayan başqa birisini, həmçinin Eldar Rəhimovu da cəlb edirlər.

Cinayətkar dəstənin tərkibinə daxil olan yeddi nəfərin beşi milliyyətcə çeçen və iki nəfəri isə azərbaycanlı olur. Hacı Məmmədov həmin dəstə üzvlərini bir yerə yığıb, onlara iki ədəd AKM markalı avtomat, bir ədəd tapança, maska və qandal verməklə dəstə üzvlərini silahlandırır.

Hacı Məmmədov əməliyyata başlayacaq dəstə üzvlərinə əlavə məlumat verərək bildirir ki, oğurlamaq istədikləri Ülvan Bağırov neft məhsullarının alqı-satqısı ilə məşğul olur. O, hansısa müştərək müəssisənin rəhbəridir. Rəhbərlik etdiyi müəssisənin ofisi keçmiş Lenin muzeyinin arxasında, Malakan bağı yaxınlığında yerləşir. Özünün də «Volvo» markalı avtomaşını var. Hacı Məmmədov Aslanbekə həmçinin bildirir ki, Ülvan Bağırov əksər hallarda evdən saat 9 radələrində çıxır və işə piyada gedir. O, Ülvan Bağırovun işlədiyi ofisi, həmçinin yaşadığı evin yerini də Aslanbek Çintamirova göstərir. Aslanbek isə bununla kifayətlənmir. O, Eldar Rəhimovla birlikdə Ülvan Bağırovu güdməyə başlayır və bununla da onun bütün hərəkət marşrutlarını bir daha dəqiqləşdirir.

Ülvan Bağırovun oğurlanmasından əvvəl Hacı Məmmədov və Bilal adlı çeçen Ülvanın qohumlarından alınacaq pulun bölgüsünü də aparırlar. Belə razılaşırlar ki, əldə olunacaq pul onların ikisi arasında yarıbayarı bölünsün. Bilal isə öz əlli faizından Aslanbek və adam oğurluğunda iştirak edən şəxslərə istədiyi hissəni verməlidir.

Tapşırığı başa çatdırdıqdan sonra Hacı Məmmədov Ülvan Bağırovu oğurlayacağları barədə Daxili İşlər Nazirliyində şöbə rəisi işləyən Kamil Sədrəddinovu da məlumatlandırır. Kamil Sədrəddinov həmin məlumatla nəinki razılaşır, hətta Hacı Məmmədovun təşəbbüsünü bəyənir.

1996-cı il fevral ayının 10-da Hacı Məmmədov Aslanbeklə anasının yaşadığı ünvana yaxın parkın yanında görüşür. O, həmin görüş yerinə idarə etdiyi qırmızı rəngli «Niva» markalı avtomaşınla gəlir. Söhbət zamanı Hacı Məmmədov Aslanbek Çintamirova deyir ki, keçmiş Lenin muzeyinin arxasında açarları üstündə olan ağ rəngli «VAZ–2106» markalı avtomaşın dayanıb. Özü isə bir qədər aralıda Rəşid Behbudov küçəsində, Xarici Dillər Universiteti yaxınlığında gözləyəcək. Ülvan oğurlandıqdan sonra onlar maşınları dalbadal sürəcəklər. Bir qədər sonra Ülvanı özü onlardan təhvil alıb Saray qəsəbəsindəki bağ evinə aparacaqdır.

Aslanbek Hacı Məmmədovdan ayrıldıqdan sonra keçmiş Lenin muzeyinin arxasına gəlir və Hacının dediyi yerdə açarları üstündə olan avtomaşını görür. Bir azdan dəstə üzvlərindən Ramazan, Rizvan və adı məlum olmayan digər çeçen də oraya gəlir. Dörd nəfər Hacı Məmmədovdan qabaq onun avtomaşına otururlar. Aslanbek Çintamirov maşını Azərbaycan prospekti 21 saylı ünvanın qabağında saxlayır və Ülvan Bağırovun oradan keçməsini gözləyirlər.

Saat 10 radələrində heç nədən xəbəri olmayan Ülvan Bağırov onların əyləşdiyi maşının yanından keçib işlədiyi ofisə getmək istərkən başlarında qara rəngli idmançı papağı, əyinlərində hərbi kamuflyaj, ayaqlarında hərbi botinka

olan silahlılar avtomaşından düşüb Ülvan Bağırova basqın edirlər.

Dörd nəfər çeçen bir göz qırpımında Ülvan Bağırovu öz maşınlarının arxa salonuna itələyir və başına kisə keçirib, qollarına qandal vururlar. Basqın edən çeçenlərdən biri qandalın digər tərəfini öz qoluna bağlayır. Ülvana rus dilində «sidi ne derqaysya» deyə göstəriş verilir. Aslanbek Çintamirov sükan arxasına keçir, adı məlum olmayan çeçenin biri qabaqda, Ramazan Ülvanın bir tərəfində, Rizvan isə o biri tərəfində oturur. Avtomaşın böyük sürətlə Rəşid Behbudov küçəsi istiqamətində hərəkət edir. Hacı Məmmədovun idarə etdiyi «Niva» markalı avtomaşın da gəlib onlara çatır, maşını onun arxasınca sürməyi işarə edir. Bir qədər getdikdən sonra Hacı, arxasınca isə Aslanbek maşını saxlayır. Eldar Rəhimov da Hacı Məmmədovun idarə etdiyi avtomaşında olur. Hacı Məmmədov Saray qəsəbəsinin girişində DYP postunda onları saxlaya biləcəklərindən ehtiyat edərək özü «Jiquli»nin sükanı arxasına keçir. Aslanbek onun yanında qabaq oturacaqda əyləşir. «Jiquli»də olan çeçenlərdən biri düşüb «Niva»ya minir. Hacı «Jiquli»ni sürdüyü üçün «Niva»nı Eldar Rəhimov idarə edir.

Saray qəsəbəsinə çataçatda Hacı xırıltılı səslə Ülvana Azərbaycan dilində deyir ki, narahat olmasın. Səni öldürmək fikirləri yoxdur, pul almaq üçün oğurlayıblar. Ünvana yetişdikdən sonra daravaza açılır, Hacı maşını həyətə salır. Həyətdən uşaq səsi gəlir. Bu Nailə Quliyevanın kiçik yaşlı qızı Aysel idi. Hacı dərhal uşağı oradan uzaqlaşdırmaq barədə göstəriş verir. Ramazan Ülvanı belinə alaraq zirzəmiyə düşür və cibindəki mobil telefonunu, pulunu və saatını götürür. O zirzəmidən çıxan kimi Ülvan Bağırov gözünü açır və özünü bunkerdə görür. Hacı həyətdə silahları Aslanbek və Ramazandan alır. Bu vaxt Eldar Rəhimov və digər adı məlum olmayan çeçen «Niva» markalı avtomaşınla həyətə daxil olurlar. Aslanbek vəzifəsini yerinə yetirib şəhərə qayıdır.

Hacı Məmmədov Ülvanın mühafizəsini Eldar Rəhimova və Ramazana tapşırır. Ülvanın qohumlarından pul alınması işi ilə həm özü, həm də Eldar Rəhimovun məşğul olacağını bildirir. Hacı girova yemək hazırlanması işini isə Nailə Quliyevaya tapşırır. O, həftədə bir dəfə bağ evinə gəlib bir neçə günlük yemək hazırlamalı idi. Eldar Rəhimovla Ramazan isə növbə ilə Ülvana həmin yeməkləri verməli idilər.

Hacı iyirmi-iyirmi beş dəqiqədən sonra zirzəmiyə düşür, qapını açır və yun örtüyün arxasından Ülvan Bağırovdan ofisdəki işçilərin iş və mobil telefon nömrələrini alır və bildirir ki, onun azad edilməsi üçün yaxınları 1 milyon dollar verməlidirlər. Polisin bu işdən xəbəri olmamalıdır. Əgər bu iş hüquq-mühafizə orqanlarına xəbər verilsə, onu öldürəcəklər.

Hacı təxminən saat 13 radələrində Ülvanın işlədiyi şirkətin başqa bir ofisində çalışan Vaqif İmanova zəng edərək Ülvan Bağırovu oğurladıqlarını xəbər verir. O, həmçinin polisə xəbər verməməyi tapşırır və əks təqdirdə onu öldürəcəkləri ilə hədələyir. Bir azdan Hacı Məmmədov yenidən zəng edib Nərimanov prospektində, Əzizbəyov heykəlinin altında siqaret qutusunun içərisində məktub olduğunu və həmin məktubu götürməyi tapşırır. Telefon zəngindən və hədələyici xəbərdarlıqdan sonra Vaqif İmanov ofisin işçilərindən Yefim Talışinskiyə tapşırır ki, Ülvanın işlədiyi ofisə zəng edib, onun işdə olub-olmamasını öyrənsin. Yefim Talışinski zəng edir. Ona cavab verirlər ki, Ülvan səhərdən işə gəlməyib. Vaqif İmanov Ülvanın işlədiyi ofisə yenidən zəng edib onun müavini Nikosa tapşırır ki, deyilən yerdə içərisində məktub qoyulmuş siqaret qutusunu götürsün və gətirib ona versin. Vaqif İmanovun tapşırığı ilə Nikos deyilən yerdən məktubu götürür və Vaqifə çatdırır. Məktubdan məlum olur ki, onu oğurlayıblar və azad olunması üçün bir milyon dollar tələb edirlər.

Bu hadisələrdən xəbərsiz olan Sima Bağırova həyat yoldaşı Ülvanın işlədiyi ofisə zəng edib ərini soruşduqda işçilərdən biri Ülvanın bu gün işə gəlmədiyini deyir. Sima Bağırova

«necə işə gəlməyib, onu özüm işə yola salmışam» deyir. Ülvanın qudası Faiq Hüseynov da hadisədən xəbər tutur və Sima Bağrovanın iş yerinə gəlir.

Hacının tapşırığı ilə Eldar Rəhimov Ülvanın evinə, qardaşı Məhərrəmin mobil telefonuna zəng edib, Ülvanı oğurladıqlarını və onun azad olunması üçün bir milyon dollar tələb edir.

Hacı Məmmədov Ülvanın ev telefonuna polis tərəfindən audiokaset qoşulduğunu hiss edir, hədə-qorxu gəlir, tələb olunan məbləği çatdırmasalar Ülvanın qulağını, qollarını hissə-hissə kəsib onlara göndərəcəyini deyir.

Hacı Məmmədov növbəti dəfə Ülvanın həyat yoldaşı ilə danışır və bildirir ki, Rabitə evinin yaxınlığında onlara çatası auidokaset var. Gedib onu götürsünlər. Ülvanın qardaşı Məhərrəm audiokaseti götürüb evə gətirir və onu dinləyirlər. Kasetdə Ülvanın müraciəti yazılmışdı. Ülvan pulun toplanıb onlara verilməsini xahiş edirdi. Ülvanın azad edilməsi məqsədi ilə həyat yoldaşı və Ülvanın qardaşları kömək üçün qohum-əqrəbaya müraciət edirlər.

Artıq zavallı girov on dörd gün idi ki, Hacı Məmmədovun zirzəmisində saxlanılırdı. Axırıncı tələb olunan məbləğ - 1 milyon ABŞ dolları 650 min dollara endirilsə də, onu toplamaq mümkün deyildi. Hacı dəfələrlə Ülvanı məcbur edir ki, pulun toplanıb verilməsi üçün öz xətti ilə məktublar yazsın. Bunun üçün o, Ülvanın səsini audiolentə və müraciəti videokasetə yazdırıb evlərinə göndərirdi. Bir neçə dəfə də şəxsən mobil telefonla Ülvanın evlə əlaqə saxlamasına şərait yaratdı. Şəxsi telefon danışıqları heç də Ülvanın darıxmaması üçün deyildi. Məqsəd tələb olunan pulun verilməsini sürətləndirmək idi.

Hacı Məmmədov onun gözlərini bintlə bağlayır, sonra isə «JEEP» markalı avtomaşının arxasına oturdub 15-20 dəqiqə magistral yolda hərəkət etdikdən sonra Ülvanı öz mobil telefonu ilə evlə danışmağa məcbur edirdi. Sonra onu yenidən zirzəmiyə salırdı.

Hacı Məmmədov hər dəfə Ülvan Bağırovun evlə danışmasını təşkil edərkən danışıqlar polis orqanları tərəfindən pelenqasiya olunurdu. Ona görə də hər dəfə həmin ərazilərdə polis tərəfindən axtarışlar keçirilirdi. Axtarışlarla əlaqədar polis əməkdaşları Ülvanın saxlandığı zirzəminin həyətinə də gəlirdilər. Lakin bağ evinin Daxili İşlər Nazirliyinin əməkdaşı Hacı Məmmədovun anasına məxsus olduğunu bilib baxış keçirmədən gedirlər.

Bundan sonra Hacı Məmmədov Ülvan Bağırovun saxlandığı yeri dəyişmək qərarına gəlir. Onu oğurlanan şəxslər üçün tikdirdiyi, lakin hələ inşası tamamlanmayan yarımçıq tikiliyə aparmaq qərarına gəlir. O, Ülvan Bağırovu aldadaraq guya qohumlarından lazımi məbləğdə pul aldığına görə azad etməyə aparılmasını bildirərək gözlərini yenidən bağlatdırır. Sonra milliyətcə çeçen olan Ramazan onu çiyninə götürüb zirzəmidən çıxarıb dövlət nömrə nişanı məlum olmayan «JEEP» markalı avtomaşının arxa oturacağına uzadır. Özü onun yanında arxa oturacaqda oturur. Hacı Məmmədov isə avtomaşının sükanı arxasına keçib, Saray qəsəbəsində bir qədər gəzdirdikdən sonra tikintisi tamamlanmayan tikilinin qarşısına gəlir. Maşından düşüb darvazanı açır və maşını içəri sürür. Ramazan isə Ülvan Bağırovu yenidən çiyninə götürüb maşının qapısı ilə üzbəüz olan dəmir qapıdan içəri girir və həmin qapının üstündən asılmış qara pərdənin arxasına keçib onu ayaqüstə yerə qoyur və dəmir barmaqlı qapını açır, Ülvanı zirzəmiyə salır. Bu zirzəmi də başqalarından az fərqlənirdi, saxlama şəraiti olduqca acınacaqlı vəziyyətdə idi. Otaqların divarlarının suvağı tökülürdü. Hamamı və ayaqyolusu yox idi.

Pulun verilməsinin yubadıldığını görən Hacı Məmmədov və Eldar Rəhimov qapının arxasından Ülvan Bağırova psixi təsir göstərərək eşitsin deyə bərkdən bir-birləri ilə söhbət edirlər ki, Ülvanın qohumları deyilən məbləği vermək istəmirlər. Xəbərdarlıq edilməsinə baxmayaraq polis orqanlarına müra-

ciət ediblər, hətta qardaşı Məhərrəm müntəzəm olaraq polislə əlaqə saxlayır. Polislər də axtarış tədbirləri keçirir, hətta buraya da gəlib çıxıblar. Ancaq burda onu heç vaxt tapa bilməzlər. Onlara dərs verməyin vaxtı yaxınlaşır. Onun qulaqlarını və barmaqlarını kəsib ailəsinə göndərərik, onda ağılları başlarına gələr. Bu sözlərdən sonra Ülvan Bağırovun saxlandığı zirzəmiyə iri kötük və balta gətirirlər. Ülvan Bağırov onların fikrinin ciddi olduğunu görüb bunu etməməyi xahiş edir və eşitdirir ki, ona hər hansı xəsarət yetiriləcəyi təqdirdə onlara pul da verilməyəcək, özü də burada intihar edəcəkdir.

Ülvan Bağırovun bu sözlərindən sonra Hacı Məmmədov ona bir qədər də möhlət verir. Eyni zamanda ona kiçik bir maqnitofon verir ki, o, ailəsinə müraciət edib, tələb olunan məbləği vermək üçün yalvarsın. Əks təqdirdə onu öldürəcəklər. Hacı Məmmədov Ülvanın maqnitofona yazdırdığı müraciəti dərhal ailəsinə göndərir.

Digər tərəfdən Hacı və Eldar təkcə Ülvan Bağırovun ailəsinə deyil, onun işlədiyi şirkətin ofisindəki müvafiq şəxslərə, o cümlədən, Vaqif İmanova, Baladayı Həsənova da telefon zəngləri edir, məktublar göndərir, videokasetlər təşkil edirlər. Lakin onlar cinayətkarlarla danışığa girmək istəmədiklərindən mobil telefonlarını söndürürlər. Onlara çatdırılan audiolent və videokasetləri də Ülvan Bağırovun qardaşlarına verir və ya da polis orqanlarına çatdırırlar.

Polis və digər müvafiq orqanların əməliyyat-axtarış tədbirləri nəticə vermədiyinə görə ailə üzvlərinin özləri onlarla bilavasitə danışığa girməli olurlar. Digər tərəfdən də polislərlə əlaqə yaranan kimi və ya yerli polis orqanları hər hansı tədbirləri, o, cümlədən, Saray qəsəbəsinin bağlarında reydlər keçirməyə hazırlaşarkən Kamil Sədrəddinov əldə etdiyi məlumatları dərhal Hacıya çatdırır, polislərdən əvvəl qabaqlayıcı tədbirlərlə öz işini görürdü.

Ülvan Bağırovun oğurlanmasının otuz dördüncü günü Hacı Məmmədov və Eldar Rəhimovun tələb etdiyi 650 min

ABŞ dollar toplanır. Eldarın növbəti telefon zəngində Ülvan Bağırovun qardaşı Məhərrəm deyilən məbləğin hazır olduğunu bildirir. Eldar göstəriş verir ki, əmanəti yol çantasına yığıb hazır qoysunlar. Pulun verilmə vaxtını və qaydasını özləri müəyyənləşdirəcək. Həm də tələb edirlər ki, əmanəti Ülvan Bağırovun həyat yoldaşı Simanın iştirakı ilə gətirsinlər.

Ülvanın qardaşı Məhərrəm telefon danışığından sonra topladıqları məbləği polietilenə bükür və ağzı bağlanmayan ağ rəngli yol çantasına qoyur.

Mart ayının 18-dən 19-na keçən geçə Hacı və Bilal adlı çeçen Bakı şəhərində Aslanbek Çintamirovun qaldığı evə gəlir, saat 5 radələrində zirzəmidə saxlanılan Ülvan Bağırova görə veriləcək pulun alınması üçün gedəcəklərini bildirirlər. Hacı özünə və Aslanbekə «TT» markalı tapança götürür. Bilala isə «Kalaşnikov» markalı avtomat verir. Sonra zəng edib Ülvanın həyat yoldaşı Sima Bağırova və Məhərrəmlə danışır.

O, saat beş radələrində onların metronun «Memar Əcəmi» stansiyasının yaxınlığına gəlməsini tələb edir. Onlar deyilən yerə gəlir, Hacının tələbi ilə Pişəvəri küçəsindəki 7-ci dirəyin yanında dayanır, növbəti göstərişi gözləyirlər. Göstərişə əsasən Məhərrəm maşından düşməli, əmanəti səkinin kənarındakı karton qutuya qoymalıdır. Hacı Məmmədov əmanəti karton qutudan götürməyi Aslanbekə tapşırmışdır. Məhərrəm və Sima Bağırova qarşı tərəfdən əyninə tünd rəngli palto geyinmiş, başına qulaqlı papaq qoymuş, boynuna şərf bağlamış, sol qoltuğunda aereport çantası olan arıq, bir qədər ucaboylu şəxsin gəldiyini görürlər. Məhərrəm ehtiyat edib əmanəti deyilən yerə qoymağa çəkinir. Kənarda dayanıb müşahidə edən Hacı Məmmədov Məhərrəmi gördükdə ona bir də mobil telefonla zəng edərək göstəriş verir ki, pulu deyilən yerə qoysun. Lakin Məhərrəm bir nəfərin həmin yerə yaxınlaşdığını Hacı Məmmədova xəbər verir. Hacı həmin adama fikir verməməyi, pulu qutuya qoymağı tələb edir. Məhərrəm maşından düşüb pulu qutuya qoyduqda qarşı-

dan gələnin ağacların arasında gizləndiyini görür. Pul deyilən yerə qoyulur. Aslanbek Çintamirov isə dərhal əmanət olan bağlamanı götürür və Hacı Məmmədovun idarə etdiyi dövlət nömrə nişanı məlum olmayan «VAZ–2106» markalı avtomaşınla oradan uzaqlaşırlar. Aslanbek Hacının göstərişi ilə bağlamanı açır və içərisindəki əsginazları görüb yollarına davam edirlər.

Onlar hədə-qorxu ilə əldə etdikləri 650 min dolları cinayətkar birliyin fəal üzvü Nailə Quliyevanın R.Bağırov küçəsi, ev 33, 6 saylı mənzilinə gətirirlər.

Məhərrəm evə çataçatda mobil telefonuna zəng gəlir. O, bir daha Hacının xırıltılı səsini eşidir. Hacı telefonda Məhərrəmə bildirir ki, əmanəti götürdülər, hər şey qaydasındadır və tezliklə Ülvanı azad edəcəklər.

Hacı Məmmədov pulu iki hissəyə bölür. Hər birinə 325 min ABŞ dolları düşür. Razılaşmaya görə digər iştirakçılara hər bir adam öz payından verməli idi. Əmanət bölünərkən Bilal çeçen dilində Aslanbekə təklif edir ki, burada xeyli pul var. Gəl Hacını, Nailəni və uşağı, o cümlədən, Eldarı da öldürüb pulları götürüb aradan çıxaq. Lakin Aslanbek Hacıya sadiq olduğundan Bilalın təklifi ilə razılaşmır. Buna baxmayaraq pul bölünərkən Hacı ilə Bilal arasında ciddi narazılıq yaranır. Hətta Bilal əlində olan avtomatı Hacıya tərəf çevirir. Araya girən Aslanbek onları sakitləşdirir. Pul bölgüsündən Aslanbekə 38 min, Eldara 30, Ramazana 10 min (ümumilikdə 36 min), Bilala 26 min dollar verilir. Hacı həmişə olduğu kimi bu dəfə də Kamil Sədrəddinova özünə çatan məbləqdən pay ayırır. Cinayətin digər iştirakçılarına hərə öz payından verməklə 650 min ABŞ dolları bölüşdürülür.

Həmin axşamı saat 22 radələrində Hacı şəxsiyyəti məlum olmayan bir nəfərlə Ülvanın saxlandığı zirzəmiyə düşür və ona bildirir ki, qohumlarından deyilən məbləği alıblar. Ona görə də onu azad etməyə aparırlar. Hacının tələbi ilə Ülvan papağını başına qoyur, gözlərini örtür. Onu zirzəmidən çıxa-

rıb həyətdə saxladıqları «JEEP» markalı avtomaşının arxa oturacağına oturdurlar. Maşını Bakı-Sumqayıt yolundakı «Lükoil» yanacaqdoldurma məntəqəsinin yaxınlığında saxlayırlar. Hacı Ülvana o vaxtın kursu ilə 30 min manat pul verir və deyir ki, beş dəqiqə sonra gözlərini aça bilər. Hətta Ülvana xəbərdarlıq edilir ki, deyilənlərə əməl etməyib gözlərini tez açacağı təqdirdə onu öldürəcəklər.

Xeyli vaxt keçdikdən sonra Ülvan gözlərini açır və ətrafına diqqətlə baxır. Bir qədər aralıdan görünən işığa doğru gedir. İşıq gələn yerə çatdıqda binanın qarovulunu çəkən gözətçidən harada olmasını və necə taksi tapa biləcəyini soruşur. Gözətçi istiqamət verir və Ülvan taksi saxlatdırıb onu şəhərə çatdırmasını xahiş edir. Saat 23:30 radələrində Ülvan evlərinə çatır. Ürvan Bağırovun evə qayıtması böyük məbləğə başa gəlsə də silhalı bandanın əlindən sağ-salamat azad olunması ailəsi, qardaşları və evdə onu səbrsizliklə gözləyən qohum-əqrəbası üçün gözlənilməz sevincə səbəb olmuşdur.

Bağırovlar ailəsinin heç vaxt ağlına belə gəlməzdi ki, onların övladını otuz yeddi gün girovluqda saxlayan qapıbir qonşuları sahibkar – polis Hacı Məmmədov olub.

Ana tələbi

Hacı Məmmədovun başçılıq etdiyi cinayətkar birliyin üzvləri 1995-1997-ci ilin sentyabrına kimi beş nəfərin qohumlarından övladlarının azad edilməsi üçün ümumilikdə 1 000 050 ABŞ dolları məbləğində qazanc əldə etmişlər.

Lakin cinayətkar birliyin üzvlərindən bir nəfər də olsa ifşa olunmamışdı. Onların axtarışı ilə bağlı hüquq-mühafizə orqanlarının yerdəki şöbələrinin bütün əməliyyat tədbirləri də bir nəticə vermirdi. Çünki dəstə üzvlərindən Nizami Abdullayev, Eldar Rəhimov, Kamil Sədrəddinov hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri barədə dərhal Hacı Məmmədovu məlumatlandırırdılar.



Hacı Məmmədov yaratdıqı cinayətkar birliyin tərkibini daha da «hörmətli» etmək fikrində idi. Digər tərəfdən gələcəkdə ola biləcək daha böyük səs-küylü cinayət işləri üçün daha etibarlı arxaya zərurət yaranırdı. Bunun üçün o, həm yuxarı səviyyələrdə, həm də yerli polis şöbələrində keçirilən əməliyyatlar barədə məlumatı olan şəxsləri cinayətkar dəstəyə cəlb etmək axtarışında idi.

İşlədiyi şöbənin rəisi ilə problem yox idi. «Cinayətkar birlik»də adam oğurluqlarını ancaq onun razılıqı ilə həyata keçirirdi. İdarə rəisi isə daha

yüksək rütbəli idi. Hacı Məmmədovun onunla bilavasitə əlaqəsi olmamışdı. Kamil Sədrəddinovun isə onun oğurladığı adamlar barədə Zakir Nəsirova deyib-deməməsini Hacı Məmmədov bilmirdi. Onun xidməti işi təkcə Kamil Sədrəddinovdan deyil, böyük rəisi Zakir Nəsirovdan da asılı idi. Lakin Hacı Kamil Sədrəddinovu şöbə rəisi hesab etsə də onu adam oğurluqlarında əhəmiyyətli hesab etmirdi. Çünki işlər böyüdükcə daha böyük rəisin dəstəyi ona hava və su kimi lazım idi. Ona görə də istəyirdi ki, həm xidməti işlərini, həm də gələcək adam oğurluqlarını bilavasitə böyük rəisi Zakir Nəsirovla məsləhətləşsin.

Zakir Nəsirovun əvvəlki adam oğurluqları barədə ətraflı məlumatı var idi. Xüsusilə, Ülvan Bağırovun oğurlanmasından, ondan alınan pulun məbləğindən də xəbərdar idi. Odur ki, Ülvan Bağırov girovluqdan azad edilən kimi Zakir Nəsirov Hacı Məmmədovu iş otağına dəvət edib onu yoxlamaq məqsədi ilə çoxlu sorğu-sual edərək bildirir ki, Ülvan adlı şəxs oğurlanaraq onun Saraydakı bağı ətrafında olan yerlərdə saxlanılıb, onun bu barədə hər hansı bir məlumatı varmı? Hacı Məmmədov rəisinə hər hansı məlumatı olmadığını bildirir. Bundan sonra böyük rəis Hacıya getməyi təklif edir və lazım gələrsə çağıracağını bildirir. Bir neçə gündən sonra böyük rəis onu yenidən çağırır və Hacı Məmmədova deyir ki, onda olan məlumata görə adam oğurluqlarını çeçenlər törədir və oğurlanan adamlar Novxanı və Qurd dərəsi deyilən ərazilərdə saxlanılır. Onun bu çeçenlər arasında tanıdığı və ya digər tanışları varmı, varsa kimlərdir? O, bildirir ki, çeçenlər adam oğurluğu ilə məşğul olurlar və həddindən artıq pul qazanırlar. Ülvan Bağırovun oğurlanmasını ona eşitdirərək bildirir ki, çeçenlər onu oğurlayıb sonra isə azad edilməsinə görə qohumlarından 650 min ABŞ dolları alıblar.

Hacı Məmmədov Zakir Nəsirovun yanından çıxıb gedərkən öz-özünə fikirləşir ki, rəisin bütün oğurluqlar barədə mə-

lumatı var və hətta alınan məbləğlərin qədərini də bilir. Yaxşı, əgər Kamil Sədrəddinov bütün məsələləri onunla müzakirə edirsə, bəs niyə rəis onu belə imtahana çəkir. O, bu fikirlərlə idarə rəisinin kabinetindən çıxıb birbaşa şöbə rəisi Kamil Sədrəddinovun yanına gedir və onunla Zakir Nəsirov arasında olan söhbəti danışır. Kamil Sədrəddinov onu sakitləşdirir və bildirir ki, narahatçılığa əsas yoxdur. O, hər şeyi bilir. Ola bilsin, idarə rəisi baş əməliyyat müvəkkilinin etibarlı adam olub-olmamasını sınağa çəkir.

Bir neçə gündən sonra idarə rəisi Hacı Məmmədovu yenə də iş otağına dəvət edir. Onun çeçenlər arasında tanıdığı və etibar etdiyi dostlarının olub-olmaması ilə maraqlanır. Kamil Sədrəddinovla olan söhbətdən sonra Hacı Məmmədov artıq bu dəfə özünü sərbəst hiss edir. Ona görə də sonradan böyük rəisin yanında olanda onun sualına cavab verərək bildirir ki, onun çeçen dostları çoxdur. Onlar hər şeylə, o cümlədən, adam oğurluqları ilə də məşğuldurlar. Onlara hər bir işi etibar etmək olar və çeçenlər daha ciddi tapşırıqları yerinə yetirməyə qadirdirlər.

Böyük rəisin baş əməliyyat müvəkkili ilə söhbəti alınır və onlar bir-birini başa düşürlər. Hər ikisi istədiyinə nail olur. Elə buna görə də o, Hacını üç dəfə dalbadal öz kabinetinə dəvət edir. Hacı da çoxdan bunun arzusunda idi. Təkcə Kamil Sədrəddinovun ona havadarlıq etməsi kifayət etmirdi. Bundan sonra daha böyük rəisin köməyi ona su kimi lazım olacaq. Böyük işlərə başlamaq üçün yeni pəncərə açılırdı.

Söhbətin sonunda böyük rəis Hacıya təklif edir ki, etibarlı çeçen dostlarla yaxşı işlər görə bilsə, sanballı, imkanlı adam tapıb çeçenlər vasitəsi ilə oğurlayıb yaxşı pul da qazanmaq olar. Böyük rəisin bu təklifi Hacı üçün gözlənilməz olmur. O, hiss edir ki, Kamil Sədrəddinovun onunla bu işlərlə bağlı müntəzəm söhbətləri olub. Belə söhbətlər olmasaydı Kamil Hacıya deməzdi ki, Zakir Nəsirovun sorğu-sualından narahat olmasın.

Böyük himayədarın adam oğurlayıb pul qazanmaq təklifi Hacı Məmmədov üçün təzə bir tapşırıq deyildi. O, artıq peşəkar adam oğrusu hesab olunurdu. Böyük rəisin təklifinəcən Hacı artıq beş nəfəri oğurlayıb, dörd nəfərindən yaxşı pul da əldə etmişdi.

İşlədiyi nazirliyin tabeçiliyində olduğu şöbə rəisinin, sonra isə idarə rəisinin imkanlı adamları oğurlayıb pul qazanmaq təklifi artıq ona əlavə qol-qanad verirdi. Bu vaxta kimi tabeçiliyində olduğu şöbə rəisi polkovnik Kamil Sədrəddinov onun bandasının üzvü idisə, bundan sonra onun işlədiyi idarənin rəisi də rəhbərlik etdiyi cinayətkar birliyin üzvünə çevrilirdi. Xidməti işi üzrə idarə rəisi razı qalsın deyə oğurlamaq üçün sanballı bir namizəd tapmaq lazım idi. Bunun üçün Hacı Məmmədov ilk növbədə bandanın ən fəal üzvlərini toplayıb onlarla məsləhətləşir və imkanlı adam axtarışı barədə söhbət edir. Polkovnik-leytenant belə bir imkanlı adamın axtarışını sürətləndirməyi onlara təklif edir.

Çox keçmir ki, banda üzvü Hacı Məmmədovun bacısı oğlu Elçin Əliyev və Şirxan Albiyev Hacı Məmmədova məlumat verirlər ki, oğurlamaq üçün pullu namizəd müəyyən ediblər. Hacı Məmmədov həmin adamın kimliyini soruşduqda Elçin Əliyev və Şirxan Albiyev bildirirlər ki, həmin namizəd «Azərsığorta» dövlət şirkətinin sədri Məmməd Məmmədovun oğlu Əhməddir. Onların özləri və bandanın digər üzvü Husain Abdulvahabov oğurlamaq istədikləri Əhmədi, onun qardaşını və eyni zamanda atasını yaxşı tanıyırdılar. Hacının bacısı oğlu Elçin Əliyev həmçinin Əhmədin bank sistemində işləyən qardaşı Elmarla dost idi. Əhmədlə də xeyli bir müddətdə yoldaşlıq etmişdi.

Hacı Məmmədov Elçin və Şirxanın tapdığı namizəddən razı qalır və bildirir ki, bu çox yaxşı oldu. Həmin oğlanın atasından küllü məbləğdə pul almaq imkanları olacaq. Alacaqları puldan rəisinə də çox pul verər. Bununla da generalın etibarını qazana bilər. Lakin Hacı Məmmədov bildirir ki, bu

səs-küylü iş də ola bilər. Bəlkə, bu dəfə bir qədər gözləsinlər, ya da ki, başqa adam tapsınlar. Şirxan Albiyev Hacı Məmmədovun məsləhəti ilə razılaşmır və bildirir ki, Əhmədi oğurlamağın vaxtı elə indidir. Gecikdirməyə lüzum yoxdur. Son nəticədə Hacı Məmmədov Şirxan Albiyevlə razılaşır.

Hacı Məmmədov bu söhbətlərdən sonra yubanmadan böyük rəisin yanına tələsir. Rəisin otağına daxil olan Hacı Məmmədovun onunla söhbəti heç də xidməti işləri ilə bağlı olmur. Onlar artıq rəis əməkdaş münasibətləri çərçivəsindən çıxıb, cinayətkar birliyin üzvləri kimi bir-birləri ilə davranırlar. Hacı Məmmədov gəlişinin məqsədini açıqlayaraq rəisinə bildirir ki, qısa müddətdə banda üzvləri verilən tapşırığı yerinə yetiriblər. Oğurlamaq üçün varlı, böyük imkana malik adam tapıblar. O, həmin adamın kim olmasını soruşduqda Hacı Məmmədov bildirir ki, onu hamı, o cümlədən, cənab generalın özü də yaxşı tanıyır. Böyük rəis cavabı konkretləşdirmək üçün həmin imkanlı şəxsin kimliyi ilə maraqlanır. Hacı bildirir ki, həmin varlı şəxs Azərbaycan Dövlət Sığorta Şirkətinin Prezidenti Məmməd Məmmədov, oğurlanacaq şəxs isə onun oğlu Əhməddir. Hacı Məmmədov bacısı oğlunun adını gizlədir və rəisə bildirir ki, onu bandanın üzvü Şirxan Albiyev tapıb. Şirxan və Husain Abdulvahabov həmin ailəni yaxşı tanıyırlar. Onların Məmməd Məmmədovun oğlanları Əhməd və onun qardaşı Elmarla yaxın münasibətləri var. Hacı Məmmədov məlumatını bitirdikdən sonra böyük rəis bildirir ki, həqiqətən Məmmədi və ailəsini yaxşı tanıyır. Yaxşı imkana malik olmasına şübhə etmir. Bu sözlərlə o, razılığını bildirərək Hacı Məmmədova öz dəstəyini verir.

Hacı Məmmədov böyük himayədarın xeyir-duasını və dəstəyini aldıqdan sonra Əhmədin oğurlanması üçün hazırlıq işlərinə başlayır. Bu məqsədlə, ilk növbədə adam oğurluğunda iştirak edəcək dəstə üzvlərinin sayını müəyyənləşdirir. Dəstəyə ən etibarlı banda üzvlərini cəlb edir. Onlar Aslanbek, Nizami və Aslanbekin məsləhət bildiyi şəxslər – Rusiya Fede-

rasiyasının vətəndaşları milliyyətcə çeçen Balvadi və Əhməd olur.

Hacı Məmmədov onları bir yerə toplayıb oğurlanacaq Əhməd Məmmədovun yaşadığı, işlədiyi, ən çox hərəkət etdiyi marşrutları və oğurlayacaqları yeri öyrənmək tapşırığını verir. Hacı Məmmədovun tapşırığını aldıqan sonra Nizami Abdullayev və iki nəfər çeçen Əhməd Məmmədovu güdürlər. Güddükləri müddətdə müəyyən edirlər ki, Əhməd tez-tez idarə etdiyi avtomaşınla «Semaşko» (hazırda Musa Nağıyev) adına xəstəxananın arxasında olan maşınyuma yerinə gəlir və maşınını yudurdur, özü isə yaxınlıqdakı çayxanada dostları ilə çay içir. Banda üzvləri onu elə çayxanadan oğurlamaq qərarına gəlirlər.

Husain Avdulvahabov da Əhməd Məmmədovu yaxşı tanıyırdı. Şirxan Albiyev kimi onun da Əhməd Məmmədovla dostluq münasibətləri olub. Husain Abdulvahabov bir çox cinayətləri öz dəstəsi ilə Hacıdan xəbərsiz törədirdi. Əhməd Məmmədovun atasının yaxşı maddi imkana malik olmasından onun da xəbəri olduğu üçün o, bu dəfə də Hacı Məmmədovun iştirakı olmadan Əhmədi öz dəstəsinin üzvləri ilə oğurlamaq istəyirdi. Lakin Əhməd Məmmədov Hacının dəstə üzvləri tərəfindən izlənildiyi vaxt Hacı Məmmədovla yaxın münasibətdə olan çeçenlərdən biri bu xəbəri Hacı Məmmədova çatdırır. Hacı Məmmədov Husain Abdulvahabovu qabaqlayaraq dəstə üzvlərindən təcili olaraq ləngimədən işə başlamaq barədə göstəriş verir və eyni zamanda Əhməd Məmmədovun oğurlanması gününü təxirə salmadan təyin edir. Lakin Əhmədin oğurlanmasından bir gün qabaq Hacı Məmmədov böyük rəisin yanına gedərək səhəri günü Əhmədi oğurlayacaqlarını ona bildirir. Hacı bunu bilərəkdən edir ki, o da öz növbəsində yerli rayon polis şöbələrinin keçirəcəyi əməliyyat-axtarış tədbirləri barədə ona vaxtında məlumat versin. O, da Əhmədin oğurlanmasına razılığını verir və işin gedişindən müntəzəm olaraq onu məlumatlandırmağı tapşırır.

Hacı Məmmədov idarə rəisinin razılıq və dəstəyini aldıqdan sonra 2 sentyabr 1997-ci il tarixində səhər saat 8-9 radələrində dəstə üzvləri olan Aslanbeki, Nizami, Balvadi və milliyətcə çeçen olan Əhmədi yanına çağırır və dəstə üzvlərinə bildirir ki, artıq məsuliyyətli əməliyyata başlamağın vaxtı çatıb. Bu gün Əhməd deyilən yerdən götürülüb Nailənin evinə gətirilməlidir. Hacı Məmmədov dəstə üzvlərini bir daha xəbərdar edir ki, onu elə oğurlamaq lazımdır ki, əməliyyat birinci dəfədən baş tutsun, əks təqdirdə səs-küyə səbəb ola bilər və əməliyyat pozula bilər. Əməliyyat pozulsa, bir daha onu oğurlamaq mümkün olmayacaq. Özü isə bütün günü Nailənin olduğu ünvanda onları gözləyəcəkdir. Bundan sonra Hacı, Aslanbek, Nizami, Balvadi və millətcə çeçen olan Əhmədə «TT» tipli iki ədəd tapança və bir ədəd «AKM» markalı avtomat silah, başına keçirmək üçün qara rəngli kisə və bir ədəd qandal verir.

Dəstə üzvləri lazımi qayda da silahlandıqdan sonra Nizami Abdullayevin idarə etdiyi saxta nömrə taxılmış «VAZ-2106» markalı avtomaşına minib adam oğurluğu «ovuna» yollanırlar. «Semaşko» xəstəxanasının yanında olan morqun arxasındakı maşın yuma və təmiri emalatxanasının çayxanasına çatdıqdan sonra Aslanbek və digər iki çeçen maşında oturaraq Əhməd Məmmədovun gəlməsini gözləyirlər.

Saat 15 radələrində onların gözlədiyi Əhməd Məmmədov idarə etdiyi «Mersedes Benz» markalı avtomaşınla xəstəxananın həyətində avtodayanacağın yanındakı avtoyuma yerinə gəlir. O, maşını yumağa verib, özü isə dostları Rauf, Səməd, Azər və Fuadla birlikdə çayxanada oturub söhbət edə-edə çay içirlər. Bir qədər aralıda isə Aslanbek Çintamirov öz dəstəsi ilə maşında oturub diqqətlə onu müşahidə edir. Əhmədi başqaları ilə səhv salmasınlar deyə Aslanbek digər iki nəfər çeçenlə birlikdə Əhməd Məmmədovun oturduğu stola yaxınlaşır, ona diqqətlə baxır və geri dönürlər. Saat 14-15 radələrində həmin üç nəfər çeçen çayxanada oturanlarda şübhə ya-

ranmasın deyə Balvadinin əlində tapança Əhmədə yaxınlaşıb rus dilində «onlar Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır» deyə Əhməd Məmmədovdan ayağa durmağı tələb edirlər. Əhməd bir qədər özünü itirir və «nə baş verir» demək istədikdə əlində tapança olan Balvadi tapançanın qundaqı ilə onun başına vurur. İkincisi isə əlindəki avtomatı ona tərəf tuşlayıb dayanır. Aslanbek Çintamirov da əlində tapança Əhməd Məmmədovun yaxasından yapışıb onu ayağa qaldırır və digər milliyyətcə çeçen olan Əhmədlə onu sürüyə-sürüyə xəstəxananın qapısına tərəf aparırlar. Əlində avtomat olan Balvadi isə Əhmədi aparan həmin iki çeçeni həm müşayiət edir, həm də çayxanada oturanlar yerindən tərpənməsinlər deyə, avtomatı onlara tuşlayır. Əhməd Məmmədov onlara müqavimət göstərmək istədikdə Balvadi əlindəki tapançanın qundağı ilə onun başına vurur. Bu vaxt tapançadan atəş açılır. Çayxanada Əhməd Məmmədovun yanında olan və heç nədən xəbəri olmayan dostları isə bir anlığa özlərini itirib nə edəcəklərini bilmirlər. Hadisəni müşahidə edənlər hücum edənləri hüquqmühafizə orqanlarının əməkdaşları hesab edirdilər. Avtomobil dayanacağının çıxışına çatdıqda Əhməd Məmmədovu itələyib «VAZ–2106» markalı avtomaşının arxa oturacağına uzadıb başına qara kisəni keçirirlər. Qollarını qandallayıb, üstünü örtürlər. Aslanbek Çintamirov avtomaşının qabaq oturacağında sürücünün yanında, milliyyətcə çeçen olan Əhməd isə Əhməd Məmmədovun sağında, Balvadi isə solunda oturur. Sükan arxasında olan Nizami Abdullayev maşını işə salıb oradan uzaqlaşır.

Nizami Abdullayev Əhməd Məmmədovu Hacı Məmmədovla əvvəlcədən olan razılığa əsasən cinayətkar birliyin üzvü Nailə Quliyevanın yaşadığı evə gətirir. Artıq onları həyətdə Hacı Məmmədov gözləyirdi. Əməliyyatda iştirak edənlər Əhməd Məmmədovu Hacı Məmmədova təhvil verirlər. Hacı Aslanbek Çintamirova göstəriş verir ki, oğurladıqları Əhmədi maşından düşürdüb zirzəmiyə salsınlar.

Nailə Quliyevanın həmin ünvandakı evi iki mülkdən ibarət idi. Birində Nailə Quliyevanın özü, digər mülkün üst hissəsində Əhməd Məmmədovu mühafizə edən çeçenlər qalırdı. Otağın altındakı zirzəmidə isə Əhməd Məmmədov saxlanılırdı.

Əhməd Məmmədovun saxlandığı zirzəminin uzunluğu bir metr yarım, eni bir metrdən bir qədər artıq idi. Hündürlüyü isə ortaboylu bir adamın hündürlüyü qədər olardı. Pənəcərəsi olmayan zirzəmi yaşayış üçün tam yararsız vəziyyətdə idi. Əhməd Məmmədov azad edildiyi günə kimi həmin zirzəmidə saxlanıldı.

Əhməd Məmmədovu zirzəmiyə saldıqdan dərhal sonra Hacı Məmmədov böyük rəisin yanına gedib Əhmədi oğurlayıb apardıqlarını ona məruzə edir. O da Hacının bu işindən razılıq edir və harada saxlandığını soruşduqda Hacı Məmmədov bildirir ki, narahatçılığa əsas yoxdur, o, etibarlı yerdədir. Heç kim onu tapa bilməz və yaxın saatlarda onun valideynləri ilə əlaqəyə girəcəklər.

Özlərini Daxili İşlər Nazirliyinin əməkdaşları kimi təqdim edən şəxslər zor tətbiq etməklə ağ rəngli «VAZ–2106» markalı AZ 10-CS-936 dövlət nömrə nişanlı «Jiquli» avtomaşınla Əhmədi naməlum istiqamətə aparırlar. Əhmədin dostları bu məlumatı qardaşı Elmara telefonla xəbər verirlər.

Xəbərdən Məmmədovlar ailəsi dəhşətə gəlir. Əhmədin atası Məmməd Məmmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq strukturlarına, Bakı Baş Polis İdarəsinə, həmçinin Bakı şəhəri və digər rayon polis şöbələrinə zənglər edərək oğlu Əhmədin polis əməkdaşları tərəfindən aparılıb-aparılmadığını dəqiqləşdirmək istəyir.

Məmməd Məmmədov, qohumları xəstəxanaları, təcilli yardım stansiyalarını axtarsalar da, heç bir məlumat əldə edə bilmirlər. Əhməd Məmmədovun oğurlanmasını şəxsən bilən DİN-in idarə rəisi Zakir Nəsirov da Əhməd Məmmədov barədə məlumatı olmadığını bildirir.

«VAZ–2106» markalı AZ 10-CS-936 dövlət nömrə nişanlı avtomaşın axtarılarkən həmin dövlət nömrə nişanının da

saxta olması müəyyən edilir. Saat 22-23 radələrinə kimi onun barəsində heç bir məlumat əldə etmək mümkün olmur.

Hacı Məmmədov böyük rəisin yanından çıxdıqdan sonra o, Nizami Abdullayevi Nailə Quliyevanın Xətai rayonundakı evinə çağırır və ona bildirir ki, Əhməd Məmmədovun evinin telefon nömrəsini, atası və qardaşının mobil telefon nömrələrini öyrənib onun azad edilməsi üçün tələb olunan məbləği onlara çatdırsın. İlk mərhələdə Əhməd Məmmədovun azad edilməsi üçün 2 milyon dollar tələbini irəli sürür. Hacı Məmmədovdan tapşırıq aldıqdan sonra Nizami Abdullayev işə başlayır. Başına maska keçirib zirzəmiyə düşür və Əhməd Məmmədovla sorğu-suala başlayır.

Nizami Abdullayev zirzəmidə saxlanılan Əhməd Məmmədovdan evinin telefon nömrəsini və ata-anasının mobil telefon nömrələrini alıb şəhərə çıxır və Xətai rayonunun ərazisində avtomat telefon axtarır. Saat 23 radələrində qarşısına çıxan birinci avtomat telefondan Əhmədin atası Məmməd Məmmədova zəng edir və xırıltılı səslə bildirir ki, oğlu Əhmədi oğurlayıblar. Əhməd onların əlindədir, 2 milyon dollar verildikdən sonra onu azad edə bilərlər. Nizami Abdullayev eyni zamanda Məmməd Məmmədova xəbərdarlıq edir ki, polisə xəbər verilməsin. Polisə xəbər veriləcəyi təqdirdə onu öldürəcəklər.

Məmməd Məmmədov telefon zəngində Nizami Abdullayevə bildirir ki, dedikləri məbləğdə pulu yoxdur və özünü saxlaya bilməyib ona ağır söz deyir.

Məmmədovlar ailəsi əvvəl elə güman edirdilər ki, övladları Əhməd ola bilsin bir xəta törədib və ona görə də hansısa polis şöbəsinin əməkdaşları onu aparıblar. Aydınlaşacaq və onu buraxacaqlar. Nizami Abdullayevin telefon zəngi onların bu ümidlərini alt-üst edir. Artıq onlara məlum olur ki, Əhməd silahlı cinayətkar dəstənin qurbanına çevrilib və həyatı təhlükədədir. Cinayətkarlar hər şeyə qadirdir, istədiklərinə nail olmadıqda oğullarını məhv edə bilərlər.

Məmməd Məmmədov üçün nə qədər ağır olsa da, oğlunu ölümlə hədələsələr də o, övladının cinayətkarlar tərəfindən oğurlanması barədə hüquq-mühafizə orqanlarına məlumat verir. Bakı şəhər Baş Polis İdarəsində və Nəsimi rayon polis şöbəsində Əhməd Məmmədovun cinayətkar dəstə tərəfindən oğurlanması faktı üzrə əməliyyat tədbirləri həyata keçirilsə də, heç bir nəticə alınmır. Ona görə ki, böyük rəis vəzifəsindən istifadə edərək Əhmədin axtarışı ilə bağlı Bakı şəhər Baş Polis İdarəsində və Nəsimi RPŞ-də adam oğurluğu faktı ilə əlaqədar əməliyyat işlərinin gedişini öyrənir və həmin məlumatları toplayıb Hacı Məmmədova çatdırırdı. O, əlavə olaraq Hacı Məmmədova deyir ki, həmin şöbələrdə axtarış işləri zəif gedir və narahatçılıq üçün əsas yoxdur.

Nizami Abdullayev Əhmədin azad edilməsi üçün onun atası ilə danışıq apara bilmir. Çünki, Məmməd Məmmədovun cinayətkarlarla danışmağa hövsələsi çatmır və əksər hallarda o, Nizami Abdullayevi təhqir edir. Ona görə də Nizami Abdullayev Əhmədin azad edilməsi ilə bağlı danışıqları Əhmədin qardaşı Elmar Məmmədovla davam etdirir. Gündə bir dəfə Nizami Abdullayev Elmar Məmmədova zəng edib Əhmədi öldürəcəyi ilə hədələyir və istədikləri məbləğdə pulun verilməsini tələb edir. Lakin Elmar Məmmədov da onlarda 2 milyon dolların olmadığını bildirir.

Əhməd oğurlanandan on gün sonra atası Məmməd və qardaşı Elmar birlikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirinin müavini Zahid Dünyamalıyevin qəbuluna düşürlər. Zahid Dünyamalıyev və Zakir Nəsirov onları birgə qəbul etsələr də, daha sonra nazir müavini «bu işlə Zakir Nəsirov məşğul olur» deyə onları Baş Cinayət Axtarış İdarəsinin rəisi Zakir Nəsirovun yanına göndərir. Bəli, bu işlə həqiqətən xidməti vəzifəsinə görə Zakir Nəsirov məşğul olurdu.

Məmməd Məmmədov oğlunun oğurlanmasını, onun azad edilməsi üçün cinayətkarların ondan böyük məbləğdə pul tələb etməsini, Bakı şəhər Baş Polis İdarəsi və Nəsimi

RPŞ-nə şikayət edilməsinə baxmayaraq, oğlunun axtarışı və azad edilməsi üçün heç bir tədbirin görülməməsi barədə şikayət edir.

Məmməd Məmmədov və oğlu Elmar idarə rəisinin qəbulunda olarkən o, Məmmədə bildirir ki, bir nəfər agent var, o oğlunun yerini öyrənə bilər. Lakin həmin agentdən məlumat almaq üçün ona 100 min dollar məbləğində pul verilməlidir. Onların özlərinə isə heç nə lazım deyildir. Məmməd Məmmədov həmin təkliflə razılaşır və əlavə olaraq Məmmədin özü təklif edir ki, təki oğlu azad edilsin. Oğlu buraxıldıqdan sonra agentin payından başqa əməliyyata kömək edən polis işçilərinə də 100 min dollarlıq hörmət edəcəkdir. Elmar onlara təklif edir ki, qardaşının azad olunması üçün keçiriləcək əməliyyatda iştirak etmək istəyir. Lakin idarə rəisi qəti olaraq Elmarın təklifinin əleyhinə çıxır və bildirir ki, əməliyyat məxfi olduğundan kənar şəxslər iştirak edə bilməz. Məmməd Məmmədov və oğlu Elmar onunla razılaşırlar.

Məmməd Məmmədov və oğlu Elmar Daxili İşlər Nazirliyinin idarə rəisinin əməliyyat keçirib Əhmədi azad edəcəkləri barədə söz verdiklərinə inanıb evə qayıdır və səbrsizliklə səhərin açılmasını gözləyirlər. Səhər açılır, günün yarısı da keçir, lakin Əhməd azad edilmir. Axşama yaxın iş vaxtının qurtarmasına bir qədər qalmış Məmməd qəbulunda olduğu şəxsə zəng edib həmin məsələ barədə soruşduqda o, Məmməd Məmmədova cavab verir ki, agent Əhmədin saxlandığı yeri səhv göstərdiyi üçün əməliyyat baş tutmayıb.

Bununla da Məmməd Məmmədovun hüquq-mühafizə orqanlarının köməyi ilə oğlu Əhmədin cinayətkarların əlindən alınacağı barədə ümidi boşa çıxır. Bircə yolu qalırdı. Bu da banda üzvləri ilə əlaqəni davam etdirmək. Bu yol da çox çətin, əziyyətli və qeyri-müəyyən vaxt aparırdı. Digər tərəfdən onların tələb etdiyi məbləği toplamaq da asan deyildi. Məmməd Məmmədov komək üçün daha kimə müraciət edəcəyini bilmirdi. Bundan əlavə Hacı Məmmədovun tapşırığı

ilə banda üzvü Nizami Abdullayev tez-tez zəng edib, ona hədə-qorxu gəlir və tələbləri yerinə yetirlməsə oğlunu öldürəcəklərini bildirirdi. Digər tərəfdən Hacı Məmmədovun diktəsi ilə Əhmədin atasına yazdığı və göndərilən məktubların oxunması, audiolentlərə qulaq asılması, videokasetlərə baxılması onun halını dəyişmişdi. Ona görə də telefon zənglərinə daha cavab vermirdi. Cinayətkarlarla ancaq oğlu Elmar danışıq aparırdı.

Elmar Məmmədov telefonla təkcə cinayətkarlarla deyil, özü də bilmədən qardaşının oğurlanmasının bilavasitə sifarişçisi ilə də oturub-durur və yeyib-içirdi. Bu, Hacının bacısı oğlu Elçin Əliyev idi. Elçinlə o, hələ bu oğurluq hadisəsindən qabaq da dostluq, yoldaşlıq edirdi.

Elçin Əliyev də Məmməd Məmmədovun və Elmarın idarə rəisi Zakir Nəsirovun qəbulunda olduğunu bilirdi. Onlara verilən cavabdan da xəbərdar idi. Lakin Məmmədlə Elmarın bundan sonra hansı tədbirlərə əl atacaqlarını, nə düşündüklərini bilmək istəyirdi ki, onların gələcək hərəkətləri barədə Hacını xəbərdar edə bilsin. Bunun üçün Elmarla görüşmək lazım gəlirdi. Belə görüşlər də müntəzəm olurdu və Əhmədin axtarışı ilə bağlı ailə üzvlərinin etdikləri hərəkətlər nəticəsində əldə olunan bütün məlumatlar Hacı Məmmədova çatdırılırdı.

Üç aydan artıq idi Əhməd Məmmədov oğurlanmışdı. Həmin müddətdə banda üzvü Nizami Abdullayev Elmara çoxsaylı telefon zəngləri edir, onlara hədə-qorxu gəlirdi. Məmməd Məmmədovun 2 milyon dolları yox idi. Hacı bilirdi ki, Məmməd Məmmədov oğlunun azad edilməsi üçün pul vermək istəyir və onun bundan başqa heç bir çarəsi qalmayıb. Onun hüquq-mühafizə orqanlarından da kömək gözləməsi real deyildi. Çünki həmin adamın oğurlanmasından məlumatlı olan Zakir Nəsirov bu işlə bağlı axtarışın gedişi barədə bütün məlumatları Hacı Məmmədova çatdırırdı. Hacı Əhmədin atasının tələb olunan məbləği toplaya bilməməsini görüb, öz tələbini dəyişərək onu əvvəlcə 1 milyon dollara,

daha sonra 850 min dollara endirdi. Bu məbləğlə Məmməd Məmmədovun özü də razılaşmağa məcbur idi. Ona görə ki, oğlu üç aydan artıq idi ki, cinayətkarların girovluğunda saxlanılırdı. Lakin Məmməd Məmmədov təklif edirdi ki, həmin məbləği iki dəfəyə versin. Birinci mərhələdə 450 min dollar, oğlu azad edildikdən və o evə qayıtdıqdan sonra isə qalan 400 min dolları deyilən yerə çatdırsın.

Cinayətkar birliyin üzvü Nizami Abdullayev Məmməd Məmmədovun təklifini Hacıya çatdırdıqda o, bu barədə böyük rəislə məsləhətləşməyi lazım bilir. O, Əhmədin atasının təklifini dərhal böyük rəisə çatdırır. Böyük rəis bununla razılaşmır və təklif edir ki, həmin məbləğlə kifayətlənmək olmaz. Məmməd Məmmədovun pulu çoxdur. Onun maddi imkanı ilə müqayisədə təklif olunan məbləğlə oğurlanan şəxsi buraxmaq gülünc olar. Deyilən məbləğin hamısını verdikdən sonra Əhmədi buraxmaq olar. Hacı Məmmədov böyük rəisin təklifi qarşısında heç bir söz demir. Hacı banda üzvü Nizami Abdullayevə Əhmədin atasından 450 min dolları almaq barədə göstəriş verir.

Nizami Abdullayev dərhal Əhmədin atası ilə deyil, onun qardaşı Elmarla telefon əlaqəsinə girir. Nizami Abdullayev Elmara bildirir ki, razılıq əldə olunub. Əhmədin azad edilməsi üçün əvvəlcədən veriləcək 450 min dollarla razıdırlar.

Nizami Abdullayev pulu almaq üçün uzağa getmək istəmirdi. Odur ki, Əhmədin saxlandığı əraziyə yaxın yerdə görüş təyin etməyi qərara alır. Bir saatdan sonra Nizami Abdullayev yenidən Elmara zəngi edir. Bu vaxt Məmməd də oğlunun yanındaydı. Lakin o, telefon danışığına müdaxilə etmirdi. Nizami Abdullayev Elmara göstəriş verir ki, 6 dekabr 1997-ci il gecə saat birin yarısında pul olan bağlamanı götürüb metronun «Neftçilər» stansiyasına gəlsin və stansiyanın çıxışındakı qutuya qoysun.

Elmar getdikdən sonra o, öz-özünə fikirləşir ki, oğlu Əhmədin saxlandığı yer qeyri-müəyyəndir. Onun sağ-salamat

olmasından xəbəri yoxdur. Onlara zəng edənləri tanımır. Adları, ünvanları bilinmir, sifətlərini də görməyib, üstəlik yarım milyona yaxın pulu digər oğlunun qoltuğuna verib yenə də qeyri-müəyyən bir ünvana yola salır. İnsanlar həyatda bir-birini tanısalar da, bir-birinin yerini-yurdunu bilsələr də, əllərində rəsmi sənədləri ola-ola pul alış-verişində notariatda təsdiq olunmuş sənəd olmasa, bir-birlərinə etibar etmirlər. O isə oğlunu buraxacaqlar deyə tanımadığı, görmədiyi, ancaq telefonla əlaqə saxladığı adamlara inanıb bu qədər pulu əlindən verir. Lakin Məmməd Məmmədovun başqa çıxış yolu yox idi. Ancağ pulla oğlunu azad etmək olardı. Kimdənsə kömək gözləmək gülüncdür.

Məmməd Məmmədov oğlunun yaxın vaxtlarda azad olunacağına ümid etdiyi bir vaxtda cinayətkar bandanın rəhbərləri onlar barəsində başqa plan qurmaq fikrində idilər. Onların fikri Məmməd Məmmədovdan 450 min dolları almaq və yerdə qalan 400 min dolları alana kimi Əhmədi saxlamaq idi.

Belə də oldu. Elmar Məmmədov qoltuğunda 450 min dollarla Nizami Abdullayevin ona dediyi vaxtda «Neftçilər» metrostansiyasının çıxışına gəlir. O, orada həqiqətən bir qutu görür. Lakin arxasınca başqa adamlar gəldiyini görüb keçib yan tərəfdə dayanır və guya telefonla danışmaq istəyirmiş kimi qurdalanır. Digər tərəfdən o, öz-özünə fikirləşir ki, bəlkə düz gəlməyib, heç bura deyil. Kənarda dayanıb Elmarın hərəkətlərini müşahidə edən adı məlum olmayan çeçenlə birlikdə Nizami Abdullayev Elmarın fikrə getdiyini görüb ona zəng edir və bildirir ki, qutu həmin qutudur. Nizami Abdullayev ona göstəriş verir ki, bağlamanı qutuya atıb dərhal oradan uzaqlaşsın. Telefon zəngindən sonra Elmar ətrafa diqqətlə baxır, deyilən yerə yaxınlaşır və içində 450 min dollar olan bağlamanı qutuya atır. Nizami Abdullayevin göstərişinə əsasən geriyə baxmadan oradan uzaqlaşır. Nizami isə metro stansiyasının çıxışında onların özləri tərəfindən qoyulan qu-

tuya yaxınlaşır. Əvvəlcə kiminsə gəlib-gəlməməsini yoxlamaq üçün ətrafına boylanır. Ətrafda heç kimin olmadığına əmin olduqdan sonra əlini qutuya salıb bağlamanı götürür və yoluna davam edir. 450 min dolları heç bir maneə olmadan Nailə Quliyevanın evində onları gözləyən Hacıya çatdırır.

Hacı Əhmədin azad edilməsi üçün 450 min dolları aldıqdan sonra Məmmədi aldadaraq oğlunu azad etmir və pulu öz aralarında bölürlər. 450 min dolların 300 minini Hacı özünə götürür. Axşam saat 10-11 radələrində Beşmərtəbə adlanan yerin yaxınlığındakı Azad qadın heykəlinin qabağında böyük rəisi ilə görüşür və 150 min dolları ona verir. Yerdə qalan məbləğ isə Aslanbek, Nizami, Kamil və digər cinayətkarlar arasında bölünür.

Hacı Məmmədov və cinayətkar birliyin digər üzvləri Əhmədin azad edilməsi üçün aldıqları pulu harada xərcləyəcəklərini götür-qoy etdikləri bir vaxtda, yarım milyona yaxın pulu verən Məmməd Məmmədov ailə üzvləri və qohumları ilə qapının hər an açılacağını və oğlunun içəri girəcəyini gözləyirdilər. Pulun verilməsindən artıq bir sutka keçirdi. Saatın əqrəbləri gecə 24-ü göstərirdi. Lakin nə Əhməd qapıdan içəri girirdi, nə də ki, zəng edən oldu.

Alınan pullar bölünüb yerbəyer edildikdən sonra böyük rəis Hacı Məmmədova tapşırır ki, Əhmədin azad edilməsi üçün qabaqcadan razılaşdırılmış məbləğin qalan hissəsinin də alınması üçün işlərini davam etdirsinlər. Eyni zamanda Hacıya məlumat verir ki, heç bir narahatçılıq yoxdur. Əhmədin axtarışı istiqamətində yalnız Bakı şəhəri, Nəsimi Rayon Polis İdarəsində əməliyyat-axtarış işi var. Həmin işlər də zəif gedir. Əhmədin qohumları da polislə əlaqə saxlamır. Polislərə yalan məlumatlar verirlər.

Hacı Məmmədova belə məlumatları təkcə himayədarları deyil, həmçinin bacısı oğlu Elçin Əliyev də çatdırırdı. O, Əhmədin qardaşı Elmarla dost kimi tez-tez görüşür və əldə olunan məlumatları bircə-bircə dayısına ötürürdü.

Hacı Məmmədov bundan sonra Nizami Abdullayevə göstəriş verir ki, Əhmədin atası və ya qardaşı ilə əlaqəyə girsin və bildirsin ki, Əhmədin azad edilməsi üçün razılaşdırılmış məbləğin qalan hissəsi verildikdən sonra Əhmədin buraxılması mümkün ola bilər.

Elmar Məmmədovdan 450 min dollar alındıqdan sonra nə Əhməd azad edilmişdi, nə də ki, bu barədə onlarla telefon əlaqəsinə girib Əhmədin buraxılmamasının səbəbi deyilmişdi. Nizami Abdullayev də bunu özbaşına edə bilmirdi. O, Hacı Məmmədovun növbəti göstərişini gözləyirdi.

Növbəti gün Nizami Hacıdan belə bir tapşırıq alır: «Elmar Məmmədovla telefon əlaqəsinə gir, razılaşdırılmış məbləğin qalan hissəsini də ondan tələb et. Əks təqdirdə Əhmədin buraxılması mümkün olmayacağ».

Telefon zəngi Əhmədin valideynlərini şoka salır. Hadisələrin belə inkişafından Məmmədovlar ailəsi cinayətkarlar tərəfindhən onların aldadıldığını hiss edirlər. Lakin hələ də ümidləri qırılmamışdı. Əhmədin anası Tanrıya üz tutub yavarırdı ki, dar gündə oğlu Əhmədə kömək dursun. Onu tanımadığı şəxslərin, silahlı cinayətkarların işgəncələrindən qorusun.

Həftələr, aylar keçsə də, Əhməd Məmmədov hələ də Hacının qaranlıq zirzəmisində idi. Oğurlandığı vaxtdan səkkiz ay keçirdi. Cinayətkarların axtarışı istiqamətində hüquq-mühafizə orqanlarında aparılan işlər də ləng gedirdi. Nizami Abdullayev tez-tez zəng edir, hədə-qorxu ilə pulun qalan 400 min dollarını da tələb edirdi.

Əhmədin atasını işin başqa tərəfi narahat edirdi. Onların tələb etdiyi məbləğ də verilsə, Əhməd yenidən buraxılmasa, bəs onda necə olacaq? Bunun təminatını kim verəcək, bunun sonu olacaqmı? Bu suallar Məmmədovlar ailəsini narahat edir və onlar cavab tapmaqda aciz qalırdılar.

450 min dolların verildiyi gündən üç ay keçirdi. Məmməd Məmmədovun ailə üzvlərini Əhmədin sağ-salamat olub-

olmaması, işgəncələrə məruz qalıb-qalmaması fikirləri əldən salıb üzürdüsə, cinayətkarları ancaq pul maraqlandırırdı.

Məmməd Məmmədov qohum-əqrəbadan, dost-tanışdan və ev əşyalarını satmaqla cinayətkarların tələb etdiyi pulun qalığını – 400 mini toplayırlar və səbrsizliklə zəng gözləyirlər.

Günün ikinci yarısında cinayətkarların qəfil telefon zəngi evdəki həyəcana son qoyur. Dəstəyi Elmar götürür. Evdə lal bir sükut yaranır. Demək olar ki, zəng edənin xırıltılı boğuq səsini evdəkilər də eşidirdi. Nizami Abdullayev həmişəki kimi əvvəlki tələblərini təkrar edirdi. Elmar Məmmədov Nizami Abdullayevə bildirir ki, tələb olunan məbləği hazırlayıblar. Nizami qətiyyən bu cavabı gözləmirdi. Telefonda ani sakitlik yaranır. Əhmədin azad edilməsi şərtləri ətrafında danışıqlar başlanır. Elmar bu dəfə pulu qutuya atıb getməyəcəyini bildirir və pul verilən yerdə qardaşının azad ediləcəyi şərtini ortaya qoyur. Nizami Elmarın bu şərtləri ilə razılaşır. Lakin bunun nə vaxt ediləcəyini Nizami demir. O, bu barədə Hacı Məmmədovla da məsləhətləşmək istəyirdi. Odur ki, Nizami telefon danışığında pulun alınma vaxtını, Əhmədin azad ediləcəyi yeri növbəti telefon zəngində deyəcəyini bildirir.

Məmməd Məmmədov topladığı pulları hazırlamağa başlayır. Onları əvvəl yüz-yüz kiçik, sonra isə iri bağlamada yığıb yapışqanlı lentlə sarıyır və onlara vermək üçün hazır vəziyyətə gətirir. Pulları stolun üstünə qoyub yenə də telefon zəngini gözləyir. Lakin pulun aparılıb verilməsində kimin iştirak edəcəyi söz-söhbətə səbəb olur. Əhmədin anası pulun verilməsində və oğlunun qarşılanmasında şəxsən iştirak etmək istədiyini bildirir. Oğlu Elmar anasının həyatına təhlükə olacağından ehtiyat edərək onunla razılaşmırlar. Ancaq ana öz dediyindən dönmür və bildirir ki, bu gün ya ölməlidir ya da oğlunu onlardan almalıdır.

Elmarla olan razılaşmanı Nizami Abdullayev Hacıya çatdırır. Hacı pul alınacaq yeri, vaxtı təyin edir.

22 aprel 1998-ci il tarixdə saat 22 radələrində Hacı çeçenlərdən birinə tapşırır ki, Əhmədin gözlərini bağlayıb onu saxta dövlət nömrə nişanı olan «Jiğuli» avtomaşınının arxa oturacağına oturtsunlar. Hacı Məmmədov və Nizami Abdullayev özləri ilə tapança, maska götürürlər. Hacı arxa oturacaqda Əhmədin yanında əyləşir. Nizami Abdullayev isə «Jiquli»ni idarə edir. Dərnəgul yoluna çataçatda Nizami Abdullayev Elmarla telefon əlaqəsi yaradır və təcili Sumqayıt yolu istiqamətində hərəkət etmək göstərişini verir. O, eyni zamanda bildirir ki, telefon zəngini eşidən kimi maşını saxlasın, ona veriləcək tapşırığı gözləsin. Elmar Məmmədov Nizami Abdullayevin zəngindən dərhal sonra anası ilə yola düşürlər.

Yolda ikən Elmara zəng gəlir. Yenə də Nizami Abdullayevin boğuq xırıltılı səsi eşidilir: «Maşını Masazırdakı «Duz gölü»nə sürüb orada məni gözləyin». Elmar Məmmədov həyəcandan maşını elə sürətlə idarə edir ki, hətta həmin yolda onlardan qabaqda gedən Nizaminin maşınını ötüb keçir. Nizami Abdullayev Elmarın maşınını tanıyır və sürəti artırır. Lakin onu ötüb keçə bilmir. Elmar «Duz gölü»nü, Novxanı qəsəbəsini keçib Novxanı bağlarına gedib çıxır. Nizami Abdullayev «Duz gölü»nə çatdıqda Elmarı orada görmür və yenidən ona zəng edib dediyi yerə qayıtması barədə göstəriş verir. Elmar «Duz gölü»nün yanına qayıdanda orada «Jiğuli» avtomaşınının dayandığını görür. O, da maşınını Nizami Abdullayevin avtomaşından bir az aralıda, saxlayır.

Qarşı-qarşıya dayanmış maşınlarda oturub bir-birlərinə diqqətlə baxsalar da, qaranlıq olduğundan sifətlərini aydın görə bilmirlər. Cinayətkar bandanın başçısı Hacı Məmmədov həmin yerə Əhməd Məmmədovu gətirmiş, Elmar Məmmədov və anası isə 400 min ABŞ dolları ilə gəlmişdilər.

Nizami Abdullayev bu dəfə telefonda xırıltılı səslə deyil, adi qaydada Elmardan pulu gətirib-gətirmədiyini soruşur. Elmar ona cavab vermir. Əhmədin anası öz tələbini irəli sürərək oğlunu istəyir. O, maşının arxa qapısının şüşəsini aşağı

endirib pulun gətirilməsini tələb edən Nizami Abdullayevə bildirir ki, birinci dəfə inanıb 450 min dolları onlara çatdırıblar. Lakin pulun verildiyi gündən bu günədək Əhmədin buraxılmasına cəhd göstərilməyib. Ona görə də Əhməd buraxılmayanacan pulu verməyəcəklər. Hacı Məmmədovun Əhmədin anasının onlarla ultimatumla danışmasından xoşu gəlmir və əvvəlcə pulun verilməsini tələb edir.

Nizami Abdullayev də Hacının dediklərini təkrar edir. Əhmədin anası səsini alçaltsa da onlara eşitdirir ki, axı o da anadır, heç kimdən pul, var-dövlət istəmir, hədə-qoxu gəlmir, buraya da silahsız gəliblər. O yalnız oğlunu istəyir. Onun azad olunmasını tələb edir.

Ana artıq heç nədən qorxmurdu. Qorxu da, ölum də onun üçün adiləşmişdi. Çünki cinayətkarlar bilirdilər ki, onlar görüş yerinə 400 min dollarla gəlmişlər. Onları da, Əhmədi də öldürüb pulları götürüb gedə bilərlər. Lakin Əhmədin anasının başqa çıxış yolu yox idi. Doqquz ayda ilk dəfə idi ki, oğlu ilə bir addımlıq məsafədə dayanmışdı. Göz-gözə baxmağa, oğlunu bağrına basmağa ananın əli çatmırdı. Ona görə ki, onların arasında hər an atəş açmağa hazır olan silahlı adamlar vardı. Əli qandallı, gözü bağlı Əhməd anasının danışığını eşitsə də, səsini çıxara bilmirdi.

Hacı Məmmədov çox götür-qoydan sonra ananın şərtini qəbul edir. Bunun da səbəbi vardı. O, bilirdi ki, gecənin zülmətində, insan həniri eşidilməyən bir yerdə pulu verməyə bilməzlər. Onlar heç vaxt belə riskə getməzlər. Çünki Nizamidə odlu silah var idi və bunu Elmar da, anası yaxşı bilirdilər. Onların əlindən qurtarmaq qeyri-mümkün idi. Hacının göstərişinə əsasən Nizami qandalı Əhmədin qollarından çıxarır, gözlərini açır və ondan maşından düşüb qardaşının maşınına tərəf getməyi tələb edir. Lakin Əhmədə xəbərdarlıq edir ki, başqa fikrə düşməsinlər, yoxsa nəticəsi pis ola bilər.

Elmar Məmmədov bir nəfərin onların maşınına tərəf gəldiyini görür. Elə zənn edir ki, yaxınlaşan adam cinayətkar-

lardandır. Lakin diqqətlə baxanda gələnin Əhməd olduğunu görürlər. Elmar və anası əlisilahlılardan çəkinmədən, hər şeyi unudaraq maşından düşürlər. Doqquz aya yaxın həsrətində olduqları Əhmədi qucaqlayıb, sevincdən hönkür-hönkür ağlayırlar. Bu səhnəni digər maşında olanlar – Hacı Məmmədov və Nizami Abdullayev də izləyirdilər. Elmar razılaşdıqları kimi maşının qapısını açır, əyilib pul olan bağlamanı götürüb cinayətkarların maşınına tərəf gedir. Maşına yaxınlaşıb əlindəki bağlamanı şüşəsi yarıya qədər açıq olan pəncərədən Nizami Abdullayevə uzadır və dərhal geriyə – öz maşınına tərəf qayıdır. Elmar maşınına oturmamış 400 min dolları alan Hacı Məmmədov və Nizami Abdullayev dərhal maşını işə salıb böyük sürətlə həmin yerdən uzaqlaşırlar. Elmar da maşına minib anası və qardaşı Əhmədlə şəhərə qayıdırlar.

Nizami Abdullayev Hacı Məmmədovun Saray qəsəbəsindəki bağ evinə gəlirlər. Bağda onları Rövşən Ağayev qarşılayır. Bağda Elmardan aldıqları əmanəti bir daha saymaqla yoxlayırlar. Sonra başqa maşınla Saraydan Nailə Quliyevanın yaşadıqları ünvana gəlirlər.

Hacı Məmmədov Əhmədin valideynlərindən aldığı əmanəti həmin gecə bölür. Yenə də özünün payı böyük rəisin payı ilə bərabər olur. O, 100 min dolları özünə götürür, 100 min dolları isə sabahısı gün axşam işdən sonra dənizkənarı parka gəzintiyə çıxan böyük rəisinə verir. Hacı Məmmədov bu puldan 33 min dolları Nizamiyə verir, 20 min dolları isə Cəlilabad rayon polis rəisi vəzifəsini icra edən Kamil Sədrəddinova çatdırır. Qalan hissəsini isə cinayətin digər iştirakçıları arasında bölür.

Beləliklə, bir cinayət işi də belə açılmamış qalır. Bundan maddi və mənəvi əziyyət çəkənlər də olur, qeyri-qanuni qənimət əldə edənlər və əli qana batanlar da.

«Qarabulağ»ın ilk qonağı

Hacı Məmmədovun başçılıq etdiyi «cinayətkar birlik» artıq çat verirdi. Səbəbi də törətdikləri cinayətlərdən ələ keçirdikləri qənimətləri bir-birlərindən gizlətmək və bir-birlərini aldatmaq olurdu. Bu narazılıqlar bir çox hallarda əksəriyyəti milliyyətcə çeçen olan şəxslər arasında özünü göstərirdi. Ona görə də Hacı tez-tez cinayətkar birliyə bir-birini tanımayan təzə üzvlər cəlb edirdi. Yaranan narazılıqlara görə dəstənin ən yaxın və ən fəal üzvləri Hacıdan uzaqlaşır və ya başqaları ilə birləşib yeni cinayətkar dəstələr yaradırdılar. Həmin yolla Husain və Sidek Abdulvahabov qardaşları ondan aralanmışdı. Dəstənin növbəti itirəcəyi şəxs Şirxan Albiyev idi. O, təkcə dəstədən uzaqlaşmaq deyil, Hacı ilə hesabı çürütməyə hazırlaşırdı.

Əslində çeçenlərdən Hacıya ilk vaxtlarda ən çox yaxın olanı elə Şirxanın özü olub. O, Hacı Məmmədovun və anası Almaz Məmmədovanın evində yaşayıb, bacısı Arifə Məmmədovanın evində kirayədə qalıb. Bir çox cinayətlərin, o cümlədən, oğurlamaq istədikləri imkanlı adamların bəzilərinin sifarişini verib. İndi isə onlar artıq bir-birinin əleyhinə xəlvəti hazırlıq işləri görür və hətta biri digərini aradan götürməyə hazırlaşırdı.

Onların arasındakı münasibətləri gərginləşdirən səbəbkar Hacı Məmmədovun özü idi. Aralarındakı münaqişənin başlanğıcı əsasən 1995-ci ildən başlanmışdı.

Həmin ildə milliyyətcə çeçen olan Rusiya Federasiyasının vətəndaşı Vaha adlı şəxs Gürcüstan Respublikasından «KamAZ» markalı maşınla Bakı şəhərinə gələrkən silah daşımaqda şübhəli bilindiyinə görə Yevlax rayonu ərazisində polis şöbəsinin əməkdaşları tərəfindən maşınla birlikdə saxlanılmışdı. O vaxt maşında silah aşkar olunmasada göstərilən maşınla həmin sürücü tərəfindən silah daşınması təsdiqini tapmışdı. Bu vaxt sürücü Vahanın üstünə baxış keçirilərkən Gürcüstandan silah daşınmasını təsdiq edən, silahların markası və sayı yazılan siyahı tapılır. Vaha ilə əlaqəsi olan çeçenlər onu buraxdırmaq üçün adam axtarırlar. Vahanın buraxılması üçün çalışanlardan biri də Boris Ayyubov idi. Boris Ayyubov Şirxan Albiyevlə yaxın münasibətdə olduğundan Şirxan onu Hacı Məmmədovla tanış edir. O vaxtı Yevlax rayon polis şöbəsinin rəisi Etibar Məmmədov, rəis müavini isə Cavadağa Sultanov idi. Şöbənin rəisi xəstə olduğundan Cavadağa Sultanov rəis vəzifəsini icra edirdi. Həmin məsələni həll etmək məqsədi ilə Hacı Məmmədov Kamil Sədrəddinova müraciət edir. Cavadağa Sultanovun Kamil Sədrəddinovla normal münasibətləri olduğundan Kamil Sədrəddinov öz növbəsində Cavadağa Sultanova zəng edir və həmin məsələ barəsində telefon söhbəti olur. Lakin Cavadağa Sultanov adamlarının Yevlaxa gəlməsini təklif edir ki, məsələni yerində həll etsinlər. Ona görə də Hacı Məmmədov Kamil Sədrəddinovun telefon zəngindən sonra Boris Ayyubovla Yevlax rayon polis şöbəsinə getməyə razılaşır. Ertəsi gün onlar yola çıxırlar. Saat 21:22 radələrində Yevlax şəhərinə çatırlar. Hacı Məmmədov rəisi əvəz edən Cavadağa Sultanovla görüşür, Vahanın buraxılması məsələsi müzakirə olunur və həlli barədə razılıq əldə edirlər. Hacı Məmmədov Cavadağa ilə olan həmin söhbətdən sonra çıxıb onu gözləyən Boris Ayyubovun yanına gedir

və söhbətin məzmununu ona danışır. «Təki Vaha buraxılsın» – deyə Boris Ayyubov söhbətin gedişindən razı qalır. Boris Ayyubov razılaşdıqları kimi yenidən Hacı Məmmədovu lazımi tapşırıqla rəis müavininin yanına göndərir. Lakin Hacı öz marağını da bərabər qaydada yaddan çıxarmır. Bundan sonra Vahanın buraxılması barədə razılıq əldə olunur. Lakin həmin günü Vaha buraxılmır və «bunun üçün bəzi prosessual hərəkətlər edilməlidir» – deyə onun buraxılması yubadılır. Məsələnin həlli sabaha qalır. Hacı Məmmədov Bakıya qayıdır, Boris Ayyubov Vahanı aparmaq üçün Yevlaxda qalır.

Boris Ayyubov növbəti günü polis şöbəsindən buraxılacaq Vahanı aparmaq üçün Yevlax rayon polis şöbəsinin rəis əvəzi Cavadağa Sultanovun yanına gəlir. O, verdiyi tapşırığın Hacı Məmmədov tərəfindən tam qaydada əməl etməsini yoxlamaq istəyir. Bunun üçün o, özünü Cavadağa Sultanova çeçenlərin işi üzrə beynəlxalq təşkilatın nümayəndəsi kimi təqdim edir. O, söhbət əsnasında bildirir ki, onlar vətənlərindən didərgin düşən insanlardır. Çox pis vəziyyətdə yaşayırlar. Maddi imkanları çətindir. Bir təhər özlərinə çörək pulu qazanırlar. Döst-tanışın köməyi sayəsində gəlib bura çıxıblar. İmkanları yaxşı olsaydı deyilən qaydada yox, özlərini daha sanballı təqdim edərdilər.

Boris Ayyubovun özünü çeçenlərin işi üzrə beynəlxalq təşkilatın nümayəndəsi kimi təqdim etməsi onu qorxuya salır. Özünü itirən Cavadağa Sultanov özünə haqq qazandırmağa çalışaraq bildirir ki, heç də onun dediyi kimi olmayıb. Vahanın həm qaçqın və həm də didərgin olmasını nəzərə alaraq azad edirlər. Boris Ayyubova da, elə bu lazım idi. O, istədiyinə nail olur və Hacı Məmmədov tərəfindən aldandığı qənaətinə gəlir.

Bir müddətdən sonra Boris Ayyubov Hacının onu aldatdığını Şirxan Albiyevə danışır. Həmin məsələ Boris Ayyubov, Şirxan Albiyev və Hacı Məmmədov arasında yaranan narazılığın uzanmasına səbəb olur. Bir müddətdən sonra Şirxan

Albiyev Hacı Məmmədova bildirir ki, Boris Vaha ilə bağlı işdən narazı qalıb və bu məsələni qaydaya salmağı tələb edir. Bu bəhanə ilə Şirxan hər dəfə Hacının yanına gəlir onu şantaj edərək pul alır. Bu isə getdikcə Hacı Məmmədovu bezdirir və onların arasındakı münasibət daha da pisləşir. Ona görə də Hacı Məmmədov bir daha Şirxanla iş görmək istəmir. Əhməd Məmmədovun oğurlanması işi onların arasında axırıncı şərikli cinayət sövdələşməsi olur. Lakin Şirxan və Boris birləşməsi onu rahat buraxmır. Dəfələrlə tanımadığı çeçen ona telefon zəngi edərək Borisin göndərdiyini və görüşmək istədiyini bildirir. Hacı Məmmədov Borisin göndərdiyi adamla hər dəfə görüşdükdə söhbət Hacı Məmmədovun Boris Ayyubovu aldatmasından düşür və həmin adam deyir ki, Boris Ayyubov məsələni onun dediyi qaydada tez bir vaxtda həll olunmasını tələb edir. Hacı isə onların şişirdilmiş tələbləri ilə razılaşmır.

Əhməd Məmmədov buraxılandan sonra da Şirxan Albiyev Hacı Məmmədovdan şübhələnməyə başlayır. Hacı Əhmədin oğurlanmasına görə iki dəfəyə onun valideynlərindən 850 min ABŞ dolları aldığı halda, Şirxan Albiyev elə güman edir ki, o, həmin adam oğurluğuna görə 850 min dollar deyil, 2 milyon ABŞ dolları alıb, onları aldadaraq az deyib. Bu barədə Şirxan Albiyev dəfələrlə Hacı Məmmədova bildirib və hətta deyib ki, bu məsələni yoxlayıb ona sübut etdirəcəkdir. O, hətta üçüncü şəxs vasitəsilə Əhməd Məmmədovun qardaşı Elmara çıxmaq istəyib. Hacı Məmmədov da bunun təhlükəli iş olduğunu başa düşürdü. Çünki Şirxan həmin məsələni aydınlaşdırmaq istərkən istər-istəməz Hacı Məmmədovun adı hallana bilərdi. Bu isə cinayətkar birliyin ifşa olunması ilə nəticələnəcəkdi.

Hacı ikinci dəfə idi ki, belə problemlə üzləşirdi. Birinci dəfə Nazim Paşayev və sürücüsünü oğurladığı zaman olmuşdu. O vaxt da Ruzbek adlı çeçenin ortaya çıxması onların bütün işini alt-üst etdi. Nazim Paşayevin qohumları tərəfin-

dən təklif olunan 120 min ABŞ dollarını almaqdan imtina edib ifşa olunmamaları üçün Nazim Paşayevi və sürücüsünü qətlə yetirdi. İndi də belə bir təhlükə Hacı Məmmədov və onun dəstə üzvləri üçün yarana bilərdi. Belə bir vəziyyətdə Hacı Məmmədov məsləhət üçün böyük rəisin yanına gedir və məsələnin bütün təfsilatını ona danışır. O da Hacıya göstəriş verir ki, məsələni qısa bir vaxtda «həll edib» qurtarsın.

Hacı Məmmədov rəisin yanından qayıtdıqdan sonra Şirxan Albiyevin öldürülməsi planını hazırlamağa başlayır. Lakin Şirxan bir müddət ondan uzaq qaçır. O, qısa müddətə Bakı şəhərindən də çıxır və Groznıya gedir. Lakin orada çox qalmır, yenidən Bakıya qayıdır və Hacıya zəng edib onu şantaj edir və bildirir ki, səsini maqnitofona yazıb. Hacı Məmmədov onunla görüşməyi təklif edir və iki cinayətkar görüşür. Görüş zamanı belə razılığa gəlirlər ki, bir-birlərinə mane olmasınlar. Əks təqdirdə biri digəri barədə bildiyi tədbiri görə bilər.

Hacı Məmmədov Şirxan Albiyevlə görüş zamanı söz versə də o, bilirdi ki, Şirxan Albiyev hər şeyə qadirdir. Ona görə də o, daha Şirxana inanmır. Köhnə dəstuna inanmadığına görə təcili olaraq Bakı ilə əlaqəsi və Şirxanla da tanışlığı olmayan yenə də bir çeçen axtarmağa başlayır və onu öz millətinin əli ilə aradan götürməyi daha münasib bilir. Belə bir çeçeni axtarmaqda ona yenə də milliyyətcə çeçen olan şəxslər kömək edir.

Odur ki, milliyyətcə çeçen olan Ramazan Hacı Məmmədovu Ruslan adlı başqa bir çeçenlə tanış edir. Ruslan da Yevlax rayonundakı işlə bağlı aldadılan Boris Ayyubovun qohumu çıxır. Hacı Ruslanı yanına çağırır və ona 1 000 ABŞ dolları verir ki, o, Şirxanla görüşsün, Şirxanın Hacıya qarşı hər hansı planı olub-olmamadığını öyrənsin. Ruslan Hacının təklifi ilə razılaşır, ondan 1 000 dollar pulu aldıqdan sonra Hacıdan Şirxanın koordinatlarını öyrənib görüşə gedir. Ruslan Hacının tapşırığına əsasən Şirxanı tapır. Hər iki çeçen bir-biri ilə tez dil tapa bilir. Ruslan Şirxana bildirir ki, o, bir

çox kriminal xarakterli işlər görüb və bu barədə onun yaxşı səriştəsi var. Maddi çətinlik çəkir və pul qazanmaq istəyir. Şirxana bildirir ki, təklifi varsa, o, hər cür kriminal xarakterli işlərin öhdəsindən gələ bilir. Şirxan heç nə fikirləşmədən Ruslan kimi belə bir yerlisinə rast gəlməsindən çox sevinir. Öz-özünə fikirləşir ki, belə bir fürsəti əldən vermək olmaz. Bir halda ki, öz ayağı ilə gəlib, «iş» istəyir, ona yaxşı «iş» də vermək lazımdır. Ona görə də Ruslana təklif edir ki, Hacı adlı bir nəfər var, yaxşı adam deyil, onu da, ailəsini də yox etmək lazımdır. Həmin işin öhdəsindən gələ bilsə, ona 5 min dollar verəcəkdir. Ruslan Hacı Məmmədovun tapşırığı ilə gəldiyinə görə ondan çoxlu məlumat almaq istəyir. Ona görə də Şirxan Albiyev idarə etdiyi maşınla Ruslana bir-bir Hacı Məmmədovun Saray qəsəbəsindəki bağ evini və anasının şəhərdəki evini göstərir.

Hacı Məmmədov Ruslanı Şirxanın yanına göndərməklə Şirxanın onun barəsindəki fikirlərini öyrənmək istəyirdi. Lakin Hacının bu planından xəbərsiz olan Şirxan Albiyev də onun yanına gələn Ruslana 5 000 ABŞ dollar vəd etməklə Hacını öldürməyi təklif edir. Ruslan isə həm Hacının, həm də Şirxanın təklifinə razılıq verir. Onun üçün hər iki təklif sərfəli idi. Kimin hansı millətdən və hansı məkandan olması onu maraqlandırmırdı. Təki ona pul verən olsun. Bu işdə ona hər ikisi eyni məbləğdə pul təklif edirdi. O, Hacı Məmmədovdan qabaqcadan avans olaraq 1 000 ABŞ dollar almışdı. Şirxan isə hələ vəd verirdi. Gələcəkdə Şirxanın o, qədər pulunun olub-olmayacağı hələ nisyə söhbət idi. O, fikirləşirdi ki, artıq Hacıdan vəd edilən pulun bir hissəsini alıb və qalanını da verəcəkdir.

Bu fikirlərlə Ruslan Şirxanın yanından qayıdıb bütün məlumatları və onu öldürmək barədə Şirxanın da ona 5 min dollar vəd etməsini Hacı Məmmədova xəbər verir.

Hacı Ruslanın ona dediklərinin doğru olub-olmamasını yoxlamaq istəyir. Ona görə də Ruslana təklif edir ki, maşın-

la onu aparıb şəhərdəki evini, bağ evinin yerlərini göstərsin. Ruslan razılaşır və Hacını maşınla aparıb həm şəhərdəki evinin, həm də Saraydakı bağ evinin bütün yollarını dəqiqliyi ilə göstərir. Bundan sonra Hacı Məmmədov tam əmin olur ki, Ruslanın ona dedikləri həqiqətə uyğundur. Deməli, onu və ailəsini öldürməyi Ruslana Şirxan Albiyev sifariş verib. Ona görə də Hacı Məmmədov Şirxanı qabaqlamaq istəyir. Bu məqsədlə Ruslana göstəriş verir ki, Şirxanın qaldığı evə gedib ona desin ki, varlı bir qadınla tanış olub, ondan yaxşı borc pul almaq mümkündür. Həmçinin həmin qadında imkanlı adamlar haqqında çoxlu məlumatlar var. Şirxan Albiyevi əvvəlcə həmin qadının yanına aparmağa inandırmalı və sonra da onu deyilən qadının evinə aparmaq adı ilə Nailə Quliyevanın Xətai rayonu R.Bağırov küçəsindəki evinə gətirsin. Ruslan Hacı Məmmədovun təklifi ilə razı olsa da müxtəlif bəhanələrlə həmin məsələni süründürür. Bu da Hacı Məmmədovu narahat edir və qorxudur. O, qorxur ki, birdən Şirxan Albiyev ya Ruslan, ya da kı, başqa şəxs vasitəsi ilə bu işi görə bilər. Bu da onun üçün faciə ola bilərdi.

Narahatçılıq və qorxu içində yaşayan Hacı daha dözə bilmirdi. Canından qorxurdu. Canından qorxan sahibkarpolis Şirxan Albiyevin canını almağa tələsirdi. Odur ki, o, 20 may 1998-ci il tarixdə səhər əvvəlcə Nizami Abdullayevi, Rövşən Ağayevi, Malik Məmmədovu, sonra isə Musa Dabuyevi və Ruslanı Nailə Quliyevanın evinə çağırır. O, Ruslanı başqa otağa aparıb əvvəlcə onunla ayrıca söhbət edir və sonra ona göstəriş verir ki, bu gün axşama kimi o, Şirxanı harada olursa-olsun tapıb gətirməlidir. Şirxanı gətirənə kimi evdə olanlar onu gözləyəcəklər. Ruslan Ukuşev həmin günə kimi müxtəlif bəhanələrlə bu işi uzatsa da, artıq onun özü də Hacı Məmmədovdan ehtiyat etməyə başlayır. Ona görə də başqa söz bildirmədən həmin günü Şirxanı gətirəcəyinə söz verməklə aldığı tapşırığın dalınca getməli olur. Nailə Quliyeva, Hacı, Rövşən, Nizami, Musa və Malik evdə qalırlar. Hacı

Şirxanı öldürəcəyini əvvəlcə onlara bildirmir. Lakin eşitdirir ki, onu cəzalandırmaq istəyir. Ruslan Ukuşev gedəndən biriki saat sonra Hacı Məmmədov evdəkilərə bildirir ki, Ruslan Şirxanı buraya gətirəcəkdir. Ehtiyatlı olmaq lazımdır, birdən onda silah ola bilər. Ona görə də içəri girən kimi ona hücum edib əllərini bağlamaq lazımdır.

Hacı evinə çağırdığı dəstə üzvlərini günün ikinci yarısına kimi burada saxlayır. O, bilirdi ki, Ruslan Şirxanı harada olsa tapıb gətirəcəkdir. Çünki Şirxanın bütün koordinatlarını Ruslana başa salmışdı. Ruslan Şirxanı yaşadığı evdə tapır. Söhbət əsnasında, Hacı barədə də danışırlar. Ruslan Hacı ilə bağlı təklifə görə tələsməməyi tapşırır. Onu inandırmağa çalışır ki, Hacı Məmmədov Daxili İşlər Nazirliyinin əməkdaşıdır, polis zabitidir və azərbaycanlıdır. Bu işdə ehtiyatlı hərəkət etmək lazımdır ki, yanmasınlar. Fürsət düşən kimi onun işini bitirəcəkdir.

Bu söhbətlərlə Ruslan Şirxanı xeyli arxayınlaşdırır. Digər tərəfdən Hacının ona verdiyi tapşırığa əsasən Şirxana təklif edir ki, bu yaxınlarda bir pullu qadınla tanış olub. İş görmək üçün ondan yaxşı pul qoparmaq mümkündür. Onun eyni zamanda bir çox imkanlı adamlar haqqında da məlumatı var. Bu məlumatlarla lazımi kriminal işlər görmək olar.

Şirxan Albiyev Ruslanın aldadıcı sözlərinə inanır. Tamah ona güc gəlir. İmkanlı qadınla görüşməyə razılıq verir. Digər tərəfdən Şirxan Hacını öldürməyi Ruslana təklif edərkən o da razılıq vermişdi. Onun sifarişini icra edəcək belə adamı itirmək istəmirdi. Ona görə də saat 19 radələrində Şirxan idarə etdiyi Nissan markalı «JEEP» avtomaşınında Ruslanla birlikdə evdən çıxır. Ruslan varlı qadının yanına aparmaq adı ilə Şirxanı Nailə Quliyevanın yaşadığı həyətə gətirir. Ruslan qapının zəngini basır. Evdə olan cinayətkarlar dərhal öz yerlərini tuturlar. Nailə Quliyeva qapını açır. Şirxan və Ruslan içəri keçirlər. Nailə qapını arxadan bağlayır. Şirxan otağa daxil olduqda Hacını və dəstə üzvlərini görüb özünü itirir, qə-

zəbli baxışla yerlisi Ruslana baxır. Ruslan tərəfindən aldadıldığını və Hacının qurduğu tələyə düşdüyünü anlayır. Əhvalı pisləşir və bir anlığa öldürüləcəyini gözünün qabağına gətirir. Onu soyuq tər basır, bədəni süstləşir və özündən asılı olmayaraq yavaşca divana yıxılır. Hacının verdiyi tapşırığa əsasən Musa, Nizami, Rövşən və Malik Şirxanın üstünə atılaraq qollarını bağlayırlar. Hacı Məmmədov isə kisəni onun başına keçirir. Şirxan Albiyev artıq müqavimət göstərməyin mənasız olduğunu başa düşür. Hacı bundan sonra dəstə üzvlərinin köməyi ilə narkotik xassəli mayeni Şirxanın qoluna vurur. Vurduğu iynənin dozası yüksək olduğuna görə Şirxan Albiyev huşunu itirir. Hacının göstərişi ilə Rövşən küçədə saxladığı «VAZ–21099» markalı avtomaşını həyətə salır, Şirxanı maşının arxa oturacağına uzadıb, üstünə boş karton qutularını yığırlar. Hacı Məmmədov Şirxan Albiyevin gəldiyi Nissan markalı «JEEP» avtomaşınını həyətə saldırır.

Əməliyyat başa çatan kimi Rövşən Ağayev Hacının idarə etdiyi avtomaşına minir. Maliklə Musa isə Nizami Abdullayevin idarə etdiyi ağ rəngli «Mersedes» markalı avtomaşına oturub, Qusar rayonunun «Qarabulaq» istirahət mərkəzinə yola düşürlər. Hacı Məmmədov polis formasında olduğuna görə yolda onları saxlayan olmur. Qusara çataçatda avtomaşının sükanı arxasına Rövşən Ağayev keçir. Saat 21:22 radələrində onlar «Qarabulaq» istirahət mərkəzinə çatırlar. Meyiti maşından çıxarıb paltarla birlikdə zibil üçün qazılan çalaya tullayırlar. Malik hərəyə bir bel gətirir və Şirxan Albiyevin meyiti torpaqlanır.

Bu Hacı Məmmədovun «Qarabulaq» istirahət mərkəzinin ərazisində yaratdığı şəxsi qəbiristanlıqda torpağa tapşırılan ilk meyit idi.

Hacı Məmmədov Qusar rayonunun ən səfalı bir guşəsində «Qarabulaq» istirahət mərkəzini yaradarkən MMC nizamnaməsində ancaq insanların mənalı istirahət etmələri öz əksini tapmışdı. Həmin sənəddə törətdiyi cinayətlərin izi-

ni itirmək üçün qəbiristanlıq kimi istifadə edilməsi nəzərdə tutulmamışdı. Lakin Hacı istirahət mərkəzindən törətdiyi cinayətlərin izini itirmək üçün də istifadə etməyə başlayır və oraya gətirdiyi ilk meyit də rəhbərlik etdiyi cinayətkar birliyin üzvü olur.

Milliyyətcə çeçen olan və öz evində saxladığı, duz-çörək kəsdiyi dostunu, cinayət aləmindəki ən yaxın silahdaşını öldürüb meyitini isə öz şəxsi evinin qapısında basdırdıqdan sonra həmin məkan istirahət mərkəzi ilə yanaşı Hacı Məmmədovun qara əməlləri ilə bağlı qətlə yetirdiyi insanların meyitlərinin basdırıldığı mərkəz adını da daşımalı olur.

Hacı Məmmədov onun üçün yaranan ikinci təhlükədən də yan keçir. Ona qarşı çıxan cinayətkar dəstə üzvünü aradan götürməklə yaranan problemdən bir qədər uzaqlaşa bilir.

Boşa çıxan basqın

Hacı Məmmədov Şirxan Albiyevi «Qarabulaq»dakı şəxsi qəbiristanlığında torpağa tapşırdıqdan sonra gecə yarısı Bakıya qayıdır. Yorğunluq hiss etsə də, yatmaq istəmirdi. Bircə onu fikirləşirdi ki, ona hədə-qorxu gələn çeçen artıq yoxdur. Onun və ailə üzvlərinin həyatı üçün yaranan təhlükə artıq sovuşmuşdur. Uzandığı yataqda nə qədər qurdalansa da, cinayətkar silahdaşına narkotik xassəli iynəni vurması, meyiti öz əlləri ilə zibilxanaya tullaması gözünün qabağından çəkilmirdi.

«Belə yuxusuz gecələr yenə olacaqmı?» deyə öz-özünə fikirləşirdi. Bəli, onun yuxusuz və qorxulu gecələri hələ qabaqda idi.

Şirxanın birdən-birə yoxa çıxması həm cinayətkar silahdaşlarını, həm dostlarını, həm də Bakıda müvəqqəti məskunlaşan çeçen icmasını da narahat edirdi. Bu ərəfədə Bakıda çeçenlərə Xoca adlı şəxs ağsaqqallıq edirdi. O, «Abşeron» mehmanxanasında qalırdı. Ciddiliyinə görə Bakıda məskunlaşan çeçenlər ondan çəkinirdilər. Ondakı məlumata görə Şirxanı sonuncu dəfə Ruslan Ukuşevlə görmüşlər. Ona görə də Xoca Ruslanı yanına çağırır, Şirxanın qeyri-müəyyən şəraitdə yoxa çıxmasını ondan da soruşur. Lakin Ruslan Şirxan barədə heç bir məlumatı olmadığını bildirir.



Şirxan Hacı Məmmədov və onun digər banda üzvləri tərəfindən öldürüldükdən sonra Ruslan Ukuşev müntəzəm olaraq Hacının yanına gəlir, ondan pul tələb edir və deyir ki, onun böyük xidmətləri olub, çətin anlarında tapşırıqlarını yerinə yetirib. Bu hədə-qorxularla o, Hacı Məmmədovdan istədiyi vaxtda pul tələb edirdi. Ruslan növbəti dəfə ondan pul istədikdə, Hacı buna son qoymaq məqsədi ilə Ruslana 3 min dollar verəcəyini, lakin onun Bakıdan çıxıb getməsini və bir daha geriyə qayıtmamasını tələb edir. Ruslan Rusiya Federasiyasının vətəndaşı olduğuna görə Bakıdan çıxandan sonra bir müddət gününü Çeçenistanda keçirir. Pulu xərcləyib qurtardıqdan sonra yenidən Bakıya qayıtmaq fikirinə düşür. O, bilirdi ki, Hacı Məmmədov ondan qorxur və nə istəsə verəcək. «Divin canı şüşədə olan kimi» Hacı Məmmədovun da taleyi onun əlindədir.

Azərbaycanda Hacı kimilərin vasitəsi ilə kriminal yollarla pul qazanmaq mümkün olduğundan 10 gündən sonra özü ilə milliyyətcə çeçen olan dörd nəfərlə yenidən Bakıya qayıdır.

Ruslan Bakıda yenidən Hacı Məmmədovla görüşür. Ruslanın birdən-birə onun qapısında görünməsi Hacını şoka salır. Hacı Ruslana heç bir pislik etmədiyini, onun xidməti və köməyi sayəsində xeyli pul əldə etdiyini bildirir. Ruslan ona yenə də bir balaca xərclik üçün pul lazım olduğunu və özü ilə daha 4 nəfəri gətirdiyini deyir. Hacı Məmmədov mübahisə etmək istəmir və fikirləşir ki, ona daha bir kriminal iş verib başını qatmaqla yavaş-yavaş özündən uzaqlaşdırmaq daha yaxşı olar.

Bu ərəfədə Hacı Məmmədovda kriminal işlə bağlı bir məlumat var idi. Hacının aldığı məlumata görə Qəzənfər Paşayev və onun yaxın qohumları bir nəfər polis işçisi ilə birlikdə özlərinin firmasına məxsus küllü miqdarda pulu firmanın Süleyman Rüstəm küçəsindəki ünvanından götürüb, müxtəlif ünvanlara aparır və mal alır. Həmin pul ofisdən çıxarılarkən basqın edib onu ələ keçirmək olar. Bu kriminal işi Hacı Ruslana təklif edir. Hacı eyni zamanda Ruslana bildirir ki, silah

və avtomaşını özü təşkil edəcəkdir. Lakin Ruslanın qarşısına şərt qoyur ki, əldə olunan puldan ona yalnız əməliyyatın təşkili ilə əlaqədar çəkdiyi xərcləri versin. Qalan pulu özündə saxlasın, amma Bakıdan birdəfəlik çıxıb getsin.

Ruslan Ukuşev bu dəfə də Hacı Məmmədovun təklifi ilə razılaşır. Onlar razılıq əldə etdikdən sonra Hacı pul aparan avtomaşına ediləcək basqın əməliyyatının planını cızır. Bu məqsədlə «Moskviç» markalı, «Z 37–26 AZ» dövlət nömrə nişanlı avtomaşın alır. Banda üzvlərini də silahla təmin edərək Ruslana 2 ədəd «PSM» və 1 ədəd «TT» markalı tapança verir. Basqın əməliyyatını 21 oktyabr 1998-ci il tarixində günün birinci yarısına təyin edir və özünün də gəlib müşahidə edəcəyini bildirir.

Ruslan Ukuşev Hacı Məmmədovdan tapşırıq aldıqdan sonra 4 nəfəri yanına çağırır. Əvvəlki əməliyyatlarda iştirak edən Musa Dabuyevi və Fərhad Məmmədbəyovu da bu dəstəyə cəlb edir. Basqını hazırlamaq məqsədi ilə Musa Dabuyev və Ruslan Ukuşev qabaqcadan basqın ediləcək yeri öyrənmək üçün Bakı şəhəri S.Rüstəm küçəsi və ABŞ-ın Bakıdakı səfirliyinin yaxınlığına gəlirlər. Həmin yeri diqqətlə öyrənir və orada hər bir iştirakçının rolu və tutacağı mövqeyi bir daha dəqiqləşdirirlər.

Dəstə üzvləri əməliyyata furqonlu «Moskviç», «VAZ–2101» və həm də ehtiyat üçün «QAZ–24» markalı avtomaşınlarla gəlib, ofisin ətrafında mövqe tuturlar. Musa Dabuyev əməliyyat yerinə piyada gəlir. «VAZ–2101» markalı avtomaşını üzbəüz həyətdə, «QAZ–24» markalı avtomaşını əks tərəfdəki həyətdə saxlayırlar. Basqın əməliyyatını təşkil edən Hacı Məmmədov və Fərhad Məmmədbəyov Nizami Abdullayevin idarə etdiyi avtomaşınla saat 10:00-da həmin yerə gəlir və ofisin giriş və çıxış qapıları görünən yerdə durub basqını müşahidə edirlər.

21 oktyabr 1998-ci ildə «Bakı İnterneyşl LTD» şirkətinin direktoru Qəzənfər Paşayev qardaşı oğlu Şahin Paşayevi

yanına çağırıb, şirkət vasitəsi ilə Qarabağ əlilləri və şəhid ailələri üçün Lökbatan qəsəbəsində inşa edilən 50 mənzilli yaşayış evinə sərf ediləcək 201 min dolları Lökbatan qəsəbəsinə aparılması məqsədi ilə ona verir. Şahin Paşayev bağlamada olan həmin məbləği alıb idarə etdiyi «VAZ–21099» markalı avtomaşının yük yerinə qoyur. İdarə etdiyi avtomaşını ofisin qabağına sürür ki, oradan mühafizə polisi Arzu Əhmədovu da götürsün. Cəlal Mahmud da onlarla getmək istədiyini bildirir. Şahin Paşayev etiraz etmir. Şahin Paşayev maşının sükanı arxasına keçir, Cəlal Mahmud isə qabaq oturacaqda onun yanında oturur. Mühafizə polisi Arzu Əhmədov isə arxa salonda özünə yer eləyir. «VAZ–21099» markalı avtomaşın ofisin həyətindən tərpənib Süleyman Rüstəm küçəsinə çıxır. Oradan da üzüaşağı istiqamətdə hərəkət edərkən Hacı Məmmədov pul daşıyan maşının həyətdən çıxmasını pusquda duran «Moskviç»in sürücüsünə işarə edir. Bundan sonra Hacı Fərhadla birlikdə əməliyyatın sonrakı gedişini gözləmədən oradan Nizaminin idarə etdiyi avtomaşınla tələsik çıxıb əvvəlcədən şərtləşdikləri yerə – Rəşid Behbudov küçəsinə gəlir, basqının nəticəsini gözləyir.

Şahin Paşayevin idarə etdiyi maşınla üz-üzə gələn «Moskviç» maşını onu qabaq tərəfdən böyük zərbə ilə vurur. Zərbədən sürücü Şahin Paşayevin və Cəlal Mahmudun başları maşının qabaq şüşəsinə dəyir. Onlar elə başa düşürlər ki, bu təsadüfi avtoqəzadır. Maşından düşmək istərkən pusquda duran çeçenlər – Musa Dabuyev sürücü tərəfdən, digəri isə sağ tərəfdən Mahmud Cəlalın başına tapancanı dirəyib rus dilində «ne dviqaysə, a to strelyayem» – deyə onları hədələyirlər. Üçüncü çeçen isə dəmir parçası ilə «VAZ–21099» markalı avtomaşının yük yerini sındırır. Musa Dabuyev Şahinin başına, digər çeçen isə Cəlalın başına zərbələr vurur. Musa əyilib maşının açarını çıxarır. Arzunun ayağının altına atəş açılır. Güllə Arzunun ayağına dəyib onu yaralayır. Üçüncü çeçen maşının yük yerini tam açа bilmədiyindən pulu orada

tapa bilmir. Qorxuya düşən basqınçılar qabaq tərəfi əzilmiş «Moskviç» markalı avtomaşını hadisə yerində qoyub «VAZ–2101» və «QAZ–24» markalı maşınlara oturub oradan uzaqlaşırlar.

Bununla da banda üzvlərinin pul daşıyan maşına edilən basqınları boşa çıxır.

Həmin gecə basqında iştirak edən banda üzvləri Hacı, Fərhad, Ruslan və Nizami Saraydakı bağ evinə toplaşıb basqının nəticəsiz qurtarmasını müzakirə edirdilər. Ruslan uğursuzluğun səbəbini Hacı Məmmədovda görür. Onların fikrincə maşında ümumiyyətlə, pul olmayıb. Bu əməliyyat Ruslanı və onun tərəfdarlarını tələyə salmaq məğsədi ilə Hacı tərəfindən təşkil olunmuşdur. Ruslan Hacıya eşitdirir ki, o buna görə heç kimi bağışlamayacaq. Onların mübahisələri iki gün davam edir. Ruslan Ukuşev hətta Hacıya hədə-qorxu da gəlir. Hacı Ruslanı inandırmağa çalışır ki, avtomaşında pul olub. Lakin xeyri olmur. İş o yerə çatır ki, Ruslan Sarayda Hacı Məmmədova məxsus bağda Fərhad Məmmədbəyovun ayağının altına tapançadan atəş də açır. Hacı Ruslanın bu hərəkətini özünə qarşı açıq xəbərdarlıq hesab edir.

Bin neçə gün sonra qəzetlərdə basqın zamanı maşında küllü miqdarda pulun olması, lakin basqınçıların onu apara bilməməsi məlumatı dərc olunur. Bu məlumat Ruslanın Hacı Məmmədova qarşı kinini bir qədər azaldır. Ruslan Ukuşev sakitləşsə də, sahibkar-polis artıq Ruslanı özü üçün böyük təhlükə hesab edir və düşünür ki, artıq onun aradan götürməyin vaxtı çatıb.

Qanlı dəhliz



Hacının həyatı üçün təhlükə təkcə Ruslan tərəfindən deyildi. Ruslanın dayısı Boris Ayyubov da Hacıya rahatlıq vermirdi. Dayı və bacıoğlunun ona qarşı birləşməsi daha ağır ola bilərdi. Boris Ayyubov Hacı Məmmədova mütəmadi olaraq hədə-qorxu gəlir, «Yevlax» işinə görə ondan küllü məbləğdə pul tələb edirdi. Hacı Borislə görüşdən qayıtdıqdan sonra həm onu, həm də onun bacısı oğlu Ruslanı öldürtmək qərarına gəlir. Özü də bunu tezliklə həyata keçirmək istəyir.

Hacı Boris Ayyubov və Ruslan Ukuşevi öldürmək barədə qərarının icrasına başlamazdan qabaq xidməti işindəki rəisləri ilə məsləhətləşmək istəyir. Bu məqsədlə əvvəlcə böyük rəisin yanına gedir və ona məlumat verir ki, Borislə Ruslan cızıqlarından çıxıb, artıq onların, ailə üzvlərinin həyatı təhlükədədir. Böyük rəis etiraz etməsə də, bu barədə Kamil Sədrəddinovla da məsləhətləşməyi təklif edir. Hacı generalla olan söhbətini Kamil Sədrəddinova çatdırır.

Gözünü qan örtmüş polkovnik-leytenant niyyətini həyata keçirmək üçün plan qurmağa başlayır. Ruslan Boris Ayyubovun bacısı oğlu olsa da, o, Ruslanın Hacı Məmmədovla birgə cinayətlərindən xəbərsiz idi. Digər tərəfdən Boris də Ruslanın bəzi əyyaş

hərəkətlərinə görə onunla əksər hallarda iş birliyinə girmirdi. Lakin bir dayı kimi onunla tez-tez görüşürdü. Odur ki, Hacı Məmmədov Ruslana təklif edir ki, iş görmək üçün polis mayoru Nizami Abdullayevlə dayısı Borisi tanış etsin. Ruslan Ukuşev bu barədə Borislə söhbət edir. Boris Nizaminin polis mayoru olduğunu eşidib, «o, lazımlı adam ola bilər» – deyə Ruslanın təklifini bəyənir və Nizami Abdullayevlə görüşə razılıq verir. Görüşürlər, söhbətləri alınır, hətta yeyib içirlər də. Hər ikisi eyni yuvanın «quşu» olduqlarından bir-biri ilə ümumi dil tapa bilirlər. Söhbətləri kriminal işlə bağlı olur. Hacının qurduğu plana uyğun Nizami Borisə yaxşı qiymətə gedən təzə xarici bir maşının oğurlanması əməliyyatının hazırladığını bildirir. Boris Ayyubov onunla razılaşır və Əzizbəyov heykəlinin yanında görüş təyin edirlər. Nizami Abdullayev Borislə olan görüşün nəticəsi barədə Hacıya məlumat verir. O, görüşün nəticəsini uğurlu hesab edir və bildirir ki, işlər onun planına uyğun gedir.

Bundan sonra Hacı Məmmədov Nizami Abdullayevin yeni görüş planını hazırlayır, onu Borislə qarşıdakı görüş üçün təlimatlandırır. Bu Borislə axırıncı görüş olmalı və həmin gün onu aradan götürməlidirlər.

1998-ci ilin dekabr ayının on səkkizində Boris Ayyubov özünə məxsus «Linkoln» markalı maşınla Əzizbəyov heykəlinin yaxınlığındakı təsərrüfat mağazasının qarşısında Nizami Abdullayevlə görüşə gəlir. Hacı Məmmədovun qurduğu plana görə həmin görüşə Nizami Abdullayev «VAZ» markalı maşınla getməli idi. Nizami oraya gəlməmiş həmin maşını qəzaya uğrayan görüntü vəziyyətinə gətirir. Borisi aldatmaq məqsədi ilə həmin maşının farasının birini çıxarıb onun yerinə əzik fara bağlatdırır ki, Boris oraya gələndə yolda onun maşınını vurub əzblər deməklə qaraja kimi onu müşayiət etsin. Boris görüş yerinə çatanda Nizamini maşının qabağında dayanıb əzilmiş farasına baxdığını görür. O, maşından düşüb Nizami ilə görüşür və nə baş verdiyini soruşur. Nizami ona bildirir ki, gələndə yolda tindən

qəflətən çıxan bir maşın onun maşınının farasını sındırıb. Belə vəziyyətdə DYP əməkdaşları onu saxlaya bilər. Odur ki, maşını aparıb qaraja qoymaq lazımdır. Borisdən də xahiş edir ki, qaraja kimi onu müşayiət etsin. Ona qarşı qurulan plandan xəbərsiz olan Boris Ayyubov Nizaminin təklifi ilə razılaşır və maşınla onun arxasınca Hacının Yasamal rayonundakı qəbiristanlığın yanına, Mətbuat prospektindəki qarajı istiqamətinə doğru hərəkət edirlər. Onlardan qabaq isə Hacının göstərişi ilə Malik, Yagir və Rövşən «VAZ–21099» markalı avtomaşınla Yasamal rayonu ərazisinə gəlib qarajın yaxınlığında özlərinə münasib yer seçib gözləyirlər. Maşını Rövşən idarə edir. Hacı Məmmədov isə Fərhadla birlikdə həmin yerə gəlib həm baş verənləri müşahidə edir, həm də Malik, Yagir və Rövşənin təhlükəsizliyini təmin edirlər. Boris avtomaşını Nizaminin arxasınca sürsə də, narahat idi. Elə bil ürəyinə dammışdı ki, nəsə olacaq. Oraya getməyə də bilməzdi, çünki Nizami ilə yenicə tanış olmuşdu, sözündən çıxmaq istəmirdi. Boris yolboyunca diqqətlə ətrafa baxır, hətta qaraja dönən yerdə maşından düşüb yan-yörəsini nəzərdən keçirir, şübhəli bir şey gözünə görünmədiyinə görə yenidən maşına minib yolunu davam edirdi.

Onlar Hacı Məmmədovun qarajı olan yerə çatanda saat on beş-on altı olardı. Nizami maşından düşüb qarajın qapısını açır, Borisə deyir ki, maşını arxası ilə içəri verəcək. O, içəridən baxsın ki, maşının arxası divara dəyməsin. Boris qaraja girib maşının arxa tərəfinə keçməyə macal tapmamış, qarajın arxa tərəfində pusquda duran Malik, Yagir, Rövşən qaraja girib, özlərini polis əməkdaşları kimi təqdim edərək onun əllərini bağlayrlar. Həmin anda şübhə yaranmasın deyə Nizamini də saxlayıb üstünə qışqırmaqla onu başqa tərəfə çəkirlər. Borisi isə əks tərəfə dartıb dərhal gəldikləri maşının arxa oturacağına otuzdurub birbaşa Nailə Quliyevaya məxsus evə gətirirlər. Malik, Yagir və Rövşən Borisi apardıqdan sonra Nizami orada qalır ki, Boris Ayyubova məxsus «Linkoln» markalı maşını Hacının qarajına salsın.

Boris Ayyubovu aparan maşını Rövşən Ağayev idarə edirdi. Yolboyunca maşında onlarla Boris Ayyubov arasında heç bir söhbət aparılmır. Rövşən Ağayev Nailə Quliyevaya məxsus evin həyətinə çatdıqda Yagir Məmmədov maşından düşüb, darvazanı açır. Rövşən isə maşını həyətə salır. Həyətdə isə Hacı Məmmədov onları gözləyirdi. Maşını həyətə salan kimi birinci Rövşən maşından düşüb Hacıya bildirir ki, hər şey hazırdır, o maşındadır. Bundan sonra Hacı Məmmədov göstəriş verir ki, Boris Ayyubovu içəri – otağa aparsınlar. Maşından yerə düşən Yagir, Malik və Fərhad Boris Ayyubovu dartıb maşından yerə düşürürlər. Oradan da Hacının dediyi otağa gətirirlər. Hacı da onların arxasınca otağa daxil olur. Sonra isə Hacı Məmmədovun göstərişi ilə Malik, Yagir, Fərhad və Rövşən həyətə çıxırlar. O, isə yarım saata kimi Boris Ayyubovla otaqda təkbətək qalır və nə barədə danışırlarsa onu yalnız Hacının özü bilir. Malik, Yagir, Rövşən, Fərhad və Nizami Abdullayev həyətdə Hacının Borisin yanından çıxmasını gözləyirlər.

Yarım saatdan sonra Hacı Məmmədov otaqdan çıxır və bildirir ki, iş dalınca gedir. Gələnə kimi Borisin keşiyini çəksinlər. Əslində o, Ruslan Ukuşevin dalınca gedirdi. O, Ruslanla telefon əlaqəsi saxlayıb yerini öyrənmiş, aldadaraq bildirmişdi ki, təcili kriminal bir işləri var, onu gözləsin.

Rövşən Ağayev və digər banda üzvləri Boris Ayyubovu otaqdan çıxarıb kiçik bir otağa salırlar və qapını çöldən bağlayıb Hacının gəlməsini gözləyirlər.

Hacı Məmmədov Ruslanın yerini dəqiq bildiyindən yolda ikən Nizami Abdullayevə mobil telefonla zəng edərək göstəriş verir ki, Ruslanın arxasınca gedir. Ruslan maşından düşən kimi əl-qolunu bağlasınlar. Nizami Abdullayev də öz növbəsində Malik, Fərhad, Yagir və Rövşəni təlimatlandırır.

Hacı Ruslanı Dilbər Novruzova adlı qadınla bir yerdə tapır. Onların hər ikisi sərxoş vəziyyətdə olurlar. Hacı Ruslanı tək gətirmək istəyir. lakin qadın çeçəndən ayrılmır. Əcəl

onu Hacı Məmmədovun əli ilə aparırdı. Ona görə də Ruslana təklif edir ki, Dilbər də getsin, sonra bir yerdə qayıdarlar. Ruslan Ukuşev və Dilbər Novruzova Hacı Məmmədovun bu təklifinə etiraz etmirlər. Hacı onları Boris Ayyubovun saxlandığı evə gətirir.

Darvaza açılır, Hacı maşını həyətə salır. Məsələdən xəbərdar olan Malik, Rövşən, Fərhad, Yagir və Nizami Ruslanı dartıb maşından yerə salır və qollarını bağlayırlar. Dilbər Novruzova özü maşından düşür. Ona xəbərdarlıq edirlər ki, səsini çıxarmasın. Əks təqdirdə onu da Ruslanın gününə salarlar. Hacının göstərişi ilə onları ayrı-ayrı otaqlara salırlar.

Bununla da Hacı Məmmədov ona hədə-qorxu gələn, özü və ailəsi üçün təhlükəli hesab etdiyi iki nəfər cinayətkar silahdaşını da bir yerə yığa bilir. Hər ikisi ilə təkbətək söhbət edib, ürəyini boşaldır. Onun üçün ən çətini dayı və bacıoğlnu bir yerə toplamaq idi. Artıq onların hər ikisi qolları və ayaqları bağlı halda, arxasıüstə yerə uzadılmış vəziyyətdə Hacının əlində idi. Hacı digərlərinə dərs olsun deyə, üzünə ağ olan silahdaşlarına qarşı bu üsula əl atmışdı. Hər ikisi bu gecə qətlə yetirilməliydi.

Hacı Yagir Məmmədova göstəriş verir ki, Borisi dəhlizə çıxarsın. Yagir Boris Ayyubovu sürüyə-sürüyə dəhlizə çıxarır Rövşən Ağayev qabaqcadan hazırlanmış əskiyə bükülmüş armaturu Hacıya verir. Hacı işgəncənin eşidilməməsi üçün televizorun səsinin qaldırılmasına işarə edir və armaturla bir neçə dəfə Borisin başına və boynunun arxasına zərbələr endirir. Zərbələrdən Boris Ayybov huşunu itirir, yerə yıxılır… Yagir, Fərhad, Rövşən və Nizami artıq nəfəsi kəsilən Borisin meyitini darta-darta həyətə çıxarıb Rövşənin idarə etdiyi «VAZ–21099» markalı avtomaşının yük yerinə uzadırlar. Bu dəfə növbə Ruslanın idi. Hacı Məmmədov onu gətirmək göstərişini verir. Yagir, Nizami, Rövşən və Fərhad köməkləşib Ruslanı da Borisi qətlə yetirdikləri yerə gətirirlər. Hacı Məmmədov Ruslanın da başına armatur zərbələrini endirməyə ha-

zırlaşdığı bir vaxtda Fərhad özünü qabağa verir və bildirir ki, Ruslanla o özü hesablaşacaqdır. Fərhad Məmmədbəyov bildirir ki, Şahin Paşayevin idarə etdiyi puldaşıyan maşına olan basqın uğursuz alındıqdan sonra Saray qəsəbəsində Ruslan Ukuşev onu öldürmək istəyib. Tapançadan atəş açıb ayağını yaralayıb. Odur ki, o da Ruslandan intiqamını almaq istəyir. Fərhad Məmmədbəyovun bu sözündən sonra Hacı Məmmədov əlindəki armatur parçasını Fərhada uzadır və yerini ona verərək «ürəyini soyut» – deyir. Fərhad Ruslanın oturduğu yerin arxasına keçir və əlindəki armaturla onun başına zərbələr endirir... Nizami, Rövşən, Yagir Ruslanın meyitini də maşının yük yerində Borisin meyitinin üstünə tullayırlar.

Dilbər Noruzova Boris və Ruslanın öldürülməsindən xəbərsiz idi. Lakin onun qarovulunu çəkən Malik Məmmədov isə pəncərədən baş verənləri görürdü. Dilbərin qolları bağlanmamışdı. Tezliklə buraxılacağına ümid edirdi, öldürüləcəyini ağlına belə gətirmirdi. Televizorun səsinin həddindən artıq qaldırılmasından elə güman edirdi ki, yəqin orda olan kişilər qadınlarla şənlənirlər. Özü üçün ən pis hal kimi elə onu düşünürdü.

Lakin Dilbər Novruzovanın düşündüyü kimi deyildi. Hacı və onu dövrəyə alanlar başqa cür düşünürdülər. Boris və Ruslanın meyitlərini Rövşənə məxsus «Jiğuli» avtomaşınına yerləşdirdikdən sonra Hacı Dilbər Novruzovanın da dəhlizə çıxarılmasını işarə edir. Hacı Məmmədov Dilbərə dəhlizdə oturmağı təklif edir, Dilbərin arxasında dayanan Malik Məmmədova isə əlindəki armaturu uzadıb, onu başından vurmağı işarə edir. Lakin Malik Məmmədov çiyinlərini çəkərək qadına əl qaldıra bilməyəcəyini deyir. Bundan sonra Hacı Dilbəri özü öldürəcəyinə qərar verir. Artıq onun üçün öldürdüyü adamın kişi və ya qadın olmasının o qədər də əhəmiyyəti yox idi. Təki ifşa olunmasın, özünün, himayədarların və onların ailə üzvlərinin həyatı üçün təhlükə yaranmasın. O, artıq cəllada çevrilmişdi. Malik Məmmədov Dilbərin başına

armatur parçasını vurmaqdan imtina edən kimi özü həmin armatur parçasını yuxarı qaldırmağı ilə Dilbər Novruzovanın başına zərbə endirməyi bir oldu. O, bir neçə dəfə də zərbələrini Dilbərin kürək nahiyyəsinə endirdi. Armatur zərbələrinin təsirindən Dilbər Novruzova da yerə sərildi. Banda üzvləri elə həmin anda Dilbər Novruzovanın meyitini də əlləri üstünə götürüb həyətə çıxararaq içində Boris və Ruslanın meyitləri olan avtomaşının yük yerinə tullayırlar.

Hacı Məmmədov və onun cinayətkar dəstəsi eyni bir zamanda, eyni armaturla, eyni bir məkanda üç nəfəri - Boris Ayyubov, Ruslan Ukuşev və Dilbər Novruzovanı həyatdan məhrum edirlər.

Bəs Dilbər Noruzovanın günahı nə idi? O, heç bir bandanın üzvü deyildi. Hacını da tanımırdı. Onlardan hədə-qorxu ilə pul da tələb etməmişdi. O, nə Hacını, nə də onun ailəsini ölümlə hədələməmişdi. Beş kişinin dövrəsində ortada otuzdurub, öz şəxsi qadın həyatı ilə yaşayan bir şəxsin başına armatur parçası ilə dəfələrlə zərbələr endirəndə Hacı uf belə demədi. Həmçinin onu dövrəyə alan beş kişi – Nizami, Rövşən, Malik, Yagir və hətta həmin evdə bu prosesləri müşahidə edən qadın və eyni zamanda ana olan Nailə Quliyevanın özü də Hacıya «bəsdir, əl saxla» demədi. Hacı Məmmədov hətta qətlə yetirdiyi qadının meyitini də kişilərin meyitlərindən belə ayırmadı…

Hacı Məmmədovun Dilbəri öldürməkdə məqsədi törətdiyi cinayətlərin izini itirmək, həyatına ola biləcək təhlükələrdən sovuşmaq idi.

Qətlə yetirilənlərin meyitlərini Rövşən Ağayevin idarə etdiyi «VAZ–21099» markalı maşının yük yerinə yığdıqdan sonra Hacı Məmmədov banda üzvlərinə hazırlaşmaq göstərişini verir. Rövşən Ağayev avtomaşının sükanı arxasına keçir. Nizami Abdullayev də onun yanında qabaq tərəfdə əyləşir. Yagir, Malik və Fərhad isə Hacının idarə etdiyi «Mersedes» markalı avtomaşında Yasamal rayonundakı qarajına tərəf

hərəkət edirlər. Qaraja çatdıqda Nizami Abdullayev avtomaşını saxlayıb qarajın qapısını açır, Boris Ayyubova məxsus «Linkoln» markalı avtomaşını çölə çıxarır. Borislə Ruslanın meyitlərini maşının qabaq, Dilbərin meyitini isə arxa oturacaqda yerləşdirir. Banda üzvləri isə Hacının idarə etdiyi «Mersedes» markalı maşınla rayonun ərazisindəki «Qurd qapısı»na gəlirlər. Deyilən yerdə Rövşən Hacının tapşırığına əsasən yolun dik yerində maşından tullanır və avtomobil dərəaşağı yuvarlanır.

Bununla da Hacı Məmmədovun uydurduğu avtoqəza hadisəsi baş tutur. Ona hədə-qorxu gələn iki nəfər silahdaşını və cinayətkar bandanın fəaliyyəti ilə heç bir əlaqəsi olmayan günahsız qadını gedər-gəlməzə yola salır.

Beləliklə, Hacı Məmmədov avtoqəza görüntüsünü uydurmaqla qrup halında törətdiyi qətlin izini ört-basdır edir. On altı saatdan sonra polis əməkdaşları «Linkoln» markalı avtomaşınının parçalanmış hissələrini və hər tərəfə səpələnmiş iki kişi və bir qadın meyitini açıq səma altında aşkar edirlər.

Hacının xidməti işi üzrə böyük rəisi bu dəfə də öz köməyini əsirgəmir. Boris Ayyubov və Ruslan Ukuşevin meyitləri üzərində zorakı əlamətlərin olub-olmamasını aydınlaşdırmaq məqsədi ilə məhkəmə tibbi ekspertiza rəy verməli idi. Lakin böyük rəis onların başqa dövlətin vətəndaşları olmasından istifadə edərək meyitlərin təcili olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasını təşkil edib, cinayətin açılmasının qarşısı alınır. Dilbər Novruzovanın meyiti isə daxili müayinə edilir və məhkəmə tibbi ekspertizası belə nəticəyə gəlir ki, sağ dizi və sağ əlinin arxasındakı xəsarətlər ölümündən sonra, digər bütün xəsarətlər isə ölümündən əvvəl yetirilib.

Hacı Məmmədovun havadarlarının köməyi sayəsində cinayətkar bandanın ifşa edilməsi məsələsi yenə də uzun müddət açıq qalır.

Kombinatın müdiri də zirzəmidə

Boris Ayyubov, Ruslan Ukuşev və Dilbər Novruzovanın qətlindən iki aydan artıq vaxt keçirdi. Hacı Məmmədov kriminalsız qala bilmirdi. Nizami Abdullayevin dayısı Əsgər İsgəndərov Hacıya yeni bir imkanlı adamın olması barədə məlumat gətirir. Hacı Məmmədov onun kim olmasını soruşduqda Əsgər bildiririr ki, həmin şəxs Zeynalabdin Babayevdir. Bakı Süd Kombinatının müdiridir və böyük maddi imkana malikdir. Əsgər İsgəndərov imkanlı adam haqqında məlumatı verən kimi Hacı Məmmədov bir qədər fikrə gedir, dahiyanə görkəm alır və bildirir ki, yaxşı namizəddir. O, Zeynalabdin Babayevi tanıyırdı. Lakin şəxsi münasibətləri olmamışdı. Bakı Süd Kombinatının müdiri kimi onu tez-tez metronun «Nərimanov» stansiyası yaxınlığında olan parkın restoranında görüb və sadəcə olaraq salamlaşıblar. Aralarında başqa münasibətlər olmamışdı. Ancaq yaxşı maddi imkana malik olmasını eşitmişdi. Hacı Məmmədov «bu barədə fikirləşmək lazımdır» deyə Əsgərlə söhbəti tamamlayır. O, Əsgərin dediklərini dəqiqləşdirmək istəyir. Bu məqsədlə Hacı Məmmədovun tapşırığı ilə Nizami Abdullayev, Aslanbek Çintamirov və Aslanbekin bandaya yeni gətirdiyi milliyyətcə çeçen olan və şəxsiyyəti tam məlum ol-

mayan Haron adlı şəxsə tapşırır ki, Süd Kombinatının müdiri işləyən Zeynalabdin Babayevin üstündə işləsinlər. Birinci növbədə onun gediş-gəliş marşrutunu, idarə etdiyi maşının saxlandığı dayanacağı, iş və yaşayış yerini – ən çox olduğu yerləri izləməklə ətraflı məlumat toplasınlar.

Nizami Abdullayev, Aslanbek Çintamirov və Haron Zeynalabdin Babayevi izlədikləri müddətdə Hacı Məmmədov oğurlayacağı şəxs barədə xidməti işi üzrə hər iki rəisini də məlumatlandırır. Rəislərin heç biri Süd Kombinatının müdiri Zeynalabdin Babayevin oğurlanması ilə bağlı təklifə nəinki etiraz etmir, əksinə bildirirlər ki, yaxşı namizəddir, çox imkanlıdır və istədikləri məbləği ondan tələb edə bilərlər.

Hacı Məmmədova elə bu lazım idi, ona da nail oldu. Artıq hər şey öz axarı ilə gedirdi. Tabeçiliyində olan banda üzvləri onun sözünü iki etmirdilər. Yüksək rütbəli havadarları da onu dəstəkləyirdilər. Belə vəziyyətdə artıq Zeynalabdin Babayevin oğurlanması planını hazırlayıb «işə başlamaq olar» - deyə Hacı Məmmədov tapşırığını verir.

O, Bakı Süd Kombinatının müdirini oğurlamaq əməliyyatında iştirak edəcək dəstə üzvlərini Nailə Quliyevanın evində bir yerə yığır. Orada Nizami Abdullayev, ən çox etibar etdiyi Aslanbek Çintamirov, həmçinin Aslanbekin dəvət etdiyi Haron iştirak edir. Nailə Quliyeva isə «qonaqlara» xidmət edir.

Hacı Məmmədov banda üzvlərinə bildirir ki, Süd Kombinatının müdiri Zeynalabdin Babayevin izlənməsi artıq başa çatıb. Yaxşı pulu var və onu təcili götürmək lazımdır. Onun evi «Torqovı» küçəsində, «Adidas» ticarət mağazasının həyətindəki binada, 3-cü mərtəbədədir. İşlədiyi ofis isə Respublika Sarayının qarşısındakı parkın yanındadır. Süd Kombinatının müdirini işlədiyi ofisin qarşısından da oğurlamaq lazımdır. Nizami Abdullayev Hacı Məmmədovun təklifi ilə razılaşır. Lakin Aslanbek Çintamirov Hacı Məmmədovun bu təklifinə qarşı çıxır. Aslanbek etirazını onunla əsaslandırır ki, Zeynalabdin Babayevin işlədiyi ofis insanların intensiv

hərəkət etdikləri ərazidə yerləşir. Onun həmin yerdən oğurlanması çətin və təhlükəlidir, istər-istəməz ələ keçə bilərlər. Hacı Məmmədov bir qədər fikrə gedir və onunla razılaşır. Belə qənaətə gəlirlər ki, Zeynalabdin Babayevi yaşadığı evin həyətindən oğurlasınlar. Zeynalabdin Babayevi oğurlayanların cinayətdəki rolları dəqiqləşdirilir. Nizami Abdullayevə «VAZ–21001» markalı avtomaşında gözləməyi tapşırır. Aslanbek Çintamirov və Haron isə Zeynalabdin Babayevə hücum edib, əl-qolunu bağlayaraq, başına kisəni keçirməlidirlər. Ona görə də Hacı Aslanbek və Harona bir ədəd «Makarov» markalı tapança və bir ədəd də «AKM» markalı avtomat silah, eyni zamanda Nizami Abdullayevə maşın üçün bir ədəd saxta dövlət nömrə nişanı verir.

Nizami Abdullayev, Aslanbek Çintamirov və Haron silahları aldıqdan sonra Nizami Abdullayevin idarə etdiyi atomaşına minib yola çıxırlar. 25 fevral 1999-cu il tarixdə axşam şər qarışanda Xaqani küçəsinə Zeynalabdin Babayevin yaşadığı evin həyətinin giriş qapısına gəlir və yolun kənarında dayanıb qurbanlarının gəlişini gözləyirlər. Təxminən saat 22 radələrində Zeynalabdin Babayev idarə etdiyi qara rəngli «Leksus» «JEEP» markalı avtomaşınla həyətə daxil olur. O, avtomaşını həyətdəki dayanacaqda saxlayır. Lakin Zeynalabdin Babayev avtomaşında tək olmur, bu vaxt pusquda duran Aslanbek Çintamirov və digərləri avtomaşından düşüb həyətə girənədək Zeynalabdin Babayev onunla gələn adamlarla yaşadığı bloka daxil olur. Vəziyyətin belə alındığını görən Aslanbek Çintamirov və qeyriləri bir daha onun arxasınca getmirlər, Nailə Quliyevanın yaşadığı evə qayıdırlar. Aslanbek onları gözləyən Hacıya vəziyyəti izah edir.

26 fevral 1999-cu il tarixdə axşam vaxtı Nizami Abdullayev, Aslanbek Çintamirov və onun bu işə cəlb etdiyi Haron Zeynalabdin Babayevin yaşadığı binanın həyətinin giriş qapısına gəlir və yenə də avtomaşında oturub gözləyirlər. Saat 23 radələrində Zeynalabdin Babayev idarə etdiyi «Lexus JEEP»

markalı avtomaşınla həyətə daxil olur. Bu dəfə o, tək olur. Avtomaşını həyətdə olan dayanacaqda saxlayır və dayanacağın gözətçisi Arif Cəmilov Zeynalabdin Babayevə yaxınlaşır, onunla salamlaşır və birlikdə binanın blokuna tərəf gedirlər. Bu vaxt həyətin giriş qapısında göy rəngli, «10 BA 365» saxta dövlət nömrə nişanı olan avtomaşında oturub gözləyən Aslanbek Çintamirovun tələbi ilə maşını idarə edən Nizami Abdullayev maşını arxası ilə Zeynalabdin Babayevin girmək istədiyi bloka tərəf sürür. Zeynalabdin Babayev və gözətçi Arif Cəmilov maşının onların üstünə tərəf gəldiyini görüb, bir qədər geriyə çəkilərək maşına yol verirlər. Əyinlərində mülki geyim, başlarında idmançı papağı olan Aslanbek Çintamirov və Haron dərhal avtomaşından düşüb Zeynalabdin Babayevə hücum edirlər. Aslanbek Zeynalabdin Babayevdən yapışıb onu öz maşınlarına tərəf dartırlar. Zeynalabdin müqavimət göstərir və onlardan bir qədər aralıda olan gözətçi oğlanı köməyə çağırır. Haronun köməyi ilə Zeynalabdin Babayevi maşına basırlar. Arif Cəmilov qəflətən baş verən hadisədən özünü itirir. Yaxınlaşıb kömək edə bilməsə də qışqırmağa başlayır. Aslanbek Çintamirov oğlanın qışqırtısını kəsmək üçün tapançanı ona tuşlayır və öldürəcəyi ilə hədələyir. Arif Cəmilov tapançanı görən kimi səsini kəsir və kənara qaçır. Zeynalabdin Babayev müqavimət göstərmək istəyir, lakin Aslanbek tapancanın qundağı ilə onun başına bir neçə zərbə vurur. Tapança zərbələri nəticəsində Zeynalabdin Babayevin başından qan fışqırır. Beləliklə, onlar Zeynalabdin Babayevi maşının arxa salonuna basırlar. Dərhal başına kisə keçirirlər, qollarını qandallayır və arxa oturacaqda yerə uzadırlar. Haron arxa oturacaqda Zeynalabdin Babayevi tərpənməyə qoymur. Aslanbek Çintamirov isə avtomaşının qabaq oturacaqında oturur. Zeynalabdin Babayev müqavimət göstərərkən, «pomoqite» – deyə qışqırarkən, Xaqani küçəsi, 19/13-də yerləşən köşkdə işləyən Vüqar Hüseynov da həmin səsi eşidir. Səs gələn tərəfə getmək istədikdə Nizami Abdullayev sükan arxasında

oturub, böyük sürətlə maşını həyətdən çıxarır və avtomaşını birbaşa Nailə Quliyevanın Keşlədəki evinə sürür. Zeynalabdin Babayevi sakitləşdirmək məqsədi ilə Nizami Abdullayev ona bildirir ki, narahat olmasın, məqsədləri onu öldürmək deyil, lazım olan qədər pul aldıqdan sonra onu buraxacaqlar.

Aslanbek Çintamirov, Nizami Abdullayev və Haron Zeynalabdin Babayevi Nailə Quliyevanın evinə gətirirlər. Onları Nailə Quliyeva, Hacı Məmmədov və Fərhad Məmmədbəyov qarşılayır. Hər şeyi qaydasında olduğunu bildirir və Hacıya hesabat verirlər. Hacı Məmmədovun göstərişi ilə Zeynalabdin Babayevi maşından düşürüb saxlanc yerinə aparır, qollarından qandalı açır və başından torbanı çıxarırlar. Əməliyyat uğurla başa çatdıqdan sonra Hacı Aslanbek Çintamirovu, Nizami Abdullayevi və Haronu evə buraxır. Fərhad Məmmədbəyov isə Zeynalabdin Babayevin mühafizəsini çəkmək üçün orada qalır.

Zeynalabdin Babayev oğurlanandan dərhal sonra Arif Cəmilov yaxınlıqdakı banka gəlir və bu barədə mühafizə polisinə xəbər verir. Polis işçiləri də hadisə barədə Səbail rayon Polis İdarəsinin 37-ci polis bölməsinə xəbər verirlər. Yaradılmış əməliyyat-istintaq qrupu hadisənin baş verdiyi əraziyə gəlir. Artıq Zeynalabdin Babayevin ailəsi də bu müdhiş hadisədən xəbər tutmuşdu.

Zeynalabdin Babayevin həyat yoldaşı Marina dərhal ailəvi tanışları İsmayıl Kazımova zəng edərək xəbər verir ki, bir neçə dəqiqə bundan əvvəl yaşadıqları evin həyətində naməlum şəxslər əri Zeynalabdinə silahlı basqın edərək onu naməlum istiqamətə aparıblar. Marina hadisə barədə eyni zamanda ərinin yaxın münasibətdə olduğu Sabunçu rayon polis idarəsinin rəisi Etibar Qazıbəyova da xəbər verir. İsmayıl Kazımov hadisə yerinə gəlir. O, Zeynalabdin Babayevin yaşadığı ünvana gələndə polis əməkdaşlarını, cinayətkar bandanın iştirakçısı, DİN Baş Cinayət Axtarış İdarəsinin rəisi Zakir Nəsirovu və onun müavinini orada görür.

Beləliklə Hacı Məmmədov Bakı Süd Kombinatının müdirini də öz zirzəmisinə salır. Bu zirzəmi təkcə Zeynalabdin Babayev üçün deyildi. Burada doqquz aya yaxın Əhməd Məmmədov da saxlanılmışdı. Yeməyi Nailə Quliyeva hazırlayır, banda üzvü Fərhad Məmmədbəyov isə onu Zeynalabdin Babayevə çatdırırdı. Fərhad tanımasın deyə, pərdənin arxasından Zeynalabdin Babayevdən tələb edirdi ki, üzünü divara çevirsin. Demək olar ki, Fərhad Məmmədbəyov gecə-gündüz onun qarovulunu çəkir, dəhlizdə qoyulmuş divanda gecələyirdi. Zeynalabdin Babayevin keşiyini çəkməyi Hacı başqa şəxsə etibar etmirdi. Bir gün isə Fərhad Məmmədbəyov öz şəxsi işi ilə əlaqədar harayasa getməli olur. O, heç kəsə deməmiş Hacının sürücüsünü (Rövşən) öz yerinə qoyur. Hacı Məmmədov bunu bildikdə Fərhadla aralarında ciddi söhbət olur. Bu söhbətdən sonra Fərhad Məmmədbəyov acıq edərək bir müddət Hacı ilə əlaqəni kəsir.

Hacı bir neçə gündən sonra Zeynalabdin ilə əlaqəyə girir. Bakı ləhcəsi ilə xırıltılı səslə Zeynalabdin Babayevlə pərdə arxasından danışaraq bildirir ki, onu pula görə oğurlayıblar. Tələbləri nə qədər tez yerinə yetirilsə, bir o qədər də tez azad olunacaq. İlk söhbətdə Hacı Zeynalabdin Babayevdən azad edilməsi üçün 5 milyon dollar tələb edir. Zeynalabdin Babayev həmin məbləğlə razılaşmır. Bir neçə müddətdən sonra Hacı Məmmədov həmin məbləği 3, 2 və daha sonra 1 milyon ABŞ dollarına endirir. Girov həmin məbləği də verməyə imkanı olmadığını bildirir. Bu qaydada onunla Hacı arasında danışıqlar xeyli müddət davam edir.

Zeynalabdin Babayevin oğurlanmasından artıq bir ay keçirdi. Martın axırı idi. Əgər Hacı Məmmədov əvvəlki adam oğurluqlarında dərhal onların ailə üzvləri və yaxın qohumları ilə əlaqəyə girirdisə, Zeynalabdin Babayev barəsində heç də tələsmirdi. O, əsasən Zeynalabdin Babayevin özü ilə danışıqlar aparırdı.

Marina ərinin Bakıdakı tanışlarının köməyi ilə məsləhətləşmələr aparsa da, o, baş vermiş hadisə ilə əlaqədar Kanada

da olan qardaşı Saşa ilə də əlaqə saxlayır. Saşa Zeynalabdin Babayevin naməlum şəxslər tərəfindən oğurlanmasını eşitdikdən sonra dərhal Bakıya gəlir. Marina qardaşına ərinin zorakı yollarla aparılmasından və bir aya yaxın onun barəsində hər hansı məlumatın olmamasından və hüquq-mühafizə orqanlarının nəticəsiz axtarışlarından böyük sarsıntı keçirdiyini deyir.

«Görəsən, həyat yoldaşı nə etmişdir, hansı günahın sahibidir ki, onu oğurlayıblar» – deyə Marina fikirləşirdi. Düşüncələr onu əldən salmış, yuxusu ərşə çəkilmişdi. Övladları da onunla bərabər əzab çəkirdilər.

Lakin Zeynalabdin Babayevin ailəsinə bu çətin anlarda İsmayıl Kazımovun ailəsi dayaq oldu. Hətta İsmayılın həyat yoldaşı onları tək qoymadı. Zeynalabdin Babayevin qohumları da ailəyə mənəvi dayaq oldu. Uşaqların məktəbə aparılmasında, evin təsərrüfat işlərində əslən Ağdam rayonundan məcburi köçkün düşmüş Məhəmməd adlı şəxsin zəhməti çox oldu.

Martın axırlarına kimi Zeynalabdin Babayev barəsində heç bir xəbər çıxmadı. Onun sağ olub-olmaması bilinmədi. Zeynalabdin Babayevin yaxın dostu İsmayıl Kazımov və onun həyat yoldaşı aydan artıq bu ailənin qulluğunda durdu. Onların səhhətlərində narahatçılıq yarandığından və qabaqcadan sənədləşmələri apardıqlarından müalicə üçün xaricə getməli olurlar.

İsmayıl Kazımov getməmişdən əvvəl mobil telefonunu Marina və onun qardaşı Saşaya verir ki, ola bilsin Zeynalabdin Babayevi oğurlayanlar danışıq aparmaq üçün onun dost və tanışlarına çıxmağa təşəbbüs etsinlər.

Hacı Məmmədov cəhd edirdi ki, Zeynalabdin Babayevin boynuna istədiyi məbləği qoysun, sonra isə səsini diktofona yazdırıb ailəsinə göndərsin. O, ümid edirdi ki, yalnız ailəsi bundan sonra onun şərtləri ilə razılaşacaq və istənilən məbləği toplayıb verəcəklər. Lakin o, buna nail ola bilmədi.

Hacı Məmmədov yalnız bir aydan sonra Zeynalabdin Babayevin həyat yoldaşı Marina ilə telefon əlaqəsi yaradır

və bildirir ki, ərini onlar oğurlayıblar. Azad olunması üçün bir milyon dollar verilsə onu buraxacaqlar. Marina Hacıya bildirir ki, onlarda tələb olunan bu qədər pul yoxdur və xahiş edir ki, heç olmasa həmin məbləği bir qədər azaltsınlar.

Hacı Məmmədov Marina ilə də danışıq aparılmasının çətin olmasını görüb Zeynalabdin Babayevdən azad edilməsi üçün kiminlə danışıqlar apara biləcəyini soruşur. Zeynalabdin Babayev bir qədər fikirləşdikdən sonra ailəvi dostu İsmayıl Kazımovun üzərində dayanır. Hacı İsmayıl Kazımovun kimliyi barədə ətraflı məlumat aldıqdan sonra onun ev və mobil telefon nömrələrini götürür. Hacı Məmmədov içərisində audiokaset olan diktofonu Zeynalabdin Babayevə verir ki, dostuna müraciət etsin. Zeynalabdin həmin auidokasetə İsmayıla ünvanlanmış müraciəti yazır. Müraciətdə cinayətkarların tələb etdikləri pulun toplanmasını dostlarından xahiş edir və bu işdə İsmayıl Kazımovu ağsaqqal bilir. Hacı Məmmədov bir dəfə İsmayıl Kazımova zəng edir, lakin telefon zənginə İsmayıl deyil, əvvəl Zeynalabdinin həyat yoldaşı Marina, sonra isə qaynı Saşa cavab verir. Onlar İsmayılın xaricdə olduğunu bildirirlər. Hacı Zeynalabdin Babayevin audiokasetə yazılan səsini ailəsinə göndərir.

Aprelin ortalarında İsmayıl Kazımov xaricdən Bakıya dönür. O, Zeynalabdin Babayevin ona ünvanlanmış müraciəti ilə tanış olur. Ona zəng edildiyini bildikdən sonra mobil telefonunu Marinadan alır və bildirir ki, ola bilsin ki, onunla telefon əlaqəsi yaratmağa çalışacaqlar. Elə də olur. Bir neçə gün sonra Hacı xırıltılı səslə 312-81-25 saylı mobil telefondan İsmayıl Kazımova zəng edərək ona «İzik müəllim» deyə müraciət edir və bildirir ki, «Nizami» kinoteatrının qarşısındakı binanın girişində məktub qoyulub, gedib onu götürsün. İsmayıl özü getmir, Məhəmmədi göndərir. Məhəmməd deyilən yerdən məktubu götürür və onu İsmayıl Kazımova çatdırır. Məktub Hacı Məmmədovun diktəsi ilə Zeynalabdin Babayev tərəfindən yazılmışdı. Məktubda Zeynalabdin Ba-

bayevin azad olunması üçün tələb olunan məbləğin toplanmasını dostundan xahiş edirdi.

Audiokasetdəki müraciətində Zeynalabdin Babayev həmçinin yaxın münasibətdə olduğu və polis rəisi işləyən Etibar Qazibəyovdan, Hacı Sabirdən və digər şəxslərdən də kömək istəyir.

Böyük iştahla ilk vaxtlar 5, 4, 3, 2, 1, milyon pul tələb edən Hacı Məmmədov bunun mümkün olmadığını görüb, Zenalabdin Babayevlə danışıqları davam etdirir.

Nəhayət danışıqlar müsbət istiqamətdə inkişaf edir. Zirzəmidə saxlanılan Zeynalabdin Babayevlə pərdə arxasında dayanan cinayətkar bandanın başçısı arasındakı ikitərəfli danışıqlarda razılaşma əldə olunur. Zeynalabdinin qohumları onun azad olunması üçün 450 min dolları verməyə razı olurlar. Razılıq əldə olunandan sonra Hacı Məmmədov Zeynalabdin Babayevin ailəsinə ünvanlanan müraciətini diktofona yazdırır. Həmin müraciətdə Zeynalabdin Babayev ailəsindən xahiş edir ki, 450 min dolları toplayıb onun azad edilməsi üçün tələb edənlərə versinlər.

Zeynalabdin Babayevin müraciətini aldıqdan sonra həyat yoldaşı Marina, onun qardaşı Saşa və Zeynalabdin Babayevin ailəvi dostu İsmayıl Kazımov cinayətkar bandanın başçısı Hacı Məmmədovun tələb etdiyi pulu toplamağa başlayırlar. Həmin məbləğin çox hissəsini Zeynalabdin Babayevin qayını Saşa qoyur. Çatışmayan məbləği isə Zeynalabdin Babayevin Moskvadakı, Bakıdakı mənzillərini və avtomaşınlarını satmaqla düzəldirlər.

Beləliklə də, aprel ayının on doqquzu Hacı Məmmədovun tələb etdiyi pul toplanır. Elə həmin günü axşam saatlarında İsmayıl Kazımovun mobil telefonuna zəng gəlir. Zəng edən şəxs onların tanımadığı, lakin həmişə xırıltılı səslə danışan Hacı Məmmədov olur. Bu dəfə də o, söhbətini puldan başlamaq istədikdə İsmayıl Kazımov onu qabaqlayır və bildirir ki, tələb olunan 450 min dollar artıq hazırdır. Pulun hazır olma-

sını eşitdikdən sonra Hacı Məmmədov tapşırıq verir ki, hazır vəziyyətdə gözləsinlər. Pulun verilmə yeri və vaxtı haqqında əlavə zəng edəcəkdir. Lakin İsmayıl Kazımov zəng edən Hacı Məmmədova bildirir ki, pulu onun özü gətirməyəcək. Pulu sürücüsü Məhəmmədə verəcək və dediyi yerdə onlara çatdıracaq. Hacı Məmmədov İsmayıl Kazımova tapşırır ki, onda öz mobil telefonunu Məhəmmədə versin və o da zəngi gözləsin. Pulun bu qaydada verilməsi məsələsinə hər iki tərəf razılaşır. Bundan sonra İsmayıl Kazımov öz mobil telefonunu və 450 min dolları bağlamada həmin ailəyə xidmət edən Məhəmmədə verir və ona bildirir ki, telefonla ona zəng olunacaqdır. Onların zənginə əsasən veriləcək tapşırıqlar əsasında həmin pulu aparıb onların dediyi yerdə və vaxtda çatdırmalıdır.

Məhəmməd İsmayıl Kazımovdan mobil telefonunu və içində 450 min dollar məbləğində pul olan əl çantasını götürüb saat 22 radələrində özünə məxsus «Jiquli» markalı avtomaşında oturub onun üçün naməlum olan şəxsin telefon zəngini gözləyir. Bir qədər keçəndən sonra Hacı Məmmədov Məhəmmədə olan telefona zəng edir, bir çox ünvanlara maşını sürmək göstərişini verir. Digər tərəfdən Hacı dəstə üzvlərindən biri ilə Məhəmmədin getdiyi marşrut üzrə hərəkət edib, onun arxasınca şübhəli adamların gəlib-gəlməməsini yoxlayır. Şübhəli heç bir şey görmədiyindən Hacı Məhəmmədə göstəriş verir ki, idarə etdiyi avtomaşını saxlasın, taksiyə minib Neftçilər prospektində yerləşən 27 saylı aptekin qarşısına gəlsin. Məhəmməd də onların dediyi tələblərə əməl edərək idarə etdiyi avtomaşını orada saxlayıb qapılarını bağlayır. Başqa bir taksi ilə Neftçilər prospektindəki 27 saylı aptekin qabağına gəlir, taksidən düşüb gözləyir. Bir neçə dəqiqədən sonra Məhəmmədə olan telefona zəng gəlir. Zəng edən Hacı Məmmədov ona təklif edir ki, İçərişəhər tərəfə piyada on-on iki addım gedib, əlindəki əl çantasını yolun sağ kənarında qoyulan zibil yeşiyinə tullasın. O, lelefonla tapşırıq alan kimi İçərişəhər tərəfə getməyə başlayır. O, eyni zamanda ətrafı-

na da boylanır. Lakin heç kimi görmür. On on-iki addım gedəndən sonra yolun sağında bir yeşiyin olduğunu görür və ayaq saxlayır. Əlindəki çantanı içində zibil olan yeşiyə tullayır. Məhəmməd İsmayıl Kazımovun tapşırığını yerinə yetirir və bu barədə ona xəbər çatdırır. Hacı Məmmədov bir daha telefon əlaqəsinə girmir. Deyilən yerdən pulun götürülüb-götürülməməsi barədə danışıq apardığı İsmayıl Kazımova da zəng etməyi lazım bilmir.

Hacı Məmmədov Neftçilər prospektindəki 27 saylı aptekin yaxınlığından götürdüyü pulla Nailə Quliyevanın mənzilinə gəlir, dərhal Zeynalabdin Babayevin saxlandığı zirzəmiyə düşür və ona eşitdirir ki, azad olunması üçün qohumlarından tələb olunan məbləği alıb. Zeynalabdin Babayev bu xəbərdən sevinir və səhərin açılmasını səbirsizliklə gözləyir.

Gecədən xeyli keçmiş Hacı Məmmədov Zeynalabdin Babayevin saxlandığı yerə gəlib, Nizami Abdullayev, Fərhad Məmmədbəyov və Nailə Quliyevaya göstəriş verir ki, Zeynalabdin Babayevi zirzəmidən çıxarsınlar. Hacının göstərişini alan Nizami Abdullayev və Fərhad Məmmədbəyov Zeynalabdin Babayevin saxlandığı zirzəmiyə gəlirlər. Lakin içəri daxil olmamışdan əvvəl Zeynalabdin Babayevə göstəriş verirlər ki, üzünü divara çevirsin. O da bu tələbə əməl edir. Sonra Nizami Abdullayev oradakı rəfə bint qoyur və ona təklif edir ki, gözlərini bağlasın. Zeynalabdin bu tələbi də yerinə yetirir. Zeynalabdin Babayevin qollarını arxadan qandallayır, başına kisə keçirib, maşına oturdurlar. Hacı və Nizami şəhərdən kənara çıxırlar. Xırdalan-Bakı şosesində maşını yolun kənarındakı ağaclıqda saxlayıb, Zeynalabdin Babayevi maşından düşürürlər. Burada Hacı Məmmədov Zeynalabdin Babayevin əynindəki plaşın cibinə avtomaşının açarını, qol saatını və həmin dövrün kursu ilə 70 min Azərbaycan manatı qoyub, oradan uzaqlaşırlar.

Bir azdan Zeynalabdin Babayev gözlərindəki sarğını açır və ağaclıqda olduğunu görür. O, maşın səsi gələn tərəfə ge-

dib, Xırdalan-Bakı yoluna çıxır. Oradan isə yol maşınına minib səhərə yaxın evə gəlib çatır.

Hacı Məmmədov Zeynalabdin Babayevi azad etdikdən sonra onun qohumlarından əldə etdiyi pulun bölgüsünə başlayır. 450 minin 100 min dollarını özünə götürür. Bir neçə gün sonra axşam saat 22:23 radələrində Nərimanov rayon məhkəməsinin inzibati binası yaxınlığında böyük rəisi ilə görüşüb 100 min dolları da ona verir. 200 min dolları isə cinayətkar bandanın digər üzvləri arasında, onların iştirak dərəcəsinə müvafiq paylayır. Həmin məbləğdən 25 min dolları isə Kamil Sədrəddinova çatdırır.

Hacı Məmmədovun cinayətkar bandası tərəfindən törədilən cinayət əməli Zeynalabdin Babayevin özü və ailə üzvləri üçün heç də izsiz ötüşmür. Zeynalabdin Babayev Hacının zirzəmisində qaldığı 56 gündə sağalmaz şəkər xəstəliyinə tutulur. O, özünü və ailəsini növbəti təhlükədən qorumaq məqsədilə doğulduğu və boya-başa çatdığı doğma vətənini tərk etmək məcburiyyətində qalır və çox-çox uzaqlara – qürbətə – Amerika Birləşmiş Ştatlarına köçür.

Hacı Məmmədov izi itirir



Hacı Məmmədov oğurladığı adamları zirzəmi-kameraya salmazdan əvvəl hər dəfə orada bir dəyişiklik edirdi. O, Zeynalabdin Babayevi azad edən kimi Rövşən Ağayevi və Yagir Məmmədovu yanına çağırıb, zirzəmi-kamerada bəzi yerdəyişmələr edilməsi üçün göstəriş verir. Rövşən Ağayev elektrik, Yagir Məmmədov isə suvaq işlərini görür. Armaturdan düzəldilən barmaqlıq ləğv edilir, dəmir qapı qoyulur. Polkovnik-leytenant bildirir ki, bu yaxınlarda onların növbəti «hörmətli» qonaqları olacaqdır.

Hacı Məmmədovun Daxili İşlər Nazirliyi aparatında yüksək vəzifəyə gəlməsinin beş ilinin tamam olmasına az qalırdı. Bu müddət ərzində o, dövlət üçün demək olar ki, heç bir iş görmürdü. İşdə onun ancaq adı gedirdi. Öz xidməti işinin nədən ibarət olmasını bəlkə də unutmuşdu. Pul cədvəllərində isə imza yerləri boş qalmırdı. Vaxtlı-vaxtında həmin cədvəllərə səliqə ilə imzalar edib, dövlətə sərf etmədiyi əməyin haqqını alırdı. Lakin o idarə rəisi və şöbə rəisinin kabinetlərində tez-tez görünürdü. Həmin kabinetlərdə görüşləri zamanı müzakirə olunan məsələlər xidməti işi ilə əlaqədar, cinayət axtarış məsələləri ilə bağlı olmurdu. Orada yeni-yeni imkanlı adamların axtarışının siyahısı nəzərdən keçirilirdi. Növbəti görüşləri də bu mövzuda

idi. Bu dəfə Hacı Məmmədov Zakir Nəsirova məruzə edir ki, yaxşı bir imkanlı adam müəyyən edib. Bakı şəhərində «Portfino» restoranı və digər ticarət obyektlərinin sahibidir. Yaxşı pulu var və oğlu da prokurorluq işçisidir, adı Oqtaydır. Bakı şəhəri, Xətai rayon prokurorunun köməkçisi vəzifəsində işləyir. Oqtayı oğurlamaqla atası Sabir Babayevdən istədikləri pulu ala bilərlər.

Zakir Nəsirov və Kamil Sədrəddinov ayrı-ayrılıqda Hacı Məmmədovu dinləyirlər. Hər ikisi, o cümlədən Hacı özü də başa düşür ki, onların oğurlayacaqları növbəti adam prokurorluq işçisidir. Daha doğrusu, Xətai rayon prokurorunun köməkçisidir. Prokurorluq məhkəmə hakimiyyətinin bir qolu olduğuna görə prokurorun köməkçisi də dövlət hakimiyyətinin nümayəndəsi hesab olunur. Arxasında bir polkovniki, bir generalı və beş-altı cinayətkar çeçeni olan Hacı Məmmədov özünü artıq yenilməz hesab edir və yavaş-yavaş hakimiyyətə və onun nümayəndələrinə meydan oxumağa başlayır. Hakimiyyət nümayəndəsi olan Xətai rayon prokurorunun köməkçisini oğurlayacaqları zaman ona qarşı da zorakılıqlar tətbiq olunacağı, onun da başına qara kisə keçiriləcəyi, qollarının qandallanacağı istisna olunmurdu. Bütün bunları bilə-bilə cinayətkar bandanın başçısı Hacı Məmmədov və onun havadarları bu təhlükəli oyuna əl atmaqdan belə çəkinmədilər.

Hacı Məmmədov və havadarlarının irəliyə baxmaq və törətdikləri əməllərin nəticələrini görmək qabiliyyətləri olsa da, Oqtay Babayevi oğurlamaq ideyasından vaz keçə bilmədilər. Onlar yalnız ayaqlarının altına baxır və yalnız onu da görürdülər. Həyata belə baxışları onların özlərini təmin edirdi. Çünki həmin məsafədən, artıq geridə qalan çox saylı adam oğurluqları və onların azad edilməsi üçün qohumlarından alınan külli miqdarda əsginazlar daha yaxşı görünürdü. Onlar nə vaxtsa ifşa olunacaqlarını heç ağıllarına belə gətirmək istəmirdilər. El arasında bir məsəl var, «hər bir oğurluğun qırx gün ömrü olur. Otuz doqquzuncu gündə üstü açılmasa,

qırxıncı gündə mütləq açılır». Hər şeyin bir sonu var. Sonsuz heç nə yoxdur. Bunu hamı bilir. Bilməyən şəxs çətin ki, olsun. Gec-tez bu dəhşətli kriminalların üstü açılacaq və onların sorğu-sualları başlanacaqdır. Bunları Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə əməllərinə görə ləkə gətirən baş əməliyyat müvəkkili polkovnik-leytenant Hacı Məmmədov, polkovnik rütbəli Kamil Sədrəddinov, idarə rəisi general Zakir Nəsirov bilməmiş olmazdılar.

Bəs onda hansı məntiqlə onlar bu təhlükəli yolu özlərinə «haqq» yolu hesab etmişdilər.

Hacı Məmmədov Bakı şəhəri, Xətai rayon prokurorunun köməkçisini oğurlamaq barədə himayədarların xeyrduasını aldıqdan sonra həmin əməliyyatı hazırlamağa başlayır. Birinci növbədə özü şəxsən və bir müddət də Nizami Abdullayevlə birlikdə Oqtay Babayevin hərəkət marşrutlarını, ən çox gediş-gəliş yerlərini, yaşadığı ünvanın ətrafını öyrənirlər.

Daha sonra isə Hacı Məmmədov Fərhad Məmmədbəyova tapşırır ki, adam oğurluğu və digər cinayətlərdə iştirak etmək üçün sahibsiz pasport əldə etsin ki, həmin pasportla mobil telefon ala bilsinlər. Fərhad Məmmədbəyov bunun problem olmadığını bildirir və dərhal işə başlayır. O, bir neçə gündən sonra bu barədə Saray qəsəbəsində tanışı Mehman Səmədovla söhbət edir. O, sahibsiz pasportu tapa biləcəyinə söz verir. Hətta qabaqcadan Fərhad Məmmədbəyovdan 50 ABŞ dolları alır. İki gündən sonra Mehman Səmədov kənd rayonlarında bir nəfərin adına verilmiş pasportu Fərhad Məmmədbəyova veriir. Fərhad da həmin pasport əsasında bir ədəd mobil telefon kartını alır.

Mobil telefon kartını aldıqdan sonra Oqtay Babayevin oğurlanması üçün hazırlıq görən Hacı Məmmədov 1999-cu ilin payız aylarının birində Aslanbek Çintamirovun kirayədə qaldığı ev telefonuna zəng edərək şəhərdə onunla görüşmək istədiyini bildirir. Aslanbek Çintamirov artıq yeni bir krimi-

nal işin olacağını başa düşür və dərhal şəhərin mərkəzi küçələrinin birində Hacı Məmmədovla görüşür. Hacı Məmmədov Aslanbek Çintamirovu idarə etdiyi tünd rəngli «Mersedes-200» markalı avtomaşına mindirib Bakı şəhəri, 8-ci kilometr qəsəbəsinə gətirir. Onlar Ukrayna dairəsindən keçib bir qədər də getdikdən sonra Hacı Məmmədov idarə etdiyi avtomaşından yerə düşmədən Xətai rayon prokurorluğunun inzibati binasını ona göstərir və bildirir ki, həmin rayon prokurorluğunda prokuror köməkçisi Oqtay adlı oğlan işləyir. Onu işdən çıxarkən oğurlayıb R.Bağırov 33-ə gətirmək lazımdır. Aslanbek Çintamirov həmin yerdən adam oğurlamaq məsələsinə görə onunla razılaşmır. O, Hacı Məmmədova bildirir ki, prokuror köməkçisini onun iş yerinə yaxın yerdən oğurlamaq çətin məsələdir. Oğurlanan adamın iş yoldaşları görüb həmin işə müdaxilə edə bilərlər. Digər tərəfdən prokurorluğu mühafizə edən polis işçiləri var, onlar da səs-küyə çıxıb köməyə gələ bilərlər. Hacı Məmmədov bir qədər fikirləşdikdən sonra Aslanbek Çintamirovun fikri ilə razılaşır və ona görə də bu məsələ bir qədər uzanmalı olur.

Lakin Hacı Məmmədov həmin əməliyyatı daha sonrakı tarixlərə təxirə salmaq istəmirdi. O, bu söhbətdən bir və ya ay yarım sonra Nizami Abdullayevə tapşırır ki, Aslanbek Çintamirovu aparıb Oqtay Babayevin yaşadığı ünvanla tanış etsin. Nizami Abdullayev də Hacı Məmmədovun tapşırığına dərhal əməl edib, Aslanbek Çintamirovu Azadlıq prospektinə aparır, Hökümət evinin yaxınlığında yerləşən binanı göstərərək Hacı Məmmədovun dediyi prokuror köməkçisinin həmin binada yaşadığını bildirir. Nizami Abdullayev Aslanbek Çintamirovu oradan «VAZ-2106» markalı avtomaşını ilə 28 May küçəsinə də aparır. Həmin ərazidə yerləşən məktəbin yaxınlığında «Volvo»-940» markalı, qaraya bənzər tünd göy rəngli maşını ona göstərərək onu idarə edən şəxsi oğurlamaq lazım gəldiyini deyir. Aslanbek bundan sonra özü bir neçə dəfə həmin ünvanı diqqətlə müşahidə edir.

2000-ci il yanvar ayının əvvəllərində Hacı Məmmədov Aslanbek Çintamirov, Nizami Abdullayev, Musa Dabuyev, Yagir Məmmədov və Fərhad Məmmədbəyovu Nailə Quliyevanın evinə toplayır. Hacı cinayətkar bandanın üzvləri ilə Oqtay Babayevin oğurlanması işini bir daha müzakirə edərək bildirir ki, prokuror köməkçisinin oğurlanması üçün artıq bütün hazırlıq işləri görülüb. Onun işə gəlib-getdiyi vaxt və idarə etdiyi avtomaşını saxladığı yer dəfələrlə dəqiqləşdirilib. Artıq işə başlamağın vaxtıdır. Hacı Məmmədov əməliyyata rəhbərliyi Aslanbek Çintamirova tapşırır. Lakin əməliyyata başlamazdan əvvəl Aslanbek Çintamirovun canına qorxu düşür. Oqtay Babayev barəsində məlumatlar toplayarkən onun zahirən canlı, bədənli və güclü olduğunu öyrənir. Lakin Aslanbek Cintamirov da elə-belə adam deyildi. O, bandanın ən fəal üzvü və Hacının adam oğurluqlarında sağ əli idi. Hacının bir sözünü iki eləmək istəməyən Aslanbek bildirir ki, əlavə kömək üçün Haronu da götürmək istəyir. Haron bundan əvvəlki kriminal işlərdə onunla bir neçə dəfə iştirak edib. Hacı Məmmədov Aslanbek Çintamirovun sözünü yerə salmır və bildirir ki, kimi götürmək istəyir götürsün. Ona lazımdır ki, Oqtay Babayevi oğurlayıb gətirsinlər. Əməliyyat keçirilən günün axşamı o, Oqtay Babayevi oturduqları evin zirzəmisində, öz şəxsi kamerasında görmək istəyir. Hacı Məmmədov göstərişlərini verdikdən sonra onlara bildirir ki, dağılışsınlar, siqnal verilən kimi hamı öz yerində olmalıdır.

Sabahısı gün, yəni 12 yanvar 2000-ci ildə günün birinci yarısında Hacı Məmmədov Aslanbek Çintamirov, Musa Dabuyev, Yagir Məmmədov və Haronu yenidən Nailə Quliyevanın mənzilinə toplayır. Oqtay Babayevin oğurlanmasının bəzi xırdalıqlarını da dəqiqləşdirib axırıncı göstərişlərini verir. O, Nizami Abdullayevə avtomaşın üçün bir ədəd saxta dövlət nömrə nişanı, taksi maşını olmasını bildirən işarəni verir. Yagir Məmmədova «Makarov» markalı tapança, həmçinin basqın zamanı işlədilməsinə zərurət yaranacağı halda

bir ədəd polis dəyənəyi, bir ədəd qandal, Oqtay Babayevin başına keçirmək üçün bir ədəd qara kisə və maska tipli qara papaq verir.

Hacı Məmmədov Nizami Abdullayevə tapşırır ki, idarə etdiyi maşını avtomaşınlar saxlanılan dayanacağa yaxın bir yerdə saxlasın və onun özünün də oraya gəlməsini gözləsin. Digərləri isə maşından düşüb boş blokların birinə girsinlər və paltarlarını dəyişərək kənarda mövqe tutub, Oqtay Babayevin gəlməsini gözləsinlər.

Hacı Məmmədov tapşırıqlarını bitirdikdən sonra cinayətkar bandanın üzvləri Nailə Quliyevanın hazırladığı günorta yeməyini yeyib axşamçağı həyata keçirəcəkləri əməliyyata hazırlaşırlar. Saat 20 radələrində Musa Dabuyev, Aslanbek Çintamirov, Yagir Məmmədov və Haron Nizami Abdullayevin idarə etdiyi, üzərində taksi işarəsi qoyulan, süd rəngli «Vaz-2106» markalı avtomaşınla Nailə Quliyevanın evindən çıxırlar. Onlar köhnə dəyirmana yaxın – Azadlıq prospekti 3-də yerləşən binanın həyətinə yaxınlaşır, orada Haronu maşından düşürdürlər. Aslanbek Çintamirovla olan razılaşmaya görə Haron evin tinində gəlib-gedənləri müşahidə etməli və basqınçılara əlavə kömək lazım gələrsə özünü onların köməyinə çatdırmalı idi. Nizami maşını həyətə sürür, maşının arxa tərəfini qarovulçu budkası tərəfə, qabaq tərəfini isə darvazanın çıxışı istiqamətində saxlayır. Aslanbek Çintamirov, Yagir Məmmədov və Musa Dabuyev boş blokların birinə daxil olur və paltarlarını dəyişirlər. Bundan sonra Nizami Abdullayev Hacı ilə olan razılaşmaya əsasən maşını həyətə qoyub çıxır. Nizami Hacı Məmmədovla həyətdəki hadisəni müşahidə etməli idi. Yagir Məmmədov maşında oturur. Onun vəzifəsi Oqtay Babayevi Aslanbek Çintamirova göstərmək və basqında onlara kömək etmək idi.

Bundan sonra Aslanbek Çintamirov və Musa Dabuyev həyətin görünməyən yerində özlərinə mövqe tuturlar. Aslanbek Çintamirov və onun dəstəsi Oqtay Babayevin həyətində göz-

lədikləri zaman Hacı Məmmədov idarə etdiyi «VAZ–21099» markalı avtomaşınla oraya gəlir. Nizami Abdullayevlə birləşib kənardan həyətdə baş verənlərə nəzarət edirlər. Təxminən iyirmi-iyirmi beş dəqiqədən sonra tünd rəngli «Volvo–940» markalı avtomaşın həyətə daxil olur. Yagir Məmmədov qabaqcadan Oqtay Babayevi tanıdığı üçün Aslanbek Çintamirova işarə verir. Oqtay Babayev maşından düşür və onların maşınının yanından keçərkən Aslanbek Çintamirov, Musa Dabuyev və Yagir Məmmədov maşından düşüb, ona hücum edirlər. Oqtay Babayev ona tərəf gələnlərin əllərində silah olduğunu görüb qaçmaq istəyir. Bu vaxt basqınçılar da onun dalınca qaçırlar. Qaçmaqla canını qurtara bilməyəcəyini görən Oqtay Babayev bacardığı qədər müqavimət göstərir. Aslanbek polis dəyənəyi ilə onun başına və bədəninə zərbələr endirir. Aslanbek Oqtay Babayevin həqiqətən güclü olduğunu görüb, binanın tinində dayanan Haronu da köməyə çağırır. Bu hadisəni görən avtodaynacağın gözətçisi Nadir Nəbiyev Oqtay Babayevin köməyinə gəlmək istədikdə əlində tapança olan Müsa Dabuyev onu Azərbaycan dilində, lakin ləhcə ilə hədələyərək gözətçi budkasına girib oradan çıxmamağı tələb edir. Əks təqdirdə onu öldürəcəyi ilə hədələyir. Tapançanı görən gözətçi Nadir Nəbiyev geri çəkilib, budkaya girir və yalnız basqınçılar gedəndən sonra oradan çıxır. Aslanbek Çintamirov və başqalarının Oqtay Babayevə olan basqını həmin binanın sakinlərindən biri Ziyanın pəncərəsi altında baş verdiyindən o, bu barədə dərhal polis bölməsinin növbətçisinə zəng edir. Oqtay Babayev həyətdəki qarışıqlıqdan istifadə edərək basqınçıların əlindən çıxıb qaçmağa başlayır. Lakin darvazaya çataçatda Aslanbek polis dəyənəyi ilə onun başına zərbələr endirir. Oqtay Babayev nə qədər müqavimət göstərsə də cinayətkarlar onu yerə yıxırlar. Daha sonra Oqtay Babayev yaxınlıqda dayanan maşının buferindən yapışıb özünü maşının altına salır. Lakin Aslanbek yoldaşları ilə köməkləşib onu maşının altından çıxarır və özlərinin gəldikləri maşının arxa

oturacağına basırlar. Dərhal başına qara kisəni keçirir və qollarını qandallayırlar. Yagir Məmmədov maşının sükanı arxasına keçir, Musa Dabuyev və Haron maşının arxa salonuna uzadılan Oqtay Babayevin çiyinlərinin və ayaqlarının üstündə otururlar. Aslanbek isə Yagirın yanında oturur. Maşına tələsik oturduqları üçün Musa Dabuyevin bir tay ayaqqabısı və başlarına keçirdikləri bir ədəd maska yerə düşür.

Aslanbek Çintamirov və banda üzvləri hadisə yerindən uzaqlaşandan sonra avtodayanacağın gözətçisi Nadir Nəbiyev budkadan, həyətin sakini Ziya Bənənyarski evindən çıxırlar. Hadisə yerinə polis işçiləri gəlir və digər qonşular da oraya toplaşırlar. Polislər hadisə yerindən bir ədəd maska və basqınçılardan Musa Dabuyevin bir tay qara rəngli ayaqqabısını aşkar edib götürürlər.

Yagir Məmmədov qabaqcadan Hacı Məmmədovla olan razılaşmaya əsasən içərisində Oqtay Babayev olan «Jiquli» markalı avtomaşını Hacı Məmmədovun yaşadığı ünvana tərəf sürür. Yolboyu isə Hacı öz avtomaşını ilə onu müşayiət edir. Avtomaşınlar eyni vaxtda bir-birinin arxasınca həyətə girirlər. Bir nəfərdən başqa hər iki maşında olanlar yerə düşürlər və Hacı Məmmədovun göstərişini gözləyirlər. Hacının əmrinə əsasən Oqtay Babayevi maşından düşürür, həyətdə üzüüstə yerə uzadırlar. Bir qədər sonra isə onu yerdən qaldırıb darvaza ilə üzbəüz olan otaqların birinə aparılır, üstündə baxış keçirilir, cibindən vəsiqəsini, mobil telefonunu və maşınının açarlarını götürürlər. Zirzəmi-kamerada Musa Dabuyev Oqtay Babayevin qollarındankı qandalı açır. Qolları qandaldan açılan Oqtay Babayev başındakı qara kisəni çıxarır. Yalnız bundan sonra Hacı Aslanbekə, Musaya və Harona çıxıb getməsini əmr edir. Oqtay Babayevin keşiyini növbə ilə çəkmək və digər məsələləri müzakirə etmək üçün Nizami Abdullayev və Fərhad Məmmədbəyov orada qalırlar.

Oqtay Babayevin ailəsinin baş verənlərdən heç bir xəbəri olmur. Hadisə yerinə toplaşan polis əməkdaşları və qonşular

bu xəbəri birdən-birə Oqtay Babayevin ailəsinə bildirməyə cəsarət etmirlər. Lakiin istər-istəməz həmin ailəni məlumatlandırmaq lazım gəlir. Bu məqsədlə polis əməkdaşları Oqtay Babayevin yaşadığı evin qapısını döyüb, Oqtayın atasını soruşurlar. Lakin Oqtay Babayevin həyat yoldaşı bildirir ki, Oqtayın atası burada yaşamır. Qapını örtmək istərkən polis əməkdaşları qadından Oqtayın atasını çağırmağı tələb edirlər. Oqtay Babayevin həyat yoldaşı gecə saat 23-30 radələrində qaynatası Sabir Babayevə zəng edir və bildirir ki, bura polis əməkdaşları gəlib, qapını döyür və onun təcili olaraq gəlməsini istəyirlər. Lakin səbəbini demirlər. Qadın polis əməkdaşlarından birinin mobil telefonunu alıb, Sabir Babayevə verir, O, polis əməkdaşlarına zəng edib onlarla danışsa da, polis əməkdaşları Oqtayın həyat yoldaşı eşitməsin deyə səbəbini Sabir Babayevə yenə də bildirmirlər və onun gəlməsinin vacib olduğunu deyirlər. Xətayi rayon prokurorunun köməkçisi işləyən oğlunun oğurlana biləcəyini ağlına belə gətirməyən Sabir Babayev nəsə ciddi bir məsələ var ki, onu hüquq-mühafizə orqan əməkdaşları çağırır deyə dərhal maşına minib oğlunun yaşadığı ünvana gəlir. Polis işçilərinin gecənin bu vaxtında gəlib qayınatasını soruşması Oqtay Babayevin həyat yoldaşında təəccüb doğurur və ona görə də özü Oqtaya zəng edir. Lakin həmin vaxtı artıq həyat yoldaşının mobil telefonu banda üzvləri tərəfindən götürülüb söndürüldüyünə görə ona zəng çatmır.

Sabir Babayev oğlunun yaşadığı Azadlıq prospekti 3-də olan ünvana çatdıqda orada qarışıqlıq olduğunu, o cümlədən, hüquq-mühafizə orqanı əməkdaşlarının toplaşdığını və toplaşan insanların həyəcanlı baxışlarını görür. Qonşuların və polis əməkdaşlarının ona tərəf gəldiklərini gördükdə Sabir Babayevin həyəcanı daha da artır. «Nə olub, nə hadisə baş verib?» – deyə soruşur. Bu vaxt polis əməkdaşları ona yaxınlaşıb bildirirlər ki, oğlu Oqtay öz maşını ilə həyətə girərkən onu gözləyən «Vaz–2106» markalı avtomaşından əllərində

odlu silah olan dörd nəfər naməlum şəxslər düşüb, onu döyərək zorla öz gəldikləri avtomaşına basıb aparıblar.

Bu həyəcanlı xəbər Sabir Babayevi sarsıdır. Yerində donub qalır. Ani halda özünü itirir. Söz deməyə taqəti olmur. Xeyli vaxtdan sonra özünü toplayıb hadisəni görənin olub-olmamasını soruşduqda polis əməkdaşları bildirirlər ki, hadisəni avtodayanacağın gözətçisi Nadir Nəbiyev görüb, o, köməyə gəlmək istədikdə onu da tapança ilə hədələyib gözətçi köşkünə basıblar. Bildirirlər ki, hadisə yerində basqın edənlərin bir tay ayaqqabısı və maskası düşüb həyətdə qalıb. Sabir Babayev gözətçidən də hadisənin necə baş verdiyini ətraflı öyrənir. Gözətçi deyilənləri təsdiq edir.

Sabir Babayev baş verənləri aydınlaşdırmağa çalışsa da, heç nə başa düşmür. Öz-özünə düşünür. «Bu nə ola bilər, oğlu görəsən, nə pis iş görüb». Lakin oğlunun hər hansı pis yola düşməsinə inanmır, çünki ondan heç vaxt şübhələnməyib. «O, prokuror köməkçisi işləyib, dövlət adamıdır. Xidməti işi ilə əlaqədar ola bilərmi?» – deyə öz-özünə suallar verir. Görəsən oğlu hazırda haradadır? Nigaran qalan, qorxu keçirən, övladının taleyindən üzülən atanın özünə verdiyi suallar cavabsız qalır. Onun imanı bir yerə, gümanı min yerə gedir.

Gecədən xeyli keçdiyinə görə həyətdəkilər artıq dağılışıb getmişdilər. Orqan işçiləri də yox idi. Qonum-qonşunun pəncərələindən işıq görünmürdü, yəqin ki yatırdılar. Yalnız Oqtay Babayevin evində səhərə qədər işıq sönməmişdi. Polis əməkdaşları və qonşuların deməyə cəsarət etmədikləri bəd xəbəri artıq həyat yoldaşı da eşitmişdi. Hadisədən xəbərdar olan qohumlar da Oqtaygilə yığışmışdılar. Hərə bir fikir söyləyir, günahkar adamlar kimi hamı bir-birinin üzünə baxırdı.

Evdəkilər səhərin tez açılmasını gözləyirdilər. Günün axırına bircə o məlum oldu ki, Oqtay Babayevin xidməti fəaliyyətndə heç bir problem olmayıb. İşdən söz-söhbətsiz evə gəlib.

Prokuror köməkçisinin yaşadığı evin həyətində basqına məruz qalması və oğurlanması ilə bağlı cinayət işi açılır.

Yeni-yeni versiyalarla əməliyyat tədbirləri hazırlanır, lakin onların heç bir effekti olmur. Ona görə ki, həmin əməliyyatla Zakir Nəsirov və Kamil Sədrəddinov maraqlanır və əldə olunan məlumatları vaxtlı-vaxtında Hacıya çatdırırlar.

Oqtay Babayev oğurlanandan onun keşiyini Fərhad Məmmədbəyov və Nizami Abdullayev çəkirdilər. Arabir Hacı Məmmədovun göstərişi ilə Nizami Abdullayevin dayısı Əsgər İsgəndərov da onlara kömək edirdi. Oqtay Babayevin yeməyini isə Nailə Quliyeva hazırlayırdı.

Hacı Məmmədov Oqtay Babayevi oğurladığı gecənin səhərisi, günün ikinci yarısında dəmir qapının yanındakı nəfəsliyə yaxınlaşıb xırıltılı səslə valideynləri və qohumları ilə əlaqə yaratmaq üçün ondan telefon nömrələrini götürür. Oqtay Babayevin qohumları ilə danışıqları həm özü aparırdı, həm də Nizami Abdullayevi bu işə cəlb etmişdi. Birinci danışığı özü aparmaq istəyirdi. İstər Hacı Məmmədov, istərsə də Nizami Abdullayev Oqtay Babayevin atası ilə telefon əlaqəsi yaradarkən hər ikisi səsini dəyişirdi. Oqtay Məmmədovu zirzəmiyə salmazdan əvvəl mobil telefonu da götürülmüşdü. Hacı Məmmədov Sabir Babayevlə səhərisi gün gecə saat bir radələrində telefon əlaqəsinə girir. Bu zaman o, Oqtayın telefon aparatından istifdə edir və Sabir Babayevin 210-05-03 saylı mobil telefonuna zəng edir. Hacı Məmmədov Sabir Babayevə bildirir ki, oğlu Oqtayı başqa yerdə axtarmasın. Onu oğurlayıblar, sağ-salamatdır və hazırda da onların əlindədir. Oqtayın azad olunması üçün 10 milyon dollar verilməlidir. Əks təqdirdə onu görməyə də bilər. Hacı telefon danışığına kiminsə qulaq asmasından qorxaraq, cəmi iyirmi-iyirmi beş saniyə danışır. Axırıncı sözü də ondan ibarət olur ki, İnqilab küçəsindəki tramavay parkına çatmamış bir yerdə ona çatacaq məktub qoyulub. Həmin məktubu oradan götürə bilər. O, eyni zamanda Sabir Babayevə hədə-qorxu gələrək hüquq-mühafizə orqanlarına məlumat verməməyi tapşırır. Əks-təqdirdə oğlunun azad edilməsi imkanı azalır. Sabir

Babayev bu qədər pulun toplanmasının qeyri-mümkün olduğunu desə də, Hacı özünü eşitməməzliyə qoyaraq dərhal danışığı kəsir.

Hacı Məmmədov Oqtayın atası ilə telefon əlaqəsinə girəndən sonra Sabir Babayevə artıq məlum olur ki, oğlu pula görə oğurlanıb. Cinayətkarların məqsədi ondan böyük məbləqdə pul almaqdır. İştahaları da o qədər böyükdür ki, ondan astronomik məbləğdə pul tələb edirlər.

Sabir Babayev telefon danışığını bitirdikdən sonra gecə yarıdan keçsə də, İnqilab küçəsinə gedir və ona deyilən yerdə məktubu axtarır. Çətinliklə də olsa məktubu tapır və oxuyur. Evdə məktubu yenidən bir də oxuyur. Hacının telefonda ona dedikləri məktubda da yazılmışdı. Onun hədə-qorxusundan ehtiyatlanan Sabir Babayev oğlunun təhlükəsizliyi naminə məktubu heç kimə göstərmir.

Hacı və Nizami günaşırı növbə ilə pulun məbləği ilə bağlı 327-98-62, 319-57-97 və 326-23-95 saylı mobil telefonlardan Sabir Babayevin ev və mobil telefonlarına zəng edirdilər. Bundan başqa Hacı Oqtay Babayevin məcburən atasına ünvanlanmış müraciətlərini audiolentə, videokasetlərə yazdırırdı. Məktubu bir dəfə Oqtay Babayevin özünə, dörd dəfə isə onun adından özləri yazıb, şəhərin müxtəlif yerlərinə qoyub, son nəticədə Sabir Babayevə çatdırırdılar. Lakin tələb olunan məbləği vermək mümkün olmadığından Oqtay Babayev Nailə Quliyevanın evinin zirzəmisində qalmaqda davam edirdi.

Hacı Məmmədovun Sabir Babayevlə danışdığı telefon nömrələrinin biri Saray qəsəbəsində yaşayan Mehman Səmədov tərəfindən verilən pasportla alınan mobil telefonun nömrəsi idi. Həmin nömrədən bir neçə dəfə istifadə edilmişdi. Bu da Oqtay Babayev barəsində aparılan əməliyyat-axtarış zamanı əməliyyatçıların diqqətini cəlb etmişdi. Bu barədə böyük rəis artıq Hacı Məmmədovu məlumatlandırmışdı. Odur ki, Hacı Fərhad Məmmədbəyova həmin məsələ üzə-

rində iş aparmağı və Mehman Səmədovun həmin pasportu kimdən aldığını aydınlaşdırmağı tapşırır.

Fərhad Məmmədbəyov 6 fevral 2000-ci il tarixdə Mehman Səmədovun dayısının hüzr yerində Mehmanla görüşür və onu kənara çəkib həmin pasportu kimdən almasını soruşur. Mehman Səmədov Fərhad Məmmədbəyovun ondan əl çəkmədiyini görüb, pasportu qəbiristanlıqda gözətçi işləyən Novruz adlı dostundan aldığını söyləyir. Fərhad 7 fevral 2000-ci il tarixdə Hacı Məmmədovun Bakıdakı, R.Bağırov küçəsi 33, mənzil 6-da yaşadığı evə gəlir və onun verdiyi tapşırığı yerinə yetirdiyini bildirir. Hacı Fərhadı dinlədikdən sonra işlərin pis olduğunu bildirir. Mehman Səmədov və Novruz İsmayılovun izləri ilə Oqtay Babayevin oğurlanması və digər cinayətlərlə bağlı gəlib onları tapa bilərlər. Ona görə də Novruz İsmayılovu aradan götürmək lazımdır.

Hacı Mehman Səmədov və Novruz İsmayılovu öldürmək qərarına gəldikdən sonra bu işdə himayədarların da dəstəyini almaq istəyir. Hər iki rəis həmişəki kimi köməklərini əsirgəmirlər və hətta bunu təcili həll etməyi tapşırırlar.

Hacı 2000-ci il fevral ayının 10-da səhər saat 8-də əməliyyatda iştirak edəcək adamları yanına çağırır. Deyilən vaxtda Fərhad Məmmədbəyov, Nizami Abdullayev, Malik Məmmədov və Əsgər İsgəndərov Xətai rayonundakı məlum ünvana toplaşırlar. Hacı göstəriş verir ki, səhər tezdən qəbiristanlığa gedib Novruz İsmayılovu onun yanına gətirsinlər. Fərhad, Nizami, Əsgər və Malik maşınla qəbiristanlıqda Novruz İsmayılovun gəlməsini gözləyirlər. Aradan xeyli keçmiş Hacı fikrini dəyişir və Nizami Abdullayevə zəng edib, bildirir ki, Novruz daha lazım olmadı, geri qayıtsınlar.

Hacının tapşırığını alan cinayətkar dəstə onun Saray qəsəbəsindəki bağına qayıdırlar. Bu dəfə Hacı onlara göstəriş verir ki, əvvəl Mehman Səmədovu bir bəhanə ilə onu yanına gətirsinlər. Fərhad Məmmədbəyov deyir ki, belə bir fənd fikirləşmişəm. 1999-cu ildə Mehman öz sexini kiməsə satıb.

Soruşsa deyərəm ki, həmin sexin sənədlərində problem var və onu aydınlaşdırmaq lazımdır.

Hacı Fərhadın fikrilə razılaşır və onlar Mehman Səmədovun dalınca gedirlər. Hacının göndərdiyi dəstə Mehman Səmədovun Saray qəsəbəsindəki evinin qapısına yaxınlaşır. Malik, Əsgər maşından düşüb zəngin düyməsini basırlar. Zəngin səsinə Mehmanın oğlu Tələt çıxır. O, qapıda iki nəfərin dayandığını görür. Tələt Səmədov onlardan kimi istədiklərini soruşduqda Əsgər İsgəndərov ondan atasınının harada olmasını soruşur. Tələt onlara bildirir ki, atasının dayısı Rasim rəhmətə gedib və onun yasındadır. Tələt Səmədov atasını nə üçün axtardıqlarını soruşduqda Əsgər İsgəndərov bildirir ki, atası bu yaxınlarda sex satıb, lakin həmin sənədlərdə onun imzası yoxdur. Onun təcili bu sənədlərə imza etməsi lazımdır. Əsgər İsgəndərov ona təklif edir ki, maşına otursun və həmin yas yerini onlara göstərsin. Tələt Səmədov əvvəlcə razılaşır. Sonra isə bildirir ki, yol daşlıqdır özü gedib atasını çağıra bilər.

Tələt yas yerinə gəlib atasına bildirir ki, bir neçə nəfər maşınla gəlib onu gözləyir və deyirlər ki, hansısa sənədi imzalamaq lazımdır. Mehman Səmədov oğlu ilə birlikdə yas yerindən çıxıb onlara tərəf gəlir və yolda həmin şəxsləri görür, əl verib görüşürlər. Əsgər İsgəndərov və Malik Məmmədov Mehmana bildirirlər ki, satdığı sexin sənədlərində bir neçə imza yerləri boş qalıb. Həmin sənədlər onlara təcili lazımdır. Təklif edirlər ki, onlarla Sumqayıta getsin və həmin sənədlərə imza atsın. Mehman Səmədov maşına oturanda Tələt atasından haraya getməsini soruşur. Mehman cavab verir ki, Sumqayıta gedir və çalışıb tez qayıdacaq.

Bu Mehman Səmədovun axırıncı gedişi olur. Cinayətkarlar Mehman Səmədovu Sumqayıta deyil, birbaşa Hacı Məmmədovun hüzuruna gətirirlər. Hacı Mehmanla görüşəndən sonra bildirir ki, onun Fərhad Məmmədbəyova satdığı pasportla onlar mobil telefon alıb. Bunun da üstü açılıb

və istintaq orqanı bu istiqamətdə iş aparır. İstintaqçılar gəlib əvvəlcə onu, sonra da pasportdan istifadə edənləri tapa bilər. Hacı Mehmana təklif edir ki, məsələ sakitləşənə kimi bir müddət gizlənmək lazımdır. Bunun üçün də ən yaxşı yer Qusar rayonunun «Qarabulaq» istirahət mərkəzidir. Ora mərkəzdən çox aralıdır. «Qarabulaq»da həm işləyər, həm də bir müddət istirahət edər. Mehmanın canına qorxu düşür və dərhal razılaşır. Hacı ona ailəsinə göndərmək üçün 100 ABŞ dolları verir və bundan sonra da ona maddi kömək edəcəyini bildirir. Mehmana təklif edir ki, ailəsinə bir məktub da yazsın ki, onu axtarmasınlar. Mehman pullu iş yeri tapdığını və oraya getdiyini yazır. Bundan sonra Fərhad Məmmədbəyov idarə etdiyi «Qaz–24» markalı avtomaşının saxta dövlət nişanını onun əsli ilə əvəz edib, Mehman Səmədov və Malik Məmmədovla birlikdə Saray qəsəbəsindən Sumqayıta yola düşürlər. Fərhad Məmmədbəyov idarə etdiyi avtomaşını Sumqayıt bazarının yanında saxlayır. Maşından düşüb Hacı Məmmədovun Mehman Səmədova verdiyi 100 ABŞ dollarını və Mehman Səmədovun ailəsinə yazdığı məktubu fotoatelyedə işləyən dostu Mətləbə verir ki, onu aparıb Mehman Səmədovun evinə çatdırsın. Fərhad Məmmədbəyov işini bitirib maşını Sumqayıtın girəcəyindəki DYP postunun yaxınlığına sürür. Postda onları Rövşən Ağayevin 335 dövlət nömrə nişanı olan «Vaz–21099» markalı avtomaşını gözləyirdi. Rövşən Ağayevdən başqa Nizami və Əsgər də həmin maşında idilər. Fərhad Malik Məmmədovu və Mehman Səmədovu maşından düşürüb, Rövşən Ağayevin idarə etdiyi avtomaşına mindirir və onları Qusar rayonunun Qayakənd kəndindəki «Qarabulaq» istirahət mərkəzinə yola salır.

Fərhad Məmmədbəyov ordan qayıdıb idarə etdiyi avtomaşını «Vaz–21099» markalı, 441 dövlət nömrə nişanlı avtomaşınla dəyişir və özünə alibi yaratmaq üçün Mehman Səmədovun dayısının yas yerinə gedir. Fərhad axşam evə qayıtdıqda yoldaşı ona bildirir ki, Mehmanın qardaşı Tehran

gəlib onu soruşub. Səhərisi gün Fərhad Tehranla görüşür və Tehran Mətləbin sözlərinə istinad edərək qardaşına hansı işi tapdığını və onu hara göndərdiyini soruşur. Fərhad Tehrana bildirir ki, onun heç nədən xəbəri yoxdur və Mehmana da heç bir iş tapşırmayıb. Fərhad Mətləbin onu satdığını başa düşərək səhərisi gün tezdən onun yanına gedib, nə üçün adını Tehrana deməsinə görə onu danlayır. O, Mətləbi məcburən Tehranın yanına göndərir ki, onun adını səhvən çəkdiyini desin.

Fərhad Məmmədbəyovun məcbur etməsindən sonra Mətləb Tehranın yanına gedib ona bildirir ki, 100 ABŞ dollarını və məktubu ona Fərhad yox, Mehmanın özü verib ki, aparıb evinə çatdırsın. Lakin Fərhad Məmmədbəyovun yas yerində Mehmanla görüşməsini qardaşı Tehran şəxsən gördüyünə və Mətləbin sözünü dəyişməsinə baxmayaraq, ilk öncə Fərhadın adını çəkməsi həmin ailədə şübhə yaradır. Mehmanın itməsi ilə əlaqədar Fərhad Məmmədbəyovu əvvəl Abşeron rayon polis şöbəsinə, sonra isə Sumqayıt Şəhər Polis İdarəsinə çağırıb dindirirlər. İşlərin belə getməsindən narahat olan Hacı Saray qəsəbəsində yaxın münasibətdə olduğu Əliqulu Quliyevi də Mehman Səmədovun ailəsinin yanına göndərir ki, Fərhad Məmmədbəyovun adını çox da hallandırmasınlar, onun bu işlərdən xəbəri yoxdur. Bundan sonra Hacı ikinci dəfə özü Əliqulu Quliyevlə Mehmanın anası Sevil Səmədovanın yanına gedir və onu da inandırmağa çalışır ki, Mehmanın yoxa çıxmasından Fərhad Məmmədbəyovun xəbəri olmayıb.

Rövşən Ağayev və Malik Məmmədov Mehmanı «Qarabulaq» istirahət mərkəzinə apardıqdan sonra gecə qalması üçün tək otaq axtarırlar ki, o, kənar şəxslərlə əlaqə yarada bilməsin. Mehman Səmədova bildirirlər ki, ona yaxşı yer seçmək istəyirlər. Lakin yerlərin hamısı tutulub. Bu gecəlik birtəhər yer tapıb onu yerləşdirəcəklər. Səhərisi günü həmin obyektin sahibi gəlib ona yaxşı yer və pullu iş təşkil edəcəkdir. Mehman Səmədov da onların dediklərinin doğruluğuna

inanıb razılaşır. Odur ki, onlar Mehman Səmədovu heç kəsin görə bilməyəcəyi bir otaqda yerləşdirirlər. Nizami Abdullayev və Əsgər İsgəndərov «guya yer tapa bilmirlər» – deyə Bakıya qayıdırlar. Malik Məmmədov Mehman Səmədovu yerləşdirdikdən sonra başqa yerə getməməsi və heç kimlə əlaqə yarada bilməməsi üçün gecə onun keşiyini çəkir. Malik həmçinin Mehmanın yeməyini də qaldığı otaqda təşkil edir və Hacı Məmmədovun gəlməsini gözləyir.

Səhərisi gün axşam saat 23:30 radələrində Hacı Məmmədov və Nailə Quliyeva ilə «Qarabulaq» istirahət mərkəzinə gəlir. Hacı Malikə Mehman Səmədovu yanına gətirməyi tapşırır. Malik Mehmana Hacının gəldiyini bildirir və deyir ki, Hacı onun üçün həm yaxşı yer tapıb, həm də görüləcək suvaq işi ilə əlaqədar söhbət etmək istəyir. Mehman Səmədov sevinə-sevinə Malikə qoşulub Hacı Məmmədovun görüşünə gedir və yolda da fikirləşir ki, gəldiyi yer yaxşı yerdir. Həm istirahət edər və həm də ailəsi üçün beş-üç manat çörək pulu qazanar. Hacı Mehmanla görüşür və üzünü Malikə tərəf döndərib «Mehmanla söhbəti var, onlardan bir az aralı dursun» – deyə bildirir. Ona görə də Malik Məmmədov bir qədər ayaq saxlayır, sonra onların dalınca asta addımlarla getməyə başlayır. Hacı isə Mehmana suvaq vurulacaq yeri göstərmək bəhanəsi ilə istirahət mərkəzinə doğru gedir. Şirxan Albiyevin meyitinin basdırıldığı yerə təxminən 10 metr qalanda Hacı Mehmanı özündən bir-iki metr qabağa buraxır. Mehman Hacının ondan arxada qalmasını belə hiss etmir. Qəfildən Hacı qabağa keçib, Mehmanı yumruqlamağa başlayır. Qarın boşluğuna dəyən zərbələrdən Mehman «vay qarnım» – deyə yerə çökür. Hacı fürsətdən istifadə edib atəşə hazır vəziyyətdə saxladığı tapançadan onun boyun və baş nahiyəsinə iki dəfə atəş açır. Mehman Səmədov yerə yıxılır. Bundan sonra Hacı Məmmədov tapançanı cibinə qoyur və Maliklə köməkləşərək Mehmanın meyitini qabaqcadan zibil üçün ekskavatorla qazdırdığı xəndəyə atır. Malik də «birdən

ölməz» – deyə özündə qanunsuz gəzdirdiyi «Makarov» tipli tapançadan Mehmanın boğaz nahiyəsinə atəş açır və ölməsinə tam əmin olandan sonra meyiti torpaqlayır.

Mehman Səmədovun birdən-birə müəmmalı şəraitdə yoxa çıxması ailə üzvlərini və ailəvi dost olan Novruz İsmayılovu çox narahat edirdi. Hacı Novruz İsmayılovun bu işlə maraqlanmasını haradansa öyrənmişdi. Odur ki, Hacı şübhələri özlərindən uzaqlaşdırmaq məqsədi ilə Fərhad Məmmədbəyovu təcili Saraydakı bağ evinə çağırır və bildirir ki, sahibsiz pasportu Mehman Səmədov və Novruz İsmayılovun əli ilə alıb. Pasport məsələsinin onlar üçün problem yaradacağından qorxaraq Fərhad Məmmədbəyova tapşırır ki, bu məsələnin qarşısı bu gün və ya sabah alınmalıdır. Bununla çox adamlar qurban gedə bilər. Fərhada Novruz İsmayılovun Mehman Səmədov haqqında nə danışdığı barədə məlumat toplamağı tapşırır.

Fərhad Məmmədbəyov bu işlə maraqlananda məlum olur ki, Novruz İsmayılovda Mehmanın şəkli var. Tanıdığı şəxslərdən Mehman Səmədov haqqında sorğu-suallar edir. Bu xəbəri o, Hacı Məmmədova çatdırdıqda Hacı bildirir ki, onun da işini bitirmək lazımdır.

Mehman Səmədovun öldürülməsindən iki həftə keçirdi. Hacı Qusar rayonuna zəng edib, Malik Məmmədovu, şəhərdən Nizami Abdullayevi, Fərhad Məmmədbəyovu, Rövşən Ağayevi, Yagir Məmmədovu və Əsgər İsgəndərovu 28 fevral 2000-ci il tarixdə səhər Saraydakı bağ evinə toplayır. Onlara göstəriş verir ki, Novruz İsmayılovu təcili tapıb yanına gətirsinlər. Hacı bu işi həyata keçirməyi Fərhad Məmmədbəyova tapşırır. Fərhada kömək məqsədi ilə Əsgər İsgəndərov və Yagir Məmmədovu da onunla göndərir. Onlar ağ rəngli «Vaz–2106» markalı avtomaşınla Saraydakı qəbiristanlığa tərəf hərəkət edirlər. Novruz İsmayılov Saraydakı qəbiristanlığın gözətçisi idi. O, saat 9-10 radələrində evdən çıxır ki, iş yerinə getsin. Evdə həyat yoldaşına bildirir ki, qəbiristanlıqdan un dalınca gedəcək.

Fərhad Məmmədbəyov avtomaşını qəbiristanlıq istiqamətinə sürəndə Novruz İsmayılovun da qəbiristanlıq tərəfə gəldiyini görür və maşını saxlayır. Fərhad maşından düşüb onunla görüşür. Şübhə yaranmasın deyə bildirir ki, Hacı Məmmədovun rəhmətə gedən yaxın qohumu üçün qəbiristanlıqda yer götürüb, qəbir qazdırmaq lazımdır. O, bəhanə ilə Novruz İsmayılovu maşına oturdur, «qəbri burada qazmaq lazımdır» – deyə boş yeri ona göstərir. Həm də bildirir ki, meyiti sabah gətirib dəfn edəcəklər. Fərhad həmçinin Novruz İsmayılova bildirir ki, Hacı Saray qəsəbəsindəki bağ evindədir və dəfnlə əlaqədar onunla məsləhətləşmək istəyir. Novruz İsmayılovla Fərhad birlikdə Hacı Məmmədovun Saray qəsəbəsindəki bağ evinə gəlirlər.

Fərhad Novruz İsmayılovu Hacının yanına apardığı bir vaxtda Novruzun anası Rəqiqə İsmayılova da oğlunun evinə gəlir. Lakin Novruzu evdə tapmır. Oğlunun həyat yoldaşı bildirir ki, o, qəbiristanlığa gedib, oradan isə evə un almağa gedəcək. Saat 15 radələrində Novruzun oğlu Vahid İsmayılov evə qayıdır və anasına bildirir ki, yolu qəbirstanlıqdan düşmüş, lakin atasını orda görməyib. Hətta iş yoldaşları da onu gözləyirdilər. Saat 16 radələrində Novruzun qardaşı Firuz da onun gözətçi işlədiyi Saraydakı qəbiristanlığa gedir. Orada heç kimi tapmır və kor-peşiman evə qayıdır. Evdə də qardaşının gəlmədiyini bildirirlər.

Fərhad Məmmədbəyov Novruz İsmayılovu Hacı Məmmədovun olduğu otağa gətirir və onlar arasında ayaqüstü söhbət olur. Fərhad, Nizami, Əsgər, Yagir və Malik də onların söhbətinə qulaq asırlar. Novruz elə güman edir ki, qəbirin qazılması və dəfnlə əlaqədar söhbətdən sonra onu qəbiristanlıqdakı iş yerinə aparacaq, o, da işini davam etdirəcək… Lakin Hacı onu Mehman Səmədova verdiyi pasportla əlaqədar sorğu-suala tutur. Novruz pasport barəsində heç kəsə bir kəlmə də danışmadığını bildirsə də, Hacı ona inanmır. Dəstə üzvləri Hacının işarəsinə əsasən Novruzun əllərindən, ayaqla-

rından və belindən tutub, yerə yıxaraq onu bərk-bərk sıxırlar. Novruz qışqırmağa başlayır və yalvarıb buraxılmasını xahiş edir. Hacı qara polietilen kisəni Novruzun başına keçirir və əlləri ilə onu boğmağa başlayır. Novruz İsmayılovun əl-ayağı boşalır. Hacı Novruzun öldüyünə əmin olandan sonra polietilen kisəni onun başından çıxarır və Nizami Abdullayevə növbəti tapşırığını verir: «Onu qəbiristanlıqda bir qəbirin yanında qoyun. Camaat elə başa düşəcək ki, yazıq əcəlindən ölüb». Nizami, Əsgər, Malik və Yagir Novruz İsmayılovun meyitini həyətə çıxarır və «Jiquli» markalı avtomaşının arxa oturacağına uzadıb, qəbiristanlığa aparırlar.

Beləliklə, Hacı Oqtay Babayevin oğurlanması ilə bağlı törətdiyi cinayətin gələcəkdə açılacağı təqdirdə meydana çıxa biləcək ikinci şahidi də aradan götürməklə cinayətin izini itirir.

29 fevral 2000-ci ildə Firuz İsmayılov səhər saat altıda yenə də qəbirstanlığa gedir, qəbirlərin arasına diqqətlə baxır. Hasarın üstünə qalxıb ətrafı nəzərdən keçirərkən bir qədər aralıda gözünə qaraltı görünür. Dərhal hasardan düşüb qaraltıya sarı gedir və iki qəbirin arasında qardaşı Novruzun meyitini tapır.

Meyit Məhkəmə tibbi ekspertə təqdim edilir. Məhkəmə tibbi eksperti Novruz İsmayılovun ölməsi səbəbi kimi onun soyuqdan donmasına rəy verir. İstintaq orqanı da həmin rəyə istinadən cinayət işi qaldırmır. Novruz İsmayılovun ölümü ilə əlaqədar məhkəmə tibbi ekspertin və istintaq orqanının belə nəticəyə gəlməsi Hacı Məmmədovun xeyrinə idi. O, işin belə sonluğundan razı qalır və hesab edir ki, planlaşdırdığı əməliyyat özünü doğruldub. Həmin ölümü heç kim kriminal ölüm hesab etməyəcək, heç bir istintaq-axtarış tədbirləri də davam etdirilməyəcək və ən əsası Mehman Səmədovla həmin ölüm hadisəsinin əlaqəsi olmasından da şübhələnən olmayacaqdır.

Hacı Məmmədov iki nəfəri aradan götürdükdən sonra arxayın halda Oqtay Babayevin işi ilə məşğul olmağa başlayır.

O, başa düşürdü ki, Oqtay Babayevin qohumları ilə danışıqlarda istifadə etdiyi telefon nömrələri istintaqçıların nəzarətindədir. O, təkrar olaraq həmin telefonlardan istifadə etmək istəmirdi. Başqa texniki vasitələrə ehtiyac yaranmışdı. Ona görə də o, banda üzvlərindən Nizami Abdullayev, Aslanbek Çintamirov, Fərhad Məmmədbəyov və Yagir Məmmədovu Nailə Quliyevanın evinə yenidən çağırıb tapşırır ki, təcili sənəd tapmaq lazımdır. Bunun üçün ayrı-ayrı şəxslərə basqınlar etmək, onların şəxsiyyət sənədlərini, ya da ki, sürücülük vəsiqələrini ələ keçirmək lazımdır ki, sonra da həmin sənədlər əsasında yeni mobil telefon kartlarını ala bilsinlər.

Aslanbek Çintamirov Hacı Məmmədova təklif edir ki, onlar belə sənədləri basqınla yox, oğurluqla əldə edə bilərlər. Hacı öz dediyindən dönmür. Onlara bildirir ki, artıq basqın planı hazırdır.

İki gündən sonra – yəni 31 mart 2000-ci il tarixdə Hacı Məmmədov dəstə üzvlərini əməliyyatı keçirməyə çağırır. O, Nizami Abdullayev, Fərhad Məmmədbəyov və Yagir Məmmədova göstəriş verir ki, saat 20-də metronun «Gənclik» stansiyasının yaxınlığında onu gözləsinlər. Aslanbeklə isə «Elmlər Akademiyası» metrostansiyası yaxınlığında görüş təyin edir. Hacı Aslanbeki «Mercedes Benz» markalı avtomaşınla metronun «Gənclik» stansiyasına gətirir, oradan isə digər banda üzvləri ilə görüşəcəkləri yerə gedirlər. Yolüstü Hacı Məmmədov ona basqınla bağlı planını açıqlayır və Aslanbekə «Makarov» tipli tapança, patronla dolu bir ədəd daraq və bir ədəd də eynək verir. Hacı Məmmədov metronun «Gənclik» stansiyasında Ayna Sultanova heykəli istiqamətində avtomaşını saxlayır. Bu vaxt Nizami Abdullayevin ağ rəngli «Mercedes» markalı avtomaşınında onları gözləyən Nizami, Yagir və Fərhad dərhal maşından düşüb Hacı Məmmədovun maşınına otururlar. Hacı Məmmədov burada artıq əməliyyata başlamaq göstərişini verir. Onun göstərişinə əsasən Yagir, Fərhad və Aslanbek taksini «Semaşko» adına xəstəxananın

həyətinə sürdürməli, sürücüyə basğın etməli, sənədlərini ələ keçirib sonra onları müşayiət edən Nizami Abdullayevin maşınına minib aradan çıxmalıdırlar.

Hacıdan başqa Aslanbek və digərləri «Gənclik» mehmanxanası tərəfə keçərək basqın edəcəkləri taksi sürücüsünü axtarmağa gedirlər. Fərhad Məmmədbəyov və Aslanbek Çintamirov kənarda dururlar. Yagir Məmmədov isə yaxınlıqdakı «Vaz–2106» markalı, 50–BA–424 dövlət nömrə nişanlı ağ rəngli taksinin sürücüsü ilə söhbət edir. Sürücü İlqar Həsənovla razılığa gəldikdən sonra Yagir Məmmədovun işarəsi ilə kənarda duran dəstə üzvləri də gəlib maşında otururlar. Yagir Məmmədov sürücünün yanında, Aslanbek, Fərhad arxa oturacaqda otururlar. Yagirin göstərişi ilə İlqar Həsənov maşını «Semaşko» xəstəxanası istiqamətinə sürür. Fərhad xırıltılı səslə Yagirlə Azərbaycan dilində danışsa da, Aslanbek Çintamirovun çeçen olması bilinməsin deyə danışmırdı. Taksi «Semaşko» xəstəxanasının həyətinə daxil olur və sürücü maşını Fərhadın göstərdiyi yolla korpuslardan birinin arxa tərəfinə sürür. Razılaşmaya görə Fərhadın işarəsindən sonra Aslanbek Çintamirov arxa tərəfdən sol əli ilə sürücünün boğazından tutur, sağ əlindəki «Makarov» tipli tapançanı sürücünün baş nahiyəsinə dirəyir. Sürücünün yanında oturan Yagir isə onun ciblərini yoxlayır. Sürücü Yagir Məmmədova müqavimət göstərdikdə Aslanbek Çintamirov əlindəki tapança ilə sürücünün başına bir neçə dəfə zərbə endirir. Sürücü zərbələrdən süst vəziyyətinə düşür. Yagir Məmmədov onun ciblərini və sürücü tərəfdən günəşdənqoruyucunu yoxlayır. Yagir sürücünün AZ–010443194 saylı sürücülük vəsiqəsini, maşının texniki pasportunu, həmin dövrün kursu ilə 200 min manat pulunu və maşının açarlarını götürür. Bu vaxt sürücü imkan tapıb həm siqnalı basır, həm də Aslanbek maşından çıxmaq istədikdə sürücü başını arxaya çevirib, onun üzünə baxmaq istəyir. Lakin Aslanbek tapançanın qundağı ilə sürücünün sifətinə zərbə vurur. Bundan sonra basqınçılar maşından

düşüb, xəstəxana hasarının sökülmüş yerindən yola çıxırlar. Cinayətkarlar yolun kənarında onları gözləyən Nizami Abdullayevin idarə etdiyi «Mercedes» maşınına oturub, oradan uzaqlaşırlar. Nizami Xətai rayonundakı evə gəlir və silahlı basqından ələ keçirdikləri sənədləri Hacıya təqdim edir. Aslanbek isə «Makarov» tipli tapançanı, patronla dolu darağı və günəş eynəyini də Hacıya təhvil verir. Səhərisi gün Hacı Məmmədov İlqar Həsənovun sürücülük vəsiqəsi ilə mobil telefon kartı alır.

Hacı Məmmədov fevral-mart aylarında Mehman Səmədov və Novruz İsmayılovu aradan götürməklə və mobil telefon kartları almaq üçün silahlı basqınlarla sənədlər ələ keçirməklə məşğul olsa da, paralel olaraq həm özü, həm də onun tapşırığı ilə Nizami Abdullayev Oqtay Babayevin atası Sabir Babayevlə danışıqları davam etdirirdi. Oqtay Babayevin adamları ilə danışıqlarda istifadə etdikləri telefon nömrələri onlar üçün artıq təhlükə törətməsə də onlardan az istifadə etmək istəyirdi. Odur ki, 1 aprel 2000-ci ildə Sabir Babayevə taksi sürücüsü İlqar Həsənovun sürücülük vəsiqəsi ilə alınan mobil telefon nömrəsi ilə zəng edir. Oqtay Babayev üç aya yaxın idi Hacının zirzəmi-kamerasında saxlanılırdı. Tələb etdiyi 10 milyon dolları ala bilməyəcəyini, daha doğrüsü, Sabir Babayevin onu toplaya bilməyəcəyini görüb, həmin məbləği azaltmışdı. Bu barədə Nizami Abdullayevin də xəbəri var idi. Nizami Hacının razılığı ilə Sabir Babayevin təklif etdiyi 550 min ABŞ dolları ilə razılaşmalı olur və ondan tələb edir ki, razılaşdıqları məbləği onların deyəcəyi yerə özü gətirsin. Başqa çarəsi qalmayan Sabir Babayev bununla razılaşır və bildirir ki, təki oğlu cinayətkarların əlindən sağ-salamat azad olunsun.

Sabirin səbrsizliklə gözlədiyi an artıq yaxınlaşmaqda idi. O, oğlunun azad edilməsi üçün pul tələb edən cinayətkarların telefon zəngini gözləyirdi. Nəhayət, 5 aprel 2000-ci il tarixdə şər qarışanda Sabirin səbrsizliklə gözlədiyi an çatdı. Üç aya

yaxın mütəmadi ondan pul tələb edən adamın xırıltılı səsi yenidən telefonda eşidildi. Tanımadığı və üzünü görmədiyi Hacı Məmmədov ona zəng edir və bu dəfə razılaşdırılmış məbləğlə birlikdə «Moskva» univermağının yanına gəlməyi tələb edir.

Sabir Babayev şərtləşdikləri yerə gələnə qədər Hacı və Nizami icarəyə götürdükləri taksiyə boş karton qutuları yığıb, taksi sürücüsünə onları «Moskva» univermağının yanında gözləməyi tapşırırlar. Özləri isə Sabir Babayevin idarə etdiyi avtomaşının arxasınca gedərək onu izləyirlər. Sabir Babayevin arxasınca heç kimin gəlmədiyinə əmin olduqdan sonra bu dəfə Nizami Abdullayev telefonla ona göstəriş verir ki, əmanətlə birlikdə yaxınlıqda duran «Vaz–2103» markalı sarıyaçalan avtomaşına yaxınlaşsın və maşını Respublika Mərkəzi Xəstəxanasına sürdürsün.

Sabir Babayev onların dediklərinə əməl edir. Sürücü maşını həmin istiqamətdə idarə edərkən Nizami Abdullayev telefonla Sabir Babayevə yeni göstəriş verir ki, pulu boş qutulardan birinin içərisinə qoysun. Avtomaşın Respublika Mərkəzi Xəstəxanasının həyətinə girdikdən sonra pul olan qutunu darvazanın sol tərəfində rəf kimi düzəldilən yerə qoyub, maşını xəstəxananın aşağısına doğru sürdürsün və sonra qayıdıb maşındakı qutuları aparıb «Moskva» univermağı yaxınlığında yandırsın.

Sabir Babayev Nizamidən tapşırıq alıb, «Moskva» univermağının yaxınlığına gəlir, pul bağlamasını götürür və sarıyaçalan «Jiğuli» avtomaşınına yaxınlaşır və maşını Respublika Mərkəzi Xəstəxanasına sürdürür. Sabir Babayev deyilənlərə əməl edir və xəstəxananın həyətində bir az gözləyir.

Sabirin hərəkətlərini müşahidə edən və onun arxasınca gələn Hacı və Nizami darvazanın üstündəki qutudan pulu götürüb, uzaqlaşırlar. Sabir Babayev isə sürücüyə maşını yenidən «Moskva» univermağı tərəfə sürməyi təklif edir. Sürücü nədənsə şübhələnib onun təklifindən imtina edir. Sabir məcbur olub boş qutuları yerə boşaltdırır və yoldan ötən «Qaz–

24» markalı avtomaşını saxlatdırır, boş qutuları maşına yığır və aparıb deyilən yerdə yandırır.

Əmanət cinayətkarlara çatan gecə Sabir Babayevin ailə üzvlərinin gözünə yuxu getmir. Qara fikirlər ailədə bir çaşqınlıq yaradır: «Birdən Oqtayı azad etməzlər. Onları aldadarlar. Yenidən pul tələb edərlər». Həmin gecə və sabahısı gün Oqtaydan bir xəbər çıxmır. Zəng edən də olmur…

Hacı Oqtay Babayevi azad etməyə tələsmirdi. O, Sabir Babayevdən aldığı 550 min dolların təmizliyinə və sayının dəqiqliyinə əmin olmaq istəyirdi. Girovu da yalnız bundan sonra azad edəcəkdi. Onu Sabir Babayevin Oqtayın oğurlanması ilə bağlı keçirdikləri sarsıntılar heç də maraqlandırmırdı. Özgələrin dərdi, çəkdikləri əzab və iztirablar Hacıya və banda üzvlərinə yad idi. Təki özününkülər bəhrələnsinlər, yaşasınlar, varlansınlar, çətinliklər görməsinlər.

Hacı Məmmədov 6 aprel 2000-ci il tarixdə axşam saat 21 radələrində Nizami Abdullayev və Fərhad Məmmədbəyova göstəriş verir ki, Oqtay Babayevi zirzəmi-kameradan çıxarsınlar. Fərhad Məmmədbəyov binti və idman papağını seyf qapının nəfəsliyindən Oqtay Babayevə verir və ona tapşırır ki, gözlərini bintlə baqlasın. Oqtay tapşırıqları yerinə yetirir. Fərhad seyf qapını açır və Nizami ilə zirzəmi-kameraya düşürlər. Fərhad Oqtay Babayevin qollarını arxadan qandallayır və onu Hacının yanına aparır. Hacı Oqtay Babayevin vəsiqəsini, saatını və maşınının açarlarını özünə qaytarır. Birlikdə maşına əyləşirlər. Hacı sükanın arxasına keçir. Fərhad Oqtay Babayevin yanında, Nailə Quliyeva isə qabaqda Hacının yanında oturur. Bir saata qədər yol gedib, Bakı-Sumqayıt şosesinə yaxın – Motodromda maşını saxlayırlar. Oqtay Babayevi maşından düşürür, qollarından qandalı açır, mobil telefonunu qaytarır və cibinə həmin dövrün kursu ilə 40 min manat pul qoyurlar.

Girovluqdan azad olunan Oqtay Babayev gözlərindən lenti və sarğını açır. O, Bakı-Sumqayıt yolunda olduğunu

görüb, yolun əks tərəfinə keçir və ağ rəngli «Hunday» markalı avtomaşına minib metronun «20 Yanvar» stansiyasına, oradan isə taksi ilə metronun «Gənclik» stansiyası istiqamətinə tərəf gedir.

Hacı Məmmədov Sabir Babayevdən aldığı 550 min dolları öz aralarında bölür. O, bölgünü böyük rəislə məsləhətləşməklə, lakin bu cinayətdə əli olanların iştirakı olmadan aparır. Alınan məbləğin 200 min dollarını özünə götürür. Bu dəfə də böyük rəislə pay bölgüsündə olan bərabərlik prinsipini pozmayaraq, 200 min dolları saat 22:23 radələrində «Moskva» univermağının yaxınlığındakı «Konika» foto mağazasının yanında Zakir Nəsirova çatdırır. 60 min dollar Kamil Sədrəddinova, yerdə qalan 90 min dollar isə cinayətkar bandanın əməliyyatda iştirak edən digər üzvləri arasında istədiyi qaydada bölünür. Daha bir cinayət əməli də belə başa çatır.

Rəis Hacıya yol göstərdi



Artıq 2000-ci ilin ortaları idi. Hacı bu dəfə Azər İsmayılovdan qisas almaq istəyirdi. Hacının xoşuna gəlməyən Azər onun paqon yoldaşı idi. O, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsində şöbə rəisi işləyirdi, rütbəsi də polkovnik-leytenant idi. Hacı Məmmədov onu bir iş yoldaşı kimi çoxdan tanıyırdı. O, Abşeron rayon Polis İdarəsində işləyən vaxt Azər İsmayılov onun işlədiyi idarəyə cinayət axtarış şöbəsinin rəisi vəzifəsinə gəlmək fikrində idi. Hacı Məmmədov şöbə rəisinə Azər İsmayılovu dələduz kimi qələmə verərək onu pisləmişdi. Bu da onun həmin vəzifəyə getməsinə maneçilik törətdi. Bunu Azər İsmayılov bildiyi üçün onların arasında sərin münasibət yaranmışdı. Digər tərəfdən Azər İsmayılov Hacı Məmmədovun bacısı Arifənin oğlu Əlibəyi narkotik maddə ilə tutub, ondan agent kimi də istifadə edirdi. Hətta bir dəfə bacısı oğlunun narkomanlarla münaqişəsi zamanı onu möhkəm döymüşdülər. Hacı Məmmədov bunların səbəbkarı kimi Azər İsmayılovu görürdü.

Azər İsmayılov 1999-cu ilin noyabr ayında təyyarə ilə Moskvaya uçarkən Leyla Əliyeva adlı qadınla tanış olur, hətta bir-birlərinə telefon nömrələrini də verirlər. Bakıya qayıt-

dıqdan sonra onların arasında isti münasibət yaranır. Leyla Əliyeva Hacı Məmmədovun Beynəlxalq Bankın Nəsimi rayon filialında işləyən bacısı oğlu Elçin Əliyevin həyat yoldaşı idi. Bu tanışlıqdan sonra onlar Bakıda tez-tez görüşürlər. Leyla Əliyeva Xətai rayonundakı doğum evində işləyirdi. Azər İsmayılovun uşaqlıq dostu Ceyhun Süleymanov onları dəfələrlə öz maşınında gəzməyə aparmış, onların arxasınca kiminsə gəlib-gəlməməsinə nəzarət etmişdi. Hətta bir dəfə Ceyhun Süleymanov onu Xətai rayonuna apararkən, Beynəlxalq Bankın Nəsimi filialının qabağından keçəndə Azər Ceyhuna tapşırır ki, filialın qarşısında dayanmış avtomaşınların rənginə və nömrələrinə fikir versin. Onları bu maşınlarla izləyə bilərlər.

Leyla Əliyevanın Azər İsmayılovla əlaqəsini təkcə əri Elçin Əliyev deyil, L.Əliyevanın anası, Azərin anası Roza Qədimova, bacısı Rəna Naibova və başqaları da bilirdilər. Bir dəfə Hacı Məmmədov, bacısı oğlu Elçin Əliyev və Azər İsmayılov bir məclisdə iştirak edəndə Elçinin halı pisləşir. Hacı yenə də Azər İsmayılovdan şübhələnir. Hacıya elə gəlir ki, Elçinin içkisinə ola bilsin Azər həb atıb ki, o, zəhərlənsin.

15 iyun 2000-ci ildə «Nizami» kinoteatrının yaxınlığında Azər İsmayılov 0,2 qram heroinlə Azad adlı bir nəfəri və onunla birlikdə olan Rauf Babayevi tutur. Söhbət əsnasında Azər İmayılova məlum olur ki, Rauf Hacı Məmmədovun qonşusudur. Azər İsmayılovun əlinə yaxşı bəhanə düşür. Azər bilir ki, Hacı Məmmədov ondan öz qonşusunun xahişini edəcək. Rauf Babayev əvvəllər də bir dəfə polis şöbəsinə düşmüş və qonşusu Hacı Məmmədov zəng edib onu polisdən buraxdırmışdı. Odur ki, Rauf Babayev bu dəfə də Elçin Əliyevə zəng edir, ondan Hacı Məmmədovun telefon nömrəsini alır. Hacıya zəng edərək bildirir ki, Azər İsmayılov onu tutub şöbəyə aparıb, onun xahişini etsin. Hacı Azər İsmayılova ağız açmaq istəmir. Bəhanə gətirir ki, Azər İsmayılovun telefon nömrəsi onda yoxdur. Rauf Babayev ondan əl çəkmir və ikinci dəfə Hacı Məmmədova zəng edir. Bu vaxt Hacı Novxanıda dəniz

sahilində istirahət edirdi. Rauf Babayevin ikinci zəngindən sonra Hacı Azər İsmayılova zəng edir. Azərə də elə bu lazım idi. Sonradan Hacı Məmmədov öyrənir ki, Raufun buraxılma məsələsini Azər İsmayılov özu Rauf Babayevə təklif edib və bütün bunlar onun öz qurmasıdır.

Bir neçə gündən sonra Elçin Əliyev Hacı Məmmədovla Nailə Quliyevanın evində olarkən söhbət Azər İsmayılovun hərəkətlərindən düşür. Bu zaman Nailə Quliyeva Elçinə bildirir ki, Leyla kimi qadını saxlamağa dəyməz. Hacı bundan əsəbiləşib, «artıq Azər İsmayılovla haqq-hesab çəkmək vaxtıdır» – deyir.

Bir dəfə Azər İsmayılov anasının evində, bacısı Rənanın yanında mobil telefonundan Leyla Əliyevaya zəng edib, onunla məzələnmək istəyir. Bu vaxt telefon zənginə Elçin Əliyev cavab verir. Azər telefonu tez söndürür. Lakin Elçin Azər İsmayılovun səsini dərhal tanıyır. Bir qədər sonra Azər İsmayılovun telefonuna zəng gəlir. O, telefonu götürür. Elçin qışqıra-qışqıra nalayiq sözlər işlətməklə onu təhqir edir, başını kəsəcəyi və öldürəcəyi ilə hədələyir. Bundan sonra Azər Leylanın telefon nömrəsini Leylanın rəfiqəsi «Beşa» adlı qadına verir və Elçin Əliyevi yoxlamaq üçün bir daha həmin telefon nömrəsinə zəng etməyi tapşırır. Bununla o, Elçini şübhələrdən uzaqlaşdırmaq istəyir ki, guya Leylaya zəng vuran qadındır. Telefon danışığından sonra Azər İsmayılov anasına tapşırır ki, tanımadıqları adamlara qapını açmasın və özlərindən muğayət olsunlar. Həmçinin anasına çatdırır ki, Elçin Əliyev onu və Leylanı izləyir, onları bir yerdə tutmaq istəyir. Onu izləyən adamlar Elçin Əliyevin işlədiyi banka məxsus maşınlarda gəzirlər. Onsuz da Elçinin əlindən bir iş gəlmir, pul gücünə killer tapıb onu, yaxınlarını və uşaqlarını aradan götürə bilər.

Elçin Əliyev baş verənlər barədə hər dəfə Hacını məlumatlandırırdı. Günlərin birində Hacı Məmmədov səhər işə gələn kimi rəisi, cinayətkar bandanın üzvü Kamil Sədrəddinova

bacısı oğlu Elçin Əliyevin arvadı Leylanın Azər İsmayılovla olan münasibəti haqqında danışır. Bildirir ki, tabel silahını götürüb Azər İsmayılovun kabinetinə gedəcək və onu vuracaqdır. Kamil Sədrəddinov ona yol göstərərək bildirir ki, ağlını başına yığsın. Bu qaydada iş görsə, özündən başqa özgələrini də zibilə sala bilər. Bunun ən yaxşı yolu onu kənarda, özü də tabel silahı ilə deyil, özündə olan arsenal silahların biri ilə aradan götürməkdir. Bundan sonra Kamil Sədrəddinov və Hacı Məmmədov hər ikisinin Saray qəsəbəsindən tanıdıqları Əliqulu Quliyev variantından istifadə etmək qərarına gəlirlər.

Kamil Sədrəddinovun Azər İsmayılovla yaxın münasibəti olduğuna görə ona zəng edir və deyir ki, yanına Hacı Abbas adlı bir nəfəri göndərəcək. Oğlu narkomandır, gəlib nə lazımdır edəcək. Sən sadəcə olaraq gedib onun oğlunu qorxut ki, bu yoldan əl çəksin. Nazirlikdən zəng vuran yüksək rütbəli polkovnikin sözünü Azər İsmayılov yerə salmır və razılığını verir.

Hacı Məmmədov Kamil Sədrəddinovun yanından çıxıb, 2000-ci il iyun ayının 16-da saat 14 radələrində idarə etdiyi qara rəngli «Mercedes» markalı avtomaşınla Saray qəsəbəsinə gəlir. Onun və Kamil Sədrəddinovun ən yaxın adamı olan Əliqulu Quliyevin evində onunla görüşür. O, Əluqulu Quliyevlə bir dəfə də Mehman Səmədov itkin düşərkən Fərhad Məmmədbəyovdan şikayətçi olmasın deyə Mehmanın anasının yanına da gedib. Əliqulu Quliyevlə ordan-burdan bir qədər söhbət etdikdən sonra Hacı ona bildirir ki, tezdən şəhərə onun yanına gəlsin və bir nəfər polis tanışı var, o, həmin polis tanışına zəng edər və onun yanına çağırar. Əliqulu Quliyev ona bildirir ki, həmin polis işçisi tanışdırsa, nə üçün özü zəng edib onu yanına çağırmır. Hacı Məmmədov cavabında Əliquluya eşitdirir ki, onun səsini tanıyır, eşitsə, gəlməz. Əliqulu Hacı Məmmədovun sözünün səmimiliyinə inanmasa da razılığını verir.

Növbəti gün, yəni 17 iyun 2000-ci il tarixdə o, saat 11 radələrində Hacı Məmmədovun şəhərdəki evinə gəlir. Birlikdə Nailə Quliyevanın mənzilinə gəlirlər. Burada Hacı Məmmədov ona planını açıqlayır. Hacı Məmmədov Əliqulunu təlimatlandıraraq deyir ki, sabah Baş Narkotiklərlə Mübarizə İdarəsində şöbə rəisi vəzifəsində işləyən Azər İsmayılov adlı polis işçisinin yanına getsin və özünü ona Hacı Abbas kimi təqdim edərək xahiş etsin ki, guya bacısı oğlu narkomandır. Onu bu yoldan çəkindirmək üçün bir qədər qorxutmaq lazımdır. Bacısı oğlu özü də qorxağın biridir. Hacı Məmmədov Əliqulu Quliyevə deyir ki, Azər İsmayılova hörmət edəcəyini də bildirsin. Hacı daha sonra Əliquluya deyir ki, ona bir telefon da verəcək və həmin telefon nömrəsini Azər İsmayılova versin, onun da telefon nömrəsini götürsün ki, bir-birləri ilə əlaqə yarada bilsinlər. Daha sonra Azərə desin ki, arxasınca maşın da göndərəcək, özü isə evdə gözləyəcəkdir. Heç nədən də çəkinməsin, yuxarda işləyən hörmətli bir adam zəng edib ona tapşırıb. Azər İsmayılov onu dərhal qəbul edəcəkdir. Hacı Məmmədov arxayınçılıqla Əliqulu Quliyevi lazımi qaydada təlimatlandırdıqdan sonra onu evinə yola salır və bildirir ki, sabah saat 11 radələrində onu şəhərdə gözləyəcək.

18 iyun 2000-ci ildə Hacı Məmmədovla olan razılığa əsasən Əliqulu Quliyev şəhərdə Hacı Məmmədovla görüşüb yenə də Nailə Quliyevanın yaşadığı evə gəlirlər. Bir az sonra oraya Nizami Abdullayev də gəlir. Hacı Məmmədovun tapşırığı ilə Nizami Abdullayev və Əliqulu Quliyev Baş Narkotiklərlə Mübarizə İdarəsinə gəlirlər. Nizami Əliqulunu maşında gözləyir. Əliqulu Quliyev isə növbətçi polisə özünü Hacı Abbas kimi təqdim edir və şöbə rəisi Azər İsmayılovla görüşə gəldiyini bildirir. Polis əməkdaşı Azər İsmayılova telefonla məlumat verir. Əliqulu Hacı Abbas adı ilə Azər İsmayılovun xidməti otağına daxil olur. O, Hacı Məmmədovun təlimatlandırdığı qaydada Azərlə söhbət edir. Hacının ona verdiyi telefon nömrəsini də Azər İsmayılova verir. Azər də öz mobil tele-

fon nömrəsini Əliqulu Quliyevə verir və bildirir ki, lazım olan vaxtda ona zəng edə bilər. Əliqulu Azər İsmayılova bildirir ki, o, bir daha buraya gəlməyəcək, onun arxasınca maşın və adam göndərəcək. Buradan çıxan kimi birbaşa Hacının yanına gələn Əliqulu şöbə rəisi ilə aralarında olan söhbətin məzmunu barədə danışır və Azərin telefon nömrəsini ona verir.

İyunun 21-də Hacı Məmmədov əməliyyatda iştirak edəcək banda üzvlərini Nailə Quliyevanın evinə çağırır. Özü isə şəhərdəki evin həyətində Əliqulu Quliyevi qarşılayır və onu da idarə etdiyi avtomaşına mindirib Nailə Quliyeva ilə birgə yaşadığı evə gəlir. Əsgər İsgəndərov artıq orada idi. Hacı Məmmədov Əliqulu Quliyevə sənədsiz alınmış telefonu verərək Azər İsmayılova zəng edib «Ramstor» mağazasının qabağında onunla görüş təyin etməyi tapşırır. Hacı Məmmədovun bu tapşırığına əsasən o, Azər İsmayılovun telefon nömrəsini yığır və ondan «Ramstor» mağazasının yaxınlığına gəlməsini xahiş edir. O həmçinin bildirir ki, onun adamı saat 11-də ağ rəngli «Vaz 2107» markalı avtomaşınla onu qarşılayacaq. Telefon zəngindən sonra Hacı Məmmədov telefonu Əliqulu Quliyevdən alır və tapşırır ki, Azər İsmayılov darvazadan içəri girəndə onu qarşılasın və yanına gətirsin. Hacı Nizami Abdullayevə də tapşırıq verir. Nailə Quliyeva və Nizami «Ramstor» mağazasının ətrafındakı vəziyyəti öyrənməyə gedirlər. Yagir Məmmədovun idarə etdiyi avtomaşını isə Fərhada verir ki, Azər İsmayılovu qarşılasın.

Özünü Hacı Abbas kimi təqdim edən Əliqulu Quliyevin saat 11.30 radələrindəki telefon zəngindən sonra Azər İsmayılov kabinetdən çıxmaq istəyir. Lakin kabinetdən çıxmamış, nəyi isə xatırlayıb, Tahirə İsmayılova adlı tanışına zəng vurur. Tahirə İsmayılova ona bildirir ki, Əhmədli qəsəbəsinə getmək istəyir. Azər İsmayılov da həmin istiqamətə getdiyini bildirir. «Sahil» metrosunun yaxınlığında görüş yeri təyin edən Azər İsmayılov onu öz maşınına oturdur və «Ramstor» mağazasının yanında maşından düşürdür. Orada Tahirə İsmayılovanı

taksi maşınına mindirib Əhmədli qəsəbəsinə yola salır. Özü isə bir qədər aralıda dayanmış süd rəngli «Vaz–2107» markalı avtomaşına tərəf gedir. Avtomaşına yaxınlaşan Azər maşının kim tərəfindən göndərildiyini soruşur. Maşını idarə edən Fərhad Məmmədbəyov onun Hacı Abbas tərəfindən göndərildiyini bildirir. Azər İsmayılov maşının qabağ qapısını açıb, Hacının əmisi oğlu Fərhad Məmmədbəyovun yanında əyləşir. Maşın Xətai rayonunun R.Bağırov küçəsindəki 33 saylı evin, 6 saylı ünvanına gəlir. Hər şeyə hazır vəziyyətdə olan banda üzvləri Azər İsmayılovun yolunu səbirsizliklə gözləyirdilər. Darvazanı Nailə Quliyeva açır. Azəri həyətdə köhnə tanış kimi Əliqulu Quliyevi qarşılayır, çay içmək bəhanəsi ilə onu Hacı Məmmədovun otağına aparır. Azər İsmayılov otağa daxil olanda Hacını görüb geri qayıtmaq istəsə də onu arxadan itələyib, qapını bağlayırlar. Fərhad, Malik, Yagir, Rövşən, Nizami və Əsgər Azər İsmayılovun üstünə hücum çəkərək, dərhal onun əllərini və ayaqlarını bağlayıb divana oturdurlar. Elçin Əliyev də oraya gəlir və Hacını kənara çəkib ona nə isə deyir. Şübhəsiz ki, söhbət Azər İsmayılov barəsində idi.

Hacı əməliyyatı təsadüfən həmin günə təyin etməmişdi. Çünki 21 iyun həm Elçin Əliyevin anadan olduğu, həm də Azər İsmayılovun qətlə yetiriləcəyi gün idi. Hacı Azər İsmayılovu öldürməklə həm bacısı oğlu Elçin Əliyevin sifarişini yerinə yetirmiş, həm də özünün şəxsi istəyinə nail olmuşdu. Onsuzda Hacı Məmmədovun onunla münasibəti yox idi. Digər tərəfdən Azər İsmayılovun onu öldürməyə çalışmasından da şübhələnirdi. İndi isə Azər İsmayılov artıq cinayətkar banda üzvlərinin əhatəsində, onun öz qabağında əlləri və qolları bağlı vəziyyətdə idi. Hacı Məmmədov heç uf demədən həmin cinayətkar yuvada öz paqon yoldaşını böyük qəddarlıqla qətlə yetirir.

Hacı Azər İsmayılovu qətlə yetirdikdən sonra banda üzvlərinə göstəriş verir ki, Azər İsmayılovun meyitini polueti-len kisəyə büküb, iplə bağlasınlar, Rövşən Ağayevin idarə et-

diyi «Vaz–2107» markalı avtomaşının yük yerinə yerləşdirib axşam olmasını gözləsinlər.

Hacı Məmmədov Azər İsmayılovu öldürdükdən sonra Elçin Əliyevin ad gününü qeyd etmək üçün kafeyə gəlir və orada ona həm Azər İsmayılovun qətlini, həm də qutusu ilə birlikdə daşlardan yonulan şahmat fiqurlarını hədiyyə edir. Hacı ad günündə iştirak etməklə həm özü üçün, həm də Elçin Əliyev üçün alibi yaradır və bununla şübhələri özündən uzaqlaşdırmaq istəyir.

Gecədən xeyli keçmiş Hacı R.Bağırov 33-dəki ünvana gəlir və banda üzvlərinə göstəriş verir ki, hazırlaşsınlar, yola çıxırlar. Hacı Azər İsmayılovun meyiti olan «Vaz–21099» markalı maşının sükanı arxasına keçir. Rövşən Ağayev və Əsgər İsgəndərov da həmin maşına otururlar. Malik, Yagir, Fərhad isə Nizaminin idarə etdiyi «Mercedes» avtomaşını ilə Qusara yola düşürlər.

Hacı və cinayətkar banda üzvləri izi itirmək məqsədi ilə Azər İsmayılovun meyitini Qusara apardıqları saatlarda onun ailə üzvləri Roza Qədimovanın (Azərin anası) ad gününü qeyd etmək üçün hazırlıq görmüş və Azərin gəlməsini gözləyirdilər. Lakin axşamdan xeyli keçsə də Azər gəlib çıxmamışdı. Dəqiqələr saatları əvəz etdikcə evdəkilər narahat olmağa başlayırlar. Azər İsmayılovun bacısı narahatçılığa son qoymaq məqsədi ilə Leyla Əliyevaya zəng edir və bildirir ki, bu gün anasının ad günüdür. Lakin Azər hələ də ad gününə gəlib çıxmayıb və mobil telefonu da söndürülüb. Leyla Əliyeva bu gün Elçinin də ad gününün olduğunu, ailəsi ilə birlikdə evdə qeyd etdiklərini və Azərlə bu gün danışmadığını bildirir.

İki saatdan sonra Hacı və banda üzvləri Qusarın Qayakənd kəndindəki «Qarabulaq» istirahət və sağlamlıq mərkəzinə çatırlar. Şirxan Albiyevin basdırıldığı xəndəyin yaxınlığındakı boşluqda Azər İsmaylovun meyitini basdırırlar və gecə ikən də geri qayıdırlar.

Azər İsmayılovun yoxa çıxması Respublikada böyük əkssəda yaradır. Bir neçə ay bundan qabaq Xətai rayon proku-

rorunun köməkçisi Oqtay Babayevin yoxa çıxması da böyük narahatçılıq yaratmışdı. Azər İsmayılovun xidməti otağında baxış keçirilən zamanı istintaqçılar «2107, 491, 327-34-93» rəqəmləri yazılmış kağız aşkar etmişlər. Digər qeyd kitabçalarında yazılmış «Kamil QÜÜR, Hacı Abbas, 327-34-93, Asif Əliyev, Kamil, Abbas» sözləri isə istintaqçıların diqqətindən yayınmamışdı. İstintaqçılar tərəfindən Azər İsmayılovla aparılmış telefon danışıqlarının ərazisi «Kubinka-Təzə bazar» və «Keşlə-Babək prospekti» antenaları ilə müəyyən edilmişdi. Lakin bunların heç biri Azər İsmayılovun oğurlanması və ya qətlə yetirilməsi işinə aydınlıq gətirmirdi.

Hacı Məmmədov Azər İsmayılovu qətlə yetirəcəyini xidməti işi üzrə şöbə rəisi Kamil Sədrəddinovla məsləhətləşsə də, Zakir Nəsirova bildirməmişdi. Azər İsmayılovu öldürəndən bir neçə gün sonra o, Zakir Nəsirovla görüşür və ona bildirir ki, Azər İsmayılovun yoxa çıxması onun işidir. Bu barədə Kamil Sədrəddinovla da məsləhətləşib. Azər İsmayılov bacısı oğlunun arvadını yoldan çıxarıb, onların namusuna sataşıb. Bir bacısı oğlunu agent eləyib, bacısı oğlu Elçinin evinə zəng edib onu ələ salıb, məzələnib. Buna görə də onu öldürüb və meyitini aparıb «Qarabulaq» istirahət mərkəzində basdırıb. Hacı Məmmədovun bu məlumatı böyük rəisin halına heç təsir də etmir və bundan sonra yalnız onu soruşur ki, Azər İsmayılovun öldürülməsində iştirak edən şəxslər ağızdan möhkəmdirmi və tutulsalar ifadə verməzlər ki? Hacı Məmmədov da ona bildirir ki, həmin şəxslər etibarlı adamlardır. Bir çox sınaqlardan çıxıblar. Daha sonra Zakir Nəsirov Hacı Məmmədova məlumat verir ki, Azərin işi ilə əlaqədar onun adını hallandırırlar. Onun adını hallandıranlardan birincisi elə onun öz dostu Rövşən Əliyevdir. O, Hacı Məmmədova xəbərdarlıq edir ki, Rövşən Əliyevlə bir qədər ehtiyatlı olsun. Onunla görüşəndə özünə dost bilib birdən ağzından söz qaçıra bilər. Hacı Məmmədov da cavabsız qalmır və rəisinə deyir ki, o, ağızdan o qədər də boş deyildir.

Hacı Məmmədovun Zakir Nəsirovla söhbətinin səhərisi günü Fərhad Məmmədbəyovla Nizami Abdullayevi Xətai rayon polis idarəsinə aparırlar. Fərhad Məmmədbəyov barəsində hətta inzibati protokol da tərtib edilir və 5 sutka həbsdə də saxlanılır. Bu zaman Zakir Nəsirov həm özü, həm də Kamil Sədrəddinov Xətai RPİ-nə gedir. Oradan qayıtdıqdan sonra Hacı Məmmədovu kabinetinə çağırır və bildirir ki, Xətai RPİ əməkdaşlarında Fərhad Məmmədbəyov və Nizami Abdullayevə qarşı sübut yoxdur. İstintaqın əlində yalnız telefon zənglərinin açıqlamaları var ki, onlar da boş şeydir. Narahat olmasın, Nizami Abdullayevi və Fərhad Məmmədbəyovu buraxacaqlar. Sonra Zakir Nəsirov əlavə olaraq Hacı Məmmədovdan soruşur ki, onlar necə adamlardır, çaşıb istintaqda ifadə verməzlər ki? Hacı Məmmədov yenə də xidməti işi üzrə idarə rəisinə deyir ki, narahatçılığa əsas yoxdur. Onlar ifadə verməzlər. Tutulmazdan bir gün qabaq onları bir yerə yığıb xəbərdarlıq edib ki, əgər onları tutub Azər İsmayılovun ölümü ilə bağlı polisə aparsalar, qorxub ifadə verməsinlər. Həmin hadisədən üç-dörd gün sonra Nailə Quliyeva Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər Üzrə İstintaq İdarəsinə çağırılıb dindirilir. Nailə Quliyevanı çağırışa Hacı Məmmədov aparır və onu təlimatlandırır ki, orada soruşanda desin ki, heç nə bilmir, yalnız televizorda deyilənləri eşidib. Hacı Məmmədov da dindirilərkən Nailənin sözlərini təkrar edir.

Sübutlar ittiham verilməsi üçün kifayət etmədiyinə görə Hacı Məmmədovun cinayətkar bandasının üzvlərini bu dəfə də ifşa etmək mümkün olmur.

Ağsaqqallığın da düşər-düşməzi olarmış

Mehman Səmədovun itkin düşməsi ilə bağlı Fərhad Məmmədbəyov Abşeron rayon və Sumqayıt şəhər Polis İdarəsinə də çağırılıb dindirildi. Bu dəfə də Hacı Məmmədovun cinayətkar dəstəsinin üzvləri üçün heç bir narahatçılıq yaranmadı. Öz havadarlarının köməyi sayəsində banda üzvlərinin həmişə «sudan quru çıxmaları»nı görən Hacı Məmmədov yenidən hüquq-mühafizə orqanları işçilərindən birini də oğurlamaq qərarına gəlir.

Hacı Məmmədovun bu dəfə oğurlamaq istədiyi şəxs Murad Kazımov idi. Murad Kazımov Bakı şəhəri, Yasamal rayon prokurorunun köməkçisi vəzifəsində işləyirdi və Hacı Məmmədov onu çoxdan tanıyırdı. Hacının onunla ədavəti və ya hər hansı başqa şəxsi münasibəti olmayıb. O, Murad Kazımovu xidməti vəzifəsinə görə deyil, pula görə oğurlamaq istəyirdi. Onun bildiyinə görə həmin ailə uğurlu bizneslə məşğul olur. Ona görə də onu oğurlamaqla atasından küllü məbləğdə pul ala bilər.



Murad Kazımov və atası İsmayıl Kazımov Hacı Məmmədovu xidməti işi ilə əlaqədər ola bilsin ki, tanıyırdı. Lakin Hacı Məmmədov onları daha yaxşı tanıyırdı. Hətta İsmayıl Kazımov özü bilməsə də, Hacı Məmmədov onun köməyindən istifadə etmək-

lə küllü məbləğdə gəlirə sahib olub. İndi isə ona köməklik edənin öz oğlunu oğurlamaq fikrinə düşür.

Banda üzvlərini toplayıb onlara lazımi tapşırıqlar verməzdən əvvəl Hacı Məmmədov havadarların fikrini bilmək istəyirdi. Bunun üçün o, 2000-ci ilin oktyabr ayında xidməti işi üzrə hər iki rəisi, cinayətkar fəaliyyətində isə havadarlarının yanında olur. Onların fikri, maraqları üst-üstə düşür. Lakin onlar Hacı Məmmədova bildirirlər ki, əməliyyata başlamazdan bir neçə gün əvvəl onlara məlumat verilməlidir ki, işdən xəbərdar olsunlar.

Bu hazırlıq işlərindən sonra Hacı Məmmədov oktyabr ayının axırlarında Aslanbek Çintamirov, Nizami Abdullayev və Fərhad Məmmədbəyovu yenidən Nailə Quliyevanın evinə toplayır. Bu toplantıda Nailə Quliyeva da iştirak edir. Hacı Məmmədov orada bildirir ki, Murad Kazımov adlı prokuror işçisini oğurlamağı planlaşdırıb. Onların yaxşı pulları var, atasından lazım olan məbləğdə pulu alıb, sonra da buraxacaqlar. Bunun üçün Murad Kazımovu ilk növbədə izləyib və lazımi marşrutlarını, daha çox olduğu yerləri və maşını saxladığı dayanacaqları öyrənmək lazımdır. Bu işi o, Aslanbek, Nizami və Fərhada həvalə edir. Hacı məlumat üçün onlara bildirir ki, o, artıq bir neçə dəfə Yagir, Musa ilə onu izləyib. Dəstə üzvləri bir daha xırdalıqları dəqiqləşdirirlər ki, növbəti dəfə toplaşanda onların əlində konkret plan olsun.

Hacı Məmmədovun bu tapşırığından sonra Nizami Abdullayev idarə etdiyi qara rəngli «Mercedes» markalı maşınla Aslanbek Çintamirova Murad Kazımovun şəhərin mərkəzində köhnə dəyirmanın yaxınlığındakı evini, iki binadan sonrakı həyətdəki qarajını göstərir. Bundan sonra Aslanbek Çintamirov təklikdə bir neçə dəfə həmin yerləri nəzərdən keçirir.

Hacı Məmmədov özünün və banda üzvlərinin bəzilərinin polis, prokurorluq orqanlarına çağırılıb dindirilməsindən və mobil telefon antenaların yeri aşkar olunduqundan sonra oğurladıqları adamlar üçün başqa yerdə saxlanc kamera-

sı qurmaq istəyir. O, bu dəfə Əsgər İsgəndərovun Abşeron rayonunun Xırdalan qəsəbəsi, M.Ə.Rəsulzadə küçəsindəki 6 saylı evinin 1 saylı mənzilini yenidən qurur. Bu işlə Yagir Məmmədov və Əsgər İsgəndərov məşğul olurlar. Arabir Nizami Abdullayev gəlib işlərin gedişinə nəzarət edir. Onlar tikilmiş balkonu arakəsmələrlə üç yerə bölür. Sağ və sol hissələrində oğurlanan adamları saxlamaq üçün saxlanc yerləri düzəldirlər. Saxlanc kamerasına sanitar qovşağı, su çəkilir və hər bir kameraya dəmir qapılar qoyulur. İki kameranın arası isə dəhliz kimi istifadə üçün saxlanılır. Oğurlanan şəxsin içəridəki hərəkətinə nəzarət etmək üçün videokamera bərkidilir və monitor qoyulur. Oğurlanan şəxsə yemək verilməsi üçün dəmir qapının yanında balaca nəfəslk də düzəldirlər. Yagir Məmmədov və Əsgər İsgəndərov qısa müddətdə işlərini tamamlayıb Hacı Məmmədova məlumat verirlər ki, saxlanc-kamera istismara hazırdır.

Bir neçə gündən sonra Aslanbek, Musa, Yagir, Nizami və Fərhad növbəti dəfə Hacı Məmmədovun Nailə Quliyeva ilə yaşadığı evə toplaşırlar. Bu dəfə onlar Murad Kazımova ediləcək silahlı basqının xırdalıqlarını müzakirə edirlər. Hacı Məmmədov onlara bildirir ki, artıq oğurlayacaqları şəxslə bağlı bütün işlər hazırdır. Murad Kazımov Nizami küçəsi, 119-da olan ünvanda yaşayır. İstifadəsində tünd-göy rəngli «Mercedes 320» markalı 10 GM 818 dövlət nömrə nişanı olan avtomaşını var. Həmin avtomaşını qayınatası Əhəd Hüseynova məxsus Nizami küçəsindəki 111 saylı evin qarajında saxlayır.

Aslanbek təklif edir ki, Murada onun öz qarajında basqın etsinlər. Lakin burda başqa bir problem ortaya çıxa bilər. Bu da Muradın xidməti işi ilə bağlıdır. Ona görə ki, o, hüquqmühafizə orqanlarında işləyir. Üstündə silah ola bilər və ona basqın edildikdə həmin silahdan istifadə etməklə problem yarada bilər. Ona o qədər yaxın olmaq lazımdır ki, o, silaha əl atmağa imkan tapmasın. Hacı Məmmədov bunun da yolunu

tapır. O bildirir ki, ona basqın edəcək şəxslər telefon təmir edən işçilər kimi özlərini aparmalıdır və xüsusi geyim formasında oraya getməlidirlər. Əllərində qoruyucu lent, vintaçan, kəlbətin və sair alətlər də olmalıdır ki, şübhə doğurmasın. Oraya qabaqcadan nərdivan da aparılmalıdır ki, nərdivana çıxmaqla telefon çəkmək görüntüsü yaradılsın. İlk öncə nərdivanı Murad Kazımova məxsus qarajın qapısı üstünə qoymaq və qaraja yaxınlaşıb açmaq istədikdə nərdivanı bir az kənara çəkmək lazımdır ki, Murad Kazımov qarajın qapısının bir tərəfini aça bilsin. Yagir Məmmədov yenidən nərdivana çıxıb özünü işləyən kimi göstərməlidir. Aslanbek Murad Kazımovun arxasınca qarajın içərisinə girib, siqaret yandırmaq üçün ondan siqaret istəsin və cavab gözləmədən dərhal ondan yapışıb öz maşınına oturtsun ki, o, silahdan istifadə edə bilməsin. Hacı Məmmədovun bu planı dəstə üzvlərinin xoşuna gəlir. O, tapşırıqlarını verdikdən sonra əməliyyatın başlayacağı vaxtı deyəcəyini bildirir.

Murad Kazımovun oğurlanması əməliyyatı ilə bağlı Nailə Quliyevanın evində axırıncı toplantı 9 noyabr 2000-ci il tarixdə səhər saat 8 radələrində olur. Həmin toplantıya Hacı Məmmədov Musa Dabuyevi, Aslanbek Çintamirovu, Yagir Məmmədovu, Nizami Abdullayevi, Fərhad Məmmədbəyovu, Rövşən Ağayevi və Nailə Quliyevanı çağırır. Burada Hacı Məmmədov Musa Dabuyev və Aslanbek Çintamirovun hər birinə bir «Makarov» markalı tapança və həmin tapançalara patron dolu daraqlar, bundan başqa Musa Dabuyevə qara rəngli bir ədəd kisə və bir ədəd qandal verir. Saat 10.30-da onlar Nizami Abdullayevin idarə etdiyi avtomaşına taxtadan düzəldilmiş 1,5 metr uzunluğunda nərdivanı, Yagiri, Musanı, Aslanbeki və Haronu da götürüb, Nizami küçəsinə gəlirlər. Hacı da idarə etdiyi avtomaşında Fərhadla birlikdə «Qaqarin» körpüsünün yanında onları gözləyirlər. Nizami onları «Bakı» mehmanxanasına çatmamış sola dönərək əlli metr irəli apardıqdan sonra küçənin kənarında düşürdür. Yagir

və Musa taxta nərdivanı götürüb, Aslanbeklə birlikdə Nizami küçəsinə çıxırlar. Nizami Abdullayev isə onları kənardan müşahidə edir. Oradan da sağa dönüb birinci binanın həyətinə girirlər. Həyətə iki tərəfdən yol olsa da onun biri bağlı idi. Yagir Məmmədov bağlı «arkanın» qabağında dayanır. Aslanbeklə Musa isə nərdivanı Murad Kazımovun istifadə etdiyi qayınatasına məxsus qarajın qabağına qoyur və xəttin təmiri ilə məşğul olmağa başlayır.

Heç nədən xəbəri olmayan Murad Kazımov 9 noyabr 2000-ci il tarixdə saat təxminən 10:45 dəqiqədə həmişəki qaydada işə getmək üçün evdən çıxır. Lakin istifadə etdiyi qaraj qayınatası Əhəd Hüseynovun yaşadığı həyətdə olduğu üçün maşını götürmək məqsədi ilə şəhərin Nizami küçəsindəki 111 saylı ünvana tərəf gedir. Qaraja çatdıqda əyinlərində fəhlə paltarı olan üç nəfərin təmir işi ilə məşğul olduğunu görür. O, qaraja yaxınlaşıb açarla qapının bir layını açır və maşını işə salır. Bu vaxt Aslanbek Çintamirov qaraja girib, Murad Kazımovdan siqaret istəyir. Murad Kazımov siqaret çəkmədiyini deyib maşından çıxmaq istədikdə Aslanbek Çintamirov hücum çəkərək onu itələyib maşının qabaq oturacağına uzadır. Musa Dabuyev və Haron da ona köməyə gəlirlər. Murad Kazımov müqavimət göstərdikdə Musa tapançanı çıxarıb onu hədələyir. Murad Kazımovun əl-qolunu arxaya burub qandallayır, arxa oturacağa çəkib başına qara kisəni keçirirlər. Yagir qarajın darvazasının ikinci layını açıb, Murad Kazımovun «Mercedes-Benz» markalı avtomaşınının qabaq oturacağına, Aslanbek Çintamirov isə sükan arxasına keçir və həyətdən çıxırlar. Maşını Babək prospekti ilə sürürlər. Bu vaxt Hacı və Fərhad Məmmədbəyov onlardan qabağa keçir, Nizami Abdullayev isə onların arxasınca gəlir. Babək prospektində maşını bir yerdə saxlayır, Murad Kazımova məxsus maşının dövlət nömrə nişanını çıxarıb, saxtası ilə əvəz edirlər. Bundan sonra Nizami Abdullayev idarə etdiyi avtomaşını sürətlə sürüb Nailə Quliyevanın evinə çatır. Aslanbek Çinta-

mirov da həmin ünvana gəlir. Darvazanı Nizami Abdullayevlə Rövşən Ağayev açıb. Bir qədər sonra Hacı və Fərhad da oraya gəlib çıxırlar. Hacı gələn kimi Aslanbekə göstəriş verir ki, oğurlayıb gətirdikləri şəxsi maşından düşürsünlər. Aslanbek onun göstərişini yerinə yetirir. Bundan sonra Hacı yaxınlaşıb xırıltılı səslə Murad Kazımova eşitdirir ki, darıxmasın, pul məsələsidir. Onu gətirməkdə məqsədləri atasından pul almaqdır. Atası onları incitməsə, lazımi məbləğdə pulu tez versə, onu tez də azad edərlər. Hacı hətta hədə-qorxu gələrək bildirir ki, onların dediklərinə əməl olunmasa, atası oğlunu görməyə bilər. Hacı sözünü bitirən kimi göstəriş verir ki, Murad Kazımovu içəri aparsınlar. Murad Kazımovu sauna tipli bir otağa salırlar. İçəridə Musa Dabuyev Murad Kazımovun ciblərini axtarır. Cibindən bir ədəd mobil telefon, bir tapança çıxarıb onları stolun üstünə qoyur, otaqdan çıxır. Murad Kazımov Hacı Məmmədova təhvil verildikdən sonra Hacı Məmmədov Aslanbek Çintamirov və Musa Dabuyevdən tapançaları geri alır.

Hacı Murad Kazımovu Xırdalan qəsəbəsinə aparmağın yolunu da fikirləşmişdi. Oğurladığı adamı o, yeşiyin içinə qoyub, Nailə Quliyevanın evindən Xırdalandakı saxlanc kamerasına aparmaq istəyirdi. Bunun üçün o, əvvəlcədən 80 sm. hündürlüyü və 1,5 metr uzunluğu olan yeşik sifariş vermişdi. Murad Kazımovu oğurlamazdan qabaq həmin yeşiyi Nailə Quliyevanın evindəki saunanın qabağında qoymuşdu. Murad Kazımov yolda səs çıxarmasın deyə, Hacı Məmmədov ona iki yuxu iynəsi vurdurmuş, başını isə bintlə bağlatdırmışdı.

Bundan sonra Hacı əməliyyatda iştirak edən çeçenləri evə yola salır. Fərhad Məmmədbəyovu isə yük maşınının arxasınca göndərir. Yarım saat keçməmiş Fərhad Məmmədbəyov «Qazel» markalı yük maşını ilə qayıdır. Hacı Məmmədov və Nizami Abdullayev sürücünü başqa otağa aparıb onu söhbətə tuturlar ki, onda şübhə yaranmasın. Nizami Ab-

dullayev sürücünün yanında qalır, Hacı Yagirə, Rövşənə və Əsgərə göstəriş verir ki, yeşiyi təcili maşına qoysunlar. Onlar dərhal Hacının göstərişini yerinə yetirirlər. Yeşiyin qabağına bir neçə stul, stol və digər köhnə əşyalardan yığaraq, «mebel aparmaq» görüntüsünü yaradırlar. Maşını yüklədikdən sonra Əsgər yük maşınında sürücünün yanında, Yagir Məmmədov idarə etdiyi «Vaz–2107» markalı avtomaşında, Fərhad, Nizami isə Hacı Məmmədovun idarə etdiyi «Mercedes» markalı avtomaşında Xırdalandakı M.Ə.Rəsulzadə küçəsi, 6 saylı ünvana gəlirlər. Maşını beşmərtəbəli binanın birinci blokunun qarşısında saxlayıb, şeyləri, o cümlədən, içərisində oğurlanan şəxs olan yeşiyi də mənzilə aparıb, yerbəyer edirlər. Yeşik axırda açılır. Murad Kazımov saxlanc-kameraya salındıqdan sonra Yagir Məmmədov girovun qollarındakı qandalı açır. Yagir otaqdan çıxmamış ona bildirir ki, o, gedəndən sonra başındakı papağı, qara kisəni çıxara və gözlərindəki sarğını açа bilər. Murad Kazımov gözlərini açanda özünü 1 x 2,5 metr sahəsi olan otaqda görür. Otaqda yatacaq yeri, su kranı, müşahidə üçün kamera vardı. Dəmir qapının üstündən isə xalça asılmışdı.

Əməliyyatı başa çatdıran Hacı Məmmədov Fərhad və Yagirə Murad Kazımovun keşiyini çəkməyi, Əsgər İsgəndərova isə onun yeməyini hazırlamağı tapşırır. Otaqda işlər elə qurulur ki, nə yemək gətirən, nə də yeməyi götürən bir-birini görməməli idi. Əsgər İsgəndərov yeməyi verməzdən əvvəl divanı kənara çəkməli, qapının üstündəki xalçanı qaldırıb, içəri girməli, şkafın yanındakı monitora baxıb, saxlanan şəxsi müşahidə etdikdən sonra yeməyi qapının yanındakı nəfəsliyə qoymalı idi. Bu proseslərə Hacının özü nəzarət edirdi.

Murad Kazımov saxlama kamerasına gətirilən günün səhəri Hacı Məmmədov onun yanına gəlir. O, əvvəlcə monitora baxıb onun hərəkətini müşahidə etmək istəyir. Lakin bu ona qismət olmur. Çünki, həmin gün axşama kimi işıq olmur. O, Murad Kazımovla qaranlıqda danışıb qohumları ilə əlaqə

yaratmaq üçün ondan telefon nömrələri alır. Murad Kazımov ona yalnız atası İsmayıl Kazımovun və qayınatası Əhəd Hüseynovun mobil və ev telefon nömrələrini verir.

9 noyabr 2000-ci il tarixdə Murad Kazımovu işə yola salan ailəsinin onun oğurlanmasından xəbərləri olmur. Çünki bu oğurluğu heç kim görməmişdi. Yalnız saat 11 radələrində atası İsmayıl oğlunun mobil telefonuna zəng etdikdə telefon bağlı olduğundan cavab ala bilmir. O, saat 11.30-a kimi oğluna bir neçə dəfə zəng edir. Lakin nəticəsi olmur. Muradın da zəng etmədiyini görən İsmayıl Kazımov oğlunun evinə zəng edir. Gəlini onun səhər evdən çıxıb işə getdiyini bildirir. Bundan sonra İsmayıl Kazımov bibisi oğlu Rəhim Şükürovla birlikdə Yasamal rayon prokurorluğunun qarşısına gəlirlər. İş yerində də oğlunun avtomaşınını görmədikdə və ümumiyyətlə bu gün işə gəlmədiyini öyrəndikdə İsmayıl Kazımov narahat olmağa başlayır. O, dərhal Muradın qayınatası Əhəd Hüseynova zəng edir, qarajı yoxlamasını və Muradın maşını qarajdan çıxarıb-çıxarmamasını öyrənməyi xahiş edir. Təxminən 10-15 dəqiqədən sonra Əhəd Hüseynov ona zəng edir. Muradın qayınatası həyəcanla bildirir ki, maşın da qarajda yoxdur, qapılar da bağlanmayıb.

İsmayıl Kazımov burada daha ciddi məsələ olduğunu başa düşür və dərhal Bakı şəhəri, Nəsimi rayon prokuroluğuna ərizə ilə müraciət edir, ona məlum olanları ətraflı şəkildə bildirir. Saat 17-yə kimi Murad barədə bir xəbər çıxmır. Odur ki, o, köhnə tanışı Azərbaycan Respublikası DİN-də Baş Cinayət Axtarışı İdarəsinin rəisi işləyən Zakir Nəsirova zəng edib, baş verənləri ona danışır. Zakir Nəsirov ona hələlik hay-küy salma, «cavan oğlandır, ola bilsin ki, görüşə gedib» – deyə cavab verir. İsmayıl Kazımov köhnə tanışının cavabından inciyir.

Zakir Nəsirovla telefon danışığından sonra İsmayıl Kazımov özünə yer tapa bilmir. Generalla telefon danışığından təxminən iyirmi dəqiqə sonra – axşam saat 18.20 radələrində

Murad Kazımovun telefonundan zəng gəlir. İsmayıl Kazımov telefonda oğlunun nömrəsini görüb, uşaq kimi sevinir və «zəng edən Muraddır» – deyə tez mobil telefonun düyməsini basır. Lakin İsmaıyl Kazımovun gözlərində bir qədər əvvəl yaranmış sevincdən əsər-əlamət qalmır. O, özünü itirir. Telefondan xırıltılı, lakin ona tanış gələn kişi səsi eşidilir. İsmayıl Kazımov çaşıb qalır. Telefon nömrəsi oğlunun olsa da, danışan başqa adam idi. Bu adam Hacı Məmmədov idi. O, «İzə» – deyb İsmayıl Kazımovla köhnə tanışlar kimi salamlaşır. Bu adla ona əvəllər də müraciət edirdilər. Lakin bu iki gündə başını o qədər itirib ki, nə qədər fikirləşsə də, bu səsin sahibini yadına sala bilmir.

Hacının İsmayıl Kazımova «İzə» kimi müraciət etməsi təsadüfi deyildi. O, İsmayıl Kazımovu tanıyırdı. Hacı ilə dəfələrlə həm telefon əlaqələri olmuşdu, həm də onun köməyi sayəsində Hacı Məmmədov 450 min dollar məbləqində qənimət əldə etmişdi. Hacı Məmmədovun İsmayıl Kazımovla qiyabi tanışlığı 26 fevral 1999-cu ildə Bakı Süd Kombinatının müdiri Zeynalabdin Babayevin oğurlanmasından sonra baş vermişdi. Zeynalabdin Babayev onun azad edilməsi üçün kiminlə danışıq aparmaq lazım gəldiyini soruşduqda o, ailəvi yaxınları İsmayıl Kazımovun adını vermişdi. Eyni zamanda Zeynalabdin Babayev İsmayıl Kazımova məktub yazaraq xahiş etmişdi ki, pulun toplanmasında ağsaqqallıq etsin. Onu bu cinayətkarların əlindən azad etmək üçün köməyini əsirgəməsin. İsmayıl Kazımov da ailəvi dostluğunun xatirinə Zeynalabdin Babayevin şəxsən özünün və ailəsinin çətin anında onu darda qoymamış, 450 min dolların toplanıb verilməsində və onun cinayətkar bandanın əlindən azad edilməsində axıra kimi köməyini əsirgəməmişdi. Hacı Məmmədov həmin vaxtlar müntəzəm olaraq xırıltılı səslə İsmayıl Kazımovla telefon əlaqəsi saxlamışdı.

İsmayıl Kazımov telefon zəngindən sonra elə vəziyyətə düşür ki, hətta ona zəng edənə belə cavab verə bilmir. Hacı Məmmədov isə danışmaqda davam edirdi. O, «Murad bizdə-

dir, nahaq yerə polisə əl atma, sən ağıllı adamsan, işi bizimlə görəcəksən, danışmağa vaxt yoxdur. Şəmsi Bədəlbəyli küçəsi ilə Rəşid Behbudov küçəsinin kəsişdiyi yerdə «Azersell hər yerdə» reklam lövhəsinin altında məktub var, həmin məktubu götür» – deyə sözünü bitirir və bununla da telefon əlaqəsi kəsilir. İsmayıl Kazımovla təkcə Hacı Məmmədov deyil, eyni zamanda onun tapşırığı ilə Nizami Abdullayev də telefon danışıqları aparırdı.

Telefon danışığını bitirdikdən sonra İsmayıl Kazımov dərhal deyilən yerə gedir. Reklam lövhəsini tapır. Dirəyin altında həqiqətən yaşıl rəngli, zolaqlı və üstündə daş parçası olan polietilen paketi görüb onu açır. Paketin içərisindəki məktub Murad tərəfindən deyil, cinayətkar bandanın üzvlərindən biri tərəfindən yazılmışdı. Hacı Məmmədov tələbini telefonda deməsə də, məktubda oğlunun azad edilməsi üçün atası İsmayıl Kazımovdan 1 milyon ABŞ dollar tələb edirdi. Həmin məktubda əlavə olaraq göstərilirdi ki, yaxın günlərdə təkrar zəng edəcəklər.

İsmayıl Kazımov artıq başa düşür ki, oğlu, oğurlanıb. Bu işdə çox güman ki, Zeynalabdin Babayevi oğurlayan cinayətkar dəstənin də əli var. Çünki həmin vaxtlar da ona «İzə» müəllim kimi müraciət olunmuşdu. İsmayıl Kazımova hədəqorxu gəlsələr də, artıq o, hüquq-mühafizə orqanlarına məlumat vermişdi. İstintaq aparılırdı. O, məktubun üzünü çıxarıb, bir nüsxəsini işin istintaqını aparan müstəntiqə, digər nüsxəsini isə Azərbaycan Respublikası Baş prokurorluğun Ağır Cinayətlərə dair İşlər Üzrə İstintaq İdarəsinin rəis müavini Rövşən Əliyevə verir.

Bundan sonra Hacı Məmmədov günaşırı İsmayıl Kazımova zəng edərək pulun hazır olub-olmamasını soruşur və onu tələsdirirdi.

Hacının oğurladığı adamların qohumları ilə əlaqə saxlamaq üçün ən problemli məsələ mobil telefon nömrələri idi. Ölən şəxsin pasportu ilə hücuma məruz qalan sürücünün

sürücülük vəsiqəsi ilə alınan Sim-kart nömrələrindən dəfələrlə istifadə edilmişdi. Həmin telefon nömrələri artıq nəzarətdə idi. İndi təzə telefon nömrələrindən istifadə etmək lazım idi. Hacı bu məsələnin həlli üçün də yeni yol tapdı. O, oğurladığı şəxslərin valideynlərinin adlarına və onların hesabına alınan telefon nömrələrdən istifadə etmək qərarına gəlir. Bunun üçün 20 noyabr 2000-ci ildə saat 22:23 radələrində Muradın qayınatası Əhəd Hüseynovun evinə zəng edir. O, Əhəd Hüseynova bildirir ki, Musiqili Komediya Teatrının qabağındakı yaşıllıqda kolun altında məktub qoyulub. Həmin məktubu götürsün. Əhəd Hüseynov İsmayıl Kazımova zəng edir və məktub qoyulduğunu xəbər verir. Sonra isə o gedib həmin yeri tapır və Hacı Məmmədov tərəfindən qoyulan məktubu götürür. Oradan birbaşa İsmayıl Kazımovun yanına gəlir. Məktub bu dəfə Hacı Məmmədov tərəfindən diktə edilsə də Murad Kazımovun öz xətti ilə atasının adına yazılmışdı. Məktubda Murad Kazımov atasından xahiş edirdi ki, təzə mobil telefon aparatı və Sim-kart nömrə alsın. Sim-kart telefon nömrəsini kağız plakat üzərində iri rəqəmlərlə yazıb, birinci məktub qoyulan yerdəki lövhənin sol tərəfinə bərkitsin. İsmayıl Kazımov Hacı Məmmədovun diktəsi ilə, lakin oğlunun öz xətti ilə yazılan məktubda göstərilən xahişi dərhal yerinə yetirir. O, 21 noyabr 2000-ci ildə Azadlıq prospektində «Dostluq» kinoteatrı yaxınlığındakı mobil telefon satışı mağazasından öz adına telefon aparatı və 342-17-61 nömrəli Sim-kart alır. Uzaqdan oxunsun deyə o, həmin telefon nömrəsini iri rəqəmlərlə plakatın üzərinə yazır və saat 24 radələrində reklam lövhəsinə bağlayır.

Hacı İsmayıl Kazımovun aldığı təzə Sim-kartın nömrəsini reklam lövhənin altından götürür. Noyabrın 22-də gündüz saat 13-14 radələrində İsmayıl Kazımovun adına alınan 342-17-61 saylı təzə nömrə ilə zəng edib ondan pulun hazırlanıb-hazırlanmadığını soruşur. İsmayıl Kazımov həmin məbləğdə pulun olmadığını bildirdikdə Hacı Məmmədov xırıltılı səslə

məsləhət görür ki, onun prokurorluq orqanlarında işləyən dost-tanışı çoxdur, onlardan borc ala bilər.

Hacı Məmmədovun tapşırığına əsasən telefon zənglərini Nizami Abdullayev edir və danışıqlar aparır. Təzə telefon nömrəsi alındıqdan sonra demək olar ki, o, hər gün İsmayıl Kazımova zəng edir. Noyabrın 28-də zəng edəndə isə yenə pul barədə soruşur. İsmayıl Kazımov tələb olunan məbləğin azaldılmasını xahiş etdikdə Nizami Abdullayev bildirir ki, rəhbərlərinə onun xahişini çatdırıb, lakin onlar buna razılıq verməyiblər. Eyni zamanda Nizami Abdullayev onsuz da gərgin günlər keçirən İsmayıl Kazımovu daha da narahatçılığa salaraq bildirir ki, Murad xəstələnib, hərarəti düşmür və pendir-çörəkdən başqa heç nə yemir. Danışığın axırında o, İsmayıl Kazımova göstəriş verir ki, keçmiş Karl Marks heykəli ilə üzbəüzdəki «Azersel»-in reklam lövhəsinin altındakı məktubu götürsün. O, eyni zamanda eşitdirir ki, Murad zəlzələ ilə əlaqədar valideynlərindən və uşaqlarından çox narahatdır. İsmayıl Kazımov da öz növbəsində ona zəng edən və adını bilmədiyi Nizami Abdullayevdən evdəkilərin sağ-salamat olmasını oğluna çatdırmasını xahiş edir.

Bu söhbətlərdən sonra İsmayıl Kazımov Nizami Abdullayevin dediyi yerdən məktubu da götürür. Məktub yenə də əvvəlki məzmunda idi və pulun hazır olub-olmaması soruşulurdu.

Nizami Abdullayev noyabrın 30-u və sonrakı günlərdə dəfələlə zəng edərək, artıq hədə-qorxu gəlməyə başlayir. O, İsmayıl Kazımova «Nizami» kinoteatrının yanındakı bilyard reklam lövhəsinin altındakı və «Dostluq» kinoteatrının qarşısındakı ağacın altında qoyulan məktubları da götürməyi tapşırır.

Nizami Abdullayevin növbəti telefon zəngi 2000-ci il dekabrın 14-də olur. O, həmin gün saat 18 radələrində 341-54-29 nömrəli mobil telefondan İsmayıl Kazımovun aldığı 342-17-61 mobil telefon nömrəsinə zəng edərək bildirir ki, tələb

olunan məbləğ 950 min dollardan aşağı endirilməyəcək. Bu böyüklərin qəti sözüdür. 50 min dollar aşağı salındığına görə böyüklərin arasında narazılıq olub. Bu artıq son xəbərdarlıqdır. Pulları təcili hazırlamaq lazımdır.

İsmayıl Kazımov cinayətkarların tələb etdikləri məbləği toplamaq üçün Bakıda və xaricdə yaşayan qohumlarına, dostlarına və tanışlarına kömək barədə müraciət edir və oğlu azad edildikdən sonra borcu qaytaracağına söz verir. İsmayıl Kazımovun bu müraciəti müsbət nəticəsini verir. Müraciətdən bir az sonra tələb olunan pul toplanır.

Dekabrın 18-də saat 13-14 radələrində Nizami Abdullayev zəng edir, ondan pulun hazır olub-olmamasını soruşur. İsmayıl Kazımov deyilən məbləğin hazır olduğunu bildirir. Nizami yenə də əvvəlki yerdə ona məktub olduğunu və onu götürməyi tapşırır. İsmayıl Kazımov Nizami Abdullayevin bu tapşırığını da yerinə yetirir. O, deyilən yerdən həmin məktubu da götürür. Zərfi açdıqda içində Muradın öz xətti ilə yazılan bir məktub və bir ədəd də Sim-kart olur. Murad məktubda atasından yenidən bir telefon aparatı almağı və onların göndərdiyi həmin Sim-kartı təzə alınan telefon aparatına qoyub növbəti zəngləri gözləməyi xahiş edir. İsmayıl Kazımovun başqa yolu yox idi. Cinayətkar banda üzvləri arasında əsir-yesir qalmışdı və nə tapşırıq verirdilərsə, dərhal onu yerinə yetirirdi. «Təki oğluna işgəncə verilməsin və onu azad etsinlər» – deyə fikirləşirdi. Həmin gün İsmayıl Kazımov mobil telefon aparatı alır. Cinayətkar banda üzvlərinin ona göndərdiyi Sim-kartı telefona qoyduqda nömrəsinin 326-23-95 olması məlum olur. Bir neçə saatdan sonra Nizami Abdullayev İsmayıl Kazımova göndərilən həmin nömrəyə zəng edərək Konservatoriyanın qarşısındakı Üzeyir Hacıbəyovun heykəlinin yanına qoyulmuş məktubu da götürməyi tapşırır və dərhal telefonu söndürür. İsmayıl Kazımov deyilən məktubu da götürür. Zərfdə işlədilməmiş 344-71-99 nömrəli Sim-kart olur.

Hacı beş ildə çoxsaylı cinayətlər törətmişdi. Lakin bu cinayətlərin heç birinin üstü açılmamışdı. Ancaq hüquq-mühafizə orqan əməkdaşlarının bu istiqamətdə apardıqları istintaq və əməliyyat-axtarış tədbirləri getdikcə güclənirdi. Bunu onun özü də görürdü və havadarları da ona vaxtlı-vaxtında məlumat verirdilər. O, nə qədər qabaqlayıcı tədbirlər görsə də fəaliyyət dairəsi daralmağa doğru gedirdi. Ona görə də hər dəfə yeni üsul və formalardan istifadə etməyə çalışırdı. Odur ki, Murad Kazımovu oğurladıqdan sonra izləri itirmək, hüquq-mühafizə orqanı əməkdaşlarını azdırmaq məqsədi ilə tez-tez yeni mobil telefon aparatları və Sim-kart nömrələri alırdı.

Artıq Hacı Məmmədov öz istəyinə nail olmuşdu. Tələb etdiyi 1 milyon ABŞ dollarını kiçik fərqlə ala biləcəkdi. Üstəlik Murad Kazımovun «Mercedes-320» markalı təzə avtomaşını da onların əlində idi.

Hacı Nizami Abdullayevin iştirakı ilə 950 min ABŞ dollarını İsmayıl Kazımovdan nə vaxt və harada almaq üçün plan qururdu. Bunun üçün o, Musa Dabuyev, Rövşən Ağayev və Əsgər İsgəndərovu Nailə Quliyevanın yaşadığı evə çağırır. Pulu İsmayıl Kazımovun qoyacağı yerdən götürməyi Musa Dabuyevə həvalə edir. Pulu gətirəcək şəxsi telefonla istiqamətləndirməyi isə Nizami Abdullayevə tapşırır. Əsgər İsgəndərov isə qabaqcadan bir taksi sürücüsünü pul qoyulacaq yerlə tanış etməli və orada ağacın gövdəsində işarə qoymalı idi. Özü isə Rövşən Ağayevin idarə etdiyi avtomaşında kənardan pul qoyulan yeri müşahidə etməklə yanaşı, həm də Musa Dabuyevin təhlükəsizliyini təmin etməli idi. Pulun alınması səhər saat 6 radələrinə təyin edilir. Əməliyyatdan əvvəl Hacı Məmmədov, Nizami Abdullayev və Musa Dabuyev pul qoyulacaq yeri seçirlər. Səhər isə Hacı, Musa, Rövşən «Vaz–21099» markalı avtomaşında həmin yeri müşahidə altında saxlayırlar. Yeddiyə 10 dəqiqə işlədikdə Nizami Abdullayev İsmayıl Kazımova onun verdiyi 344-71-99 telefon

nömrəsindən zəng edir. O, İsmayıl Kazımova göstəriş verir ki, Muradın yaşadığı evdən çıxıb Nizami küçəsinə yox, həyətdən arayol ilə 28 May küçəsinə çıxsın. İsmayıl Kazımov isə ona bildirir ki, o, Muradgildə deyil, öz evindədir. Onda Nizami Abdullayev göstəriş verir ki, pulu götürüb Nəsimi bazarı ilə üzbəüzdə yerləşən aptekin qabağına gəlsin. İsmayıl Kazımov qonşuluqda yaşayan qayını Tofiq Abbasovun maşınına oturub Nizaminin dediyi yerə gəlir. Saat 6.30 radələrində Nizami İsmayıl Kazımova yenidən zəng edərək, ona göstəriş verir ki, aptekin solunda tramvay keçən küçədə dayanmış ağ rəngli «702» dövlət nömrə nişanlı «Jiquli» avtomaşınına oturub, onu anbara aparmağı təklif edir. İsmayıl Kazımov deyilənlərə əməl edir. Maşın «Semaşko» adına xəstəxanaya tərəf hərəkət edir. İsmayıl Kazımov maşının içərisinə diqqətlə baxdıqda qabaq sağ və arxa sol oturacaqda karton qutuların yığıldığını görür. Maşın «Semaşko» adlanan xəstəxananın giriş qapısına yaxınlaşır, sürücü işıqları yandırıb-söndürməklə qapıçıya işarə edir ki, darvazanı açsın. Sürücü maşını Təcili Yardım Xəstəxanası ilə «Semaşko» arasındakı açıq darvazanın qabağında saxlayır. Saat 6.40 radələrində Nizami yenidən İsmayıl Kazımova zəng edir və göstəriş verir ki, pulları maşının sağ oturacağına qoyulmuş qutuya yerləşdirsin və qutunu götürüb maşından düşsün. Sonra isə pul olan qutunu sol tərəfdə «A» hərfi yazılan lövhənin altına qoysun. Lakin İsmayıl Kazımov Nizaminin dediyi lövhəni tapa bilmir. Bir neçə dəqiqədən sonra Nizami Abdullayev yenidən zəng edir və ondan pulu deyilən yerə qoyub-qoymadığını soruşur. İsmayıl Kazımov Nizamiyə «A» hərfi yazılan lövhəni tapa bilmədiyini deyir. Nizami İsmayıl Kazımova düzgün istiqamətdə hərəkət etmədiyini bildirir və Təcili Yardım Xəstəxanasının həytinə girməyi, həmin istiqamət üzrə düz getməyi və telefonu da söndürməməyi tapşırır. İsmayıl Kazımov onunla telefonla danışa-danışa həmin ağacı tapır. Lakin o, Nizami Abdullayevə bildirir ki, Təcili Tibbi Yardım Xəstəxanasının

mərkəzi darvazasının yanında bir nəfər dayanıb. Ona görə də pulu oraya qoymağa ehtiyat edir. Nizami həmin şəxsin cinayətkar bandanın üzvü, onların öz adamı olduğunu bildiyi üçün heç bir «problem olmadığını» – deyir. Daha sonra o, İsmayıl Kazımova deyir ki, pulu deyilən yerə qoyandan sonra gəldiyi maşınla da qayıdıb, qutuları boşaltsın və evə gedib, onun zəngini gözləsin. İsmayıl Kazımov gəldiyi avtomaşınla Nəsimi bazarının yanına qayıdır və ona nə qədər gedişhaqqı verəcəyini soruşur. Sürücü isə bildirir ki, ona çatacaq gedişhaqqı artıq ödənilmişdir. İsmayıl Kazımov həmin maşından düşüb, aptekin qarşısında saxladığı avtomaşına minib evinə qayıdır.

2000-ci il dekabrın 20-də saat 7.40 radələrində Nizami Abdullayev İsmayıl Kazımova zəng edərək pulların qaydasında olduğunu və Muradı da 2 saat ərzində azad edəcəklərini bildirir. Hacı, Nizami və İsmayıl Kazımov arasındakı «danışıqlar» bununla da tamamlanır.

Cinayətkar bandanın başçısı Hacının söz verdiyi 2 saat 16 saatla əvəz olunur. Lakin Murad Kazımovdan hələ də səssoraq çıxmır. 20 dekabr saat 22 radələrində Nailə, Hacı, Fərhad, Nizami, Əsgər Hacının Xırdalandakı M.Ə.Rəsulzadə küçəsi, 6 saylı evində toplaşıb, Murad Kazımovu azad etmək üçün hazırlaşırlar. Bu məqsədlə Nizami və Əsgər Murad Kazımovun saxlandığı zirzəmi-kameraya düşüb, üzünü divara çevirməsini göstəriş verirlər. Onlar girovun başına qara kisə keçirir, qollarını arxaya burub qandallayır və əvvəlcədən hazırlanmış xalçaya bükürlər. Əsgər onu çiyninə alıb, «Jiquli» markalı avtomaşının arxa oturacağına qoyurlar. Nizami arxada Muradın yanında, Fərhad qabaq tərəfdə əyləşir. Maşını isə Hacı Məmmədov idarə edir. Bakı-Sumqayıt yolundakı «Neapol» restoranı yaxınlığında cinayətkar bandanın üzvləri Murad Kazımovu xalçadan çıxarır, qollarından qandalı açıb və onu azad edirlər. Murad Kazımova tapşırırlar ki, onlar uzaqlaşandan sonra başındakı sarğını və kisəni çıxara bilər.

Maşın səsinin kəsildiyini görən Murad Kazımov başındakı sarğını çıxarıb, ətrafa diqqətlə baxır, Bakı-Sumqayıt yolunda olduğunu görür. «Neapol» restoranının qarşısında bir taksiyə oturur və sürücüdən onu şəhərə aparmasını xahiş edir.

Hacı Məmmədov üçün bu oğurluq ikiqat uğurlu hesab olunur. Birinci dəfə o, Zeynalabdin Babayevin azad edilməsinə ağsaqqallıq etdiyinə görə İsmayıl Kazımovdan 450 min dollar, ikinci dəfə isə oğlu Murad Kazımovun girovluqdan buraxılması üçün 950 min dollar məbləğində pul və üstəlik bir «Mercedes-320» markalı avtomaşın qazandı. Zeynalabdin Babayevin azad edilməsində aqsaqqallıq etməsi isə İsmayıl Kazımova baha başa gəldi. Bəli, aqsaqqallıqın düşər-düşməzi də olarmış.

Hacı Məmmədov əvvəlki bölgülərdə olduğu kimi bu dəfə də yüksək rütbəli rəislə bərabər pay prinsipini pozmur. Pulun 200 minini özünə götürür. 200 mini isə böyük rəisi üçün ayırır. 50 min dolları Kamil Sədrəddinova, yerdə qalan hissəni isə cinayətkar birliyin üzvləri arasında bölür. Hacı özünə çatan paydan Nizami küçəsində yerləşən «Zoomağaza»nın yaxınlığında arvadı Nailə Quliyevanın adına 140 min dollarlıq mənzil alır, bir neçə aydan sonra isə həmin mənzili 160 min dollara sataraq, buradan da 20 min dollar qabağa düşür.

O, Murad Kazımova məxsus bahalı «Mercedes-320» markalı avtomaşını bir müddət Nalə Quliyevanın yaşadığı evin həyətində saxlayır. Onun göstərişi ilə Rovşən Ağayev maşının dövlət nömrə nişanını çıxarıb, yerinə başqa maşının təzə dövlət nömrə nişanını vurur. Hacı Nizami Abdullayevlə birlikdə onu Mətbuat prospektindəki qarajına qoyur. Sonra həmin avtomaşını «Tofaş» avtoservisində 300 dollara ağ rənglə rənglətdirib, üzərinə 10…857 dövlət nömrə nişanını bağlatdırıb, istifadə edir.

Hacı Məmmədov meydan oxuyur



Hacı Məmmədovun adı DİN-də Baş Cinayət Axtarışı İdarəsinin Əmlak Cinayətlərinə Qarşı Mübarizə şöbəsində baş əməliyyat müvəkkili vəzifəsində getsə də cinayətkar birliyin başçısı kimi fəaliyyətini davam etdirirdi. Yeddi ildə çoxsaylı silahalı basqınlar, adam oğurluqları və qətl cinayətləri törətmişdi. Azər İsmayılovun qeyri-müəyyən şəraitdə yoxa çıxmasında və digər cinayətlərdə adının hallanmasına baxmayaraq cinayətkar fəaliyyətini dayandırmaq və heç olmasa ziyanın yarısından qayıtmaq fikri yox idi. Banda üzvlərindən Fərhad Məmmədbəyov, Nizami Abdullayev və Nailə Quliyeva prokurorluq və polis müstəntiqləri tərəfindən çağırılıb dindirilirdi. Lakin bu kimi hallar xəbərdarlıq siqnalı olsa da, ona təsir etmirdi. Getdiyi təhlükəli yoldan dönmək fikri yox idi. Əksinə o, həmin müddət ərzində cinayətkar fəaliyyətini müntəzəm olaraq təkmilləşdirirdi. Hər bir cinayətdə, xüsusilə, adam oğurluqlarında yeni-yeni texniki üsullardan və vasitələrdən istifadə edirdi.

Onlar cəzasız qalmaqda davam edirdilər. Elə buna görə də Hacı Məmmədovun ayağı yer alır və bundan sonra gələcək cinayətkar fəaliyyətini daha da genişləndirməyə, onun səmtini dəyişdirməyə lazımi məqam axtarırdı. Onun özü və «cinayətkar

birliyin» üzvləri cinayətkar qəsdlərin səmtini artıq öz paqon yoldaşlarına qarşı çevirmişdilər. Hacı artıq heç kimdən qorxmurdu. Güclü arxası vardı. O, belə hesab edirdi ki, kimi istəsə, hətta hüquq-mühafizə orqanlarının əməkdaşlarını da oğurlaya bilər, başına kisə keçirə bilər, qollarına qandal vurar, öz zirzəmi-kamerasına salar, hətta işgəncə də verə bilər. Bu yeddi ildə əldə etdiyi qənimətlərin bölgüsünə başı o qədər qarışmışdı ki, artıq heç nə yadına düşmürdü. Fikirləşmirdi ki, getdiyi yol divara dirənəndə özünün qollarına qandal keçiriləcək, oğurladığı həmin adamların ya özləri və ya da ki, digər dövlət hakimiyyət nümayəndələrinin qarşısında dimdik dayanıb, suallara cavab verəcəkdir. Bəli, bu hələ sonra – bıçaq sümüyə dirənəndə olacaqdı. O, cinayətkar fəaliyyətinin səmtini hüquq-mühafizə orqanı əməkdaşlarına qarşı çevirəndə birinci Xətai rayon prokurorunun köməkçisi Oqtay Babayevdən başladı. Bundan sonra isə Yasamal rayon prokurorunun köməkçisi Murad Kazımovu oğurladı və uzun müddət girovluqda saxlayaraq, onlara mənəvi və fiziki işgəncələr verdi. Yalnız valideynlərindən küllü miqdarda pul aldıqdan sonra azad etdi. İş bununla bitmədi. O, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsində şöbə rəisi vəzifəsində işləyən paqon yoldaşı polkovnik-leytenant Azər İsmayılovu oğurladı və işgəncələrə məruz qoyduqdan sonra qətlə yetirdi və meyitini də Qusar rayonunun ərazisində sahibkarı olduğu «Qarabulaq» istirahət mərkəzində torpaqda gizlətdi.

Hacı Məmmədov bunlardan sonra daha da irəli gedib, hüquq-mühafizə orqan əməkdaşlarına qarşı cinayətkar fəaliyyətini davam etdirməklə onlara qarşı meydan oxumağa başlayır. O bu dəfə Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır Cinayətlərə dair İşlər Üzrə İstintaq İdarəsinin rəis müavini, kriminalistika şöbəsinin rəisi Rövşən Əliyevi öldürmək fikrinə düşür.

Hacı Rövşən Əliyevi 1980-cı ildən tanıyırdı. Onunla çox yaxın münasibətdə idi. Bu münasibətlər hətta sonralar dostluğa çevrilmişdi. Bir yerdə yeyib-içmiş, bir sözlə, duz-çörək

kəsmişdilər. Rövşən Əliyev Qusarın Qayakənd kəndində Hacı Məmmədova məxsus «Qarabulaq» istirahət mərkəzində dəfələrlə istirahət etmişdi. O, hətta qətlə yetirilməmişdən bir gün əvvəl də həmin istirahət mərkəzində istirahətdə olub. Onlar bir neçə istintaq əməliyyat qrupu tərkibində birgə iştirak etməklə yanaşı çətin günlərdə bir-birinə kömək də ediblər.

Rövşən Əliyev həmin vaxtı izi açılmayan adam oğurluqları və Azər İsmayılovun yoxa çıxması ilə əlaqədar cinayət işlərinin istintaqını aparırdı. O, həmçinin həmin dövrdə Bakı şəhər Baş Polis İdarəsi Cinayət Axtarışı İdarəsinin rəisi ilə görüşüb bəzi məsələlərdə ona kömək etməyi xahiş etmişdi. Hacı Sabirin oğlunun və Əhməd Məmmədovun oğurluğu ilə əlaqədar ondan bəzi adamlar haqqında məlumatı olub-olmamasını soruşmuş və o da bildiyi məlumatları ona vermişdi. Rövşən Əliyev həmin dövrdə Bakı şəhər Binəqədi RPİ-nin rəisi Cavadağa Sultanovla Dəniz vağzalının yaxınlığındakı çayxanada görüşüb çay içərkən söhbət əsnasında Azər İsmayılovun itkin düşməsi ilə əlaqədar polis orqanlarının əməkdaşlarından birinin qoluna qandal vuracağını demişdi. Növbəti görüşlərin birində Rövşən Əliyev həmin polis rəisi ilə söhbətində Bakıda fəaliyyət göstərən silahlı banda haqqında və bu dəstənin də Qusar rayonunun «Qarabulaq» istirahət mərkəzində yerləşdiyi barədə onda məlumat olduğunu bildirmişdi.

Rövşən Əliyevin belə fikirləri təkcə kənar şəxslərlə söhbət zamanı deyil, həmçinin Hacı Məmmədovun özü ilə də görüşərkən olurdu. Hacı Məmmədovun özü hər dəfə Rövşən Əliyevlə görüşərkən onların söhbətləri əsasən Azər İsmayılov barədə olurdu. Həmin söhbətlərin gedişi Hacı Məmmədovu razı salmırdı və tez-tez əsəbləşirdi. Rövşən Əliyev açıq-açığına onun üzünə deyirdi ki, Azər İsmayılov barədə toplanan materiallar ondan şübhələnməyə əsas verir. Hacı Məmmədov isə and-aman edirdi ki, onun bu işdən xəbəri yoxdur. Azər İsmayılov yoxa çıxandan sonra Zakir Nəsirov Hacıya demişdi

ki, Azərin itkin düşməsinə görə dostu Rövşən Əliyev ondan şübhələnir. Digər tərəfdən başqa bir mənbədən Hacı Məmmədova məlum olur ki, telefonların yoxlanmasına istiqaməti məhz Rövşən Əliyev verir. Bunlardan başqa hələ münasibətləri yaxşı olanda Hacı Məmmədovun söyləməsinə görə Rövşən Əliyev Hacının Şirxan Albiyevlə olan münaqişəsi və Hacının Azər İsmayılova olan nifrətindən, çeçen millətindən olan cinayətkarlarla dostluq etməsindən xəbəri var idi. Ona görə də Hacı Məmmədov bir neçə dəfə Rövşən Əliyevə həm öz adından, həm də ümumi xəbərdarlıq edir. Bunların Rövşən Əliyevə təsir etmədiyini gördükdə onu ələ almaq fikrinə düşür. O, Rövşən Əliyevə pul təklif edir. Lakin Rövşən Əliyevin buna məhəl qoymadığını gördükdə qorxuya düşür və tədbir görmək barədə fikirləşməyə başlayır.

Hacı Məmmədovun havadarları ona məlumat verirlər ki, istintaq orqanı onun barəsində kifayət qədər sübut toplayıb. Onun özü də bu sübutların çoxunun Rövşən Əliyevin köməkliyi ilə toplanması inamına gəlir. O, indi başa düşür ki, Azər İsmayılovun itkin düşməsi ilə bağlı cinayətin üstü açılarsa, onun tərəfindən, həmçinin cinayətkar bandanın digər üzvləri tərəfindən törədilən çoxsaylı cinayətlərin üstünün açılmasının qarşısı alınmaz olacaq. Belə vəziyyətdə onun havadarlarının da bunun qarşısını almağa, həm ona, həm də onların özlərinə kömək etmək imkanı olmayacaq.

Azər İsmayılovun itkin düşməsi ilə əlaqədar bir çox istiqamətlərdə iş gedirdi. BCAİ-nin mühüm işlər üzrə baş əməliyyat müvəkkili Fazil Nəcəfov da telefon danışıqlarını yoxlamışdı. O, Elçin Əliyevin arvadını dindirəndən sonra da bu işdə Hacı Məmmədovun izi olmasını müəyyn edə bilmişdi. Hətta Hacı Məmmədovla görüşlərinin birində ona demişdi: «Hacı, bu iş sizlikdir, gedin Azərin meyitini verin». Hacı isə zarafatla: «Sən, deyəsən itkin düşmək istəyirsən» – deyə cavab vermişdi.

Hacı Məmmədov artıq başa düşürdü ki, başının üstünü qara buludlar alıb. Onun üçün ən böyük təhlükə ancaq Röv-

şən Əliyev tərəfindən ola bilərdi. Odur ki, birinci Rövşən Əliyevdən başlamaq, onu aradan götürmək lazımdır. Törətdiyi cinayətlərin izini itirmək və gizlətmək məqsədi ilə Rövşən Əliyevi öldürmək qərarına gəlir. Bunun üçün o, xidməti işində rəisləri, cinayətkar fəaliyyətindəki havadarları ilə məsləhətləşmək üçün onlarla ayrı-ayrılıqda görüşür. Hacı birinci Kamil Sədrəddinovun qəbuluna gedir. Kamil Sədrəddinov Hacı ilə razılaşır. Lakin o, Hacıya təklif edir ki, əvvəl idarə rəisi ilə məsləhətləşsin, görək, o, nə deyəcəkdir. Bu dəfə Hacı Zakir Nəsirovun yanına gedir. Əvvəllər də onların Rövşən Əliyev barədə çox söhbətləri olmuşdu. İndi isə Rövşən Əliyev barəsində sonuncu dəfə danışırlar. Hacı öz fikrini havadarlarına açıqlayır və bildirir ki. bundan sonra ləngimək onların sonu ola bilər. Onlar da Hacı Məmmədovun bu təhlukəli təklifini rədd etmirlər.

Havadarları ilə məsləhətləşməni tamamladıqdan sonra Hacı Məmmədov Nailə Quliyevanın yaşadığı mənzilə gəlib əməliyyatda iştirak edəcək şəxsləri oraya toplayır. Həmin toplantıda özündən başqa Nizami Abdullayev, əmisi oğlu Fərhad Məmmədbəyov, Eldar Rəhimov, Musa Dabuyev və Nailə Quliyeva da iştirak edir. Hacı Məmmədov həmin evə topladığı banda üzvlərinə məlumat verir ki, Rövşən Əliyevlə yaxın münasibəti olsa da işləri düz gətirmir. Rövşən Əliyevin köməyi ilə istintaq orqanı Azər İsmayılovun itkin düşməsi ilə əlaqədar onun barəsində kifayət qədər sübutlar toplayıb. Onunla söhbətləri olsa da, yalvarıb-yaxarsa da onu inandıra bilməyib, təklif olunan yüz minlərlə dollara məhəl qoymayıb. Həmin cinayətin üstü açılsa, digər cinayətlərin də üstü açılacaq və bundan sonra onların hamısını barmaqlığa salacaqlar. Odur ki, onu qabaqlamaq lazımdır. Hacı Məmmədovun dedikləri onların özlərinin taleləri ilə bağlı olduğu üçün «mehriban dostlar» onun təklifini dərhal qəbul edirlər.

Ümumi razılığa gəldikdən sonra Hacı Məmmədov əməliyyatda iştirak edəcək banda üzvlərinin hər birinin ayrı-

ayrılıqda və təklikdə görəcəkləri işlə bağlı vəzifə bölgüsünü aparır. O, əvvəl bildirir ki, Rövşən Əliyev milliyyətcə bir rus qadınla dostluq edir. Azərbaycan Respublikası Baş Prokurorluğunun inzibati binası yaxınlığında mənzil kirayə edib və həmin rus qadınla orada görüşür. Nizami Abdullayev, Fərhad Məmmədbəyov və Eldar Rəhimova tapşırır ki, Rövşən Əliyevin idarə etdiyi maşının markasını, nömrəsini və həmin qadınla görüşdüyü evi öyrənsinlər və evi Musa Dabuyevə göstərsinlər. Ona görə ki, o, Rövşən Əliyevi öldürməyi Musa Dabuyevə tapşırmışdı. Hacı Məmmədov təklif edir ki, Rövşən Əliyevi öldürmək üçün yaxşı olar ki, Musa Dabuyev qadın paltarı geyinsin. Qadın paltarını hazırlamaq işini isə Nailə Quliyevaya həvalə edir. Nailə Quliyeva Musa Dabuyev üçün qadın paltarı, qadın pariki, qara rəngli qadın plaşı, qadın ayaqqabısı, qadın çantası hazırlamalı və onu makiyaj etməli idi. Hacı əvvəl Musa Dabuyevi Rövşən Əliyevin həmin rus qadınla görüşdüyü yerə aparmağı Nizami Abdullayevə tapşırır. Lakin o tərəddud etdiyinə görə bu işi Eldar Rəhimov görməli olur. Bundan sonra o, Rövşən Əliyevin qətlə yetiriləcəyi günü dəqiqləşdirir. Həmin gün 12 mart 2002-ci il olur.

Banda üzvləri Hacıdan tapşırıq aldıqdan sonra hazırlıq işlərinə başlayırlar. Nailə Quliyeva Musa Dabuyev üçün qadın paltarı hazırlayır. Nizami Abdullayev isə Musa Dabuyevlə birlikdə bir neçə dəfə Rövşən Əliyevin kirayədə qaldığı evin ətrafını, dəhlizi, giriş və çıxış yollarını, hətta onun işdən sonra gəldiyi vaxtı izləyirlər. Hazırlıq işləri başa çatdıqdan sonra 12 mart 2002-ci il tarixdə Musa Dabuyev qadın libasında – əlinə qadın çantası, ayağına qadın ayaqqabısı, başına qadın pariki və qara qadın plaşını geyinib, hazır vəziyyətə gəlir. Hacı Məmmədov ona «Makarov» markalı bir ədəd tapança, 16 ədəd patron ilə birlikdə iki daraq verir, Eldar Rəhimovun idarə etdiyi avtomaşınla duz-çörək kəsdiyi dostu Rövşən Əliyevi öldürməyə yola salır. Lakin həmin gün Rövşən Əliyev dostluq etdiyi rus qızı ilə Hacı Məmmədovun sahibi olduğu

Qusar rayonunun «Qarabulaq» istirahət mərkəzində olduğundan plan pozulur. Musa Dabuyev və Eldar Rəhimov saat 19-a kimi gözləyir, evə gəlib-gedənin olmadığını görüb, Nailə Quliyevanın yaşadığı evə qayıdırlar.

Səhəri gün, yəni 13 mart 2002-ci il tarixdə saat 19 radələrində Musa Dabuyevi mümkün şübhələrdən yayındırmaq məqsədi ilə Nailə Quliyeva və bandanın digər üzvləri tərəfindən ona yenidən qadın görüntüsü verən qadın plaşı və ayaqqabısı geyindirilir. Hacı Məmmədov yenidən «Makarov» markalı tapançanı və patronla dolu darağını ona verir. Bundan sonra Fərhad Məmmədbəyov idarə etdiyi «Vaz–21099» markalı Az 10 HZ 441 dövlət nömrə nişanlı avtomaşınla Müsa Dabuyevi Azərbaycan Respublikası Baş Prokurorluğunun binası qarşısına gətirir və onları orada gözləyən Eldar Rəhimovun yanında maşından düşürdür. Eldar Rəhimov VAZ-2106 markalı, saxta dövlət nömrə nişanlı avtomobillə Musa Dabuyevi Rövşən Əliyevin kirayədə yaşadığı Nizami küçəsi, 12 saylı evin yanına gətirir və orada dayanıb gözləyirlər. Həmin vaxt Rövşən Əliyev idarə etdiyi avtomobillə Nizami küçəsi, 12 saylı evin qarşısına gəlib, maşından düşür. Əlində olan bazarlığı mənzilin pəncərəsindən evə verib çörək almaq üçün mağazaya gedir. Bu zaman pusquda duran Eldar Rəhimov maşını hərəkətə gətirib irəli sürür və Musa Dabuyevi Rövşən Əliyevin mənzilə keçəcəyi blokun qarşısında düşürdür. Özü isə idarə etdiyi avtomobillə qabaqcadan şərtləşdikləri kimi evin arxasına sürüb Musa Dabuyevin gəlişini gözləyir. Musa Dabuyev Rövşən Əliyevin yaşadığı evin blokuna girir, birinci mərtəbə ilə ikinci mərtəbə arasında dayanır və mərtəbələrarası pəncərədən Rövşən Əliyevin gəlişini gözləyir. Rövşən Əliyev əlində çörək bloka daxil olduqda Musa Dabuyev «Makarov» markalı tapançanı hazır vəziyyətə gətirib, Rövşən Əliyevin qarşısına çıxır. Üzbəüz gələndə Musa Dabuyev Rövşən Əliyevə atəş açır. Rövşən Əliyev dərhal yerə yıxılır və əlindəki çörək yerə düşür. Üçüncü atəşdən sonra tapança işləmir, tapança-

nı yenidən atəş vəziyyətinə gətirərmək istəyərkən güllələrdən biri yerə düşür. O, Rövşən Əliyevə yenidən iki atəş də açır. Ölümünə tam əmin olmaq üçün, blokdan çıxmamış altıncı atəşi də başına açır və blokdan çıxır. Evin arxasında onu gözləyən Eldar Rəhimovla görüşüb, maşına oturur və oradan uzaqlaşırlar.

Hacı Məmmədov Musa Dabuyevi odlu silah, döyüş sursatı ilə silahlandıraraq illərlə dostluq etdiyi, bir yerdə oturub-durduğu, çörək kəsdiyi paqon yoldaşı Rövşən Əliyevi öldürməyə yola salandan sonra Nailə Quliyeva ilə birlikdə «Avropa» mehmanxanasının yaxınlığında yerləşən restorana gəlirlər. Restoranda şam edərkən Hacı Məmmədova yaxın olan adamlardan kimsə ona zəng edib xəbər verir ki, Rövşən Əliyev öldürülüb. Bu xəbər Hacı Məmmədov üçün gözlənilməz xəbər deyildi. Rövşən Əliyevi öldürməyə həmin banda üzvlərini onun özü göndərmişdi və bu xəbəri də gözləyirdi. Telefon zəngindən sonra Hacı Nailə Quliyeva ilə birlikdə restorandan çıxır və evdə cinayətkar banda üzvlərinin gəlişini gözləyir.

Eldar Rəhimov idarə etdiyi avtomaşınla hadisə yerindən uzaqlaşdıqdan sonra Nailə Quliyevanın yaşadığı ev istiqamətində hərəkət edir. Lakin Hacı Məmmədovla əvvəlcədən razılaşdıqları kimi maşını Babək prospektindəki «Qarabulaq» firmasına sürür. Orada onları Fərhad Məmmədbəyov qarşılayır və qarajın qapısını açır. Firmanın qarajında Musa Dabuyev qadın paltarlarını əynindən çıxarıb, öz paltarlarını geyinir və maşını qaraja qoyur. Fərhad Məmmədbəyovun idarə etdiyi avtomaşınla Hacı Məmmədovun yanına gəlirlər. Hacı razılığını bildirir və tapançanı onlardan alır. Hacı Rövşən Əliyevi öldürdüyünə görə Musa Dabuyevə verdiyi vədə dərhal əməl edir və ona 10 min dollar verib evinə yola salır. Ondan şübhələnməsinlər deyə Hacı Məmmədov bacısı oğlu Elçin Əliyevə zəng edir və birlikdə Rövşən Əliyevin yas yerinə gedirlər.

Hacı diqqəti özündən yayındırmaq məqsədi ilə bütün ailə üzvlərinə yas yerinə getməyi məsləhət görür. Odur ki, Hacı Məmmədovun bacısı Arifə Rövşən Əliyev öldürülən gecəsi Hacının sürücüsü Rövşən Ağayevə zəng edərək gəlib onları yas yerinə aparmağı tapşırır.

Neçə-neçə insanın qanına əli bulaşmış, bu dəfə də heç nədən qorxmadan öz çirkin, dəhşətli niyyətini həyata keçirir. İnsanlıq simasını itirmiş bu cəllad heç Tanrının qəzəbindən də qorxmur…

Ana namaz üstə olanda

Rövşən Əliyevin qətlindən sonra o, rahatlıq tapmırdı. Bu dostuna görə deyildi. Hər an ifşa olunmaq qorxusu onu üzürdü. İstintaq orqanları nə onu, nə də ki, onun rəhbərlik etdiyi banda üzvlərindən heç birini hələlik sorğu-suala çağırmırdı. Gözlənilə biləcək təhlükə barədə havadarları tərəfindən də ona məlumatlar verilməmişdi. O, artıq özünü sərbəst hiss edirdi. Ona görə də öz cinayətkar fəaliyyətini davam etdirmək qərarına gəlir və oğurlamaq üçün yenidən imkanlı adam axtarırdı.

Çox keçmədi ki, məlumat aldı. Azərbaycan Beynəlxalq Bankın mərkəzi filialının müdiri Anar Sultanovu oğurlamaq təklifini bacısı oğlu Elçin Əliyev verdi. Anar Sultanov «Qarabulaq» istirahət mərkəzinin daimi müştərilərindən olduğu üçün onu Hacı da tanıyırdı. Orada yaxşı pul xərclədiyinə görə Hacı Məmmədovun diqqətini cəlb etməyə bilməzdi. Anar Sultanov Elçin Əliyevi yaxşı tanıyırdı. Elçin Əliyev Beynəlxalq Bankın Sabunçu rayon filialının müdiri idi. Anar Sultanovun Müştərilərə Xidmət Departamentinin direktoru təyin olunmaq söhbəti vardı. Bunu Elçin Əliyev də bilirdi. Lakin həmin vəzifəyə Elçin Əliyev də getmək istədiyindən tanışların arasında bir neçə dəfə Anar Sultanova «nə üçün direktor olmaq

istəyir?» – deyə ona eşitdirirdi. Elçin Əliyev elə buna görə də dayısı Hacı Məmmədovun Anar Sultanovu oğurlamaq fikrinə düşməsindən razı idi. Bununla da onun öz məqsədinə çatması üçün yolu təmizlənirdi. Odur ki, Hacı Məmmədov Anar Sultanovu oğurlayaraq onun qohumlarından küllü məbləğdə pul almağı planlaşdırdı.

Anar Sultanovu oğurlamaq barədə planını həyata keçirmək üçün o, bu əməliyyatda Musa Dabuyev, Nizami Abdullayev, Eldar Rəhimov və Aslanbek Çintamirovu Nailə Quliyevanın məkanına toplayır. Toplantıda Nailə Quliyeva da iştirak edir. Orada Hacı Məmmədov çoxlu pulu olan bir bank işçisini oğurlamaq lazım gəldiyini deyir. Bu bank işçisinin Azərbaycan Beynəlxalq Bankının mərkəzi filialının müdiri Anar Sultanov olmasını bildirir. Hacı Məmmədov təklif edir ki, onu öz yaşadığı evin həyətindən götürsünlər. O, daha sonra bildirir ki, Anar Sultanovu oğurlamazdan əvvəl onun yaşayış yeri, iş yeri, idarə etdiyi avtomaşınların markası, evə gəldiyi vaxt və işdən evə gedərkən yola sərf olunan vaxt öyrənsinlər.

Hacı Məmmədov bundan sonra basqında iştirak edəcək şəxslərin arasında vəzifə bölgüsünü də aparır. O, Nizami Abdullayevə tapşırır ki, Anar Sultanovun işlədiyi bankın qabağında dayansın və Anarın işdən çıxıb evə getdiyi vaxtı dərhal Eldar Rəhimova xəbər versin. Aslanbek Çintamirov, Musa Dabuyev Eldar Rəhimovla birlikdə onun idarə etdiyi avtomaşında Anar Sultanovun evinin yaxınlığında mövqe tutub, Nizami Abdullayevin telefon zəngini gözləməkdə idilər.

Hacı Məmmədov Anar Sultanovu duyuq salmamaq üçün məsləhət görür ki, Musa Dabuyev yenə də oraya qadın paltarında getsin. Özü isə Nailə Quliyeva ilə birlikdə idarə etdiyi avtomaşınla bir az aralıdan vəziyyəti müşahidə etmək istəyir. Banda üzvləri Hacı Məmmədovun tapşırıqlarını aldıqdan sonra elə həmin gün işə başlamaq üçün dağılışırlar.

Aslanbek Çintamirov, Musa Dabuyev, Nizami Abdullayev və Eldar Rəhimov bir neçə gün Anar Sutanovu güdürlər.

Güdmə zamanı müəyyən edilir ki, Anar Sultanov «BMW» markalı 10–NS-050 dövlət nömrə nişanlı və «Pegeuot–406» markalı 10–KR–505 dövlət nömrə nişanlı avtomobillərdən istifadə edir. Yaşadığı ev keçmiş «Naxçıvan», indiki «Hyatt Regensy» oteli yaxınlığında Muxtarov küçəsi, 203 «A» saylı evin həyətində yerləşir. İş yeri isə köhnə Bakı Univermağının və «Lukoil» ofisinin, həmçinin Musiqili Komediya teatrının yanında yerləşir. Anar Sultanov işdən evə gedən yola isə 9 dəqiqə vaxt sərf edir.

Cinayətkar birliyin əməliyyatda iştirak edən üzvləri onu güdərkən bunu Anar Sultanovun özü də hiss edir. Hər gün işə gedəndə və işdən çıxanda bir maşında eyni adamların əyləşdiklərini, ona diqqətlə baxdıqlarını görür və istər-istəməz narahatçılıq hiss etsə də onu oğurlamaq məqsədilə bura gəldiklərini ağlına belə gətirmirdi. Beş-altı gündən sonra bir daha onları orda görmədiyinə görə buna daha ciddi fikir vermir və yaddan çıxarır.

2002-ci il payız aylarının birində Hacı Məmmədov Anar Sultanovun oğurlanması istiqamətində apardığı hazırlıq işlərini başa çatdırdıqdan sonra cinayətkar birliyin üzvlərini yenidən yaşadığı evə toplayır. Bu dəfə onlar artıq axşama təyin olunan basqına hazırlaşırlar. Birinci növbədə Musa Dabuyev qara rəngli qadın plaşı və ayaqqabısı geyinir, başına isə açıq rəngli qadın pariki qoyur. Bundan sonra Hacı Məmmədov Aslanbek Çintamirovla Musa Dabuyevi lazımi ləvazimatla təchiz edir. Eldar Rəhimova isə idarə etdiyi avtomaşın üçün saxta dövlət nömrə nişanı verir.

Hacı Məmmədov müəyyən hazırlıqdan sonra Nizami Abdullayevi öz maşını ilə Anar Sultanovun işlədiyi bankın qabağına, Aslanbek Çintamirovu və Musa Dabuyevi isə Eldar Rəhimovun saxta dövlət nömrə nişanlı avtomaşını ilə Anarın yaşadığı əraziyə göndərir.

Saat 18 radələrində onlar «Olimp» mağazasının yaxınlığındakı 6 saylı xəstəxananın qarşısına gəlib, Nizami Abdul-

layevin telefon zəngini gözləyirlər. Hacı Məmmədov da Nailə Quliyeva ilə birlikdə qara rəngli «Mercedes-E klass» markalı avtomaşınla onların arxasınca gedir. O, idarə etdiyi avtomaşını onlardan 20-30 metr aralıda saxlayıb, Anar Sultanovu gözləyən digər banda üzvlərinə də nəzaət edir.

Hacı Məmmədov həmin gözləmə yerini heç də təsadüfi seçmir. Onun fikrincə durduqları yerin mobil şəbəkə antenası ilə «Hyatt Regensy» otelinin yanındakı mobil şəbəkə antenası ayrı-ayrı idi. Anar Sultanovu oğurladıqları halda, onları mobil telefon danışıqlarının təhlili vasitəsi ilə tutmaq çox çətin olduğunu bilurdi. Digər tərəfdən onlar buradan Nizami Abdullayevin zəngini qəbul edənədək Anar Sultanov da doqquz-on dəqiqə ərzində gəlib çata bilərdi. Belə olan tərzdə onların da həmin yerdən Anarın yaşadığı evin həyətinə çatmağa vaxtları olurdu.

Aslanbek Çintamirovun cinayətkar dəstə üzvləri «Olimp» mağazasından yuxarıda 6 saylı xəstəxananın qarşısında dayanıb Nizami Abdullayevin telefon zəngini gözlədikləri vaxt Daxili İşlər Nazirliyi post-patrul xidmətinin əməkdaşları göstərilən ərazidə xidmət apararkən Eldar Rəhimovun idarə etdiyi avtomaşında qadın geyimində olan Musa Dabuyevdən şübhələnirlər. Ona görə də post-patrul xidmətinin əməkdaşları maşınlarını Eldar Rəhimovun idarə etdiyi avtomaşının qarşısında saxlayırlar. Polis əməkdaşları maşından düşüb, Eldar Rəhimovun və «sərnişin»lərin sənədlərini tələb edirlər. Əvvəlcə Eldar Rəhimov, onun ardınca isə Aslanbek Çintamirov maşından düşüb, polis əməkdaşları ilə söhbət etmək istəyirlər. Qadın formasında olan Musa Dabuyev isə maşında qalır. Eldar Rəhimov polis əməkdaşlarına DİN-in vəsiqəsini təqdim edir. Aslanbek Çintamirovun sənədi olmur. Musa Dabuyevin sənədini istədikdə isə o, heç bir sənəd təqdim edə bilmir. Eldar Rəhimov polis işçilərinin maşının salonuna və yük yerinə baxmaq tələblərinə mane olmaq istədikdə mübahisə düşür. Post-patrul xidməti əməkdaşları maşını polis şöbə-

sinə aparmaq istəyirlər. Bunu kənardan müşahidə edən Hacı idarə etdiyi avtomaşınla onlara yaxınlaşır, xidməti vəsiqəsini polislərə göstərir. Lakin bunun da xeyri olmur. Post-patrul xidmətinin əməkdaşları onların inadkarlığını görüb məsələnin daha ciddi olmasını hiss edir, qanundankənar hərəkət etmək istəmirlər. Vəziyyəti belə görən Hacı ifşa olunmamaq üçün yüksək vəzifəli havadarların bu işə müdaxilə etməsini lazım bilir. Ona görə də o, post-patrul xidməti əməkdaşlarından birini kənara çəkir və cibindən mobil telefonunu çıxarıb, böyük rəisinə zəng edərək kömək istəyir. Məsələnin nə yerdə olduğunu başa düşən idarə rəisi telefonu post-patrul xidmətinin əməkdaşına verməyi tələb edir. Rəisin əmrindən dərhal sonra polis əməkdaşı farağat vəziyyəti alır. Yalnız bundan sonra Hacı Məmmədovun rəhbərlik etdiyi cinayətkar birliyin üzvləri buraxılır və onun göstərişinə əsasən Eldar, Aslanbek və qadın paltarı geyinmiş Musa Dabuyev gəldikləri avtomaşınla da geri qayıdırlar.

Hacı Məmmədov bundan sonra Anar Sultanovu oğurlamaqdan vaz keçir.

Post-patrul xidməti əməkdaşlarının qanuni tələbləri öz müsbət nəticəsini verir. Bir günahsız insanın da Hacı Məmmədovun zirzəmi-kamerasına salınmasının qarşısı bax beləcə alınır.

Qoca kişi də Hacının zirzəmisində

Anar Sultanovun oğurlanması əməliyyatı baş tutmayandan sonra Hacı və onun dostları bir az fasilə verib, aranın sakitləşməsini gözləməyə başladılar.

Elçin Əliyev dayısının kriminal fəaliyyətdə «boş» qalmaması üçün qısa müddətdə başqa bir imkanlı namizədi oğurlamaq haqqında sifariş verir. Sifarişi isə dostluq etdiyi, oturub-durduğu və çörək kəsdiyi iş adamı Hafiz Məmmədov idi. O, Hafiz Məmmədovun Azərbaycan Beynəlxalq Bankında hesablaşma hesabı açması və həmin hesabda küllü məbləğdə pul vəsaiti saxlaması barədə bank sirri olan məlumatı əldə edir. Həmin məlumatı əldə etdikdən sonra dayısı Hacı Məmmədova təklif edir ki, yaxşı pul qazanmaq istəyirsə, Azərbaycan Beynəlxalq Bankında küllü məbləğdə pulu olan adam tanıyır. Həmin adam da Hafiz Məmmədovdur. Onun hesabında olan həmin məbləği ələ keçirmək üçün ya özünü, ya da qardaşını oğurlamaq mümkündür.



Hacı Məmmədov Hafizin atası Məcidi tanımasa da, Hafizin özünü bir iş adamı kimi tanıyırdı və böyük maddi imkanı olmasını bilirdi. O, həmçinin Məcidin digər oğlu Mübarizlə də tanış idi. Onlar «Delfin» hotelində tanış olmuşdular. Həmin hoteldə müğənnilərdən İlhamənin

ad günü idi. Hacı Məmmədov da ailəsi ilə həmin müqənninin ad günündə iştirak edirdi. İlhamə Mübarizi Hacı Məmmədova «Delfin» hotelinin sahibi, Hacı Məmmədovu isə Mübarizə Qusardakı «Qarabulaq» istirahət mərkəzinin sahibi kimi təqdim edir. Bu tanışlıqdan sonra Hacı Məmmədov dərhal onu «Qarabulaq» istirahət mərkəzinə dəvət edir. Lakin Mübariz söz versə də, getmir. Həmin tədbirdən üç gün sonra İlhamə Mübarizə zəng edərək «Qarabulağ»a bir yerdə getmək istədiyini bildirdikdə, Mübariz işi olduğunu bəhanə gətirir.

Hacı Məmmədov əvvəlcə Mübariz Məmmədovu oğurlamaq istəyirdi ki, iş adamı olan qardaşı Hafizdən pul ala bilsin. Lakin sonralar o, qardaşların atası Məcidin özünü gördükdə belə qərara gəlir ki, elə onların atası Məcidi oğurlamaq daha məsləhətdir. Çünki Məcid Məmmədovu oğurlamaqla oğlu Hafizdən qoca atasını azad etmək üçün istədikləri pulu ala biləcəklər.

Hacı Məmmədov hər bir cinayət üzrə əməliyyatı hazırlamazdan və dəstəsini toplamazdan əvvəl arxasında duran havadarların xeyir-duasını alırdı. Bu dəfə də o, həm Kamil Sədrəddinov, həm də Zakir Nəsirovun yanına gəlir. Oğurlayacaqları şəxsin kimliyi, onun maddi imkanı barədə məruzə edir və razılıqlarını alır. Hacı Məmmədov havadarlarından qabaqcadan razılıq almasa da əməliyyata başlaya bilərdi. Onsuz da əməliyyat uğurlu alınanda onların payı toxunulmaz olaraq qalırdı. Lakin havadarlarını qabaqcadan xəbərdar etməklə məqsədi o idi ki, törətdikləri cinayətlər haqqında onların işlədikləri idarə və şöbələrə, o cümlədən, Bakı Baş Polis İdarəsi və onun rayon şöbələrinə məlumat daxil olduqda, onlar həmin faktlarla əlaqədar aparılan əməliyyat tədbirləri haqqındakı məlumatları ona çatdıra bilsinlər. Həmçinin gözlənilə biləcək təhlükələr haqqında dərhal Hacı Məmmədovu xəbərdar etsinlər. Bu hal, Anar Sultanovun oğurlamaq əməliyyatında özünü əyani olaraq bir daha göstərdi.

Cinayətkar birliyin başçısı Hacı Məmmədov Məcid Məmmədovu oğurlayacaq dəstəni təşkil etmək üçün birliyin üzvlərini tək-tək nəzərdən keçirir. Bu məqsədlə Elçin Əliyev, Fərhad Məmmədbəyov, Nizami Abdullayev, Eldar Rəhimov, Aslanbek Çintamirov və Musa Dabuyevi yaşadığı evə dəvət edir. Hacı adam oğurluğunda etibar etdiyi Aslanbeki həmişə aldadırdı. Öz dilləri ilə desək muzdlu qatilə həmişə «atırdı». Alacağı pulun 20 faizini ona vəd edirdi. Lakin vədi həmişə boşa çıxırdı.

Məhz buna görə də Aslanbek Çintamirov ondan narazı idi. Odur ki, Aslanbek Çintamirov hələ Məcid Məmmədovun oğurlanmasından bir neçə ay qabaq Hacı Məmmədovun yanına gəlib, onu dəfələrlə aldatdığına görə narazılığını bildirir. Hacı Məmmədov onu birtəhər sakitləşdirir və Aslanbek Çintamirova bildirir ki, pullu bir adam tapıb, bu dəfə onun payını artıracaqdır. Aslanbek Çintamirov yenə də onun bu sözlərinə inanır.

Bir neçə gün sonra Hacı Məmmədov Musa Dabuyev, Nizami Abdullayev, Aslanbek Çintamirov, Eldar Rəhimov və Fərhad Məmmədbəyovu yenidən Nailə Quliyevanın mənzilinə toplayır və onlara bildirir ki, bir nəfər qoca kişini oğurlamaq lazımdır. Onun oğlanları imkanlı adamlardır və onlardan yaxşı pul ala bilərlər. Onun barəsində bəzi məlumatları özü əldə edib. O, 8-ci mikrorayon, S.S.Axundov küçəsi 2 «A» saylı həyətdə yaşayır. «Mercedes 200 Ç» markalı 10–HT–005 dövlət nömrə nişanlı avtomaşını var. Həmin avtomaşını da yaşadığı həyətdəki qarajda saxlayır. Hər gün səhər həmin avtomaşınla işə gedir və axşam evə qayıdır. Odur ki, onu öz maşını ilə birlikdə oğurlamaq lazımdır. Məcid kişinin oğurlanmasında orada olanların hamısının, o cümlədən, özünün də iştirak edəcəyini desə də, Məcid Məmmədova onun öz qarajında basqın etməyi Aslanbek Çintamirov və Musa Dabuyevə, onun güdməyi isə Fərhad Məmmədbəyov və Nizami Abdullayevə tapşırır.

Bir neçə gündən sonra Nizami Abdullayev Hacı Məmmədova zəng edib xəbər verir ki, Məcid Məmmədov Əhmədli qəsəbəsində yas yerindədir. Hacı Məmmədov da ona tapşırır ki, onu izləsin və evə gedərkən həm onlara xəbər versin, həm də onu yolboyunca müşahidə etsin. Digər tərəfdən Hacı Musa və Aslanbeklə birlikdə idarə etdiyi «Vaz–2106» markalı avtomaşınla Moskva prospektinə gəlir və orada Məcid Məmmədovun gəlişini gözləyirlər. Nizami Abdullayev isə gümüşü rəngli «Mercedes-200 Ç» markalı avtomaşınla Məcid Məmmədovun arxasınca gəlib onu izləyir. Məcid Məmmədovun həyətinə çatdıqda Hacı Məmmədov Aslanbek Çintamirov və Musa Dabuyevi orada maşından düşürdür. Özü isə kənarda dayanır. Məcid Məmmədov onların yanından keçir və maşını qarajın qarşısında saxlayır. Qarajın qapısını açmaq istəyərkən Aslanbeklə Musa Dabuyev qəflətən ona basqın edirlər. Onlar Məcid Məmmədovu maşınlarına basıb, başına qara kisəni keçirir, qollarını arxadan qandallayırlar. Musa maşının arxa oturacağında əyləşib, Məcid Məmmədovun başını aşağı sıxır. Aslanbek isə Məcid Məmmədovun «Mercedes-Benz Ç-200» markalı 10-HT-005» dövlət nömrə nişanlı avtomaşınının sükanı arxasına keçir, sürətlə həyətdən uzaqlaşırlar.

Razılığa əsasən Aslanbek Çintamirov maşını Babək prospekti ilə sürüb, «Qarabulaq» MMC-nin ofisi kimi istifadə edilən qaraja gəlirlər. Artıq Nizami Abdullayev onları orada gözləyirdi. Qarajın qapısını da açıb, hazır vəziyyətdə saxlamışdı. Hacıgildə eyni vaxtda həyətə daxil olurlar. Onun göstərişi ilə Məcid Məmmədovu bir qədər əvvəl hazırladıqları zirzəmi-kameraya salırlar.

Aslanbek və Musa vəzifələrini yerinə yetirdikdən sonra özlərindəki tapançaları Hacıya təhvil verir və işlərini bitmiş hesab edirlər. Aslanbek və Musa getdikdən sonra Məcid Məmmədovun maşınındakı əl çantasından 33 min ABŞ dolları tapılır. Hacı bu puldan 2 min dolları Nizami Abdullaye-

və, 2 min dolları isə Fərhad Məmmədbəyova verir. Qalan hissəni isə özü götürür.

Hacı Məcid Məmmədovun keşiyini çəkməyi Əsgər İsgəndərova tapşırır. Məcid Məmmədova xörəyi Nailə Quliyeva hazırlayır, Nizami Abdullayev isə xörəyi Məcid kişiyə çatdırırdı. Məcidin ailə üzvlərinə ünvanlanan məktubların mətnlərini Hacı hazırlayır, onun üzünü köçürməyi isə Nizami Abdullayev yerinə yetirirdi. Danışıqların mətnini də Hacı hazır vəziyyətdə Nizamiyə təqdim edirdi ki, o, Hacıdan artıq heç nə soruşmasın.

Məcid Məmmədovun hüzr yerindən qayıdarkən oğurlanmasından nə həyat yoldaşının, nə də övladlarının xəbəri olmur. Yaşadığı evin həyətindən zorla oğurlanmasını da heç kim görməmişdi. Ona görə də evə gec gəlməsindən o qədər də narahat deyildilər.

Hacı Məcid Məmmədovun ailə üzvləri ilə danışığa başlamağı gecikdirmək istəmirdi. Məcid Məmmədovun oğurlandığı gün saat 22 radələrində Hacının tapşırığı ilə Nizami xırıltılı səslə onun özünə məxsus 222-74-74 saylı mobil telefon nömrəsindən oğlu Mübarizin 220-99-00 saylı mobil telefon nömrəsinə zəng edir və atasını oğurladıqlarını bildirir. Bu xəbəri eşidən Mübariz Məmmədov Nizamini söyür və telefonu da dərhal söndürür. Lakin o anası ilə dərhal telefon əlaqəsi yaradır və məlum olur ki, həqiqətən də atası yas yerində olub və evə qayıdarkən ona evlərinin həyətində basqın edilərək oğurlanıb. Nizami Abdullayev təkrarən saat 23.40 radələrində Məcid Məmmədovun mobil telefonundan zəng edir və bildirir ki, «Kukla» teatrının dənizə baxan hissəsinin sağ tərəfində zərfin içərisinə məktub qoyulub, gedib onu götürsün. Mübariz Məmmədov Nizami Abdullayevdən xahiş edir ki, telefonu atasına versin, onunla danışmaq istəyir. Nizami bundan imtina edir və bildirir ki, məktubu götürüb oxusun, orada hər şey yazılıb. Telefon danışığından dərhal sonra Mübariz Məmmədov Nizami Abdullayevin dediyi yer-

dən götürülən polietilen zərfin içərisindən balaca daş parçası, məktub və diktofon audiolent tapır. Hafiz Məmmədova ünvanlanmış məktub makinada yazılmışdı. Məktubda onlarla heç bir düşmənçilikləri olmadığı, yalnız adam oğurluğu onların biznesi olduğu qeyd edilmişdi. Atasının azad olunması üçün 5 milyon ABŞ dolları tələb olunurdu. Polisə xəbər verəcəkləri və tələb olunan məbləği verməyəcəkləri təqdirdə Məcid Məmmədovu öldürəcəkləri ilə hədələyirdilər. Audiolentdə həmçinin Məcid Məmmədovun səsi də yazılmışdı. Məcid Məmmədov ailəsindən pulun toplanmasını xahiş edirdi.

Oğurluq hadisəsinin sabahısı günü Məcid Məmmədovun kiçik oğlu Zeynal atasının oğurlanması və onlardan 5 milyon dollar tələb etmələri barədə ərizə ilə Binəqədi Rayon Polis İdarəsinə müraciət edir. Fakta əsasən cinayət işi başlanır, əməliyyat-istintaq qrupu yaradılır. Bundan dərhal sonra Bakı Şəhər Baş Polis İdarəsi rəisinin yanında bu məsələ müzakirə edilir və belə nəticəyə gəlirlər ki, bu oğurluq hadisəsi də əvvəl törədilən adam oğurluğu cinayətləri ilə eyni dəst-xətt ilə törədilib.

Hafiz Məmmədov hadisə ilə əlaqədar DİN rəhbərliyinə də müraciət edir və idarə rəisi Zakir Nəsirovun qəbulunda olur. Atasının adından yazılmış məktub barədə idarə rəisini məlumatlandırır. Zakir Nəsirov isə öz növbəsində Hafiz Məmmədovu günahlandırır: «Bax gör biznes işində kimə atmısan, bəlkə atanın oğurlanması öz zibillərindir, get pulu ver, atanı azad et, qoca kişidir ölər. Sonra qınaq sahibi olarsan» – deyə onu sakitləşdirir. Hafiz Məmmədov Zakir Nəsirova bildirir ki, Binəqədi Rayon Polis İdarəsi əməliyyatçıları, o cümlədən rəisi təklif edirlər ki, pulvermə mərhələsini Binəqədi Rayon Polis İdarəsinin əməliyyatçıları da iştirak etsin. Zakir Nəsirov buna razılıq vermir və bildirir ki, atasının oğurlanması elə onların öz işidir. Onlardan uzaq olmaq lazımdır.

Beləliklə, Hafiz Məmmədov bundan sonra Binəqədi rayon polis əməkdaşlarından çəkinərək, onlardan kənar iş gör-

məyə başlayır. Zakir Nəsirov Binəqədi Rayon Polis İdarəsi əməliyyatçılarının Məcid Məmmədovun oğurlanması işi ilə məşğul olmaması üçün hadisə ilə əlaqədar materialları Binəqədi Rayon Polis idarəsindən öyrənmək adı ilə tələb edib, onları DİN Baş Cinayət Axtarış İdarəsinə verir. Materiallar orada da hərəkətsiz qalır.

Martın 28-nə kimi Hacı Məmmədov Məcidin ailəsinə iki məktub və audiokaset göndərir. Nizami bir dəfə Məcid Məmmədovun qızı Xatirəyə, bir dəfə isə ailənin tanışı Seyidə zəng edib məktubları alıb-almadıqlarını soruşur və hər dəfə də danışıqları aparmaq üçün təzə telefon nömrələri almağı tələb edir. Axırıncı dəfə isə təzə ağ rəngdə «Tofaş» markalı avtomaşın və mobil telefon nömrəsi almağı tələb edir. Hafiz Məmmədova göstəriş verir ki, maşını Nizami kinoteatrının qarşısında saxlasın, mobil telefonun nömrəsini isə maşının üstünə yazsın. Məcid Məmmədovun oğlanları onların bu tapşırığına da əməl edirlər. Lakin Hafizin yeznəsi İlqar maşını Nizaminin dediyi qaydada deyil, cinayətin izinə düşmək istəyən Binəqədi Rayon Polis İdarəsi əməliyyatçılarının tapşırığına əsasən çəpəki qoyur. Kənardan İlqarı müşahidə edən Hacı və Nizami maşının çəpəki qoyulduğunu görür, burada polisin barmağı olduğunu hiss edir və qorxuya düşürlər. Dərhal Hafiz Məmmədova zəng edib düzgün iş görmədiklərini bildirir. Hafiz Məmmədov özünü o yerə qoymur. O, bunun günahını yeznəsi İlqarda görür. Hafiz Məmmədov atasınının işgəncələrə məruz qalmaması və təhlükəsizliyi naminə onların tapşırıqlarını yerinə yetirməyi üstün tutur və yeznəsi İlqarı yenidən oraya göndərib, maşını cinayətkarların dediyi qaydada saxlayır.

Bundan sonra Binəqədi Rayon Polis İdarəsi əməliyyatçılarının Məcid Məmmədovu oğurlayanların izinə düşmə imkanı çətinləşir.

Nizami Abdullayev bundan sonra Hafiz Məmmədova həm hədə-qorxu gəlir, həm də danışıqları yalnız onunla davam etdirir. Hacı telefon danışıqları ilə yanaşı Hafiz Məm-

mədovun ünvanına fasiləsiz məktublar və audiolentlər və videokasetlər də göndərir. Danışıqlar davam etsə də, onların tələb etdikləri pulu toplamaq mümkün olmur. Ona görə də məktubların məzmunu dəyişir, xəbərdarlıq məktublarına çevrilir.

Hacı Məmmədov axırda onlara hədə-qorxu gəlir: «Hafiz, sənə beş gün vaxt veririk, həmin müddətə 3 milyon avronu düzəldib bizə göndərməsən, Məcid kişinin qulağını kəsib yaxşı tanıdığın dostuna göndərəcəyik. Papağını qabağına qoy, yaxşı-yaxşı fikirləş, atanın vəziyyəti ağırdır, itirdiyiniz hər gün sənin üçün baha başa gələ bilər. Sənə axırıncı dəfə xəbərdarlıq edirik, əgər biz deyəni etməsən məcbur olub başqa cür hərəkət edəcəyik. Bu haqda heç kim heç nəyi bilməməlidir…»

Həmin müddətdə Məcid Məmmədovun övladları 700 min ABŞ dolları toplaya bilirlər. Növbəti telefon zəngində Hafiz Məmmədov Nizamiyə bildirir ki, çox çətinliklə 700 min dollar toplaya bilib. Lakin Nizami bildirir ki, böyükləri həmin məbləğlə razı deyil. Hafiz Məmmədov bir daha bundan artıq pul düzəldə bilmədiyini dedikdə, Nizami deyir ki istəsə bank sənədlərindəki hesabatları göstərə bilərlər. Bu bank sirri olan məlumatları isə Hacıya bacısı oğlu Elçin Əliyev vermişdi.

Nizami Abdullayevin son telefon zəngindən beş-altı gün keçirdi. Hafiz Məmmədov artıq hüquq-mühafizə orqanları tərəfindən atasının azad ediləcəyini real hesab etmirdi. Yaşlı kişinin 35 gündən artıq cinayətkarların girovluğunda qalması onun itirilməsinə səbəb ola bilərdi. Hafiz Məmmədov hələ də inana bilmirdi ki, atası Məcid Məmmədovun oğurlanmasında özünə dost bildiyi Elçin Əliyevin əli var. Elçin Hafizə canfəşanlıqla məsləhət görürdü ki, pulu tez düzəltsin və atasını cinayətkarların əlindən xilas etsin. Hafiz Məmmədov sadəlövlüklə Elçin Əliyevin məsləhətinə qulaq asır və elə bilirdi ki, o bu ailənin dostudur. O, nə biləydi ki, atasının oğurlanmasının bilavasitə sifarişçisi məhz Elçin Əliyevdir.

Bütün bu deyilənləri götür-qoy etdikdən sonra Hafiz Məmmədov atasının başqa yolla cinayətkarların əlindən almaq mümkün olmayacağını başa düşür və ona görə də onların tələb etdiyi məbləği toplayıb verməklə atasını azad etmək qərarına gəlir.

Növbəti telefon zənglərində Nizami Abdullayevlə Hafiz Məmmədov alınacaq və veriləcək pulun məbləğini dəqiqləşdirirlər. Son razılaşdırılan məbləğ 2 milyon avro və 200 min ABŞ dollarından ibarət olur. Onların bu çətin günündə, demək olar ki, bütün yaxınları ailənin köməyinə gəlir və son razılaşma ilə müəyyən edilən məbləğ toplanır və telefon zəngini gözləyirlər.

Hacı Məmmədov bu dəfə daha fərqli qaydada plan cızır. Pulun alınmasını Eldar Rəhimova həvalə edir. Pulun avro və dollar olmasını nəzərə alıb, sayılmasını, saxta olub-olmamasını yoxlamaq məqsədi ilə aparatın tapılmasını Elçin Əliyevə tapşırır.

Elçin Əliyev dayısının ona verdiyi tapşırığı icra etmək məqsədi ilə müdiri olduğu Azərbaycan Beynəlxalq Bankının Sabunçu rayon filialına məxsus bir ədəd Türkiyə istehsalı «Paramatik» adlı valyuta yoxlayan detektoru bandanın digər üzvü Nailə Quliyevanın mənzilinə gətirir.

Eldar Rəhimov isə pulun alınması üçün qabaqcadan hazırlıq işləri görür. Bu məqsədlə o, hələ 2003-cü ilin martında Ramiz Sərdarov adlı şəxsdən qızının toyunun olmasını və sənədinin yanında olmamasını bəhanə gətirərək, metronun «Xalqlar dostluğu» stansiyasının yanında yaşadığını bildirir və satıcını aldadıb 314-92-05, Elçin İsmayılov adlı şəxsdən isə 392-55-18 nömrəli mobil telefon nömrələrini alır.

Eldar Rəhimov bundan əlavə pulun alınması gedişində nəqliyyat vasitəsi kimi taksidən istifadə etmək qərarına gəlir. Bu məqsədlə o, metronun «Nərimanov» stansiyasının yaxınlığında dayanan Elton İsmayılov adlı taksi sürücüsü ilə tanış olur və özünü də ona Rafiq kimi təqdim edir. Hərəkət edəcəyi

marşrutları sürücüyə öyrətmək məqsədi ilə metronun «Nərimanov» stansiyasının qarşısında taksiyə oturur və onun dediyi marşrut üzrə – Ağa Nemətulla küçəsi ilə Montin qəsəbəsindəki Mülkiyyət Hüquqlarının Qeydiyyatı və Texniki İnventarlaşdırma İdarəsinin yanına gəlirlər. Oradan da Ağa Nemətulla küçəsi ilə Moskva prospektinin kəsişdiyi tinədək gedib, qayıdırlar. Moskva prospektinə çıxıb, həmin prospektlə sağa – «Bağırov» körpüsünə tərəf hərəkət edərək körpünün altına girmədən tindən sağa dönüb, dəmir yolunun kənarı ilə özbaşına tikilən məhəlləyədək gedirlər və orada maşından düşür. Taksi sürücüsü maşında oturub, onu gözləyir. Eldar Rəhimov evlərdən birinin arxasına keçib, bir qədər dayandıqdan sonra taksiyə oturur və geri qayıdırlar. Sürücü həmin marşrutu tam öyrənənə kimi Eldar Rəhimov gediş-gəlişi bir neçə dəfə təkrar etdirir. Axırıncı dəfə taksi sürücüsü Elton İsmayılovdan mobil telefon nömrəsini götürür və bildirir ki, lazım olanda zəng edəcəkdir.

Nizami Abdullayev 13 aprel 2003-cü ildə Hafiz Məmmədovla axırıncı dəfə telefon əlaqəsinə girir. Hafiz Məmmədov razılaşdırılmış məbləğin hazır olduğunu, lakin pulu deyilən yerə yeznəsi İlqarın gətirəcəyini deyir. Hafiz Məmmədovun Binəqədi Rayon Polis İdarəsinin əməliyyatçıları ilə danışıqlarına əsasən pulun verilmə mərhələsində onların iştirakına razılıq verilmişdi. Lakin Hafiz Məmmədov Zakir Nəsirovla görüşdükdən və sonuncuların bu əməliyyatda iştirakına icazə vermədiyinə görə Hafiz Məmmədov pulun verilməsini yeznəsi İlqara tapşırır. Odur ki, pulun İlqar tərəfindən gətirilməsinə Nizami Abdullayev də razılaşır və onlara yeni bir tapşırıq verir. Bu tapşırıq təzə telefon nömrəsi almaqdan ibarət olur. O bildirir ki, telefon nömrəsi ona məlum olduqdan sonra həmin nömrəyə Rafiq adlı şəxs zəng edəcək və nə lazımdırsa, onu da deyəcəkdir. Ona görə də İlqar Rafiqin məsləhətlərinə əməl etməlidir. Hafiz Məmmədov ona zəng edən Nizami Abdullayevin bu tapşırığını da yerinə yetirir. Onun başqa çarəsi

qalmamışdı. Atasını necə olursa-olsun cinayətkar bandanın əlindən xilas etməli idi. Yeznəsi İlqar Hafizin tapşırığı ilə təzə mobil telefon nömrəsi alır və bu nömrəni Hafiz Məmmədova verir ki, ona zəng edəcək şəxsə (Nizami Abdullayev) təzə nömrəni deyə bilsin.

Çox keçmir Eldar Rəhimov İlqar Qurbanovun aldığı təzə telefon nömrəsinə zəng edir və özünü Rafiq kimi təqdim edərək bildirir ki, İlqar Məcid kişinin ailəsinə xidmət edən ağ rəngli «Vaz–2106» markalı maşına minib metronun «Gənclik» stansiyasının yaxınlığına, «Kaspian Shop» ticarət yarmarkasının qabağına gəlib orada gözləsin. İlqar ona verilən tapşırığa əsasən qayınatasının ailəsinə xidmət edən «Vaz–2106» markalı avtomaşınla deyilən yerdə gözləyir. Bu vaxt Eldar Rəhimov təkrarən ona zəng edir və tapşırır ki, maşına tək otursun və oradan da «Ramstor» mağazasının yanına getsin. İlqar tək getməkdən qorxur və etiraz etmək istədikdə Eldar Rəhimov ona deyir ki, qorxmaq lazım deyil, hər şeyə onlar nəzarət edirlər. Bu sözündən sonra İlqar Qurbanov deyilən yerə gedir. Eldar Rəhimov bununla da kifayətlənmir, İlqara zəng edərək, oradan da Mülkiyyət Hüquqlarının Qeydiyyatı və Texniki İnventarlaşdırma İdarəsinin qabağına gəlməsini tələb edir. İlqar bu göstərişi də yerinə yetirir. Nəhayət, Eldar Rəhimov axırıncı dəfə zəng edib, İlqar Qurbanova deyir ki, qayıdıb evə getsin və telefonu söndürməyib onun zəngini gözləsin.

Eldar Rəhimov bununla İlqar Qurbanovu yoxlamaq istəyir ki, görsün o, özünü necə aparır və arxasınca gələn varmı. Bunlara əmin olduqdan sonra pulun alınması və verilməsi mərhələsini növbəti günə saxlayır.

14 aprel 2003-cü il tarixdə günün birinci yarısında özünü Rafiq kimi təqdim edən Eldar Rəhimov llqar Qurbanova zəng edir. O, İlqar Qurbanova göstəriş verir ki. razılaşdırılmış pul məbləğini özü ilə götürüb əvvəlcə metronun «Gənclik» stansiyasının qabağına, sonra «Ramstor» mağazasının

yanına, oradan isə Mülkiyyət Hüquqlarının Qeydiyyatı və Texniki İnventarlaşdırma İdarəsinin qabağında gözləsin.

Eldar Rəhimov «Nərimanov» kinoteatrının yanına gəlir. Orada Elton İsmayılovun idarə etdiyi taksiyə oturur. Eldar Rəhimov pulun alınması ilə bağlı hazırlıq işlərini görərkən pulu gətirəcək şəxsin taksi maşınındakı danışıqlarına qulaq asmaq məqsədilə «Ericsson» mobll telefon aparatına mikrofon bərkidərək onu balaca bir qutuya qoyur və qutuda bir neçə yerdən deşik açır. Bundan sonra taksini «Ramstor» mağazasının yanına sürdürür. Moskva prospekti ilə Ağa Nemətulla küçəsinin kəsişdiyi tində taksidən düşür. Taksi sürücüsünə həmin dövrün kursu ilə 20 min manat pul verərək, Mülkiyyət Hüquqlarının Qeydiyyatı və Texniki İnventarlaşdırma İdarəsinin yanında onu gözləyən İlqar adlı tanışını maşına oturdub, özbaşına tikilən məhəllədə düşürməyi və sonra yenə də onu götürdüyü yerə qaytarmağı tapşırır. İlqar Qurbanova isə zəng edib deyir ki, onun arxasınca ağ rəngli «Vaz–2106» markalı, 491 dövlət nömrə nişanlı taksi ilə Elton adlı sürücü gələcəkdir və onu lazımi yerə aparacaqdır. Eldar Rəhimov Moskva prospekti ilə Ağa Nemətulla küçəsinin kəsişdiyi yerdə taksidən düşür. 3-4 dəqiqə sonra isə taksi sürücüsü Elton İsmayılov deyilən yerə gəlir və «Vaz–2106» markalı avtomaşında bir nəfərin əyləşdiyini görüb, «İlqar sənsənmi?» – deyə soruşur. «Hə» cavabından sonra maşının onun arxasınca gəldiyinə əmin olub, öz maşınından düşür, gətirdiyi əmanətlə birgə taksi maşınının arxa salonunda oturur. Eldar Rəhimov İlqar Qurbanova zəng edərək tapşırır ki, gətirdiyi əmanəti maşındakı zənbilin içərisindəki karton qutuya qoysun. İlqar Qurbanov siqaret bloklarının içərisinə yığdığı pulları zənbilin içərisində olan karton qutuya yığıb, zənbili bağlayır. Taksi Moskva prospektinə çatır və «Bağırov» körpüsü istiqamətində hərəkət edir. Sürücü maşını körpünün sağındakı dəmir yolunun kənarı ilə həyət evlərinin yanına sürür. Diyircəkli Yastıq Zavoduna çataçatda Eldar Rəhimovdan ona zəng gə-

lir: «Maşın dayandığı yerdə betonun üstündə «A» hərfi yazılıb. Zənbili və maşının qabaq sağ oturacağındakı qutunu da götür, həmin hərf olan yerdə maşından düş. Dəmir yoluna çatdıqda qarşıda üzərində iki «A» hərfi yazılmış beton görünəcəkdir. Zənbili və qutunu hərflər yazılan betonun üstünə qoy və geriyə qayıt». İlqar Qurbanov ona verilən tapşırıqları icra edərkən Hacı Məmmədovun göstərişi ilə pulu götürmək istəyən İlqar Qurbanovun hərəkətlərini müşahidə edən Fərhad Məmmədbəyov beton plitənin arxasından görür.

İlqar Qurbanov zənbili qoyan kimi Fərhad Məmmədbəyov beton plitənin arxasından əlini uzadıb, zənbili özünə tərəf çəkir. Eldar Rəhimovla danışa-danışa geri qayıdarkən İlqar Qurbanov bunu görür. O, dərhal bu barədə ona zəng edən Eldar Rəhimova deyir. Eldar isə İlqara narahat olmamağı, zənbili götürən şəxsin öz adamları olduğunu deyir. Eldar Rəhimov həmçinin İlqara deyir ki, arxa şüşənin qabağında balaca qutu var, həmin qutunu da götürsün.

Sürücü Elton İsmayılov İlqar Qurbanovu yenidən Mülkiyyət Hüquqlarının Qeydiyyatı və Texniki İnventarlaşma İdarəsinin qarşısına gətirir. İlqar sürücüyə həmin dövrün kursu ilə 20 min manat pul verib, taksidən düşür. Taksidən düşərkən arxa şüşənin qabağında olan qutunu da götürür. Avtomaşına əyləşib metronun «Gənclik» stansiyasına çataçatda Hafiz Məmmədova zəng edir və ona bildirir ki, hər şey qaydasındadır, tapşırığa əməl olundu.

İlqar Qurbanov taksi maşınından götürdüyü qutunu açdıqda onun içərisində «Ericsson» markalı mobil telefon apparatı və həmin apparata bərkidilən mikrofonun olmasını görür. Yalnız bundan sonra İlqar Qurbanov başa düşür ki, bu aparat maşına onların danışığına qulaq asmaq məqsədi ilə qoyulub.

Fərhad Məmmədbəyov Məcid Məmmədovun azad edilməsi üçün verilən məbləği götürüb Nailə Quliyevanın yaşadığı ünvana gəlir. Hacı pulu hamamda gizlədib, qapısını açar-

la bağlayır. Çox keçmir ki, Elçin Əliyev də buraya gəlir. O, dayısı ilə pulun sayını və saxta olub-olmamasını yoxlayırlar. Hər şeyin qaydasında olduğunu görən Elçin Əliyev bir azdan çıxıb gedir.

Axşama yaxın Hacı Nizami Abdullayevə və Əsgər İsgəndərova tapşırır ki, Məcid Məmmədovu azad etmək üçün hazırlıq işlərinə başlasınlar. Nizami və Əsgər zirzəmi-kameraya düşüb, Məcid Məmmədovun gözlərini dəsmalla bağlayır, qollarını qandallayır və həyətə çıxarırlar. Maşının arxa oturacağında Məcid Məmmədov əyləşir, Hacı isə maşını idarə edir. Qabaq oturacaqda Hacının yanında cinaytkar bandanın fəal üzvü olan Nailə Quliyeva, arxa oturacaqda Məcid Məmmədovun yanında isə Nizami Abdullayev oturur. Zığ şosesindəki zeytunluqda Məcid Məmmədovun qollarındakı qandalı açır, cibinə 20 min manat taksi pulu qoyur və dərhal oradan uzaqlaşırlar. Məcid Məmmədov bir-neçə dəqiqədən sonra gözlərindən dəsmalı açır və ətrafa baxır. Dayandığı yeri müəyyənləşdirir və təpədən aşağı enib Zığ şosesinə çıxır. Yoldan ötüb keçən taksilərdən birinə əyləşib şəhərə gəlir.

Məcid Məmmədovun oğurlanmasından əldə olunan qənimətin bölgüsündə Hacı Məmmədovu tələsdirən Zakir Nəsirov Kislovodsk şəhərinə istirahətə hazırlaşdığından ona çatacaq payın tez çatdırılmasını tələb edirdi.

Hacı Məmmədov bu dəfə də əldə etdiyini bölərkən havadarları ilə aparılmış sövdələşməyə sadiq qalır, lakin cinayətkar dəstənin digər üzvlərini yenə də aldadır. O, avro-nu müxtəlif valyutadəyişmə məntəqələrində dollara çevirir. Zakir Nəsirov Kislovodskə getməmişdən bir gün qabaq 700 min dolları qəhvəyi rəngli diplomatda axşam saat 22-23 radələrində «Cıdır düzü» restoranının qabağında ona verir. Böyük rəisinə verilləndən bir qədər artığını isə özünə götürür. 100 min dolları Kamil Sədrəddinova, 150 min dolları Fərhad Məmmədbəyova, 30 min dolları Musa Dabuyevə, 8 min dolları isə Eldar Rəhimova verir. Əldə olunan qəniməti bölməzdən əvvəl

Nizami Abdullayev Hacıya demişdi ki, ona düşəcək pay avro ilə versin. Lakin Hacı Nizami Abdullayevə 250 mini avro ilə deyil, dollarla verir və onların arasında narazılıq yaranır.

Cinayətkar bandanın başçısı dəstə üzvlərindən Aslanbek Çintamirovu yenə də aldadır. O, Aslanbekə alınacaq məbləğin 20 faizini vəd etmişdi. Məcid Məmmədovun adamlarından, cəmi 400 min ABŞ dolları almasını deməklə, bu dəfə də Aslanbekə 50 min dollar verir.

Məcid Məmmədovun oğurlanmasından küllü miqdarda pul əldə edən və bu əməliyyatı son dərəcə uğurlu hesab edən Hacı Məmmədov yaxşı istirahət etmək fikrinə düşür. O da Zakir Nəsirov kimi əldə etdiyi pullarla Kislovodskidə əylənmək istəyir. Qalan pulu diplomata yığıb, onu kodlaşdırır və Kislovodskidən qayıdana kimi saxlamaq üçün Fərhad Məmmədbəyova verir. Hacı Fərhad Məmmədbəyovun işdəki «xidmətlərini» nəzərə alıb 10 MB 292 dövlət qeydiyyat nişanlı «Mitsubhishi YEER» markalı və 10 GM 023 dövlət qeydiyyat nişanlı «Mercedes-300» markalı avtomaşınları ona bağışlayır. Fərhad Məmmədbəyov Hacı Məmmədovun verdiyi 60 min dollarla «Amay» Ticarət Mərkəzindən mağaza alır.

Hacı Məmmədov da Fərhad Məmmədbəyovdan geri qalmır. O da 2003-cü ilin may və iyun aylarında qeyri-rəsmi yaşadığı arvadı Nailə Quliyevanın adına «Amay» Ticarət Mərkəzindən 125 min ABŞ dollarına iki mağaza, 145 milyon manata isə Dilarə Əliyeva küçəsi, 670-ci məhəllədə tikilən yeni yaşayış binasından üç otaqlı mənzil alır. Lakin göz yaşları ilə toplanan pullarla alınan həmin mağaza və evlər onlara qismət olmur.

General sifarişini geri götürdü



Məcid Məmmədov Hacının girovluğundan azad olunduqdan sonra onun azad olunması üçün övladlarının topladığı borcları qaytarmaq barədə fikirləşirdi.

Hacı Məmmədov və onun idarə rəisi isə istirahət etdikləri Kislovodsk şəhərindən qayıdan kimi adam oğuruluğuna görə aldıqları pulları hələ yerbəyer etməkdə davam edirdilər. Hacı Məmmədovun idarə rəisi axırıncı cinayətdən iki ay sonra Hacı Məmmədovu yanına çağırıb, «Əzizbəyov» metrostansiyası yaxınlığında fəaliyyət göstərən «Gön-Dəri» fabrikinin direktoru Yura kimi tanınan Yaruxom İliyevi oğurlamaq sifarişini verir. Zakir Nəsirov əlavə olaraq onun haqqında məlumat verərək bildirir ki, o, yəhudidir və Bakıya Moskvadan gəlib. Həm onun, həm də Moskvada yaşayan qardaşı Lazerin yaxşı imkanı var. Yaruxom İliyev Bakıda zavod alıb və onu təzədən tikdirir. Eyni zamanda o, deyir ki, oğurladığı şəxslərin qohumları həmişə onun yanına gəlir və qohumlarınının azad olunması üçün ondan kömək istəyirlər. O isə onlara məsləhət verir ki, gedib pullarını verib qohumlarını azad etdirsinlər. Yaruxom İliyevin də qardaşları onunla tanışdır. İstər-istəməz ona müraciət edəcəklər. Onun yanına gələn kimi o da onları başa salacaq

ki, qardaşının azad olunmasını istəyirsə, gedib tələb olunan pulu versinlər.

Yura kimi tanınan zavod direktoru tez-tez Hacı Məmmədovun sahibkarı olduğu Qusar rayonunun «Qarabulaq» istirahət mərkəzinə getdiyinə görə onu Hacı Məmmədov, həmçinin orada işləyən Zakir Nəsirovun qohumu İbrahim Bağırov (Yaşar) da tanıyır. Belə ki, Yaruxom İliyevlə İbrahim yaxın münasibətdə idilər.

Hacı Məmmədov xidməti işində rəisi və cinayətkar fəaliyyətində havadarı olan Zakir Nəsirovun tapşırığını aldıqdan sonra Yaruxom İliyevi oğurlamaq məsələsi ilə məşğul olmağa başlayır. Bu məqsədlə əvvəl Yaruxomun iş yerini müəyyən etməklə bir neçə məlumat əldə edir. Sonra isə bu işin davamını həmin ərazi üzrə polis şöbəsində əməliyyatçı işləyən, onunla dostluq münasibətində olan Mehman Həsənova tapşırır ki, Yaruxom İliyevin ailə üzvlərini, kiminlə oturub-durmasını və gəlir mənbəyini öyrənsin.

Mehman Həsənov bir müddət bu işlə məşğul olur. Sonradan o da verilən tapşırığın yerinə yetirilməsini vəzifə bölgüsünə görə həmin ərazi səlahiyyətinə aid olan Müslüm adlı polis əməkdaşına həvalə edir. Müslum verilən tapşırığın nə ilə əlaqədar olduğunu bilmədiyinə görə bircə onu öyrənir ki, Yaruxom İliyev Moskvadan gəlib, biznes adamıdır, sürücüsü «JEEP» markalı maşını olduqca sürətlə idarə edir və maşında silah gəzdirir.

Həmin məlumatlar Hacı Məmmədovu təmin etmədiyinə görə o, cinayətkar birliyin tərkibində fəaliyyət göstərən ikinci qrupun üzvü Husain Abdulvahabov və Fərhad Məmmədbəyovu Nailə Quliyeva ilə yaşadığı mənzilə toplayır.

Hacı Məmmədov birinci qrupdan Husain Abdulvahabova, ikinci qrupdan isə Fərhad Məmmədbəyova Yaruxom İliyevi oğurlamaq üçün izləməyi tapşırır. Bu əməliyyatı yerinə yetirmək üçün özü idarə etdiyi «Vaz-2106» markalı avtomaşınla, Fərhad isə Hacı Məmmədovun tapşırıqlarını yerinə

yetirmək üçün polis şöbəsində işləyən Mehman Həsənova bağışladığı «Vaz-21099» markalı maşın ilə əməliyyata başlayırlar.

Bir müddət keçdikdən sonra Husain Abdulvahabov Hacı Məmmədova bildirir ki, Yaruxom İliyevin evini, işdən evə gəldiyi vaxtı və yolunu dəqiqləşdirib. Husain Abdulvahabov həmçinin Hacı Məmmədova bildirir ki, işə zirək bir qızı da qoşub. Zirək qız xəbəri Hacı Məmmədovu narahat edir və qadınla iş gördüyünə görə Husain Abdulvahabova narazılığını, hətta iradını bildirir. Hacı Məmmədov ondan həmçinin Yaruxom barədə həmin qadına nə dediyini soruşduqda, Husain Abdulvahabov onu əmin edir ki, qıza bu barədə heç nə deməmişdir.

Husain Abdulvahabov Hacı Məmmədovu əmin etməyə çalışsa da Hacı ona inanmır. Artıq qızın bu məsələdən xəbəri vardı. Qızın adı Rəna, soyadı Nəsibova idi. O, «Knauf» firmasının Ə.Quliyev küçəsi, 65 saylı ünvandakı ofisində işləyirdi. Rəna Nəsibova əvvəlcə Husain Abdulvahabovun kiçik qardaşı Ruslanla tanış olmuşdu. Onların tanışlığı sonralar yaxın münasibətə keçmişdi. Husain Abdulvahabovun digər qardaşı Sidek Abdulvahabov həmin vaxt Azərbaycan Respublikası ərazisindəki cəzaçəkmə müəssisələrinin birində başqa adla cəzasını çəkirdi. Rəna Nəsibovanın özü də milliyyətcə çeçen olan qardaşlarla birlikdə tez-tez Sidekin cəza çəkdiyi cəzaçəkmə müəssisəsinə gedir və ona lazımi ərzaq şeyləri ilə kömək edirdi. Ruslan Abdulvahabov Rəna Nəsibovanı qardaşı ilə tanış etdikdən sonra qızın Husain Abdulvahabovla da yaxın münasibəti yaranır və onların gündəlik söhbətlərində o da iştirak edir. Söhbətlərin birində Ruslan Rəna Nəsibovaya danışır ki, Bakı şəhərində törədilən bəzi cinayətlər də onların işidir. O, həmçinin bildirir ki, Rövşən Əliyev də həmin dəstə üzvləri tərəfindən öldürülüb. Ruslan və onun qardaşının danışıqlarından sonra Rəna Nəsibova başa düşür ki, DİN-də işləyən Hacı Məmmədov adlı şəxs Bakıda

adam oğurluqları ilə məşğul olur. Onların növbəti oğurlayacağı adam «Gön-Dəri» fabrikinin direktoru Yaruxom İliyev olacaq. O, eşitdikləri barədə qardaşı Şamil Nəsibovu da məlumatlandırır.

Rəna Nəsibova məsələnin ciddiliyini nəzərə alıb, məsləhət üçün yaxından tanıdığı və hüquq-mühafizə orqanlarında işləmiş Şaiq Salmanovun mobil telefonuna zəng edib, onunla təcili görüşmək istədiyini bildirir. Onların görüşü baş tutur. Görüşdə Rəna Nəsibova Şaiq Salmanova danışır ki, o, özündən bir neçə yaş kiçik milliyyətcə çeçen Ruslanla yaxınlıq edir. Ruslan söhbət əsnasında danışıb ki, polis polkovnik-leytenantı, «Malakan» bağının yaxınlığındakı binaların birində yaşayan Hacı adlı şəxsin rəhbərliyi ilə Bakıda adam oğurluğu ilə məşğul olan cinayətkar dəstə fəaliyyət göstərir. Dəstə hazırda yəhudi millətindən olan «Gön-Dəri» fabrikinin direktorunu oğurlamağı planlaşdırır. Ruslanın böyük qardaşı hazırda başqa adla Bakıdakı cəzaçəkmə müəssisələrinin birində cəza çəkən Sidek Abdulvahabov da onun bandasının üzvüdür və həmin çeçenin deməsinə görə Rövşən Əliyevi də Hacı öldürmüşdür. Şaiq Salmanov Rəna Nəsibovadan həmin məlumatları alandan sonra onu Respublika Baş Prokurorluğunun və Milli Təhlükəsizlik Nazirliyinin məsul əməkdaşları ilə görüşdürür.

Rəna Nəsibovanın qardaşı, Şaiq Salmanov və hüquq-mühafizə orqanı əməkdaşları ona tövsiyə edirlər ki, bir qədər ehtiyatlı olsun, həmin cinayətkarlar onu da öldürə bilərlər…

Rəna Nəsibova öldürülür. Lakin həmin cinayətkarlar tərəfindən deyil, 17 iyun 2004-cü il tarixdə işlədiyi «Knauf» firmasının Əlövsət Quliyev küçəsi, 65 saylı ünvanında fəaliyyət göstərən ofisdə aralarında olan pul mübahisəsi üstündə Novruz Nuriyev tərəfindən.

Rəna Nəsibova hazırlanan cinayət barədə Baş Prokurorluğa və Milli Təhlükəsizlik Nazirliyinə məlumat verdiyinə görə həmin dövlət orqanlarının nümayəndələri «Gön-Dəri»

fabrikinin direktoruna zəng edərək, onunla görüşmək istədiklərini bildirirlər. Fabrikin direktoru onlarla istədikləri yerdə görüşməyə hazır olduğunu bildirir. Odur ki, zəng edən şəxslər təxirə salınmadan görüşmək istədiklərinə görə onların görüşləri zəng olunan gün «Gön-Dəri» fabrikinin metronun «Əzizbəyov» stansiyası yaxınlığındakı ofisində baş tutur. Nümayəndələr Yaruxom İliyevə bildirirlər ki, Bakı şəhərində cinayətkar qrup fəaliyyət göstərir. Cinayətkar qrup onu oğurlamağı planlaşdırıb. Cinayətkarların izinə düşüblər və yaxın vaxtlarda onları həbs edəcəklər. Ona görə də məsləhət bilirlər ki, hələlik onları həbs edənə kimi özünün və ailəsinin mühafizəsini gücləndirsin. Şəhərdə təklikdə gəzməsin, öz maşınını tanımadığı polis işçiləri üçün saxlamasın və son dərəcə ehtiyatlı olsun. Nəhayət, aralarında olan söhbət barədə heç kimə danışmamaq barədə ona xəbərdarlıq edirlər. Bundan sonra Yaruxom İliyev mühafizəsini gücləndirir. Mühafizəçisini qanuni yolla əldə etdiyi «Vinçestr» silahı ilə təmin edir. Ailəsini bir müddət Bakıdan kənara – Moskvaya göndərir.

Yaruxom İİiyev Respublika Baş Prokurorluğunun və Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları ilə aralarında olan söhbəti üçüncü şəxsə deməyəcəyinə söz versə də buna əməl etmir. O, özü ilə və Zakir Nəsirovla yaxın münasibətdə olan Şirin Şuminov və Arzu adlı şəxslərə də bu barədə danışır. Yaruxom İliyevin oğurlanmasının Zakir Nəsirov tərəfindən sifariş olunduğunu bilməyən Şirin Şuminov və Arzu adlı şəxsin vasitəsi ilə DİN Cinayət Axtarışı İdarəsinin rəisinin yanına gedir və bu barədə onunla məsləhətləşmək istəyir.

Həmin nümayəndələrlə olan görüşdən bir neçə gün sonra Arzu adlı şəxs Zakir Nəsirova zəng edir və Yaruxom İliyevlə onun yanına gəlmək istədiyini bildirir. Zakir Nəsirov onları qəbul edir. Yaruxom İliyev onun yanına gələnlər haqqında və onlarla olan söhbətin hamısını danışır. Əlavə olaraq ondan soruşur ki, həqiqətənmi MTN aə Respublika Baş Prokurorluğunda deyilən adda əməkdaşlar işləyir, yoxsa onun

kommersiya fəaliyyətindən çəkindirmək məqsədi ilə onun yanına gəliblər. Zakir Nəsirov onları dinləyir və bildirir ki, həmin orqanarda deyilən əməkdaşlar işləyir. Həmçinin ona deyir ki, çalışacaq həmin cinayətləri açsın. Yaruxom İliyev yazıb ərizə vermək istədikdə Zakir Nəsirov məsləhət bilmir və bildirir ki, bu elə bir ciddi məsələ deyil.

Onlarla söhbətdən sonra Zakir Nəsirov Hacı Məmmədovu təcili yanına çağırır və Yaruxom İliyevi oğurlanması əməliyyatını dayandırmağı tələb edir. Hacı Məmmədov da Husain Abulvahabova, Fərhad Məmmədbəyova və Mehman Həsənova göstəriş verir ki, Yaruxom İliyevi izləməyi dayandırsınlar. Beləliklə, general verdiyi sifarişi geri götürür. Yaruxom İliyevin ehtiyatsızlığı isə cinayətkar birliyin ifşa edilməsi üçün keçirilməli olan əməliyyatı pozur və Hacı Məmmədovun, onun havadarlarının, cinayətkar birliyin digər üzvlərinin ifşa olunması bir neçə il də uzanır.

Hacı Məmmədovun on birinci qətli

1995-ci ildən 2004-cü ilə kimi Hacı Məmmədov və onun rəhbərlik etdiyi cinayətkar bandasının hesabında 10 ölüm hadisəsi var idi. Bunlar «Azərmebel» İstehsalı və Satışı Konserninin prezidenti Nazim Paşayev və onun sürücüsü Natiq Abbasov, cinayətkar silahdaşları Şirxan Albiyev, Boris Ayyubov, Ruslan Ukuşev və Dilbər Novruzova idi. Daha sonra Abşeron rayonunun Saray qəsəbə sakinləri Mehman Səmədov, Saray qəsəbəsindəki qəbiristanlıqda gözətçi işləyən Novruz İsmayılov, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin şöbə rəisi polkovnik-leytenant Azər İsmayılov və Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır Cinayətlərə dair İstintaq İdarəsinin rəis müavini Rövşən Əliyev idi.

Qətlə yetirilənlərin bəziləri, bir qayda olaraq, düşmənə qarşı döyüş zamanı işlədilən avtomat silahlarla, «Makarov» tipli tapançalarla, bıçaqla, armatur parçası ilə, başlarına kisə keçirib boğmaqla və şəxsən Hacı Məmmədov tərəfindən bədənlərinə narkotik maddələr yeritməklə öldürülüblər.

Bu qətl hadisələrilə bağlı fakta görə cinayət işləri açılsa da, istintaq-əməliyyat hərəkətləri edilsə də, doq-

quz il ərzində həmin şəxsləri qətlə yetirənlər ifşa edilməmişdi. Azadlıqda qalıb və cəzalandırılmadıqlarını görən Hacı Məmmədov və onun havadarları artıq fəaliyyətlərinin onuncu ilində on birinci qətl hadisəsini planlaşdırırlar.

Hacı Məmmədovun on birinci qurbanı hüquq-mühafizə orqanlarının tanınmış əməkdaşı və sonradan isə AFFA-ın vitse-prezidenti, polis polkovniki Fətulla Hüseynov oldu. Polkovnik Hacını və onun bacısı oğlu Elçin Əliyevi uşaqlıqdan tanıyırdı. Hacı Məmmədov qonşuluqda, Elçin Əliyevlə Fətulla Hüseynov isə bir həyətdə – Rəşid Behbudov küçəsi, 8 saylı ünvanda yaşayıblar. Elçin Əliyev Fətulla Hüseynovun oğlanları Tahir və Adillə də dost olub və bir həyətdə böyüyüblər. Elçin Əliyevlə Adil Hüseynovun dostluğu biznes fəalliyəti üçün zəmin yaradıb. Bu məqsədlə onlar Azadlıq prospektindəki 18 saylı ünvanda eyni məbləğdə pul qoymaqla bir neçə otaqdan ibarət mənzilləri rəsmi qaydada əldə ediblər. Həmin dövrdə Adil Birləşmiş Ərəb Əmirliyində olduğundan və birbirlərinə inandıqlarından evlərin alğı-satqısı ilə Elçin Əliyev məşğul olurdu. Azərbaycan Beynəlxalq Bankının yeni filiallarının açılması və həmin bankın Nəsimi filialında onların işləmək imkanları olduğu üçün aldıqları mənzillərin təmir işlərini də yerinə yetirirlər. Gələcəkdə işləyəcəkləri bankın ofisini özləri özlərindən icarəyə götürə bilməyəcəklərini nəzərə alaraq, həmin mənzilləri öz adlarına deyil, məhz Hacı Məmmədovun və Elçinin atası Eldar Əliyevin adına rəsmiləşdirirlər. Son nəticədə mənzillər Azərbaycan Beynəlxalq Bankına onların özlərinə məxsus «AST» və «Fidan» firmaları vasitəsilə icarəyə verilir və həmin yerdə Azərbaycan Beynəlxalq Bankının Bakı şəhər Nəsimi rayon filialı açılır. Fətulla Hüseynovun oğlu Adil filialın müdiri, Elçin Əliyev isə əvvəlcə baş xəzinədar, sonra isə müavin təyin olunur və bir müddət birlikdə işləməli olurlar. Bu mənzillərin icarəyə verilməsi nəticəsində alınan pulun bir hissəsi mənzillərin təmirinə, digər hissəsi isə Elçin Əliyev tərəfindən məlum olmayan kreditlərin bağlan-

masına getdiyi üçün şəriklərin arasında sərinlik, daha sonra isə narazılıq yaranır. Daha sonra hər ikisi bu filialdan işdən çıxarılır. Elçin Əliyev sonradan Beynəlxalq Bankın Sabunçu filialına müdir təyin olunur.

Azadlıq prospektindəki mənzillər Hacı Məmmədov və Elçinin atası Eldar Əliyevin adında olsa da, icarə haqlarının alınması ilə Elçin Əliyevlə Adil Hüseynov məşğul olurlar. Həmin icarə haqlarından birgə istifadə etmək və onun xərclənməsi ilə bağlı söz-söhbət son nəticədə onlar üçün maliyyə mübahisələrinə və problemlərə gətirib çıxarır. Bu problemlərin həlli ilə bağlı Hacı Məmmədov Adil Hüseynovun atası Fətulla Hüseynova bildirdikdə o, aldığı cavabdan narazı qalır. Həm bu narazılığa, həm də Hacı Məmədovun ürəyində olan və ancaq onun özünə bəlli olan digər səbəblərə görə bu problemləri Adilin atası Fətulla Hüseynovu öldürməklə həll etmək fikrinə düşür. Nailə Quliyevanın evində toplaşdıqları vaxt o, Fərhad Məmmədbəyova da bu barədə fikrini açır. Lakin Hacı bu işi boynuna götürəcək adamı axtarmaq lazım gəldiyini bildirir.

Hacı Məmmədov xeyli götür-qoydan sonra Fətulla Hüseynovu öldürməyi adam oğurluqlarında onun ən yaxın və etibarlı silahdaşlarından olan Aslanbek Çintamirova tapşırmaq qərarına gəlir. Bu məqsədlə o, 2004-cü il iyun ayının əvvəllərində Aslanbek Çintamirovu Nailə Quliyevanın yaşadığı mənzilə çağırır. O, Aslanbekə təklif edir ki, Eldar və Yagirlə bir şəxsi qətlə yetirmək lazımdır. Həmin şəxs əvvəllər polis orqanlarında çalışıb. Hazırda Futbol Federasiyasının vitse-prezidentidir. Adı, soyadı Fətulla Hüseynovdur. Onun oğlu ilə onların biznes işlərində böyük problemlər yaranıb. Fətulla Hüseynovun oğlu Adil onlara rahatlıq vermir. Qətli törətməyə razı olacağı təqdirdə ona 5000 ABŞ dolları verəcəyinə və gələcəkdə onu yaxşı kriminal işlərə cəlb edəcəyinə söz verir. Hacı Məmmədov daha sonra bildirir ki, Fətulla Hüseynovun yaşadığı ünvana gedəcəklər, evdən çıxarkən

onu öldürəcək. Aslanbek «təki ortada pul olsun» – deyə Hacı Məmmədovun təklifini qəbul edir. Həmin razılaşmadan sonra Hacının Aslanbeklə dəfələrlə bu barədə söhbətləri olur.

Hacı Məmmədov Aslanbek Çintamirovun razılığını aldıqdan sonra dərhal bu əməliyyatı həyata keçirmək istəsə də, buna imkan olmur. Fətulla Hüseynov 3 iyun 2004-cü ildə Azərbaycan və Latviya milli yığmaları arasında keçirilən futbol üzrə yoldaşlıq görüşündə Riqa şəhərində ezamiyyətdə olması bu işi təxirə salır. Altı iyundan yeddisinə keçən gecə o, Bakıya qayıdır. Səhhətindəki narahatçılıqla bağlı, xüsusilə, göz təzyiqinin olması ilə əlaqədar bir neçə gün oğlu Tahirlə «Diamed» tibb mərkəzində olur. Qətlə yetirilməmişdən bir gün qabaq, yəni 13 iyun 2004-cü il tarixdə evdə olmur. O gün oğlu Tahir Hüseynov istirahət etmək üçün valideynlərini Qəbələ rayonuna aparır və günün axırında – təxminən saat 19 radələrində Bakıya qayıdır.

Əməliyyata hazırlıq dövründə Hacı Məmmədov Fətulla Hüseynovu qətlə yetirəcək cinayətkar birliyin üzvlərini yaşadığı ünvana toplayıb, əməliyyatın bütün xırdalıqlarını dəqiqləşdirir. Eyni zamanda onlar arasında «vəzifə» bölgüsü aparır və işarə verən kimi toplaşmağı tapşırır.

Hacı Məmmədovun əməliyyata başlamaq işarəsi özünü çox da gözlətmir. 14 iyun 2004-cü il tarixdə saat 7 radələrində Fətulla Hüseynovu qətlə yetirmək üçün hazırlanan cinayətkar dəstə hazır vəziyyətdə Hacı Məmmədovun əməliyyata başlamaq işarəsini gözləyirlər. Hacı əvvəl Eldar Rəhimova idarə etdiyi «Vaz–2106» markalı avtomaşın üçün bir ədəd saxta dövlət nömrə nişanı verir. Yagir Məmmədova da göstəriş verir ki, idarə etdiyi maşını həyətdə saxlayıb, ona məxsus «Niva» markalı avtomaşını sürsün. Hacı və Aslanbek Yagirin idarə etdiyi «Niva» markalı avtomaşına əyləşirlər. Hacı Fərhada və Eldara göstəriş verir ki, maşınları onun arxasınca sürüb anasının yaşadığı Rəşid Behbudov küçəsinə gəlsinlər. Fətulla Hüseynovu qətlə yetirmək üçün Hacının yaratdığı si-

lahlı dəstə üç avtomaşınla Xətai rayonu ərazisindən şəhərin mərkəzinə doğru hərəkət edirlər. Yolda Hacı Məmmədov Aslanbek Çintamirova bir ədəd «Makarov» tipli tapança və iki ədəd patronla dolu daraq verir. Deyilən yerə bir az qalmış Hacı Məmmədov «Niva» markalı avtomaşından düşür, orada «Mercedes» markalı avtomaşında onu gözləyən Fərhadın idarə etdiyi maşına əyləşir. Hacı isə əməliyyata rəhbərlik etmək üçün maşında gözləyir. Yagir və Aslanbek R.Behbudov küçəsi, 8 saylı evin girəcəyində «Niva» markalı avtomaşında oturub qabaqcadan razılaşdırılan şərtə görə Eldar Rəhimovun idarə etdiyi avtomaşınla həyətdən çıxmasını gözləyirlər.

Yagir Məmmədov və Aslanbek Çintamirov həyətin girəcəyinə çatmamışdan Eldar Rəhimov idarə etdiyi ağ rəngli saxta dövlət nömrə nişanlı «Vaz-2106» markalı avtomaşını Fətulla Hüseynovun yaşadığı həyətə sürür. Qarajların qarşısında maşını saxlayıb yerə düşür, siqaret yandırıb qarajların yanından burularaq R.Behbudov küçəsinə doğru hərəkət edir. Maşınlara gözətçilik edən Əşrəf Ağaverdiyev arxadan onu səsləyərək nəqliyyat vasitəsini düzgün saxlamadığını və maşının qarajdan çıxa bilməyəcəyini deyir. Eldar Rəhimov bildirir ki, indi geri qayıdacaqdır. O, təxminən saat 8.20 radələrində sağdakı binanın ikinci mərtəbəsində yaşayan Fətulla Hüseynovun pilləkənlə aşaqı düşdüyünü görür. Bundan sonra Eldar Rəhimov böyük sürətlə maşını sürüb həyətdən çıxır və maşını Nəsrəddin Tüsi adına Universitetin qarşısında saxlayır. Eldar Rəhimovun maşını saxlamadan sürətlə sürüb həyətdən çıxması və Yagir və Aslanbekə Fətulla Hüseynovun piləkənllərdən düşməsinə işarə idi. Yagir dərhal Aslanbekə maşından düşüb, həyətə girməsini tələb edir. Aslanbek həyətə daxil olan kimi Yagir Hacının tapşırığına əsasən idarə etdiyi avtomaşını köhnə dəyirmanın yaxınlığındakı elektrik malları mağazasının qabağında saxlayır.

Fətulla Hüseinov yaşadığı evin pilləkənlərindən həyətə düşür və AZ 10 HV 008 dövlət nömrə nişanlı «Toyota Cam-

ry» markalı avtomaşının sükanı arxasına keçir. Bu vaxt Aslanbek əlindəki «Makarov» tipli tapança ilə 7 dəfə atəş açır. Fətulla Hüseynovun ölməsinə əmin olduqdan sonra Aslanbek həyətdən çıxır və evin tinində onu gözləyən Eldar Rəhimovun idarə etdiyi avtomaşına əyləşib, köhnə dəyirman istiqamətində hərəkət edir. Dəyirmanın yanında nəqliyyat vasitəsini dəyişir, Fərhad Məmmədbəyovun idarə etdiyi «Mercedes» markalı avtomaşına əyləşərək, Hacı Məmmədovun yaşadığı evə gəlir. Hacının tapşırığını yerinə yetirən Aslanbek tapança və patron darağını ona qaytarır. Hacı Məmmədov isə ona vəd vetdiyi 5000-i deyil, 3500 ABŞ dollar verir. Gələcəkdə ona yenə də yaxşı kriminal işlər verəcəyinə söz verir.

Beləliklə, Fətulla Hüseynovun qətlə yetirilməsi Hacı Məmmədovun cinayətkar bandasının fəaliyyətində on birinci və axırıncı ölüm hadisəsi olur.

Hacı Məmmədovun son gecəsi

Hacı Məmmədov on il idi ki, cinayətkar fəaliyyətini davam etdirirdi. İşi düz gətirsəydi o, 2005-ci ilin sentyabr ayında cinayətkar fəaliyyətindəki «uğurlarının» on illik «yubileyini» yeni-yeni sürprizlərlə bəlkə də qeyd edəydi. Lakin nə ona, nə də ki, onun arxasında durub yeni-yeni adam oğurluqlarını və insan qətllərini sifariş verən və bu cinayətləri törətməyə onu təhrik edərək arxasında duranların heç birinə qismət olmadı.



Hacı və onun cinayətkar bandasının iştirakçıları həmin müddət ərzində özgə əmlakını ələ keçirməklə Viktor Əhmədov, Afaq Məlikova, Şahin Paşayev, İlqar Həsənovun evlərinə və özlərinə silahlı basqın etməklə quldurluq etmələri, Dövlət Neft Şirkətinə məxsus avtomaşını oğurlamalarından başqa on bir qətl və o qədər də adam oğurluğu cinayəti törətmişdilər.

Qətlə yetirilənlərin arasında cinayətkar birliyin silahdaşları olmaqla yanaşı, iş və paqon yoldaşı olan prokurorluq və Daxili İşlər Nazirliyinin tanınmış əməkdaşları, duz-çörək kəsdiyi, uşaqlıqdan bir-birini tanıyıb yoldaşlıq və qonşuluq etdiyi insanlar, qadın və hətta qəbiristanlıqda gözətçi işləyən şəxs də olub.

Hacı on ildə oğurladığı 10 nəfərin doqquzunun azad edilməsinə görə

onların qohumlarından 4 milyon 30 min ABŞ dolları və 2 milyon avro alıb cinayətkar birliyin üzvləri arasında bölmüşdür. Oğurlamaq istədikləri onuncu adam Anar Sultanov olub. Lakin DİN-nin Post-Patrul Xidməti əməkdaşları təsadüfən bunun qarşısını aldığına görə onlar onu oğurlaya bilmir, daha doğrusu, bu işdən vaz keçirlər.

Bu müddət ərzində cəzasız qalan cinayətkar banda başçısı Hacı Məmmədov, onun havadarları və digər üzvləri oğurladıqları adamların yaxınlarından aldıqları küllü məbləğdə pulu xərclədikcə iştahaları daha da artır və hər dəfə onların azad edilməsi üçün tələb olunan məbləği artırırdılar. Cinayətkarlar bandanın «onillik yubileyinə» töhfə kimi çox zəngin bir şəxsi oğurlamaqla daha böyük mənfəətə sahib olmaq istəyirdilər. Bu işdə Hacının bacısı oğlu Elçin Əliyev onları çox da intizarda qoymur. Tezliklə Hacı Məmmədovun hüzuruna gələn Elçin dayısına Beynəlxalq Bankının İdarə Heyətinin sədri və ya onun ailə üzvlərindən birinin oğurlanması sifarişini verir.

Hacı Məmmədov həmin namizədi çox yaxşı tanıyırdı. Elçin Əliyev hələ 1995–1996-cı illərdə Azadlıq prospekti, 18 saylı ünvandakı bir neçə evi Fətulla Hüseynovun oğlu Adillə birlikdə satın almış və təmir etdikdən sonra Azərbaycan Beynəlxalq Bankına icarəyə vermişdi. Benəlxalq Bank isə həmin ünvanda özünün Nəsimi filialını yaratmışdı. Daha sonra Beynəlxalq Bankın İdarə Heyətinin sədri humanistlik göstərərək Elçin Əliyevi işə götürmüşdü. O, 1997-ci ildən Elçin Əliyevi Beynəlxalq Bankın Nəsimi filialının baş xəzinədarı, 1999-cu ildən həmin filialın müdir müavini, 2000-ci ildən isə Sabunçu rayon filialının müdiri təyin etmişdi.

2004-cü ildə «Kapitalbank»ın İdarə Heyətinin sədr müavini vəzifəsinə keçən Elçin Əliyev Cahangir Hacıyevin etdiyi yaxşılıqların üstündən qırmızı xətt çəkir, hörmətin əvəzini pisliklərlə qaytarmağı qərara alır. Belə yerdə deyərlər: «Oğul dayıya bənzər»

Elçin Əliyevin sifarişi Hacının ürəyindən olur. Dərhal banda üzvlərindən Aslanbek Çintamirova və Eldar Rəhimova Beynəlxalq Bankın İdarə Heyətinin sədri ətrafında iş aparmağı tapşırır. Seçdikləri namizəd barədə ilk növbədə xidməti işi üzrə böyük rəisi və şöbə rəisi ilə məsləhətləşməyi lazım bilir. Rəislərin hər ikisi əməliyyatın uğurlu alınmasına xeyir-dua verirlər.

Elçin Əliyevin təklif etdiyi namizədin oğurlanması üçün hazırlıq hərəkətlərinə başlanılır. Bu məqsədlə Rövşən Ağayev və Yagir Məmmədova tapşırır ki, Nailə Quliyevanın mənzilindəki saunanın alt mərtəbəsindəki zirzəmini qaydaya salsınlar. Cinayətkar bandanın üzvləri Rövşən və Yagir Hacının tapşırıqlarını qısa müddətdə yerinə yetirirlər. Yeni arakəsmə düzəltdirir, zirzəmiyə əlavə kamera və girovun keşiyini çəkənlərin otağına isə oğurlanan şəxsin hərəkətlərinə nəzarət etmək üçün monitor qoydurur. Hacı bacısı oğlu Elçinə tapşırır ki, oğurlayacağı şəxsin əməliyyatında və girov saxlayacağı adamın yaxınları ilə danışıqlar aparılmasında istifadə ediləcək telefonların əldə edilməsi üçün saxta şəxsiyyət vəsiqəsi və ya sürücülük vəsiqəsi tapılması ilə məşğul olsun.

Banda üzvləri Hacı Məmmədovun verdiyi tapşırıqların yerinə yetirilməsi ilə məşğul olmağa başlayırlar. Elçin Əliyev Azərbaycan Beynəlxalq Bankının Sabunçu filialından tanıdığı və həmin bankda İnformasiya texnologiyaları üzrə baş mütəxəssis vəzifəsində işləyən Azər Əliyevin köməyindən istifadə etmək qərarına gəlir. O, Azər Əliyevi yanına çağırır və tapşırır ki, hüquqi sənədləri hazırlamaq üçün ona köməklik etsin. Azər Əliyevə təklif edir ki, Azərbaycan Beynəlxalq Bankının Sabunçu filialının balansındakı skaneri, kompyuteri və rəngli printeri «Kapitalbank»a gətirsin. Azər Əliyev Elçinin təklifi ilə razılaşır və qısa vaxtda onun tapşırığını yerinə yetirərək, 2004-cü ilin sonu və 2005-ci ilin əvvəllərində kompyuter avadanlıqlarını bir neçə gündə müxtəlif vaxtlarda Beynəlxalq Bankın Sabunçu filialından

«Kapitalbank»a gətirir və onları bankın konfrans zalında quraşdırır.

Azər Əliyev həmin kompyuter avadanlıqlardan istifadə edərək, sənədlərin üzərində cinayətkar bandanın üzvü Eldar Rəhimovun fotoşəklini əks etdirməklə, ayrı-ayrı adamların adına saxta sürücülük və şəxsiyyət vəsiqələri hazırlayır. Sənədlərin üstünə Eldar Rəhimovun eynəkli şəkilləri yapışdırılır. Saxta şəxsiyyət və sürücülük vəsiqələrində isə adlar, soyadlar və digər məlumatlar isə başqa şəxslərə məxsus olurdu. Bundan sonra Hacı Məmmədov həmin saxta sənədləri üzlətdirirdi.

2004–2005-ci illərdə Eldar Rəhimov və Fərhad Məmmədbəyov «28 May» metrostansiyası yaxınlığındakı mobil telefon aparatları və Sim-kartlar satılan mağazalardan çox sayda mobil telefon və nömrələr alırlar.

Eldar Rəhimov və Aslanbek Çintamirov Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədri izlədikləri bir vaxtda Hacı Məmmədov cinayətkar fəaliyyətinin onuncu son yeni ilini təntənəli qarşılamaq üçün 2004-cü il dekabrın 31-də «Qarabulaq» istirahət mərkəzində Yeni il şənliyi təşkil edir. Yeni il şənliyində Hacı Məmmədovdan başqa cinayətkar bandanın üzvlərindən Fərhad Məmmədbəyov, Elçin Əliyev və başqaları da iştirak edir.

İzlənməsindən xəbərsiz olan C.Hacıyev bir neçə dostu ilə ailəvi Yeni ili qarşılamaq üçün «Qarabulaq» İstirahət Mərkəzinə gedirlər. C.Hacıyevin «Qarabulağ»a gəlişi Hacı Məmmədov üçün gözlənilməz olsa da, bundan da istifadə etməyə çalışır. Ona yaxınlaşır və özünü «Qarabulaq» İstirahət Mərkəzinin sahibi kimi təqdim edir. Söhbət əsnasında bildirir ki, bacısı oğlu Elçin Əliyev də Beynəlxalq Bankın Sabunçu filialının müdiri işləyib və ona qarşı yaxşı münasibətdə olmasına görə minnətdarlığını bildirir. C.Hacıyev ətrafa diqqət yetirdikdə Elçin Əliyevin onların stolundan bir qədər aralıda ailəsi və yoldaşları ilə oturduğunu görür. Hacı Məmmədov elə ora-

daca Fərhad Məmmədbəyova göstəriş verir ki, C.Hacıyevin hərəkətlərinə diqqət yetirsin.

Hacı Məmmədov «Qarabulaq» İstirahət Mərkəzindən müxtəlif təyinatlar üzrə istifadə edirdi. Burada o, bir tərəfdən biznes fəaliyyətini genişləndirir, digər tərəfdən isə cinayətkar bandanın törədəcəkləri qətllərin və adam oğurluqlarının planını cızırdı. Azərbaycan Beynəlxalq Bankının mərkəzi filialının müdiri Anar Sultanov və «Gön-Dəri» fabrikinin direktoru Yaruxom İliyev də Hacı Məmmədovun sahibi olduğu «Qarabulaq» İstirahət Mərkəzində dincələrkən, onun qara siyahısına düşmüşdülər. O vaxtlar Hacı müəyyən etmişdi ki, Anar Sultanov pulunun qədərini bilmir, hara gəldi səpələyir. Həm Anar Sultanovun, həm də Yaruxom İliyevin bəxti gətirdiyindən onların heç biri Hacı Məmmədovun zirzəmisinə düşməyiblər.

Hacı Yeni il şənliyində Eldara, Aslanbekə və Fərhada C.Hacıyevin izlənməsi ilə bağlı verdiyi tapşırıqa dəyişiklik edir. O, belə qərara gəlir ki, C.Hacıyevi oğurlamaq çətin olacaq. Ən yaxşı variant onun həyat yoldaşını oğurlayıb, küllü miqdarda pul almaqdır.

Yeni il şənliyindən dərhal sonra cinayətkar bandanın üzvləri Bakıya qayıdırlar. Hacı Məmmədov böyük rəisi Zakir Nəsirovun yanına gedir və C.Hacıyevin oğurlanması ilə bağlı məsələləri müzakirə edirlər. Hacı Kamil Sədrəddinova da öz planını açıqlayır. Rəislərin heç biri oğurlanacaq şəxsin qadın olmasını belə nəzərə almır, Hacının təklifinin əleyhinə çıxmır. Əksinə, bu işin tez baş verməsinə onu təhrik edirlər. Onlar yalnız alınacaq küllü miqdarda pul barədə fikirləşir və Hacı Məmmədovun bu təklifilə razılaşırlar. Hacı Məmmədovun böyük rəisi əlavə olaraq bildirir ki, C. Hacıyevin həyat yoldaşını oğurladıqdan sonra səs-küy düşməsin və heç kəs bilməsin deyə C. Hacıyev bir-iki gündə tələb olunan məbləği verəcək. Pulu verdikdən sonra onu dərhal azad etmək olar.

Hacı Məmmədovun başçılıq etdiyi cinayətkar banda üzvlərinin «fəaliyyəti» dövründə oğurladıqları şəxslərin ara-

sında qocası da, cavanı da olub. Lakin onların arasında heç vaxt qadın girovu olmayıb.

Hazırlıq mərhələsindən sonra Hacı Məmmədov əməliyyata start verir. Əməliyyatın kiçik detallarını «yaxın silahdaşları» Elçin Əliyevlə, Aslanbek Çintamirovla, Fərhad Məmmədbəyovla, Eldar Rəhimovla və Musa Dabuyevlə müzakirə edir. O, Eldara və Aslanbekə göstəriş verir ki, C. Hacıyevin izlənməsini dayandırıb, onun həyat yoldaşı Z.Hacıyevanı izləsinlər. Elçin Əliyevə isə tapşırır ki, bu işdə onlara öz kanallarından istifadə etməklə köməklik göstərsin. Bu əməliyyatı keçirmək üçün Hacı Bayıl qəsəbəsində Əziz adlı şəxsə 300 ABŞ dolları verib, qarajını icarəyə götürür.

Elçin Əliyev Azərbaycan Beynəlxalq Bankı sistemində işlədiyi vaxtdan tanıdığı və sədrin sürücüsü Aydın Mehdiyevlə tez-tez telefon əlaqəsi saxlayır. Sürücüdən sədrin harada olması və nə işlə məşğul olmasını, xarici səfərlərə gedəcəyi ilə maraqlanır. Sədrin həyat yoldaşı Z. Hacıyevanın hansı qadın salonuna getməsini soruşur. Sürücü onun niyyətini başa düşməsə də, suallardan yayınmağa çalışır.

Z. Hacıyeva ilə maraqlanan banda üzvlərinə məlum olur ki, o, bir qayda olaraq həftədə bir dəfə «BMW-CEEP» markalı maşını ilə Adil İsgəndərov küçəsi, 2 saylı ünvanda yerləşən «Magic Lady» qadın salonuna gedir.

Hacı Məmmədov Z.Hacıyevanın oğurlanması qərarını verir və əməliyyatı keçirməyi Aslanbekə, Eldara və Musaya tapşırır. Hacı Aslanbekə 200 min, Musaya 20 min ABŞ dolları verəcəyi ilə onları şirnikdirir. Bundan sonra Eldar Rəhimov hər gün idarə etdiyi «Vaz-2106» markalı avtomaşınla «Magic Lady» qadın salonu ətrafında fırlanır ki, Z.Hacıyevnın oraya nə vaxt gəlməsini Hacı Məmmədova zəng edib xəbər verə bilsin. Cinayətkarlar 9 fevralda da Z.Hacıyevanı oğurlamağa cəhd göstərmişlər. Lakin Z.Hacıyeva qadın salonundan çıxarkən təsadüfən salonun yaxınlığından bir hərbçinin keçməsi işə maneçilik yaratmışdı.

Eldar Rəhimov hər gün olduğu kimi 10 fevral 2005-ci ildə axşam idarə etdiy «Vaz–2106» markalı avtomaşınla «Magic Lady» qadın salonunun yaxınlığında Z. Hacıyevanı izləməyə başlayır. Bu vaxt Z.Hacıyeva «BMW-JEEP» avtomaşınını qadın salonunun qarşısında saxlayır. Təxminən saat 17.15 radələrində salona daxil olur. «Jiquli» maşınında əyləşən Eldar Rəhimov Z.Hacıyevanın bütün hərəkətlərini izləyir. O, Nailə Quliyevanın evində onun zəngini gözləyən Hacı Məmmədovla telefon əlaqəsi saxlayır və bildirir ki, Z. Hacıyeva artıq salondadır. Telefon zəngindən dərhal sonra Aslanbek, Rövşən, Musa və Nailə Quliyeva Hacının idarə etdiyi Az 10 LC 202 dövlət nömrə nişanlı «Lexus-JEEP» avtomaşınına əyləşirlər. Şübhə doğurmasın deyə Nailə Quliyeva Hacı Məmmədovun yanında, Aslanbek Çintamirov və Musa Dabuyev isə arxada əyləşirlər. Hacı Məmmədov avtomaşının dövlət nömrə nişanını dəyişmək üçün polietilendəki saxta dövlət nömrə nişanını Rövşən Ağayevə verir. «Azneft» dairəsinə çataçatda Hacı Musaya və Aslanbekə ayrı-ayrılıqda hərəsinə bir ədəd «Makarov» tipli tapança, patronla dolu daraqlar, bir ədəd qandal və başa keçirmək üçün kisə verir. Salona çatmağa az qalmış Aslanbek və Musa maşından düşür və Eldar Rəhimovun Z.Hacıyevanın «BMW-JEEP» markalı maşının arxasında saxladığı maşınına əyləşirlər. Hacı «Lexus-JEEP» markalı maşınını Əl Oyunları İdman Sarayı ilə üzbəüz – Bayıl istiqamətində saxlayır. Rövşən isə saxta dövlət nömrə nişanını «Lexus-JEEP» maşınına bağlayır.

Təxminən saat 18:30 radələrində Z.Hacıyeva inzibatçıya yaxınlaşıb, xidmət haqqını ödəyib, salonu tərk edir. Z.Hacıyeva ona məxsus maşının arxasında köhnə bir «Jiquli»nin dayandığını görür. Heç nədən şübhələnməyərək maşınına yaxınlaşır və əlini qapıya uzatmaq istəyəndə Aslanbek «Jiquli»dən düşüb, onu zorla maşına oturtmağa çalışırlar. Z.Hacıyeva ona müqavimət göstərir. Bu vaxt Musa Aslanbekin köməyinə gəlir və birlikdə Z. Hacıyevanı «Jiquli» ma-

şınına oturmağa məcbur edirlər. Artıq müqavimət göstərə bilməyən Z.Hacıyeva kömək üçün qışqırmağa başlayır. Aslanbek və Musa Z. Hacıyevanın başına kisə keçirib, qollarını qandallayırlar. Eldar Rəhimov maşını işə salıb, Bayıl istiqamətində hərəkət edir. Əl Oyunları İdman Sarayının qarşısından keçərkən, Hacıya işarə edir və maşını saxlamadan yoluna davam edir. O, maşını Hacı Məmmədovun kirayə götürdüyü qaraja gətirir. Hacı Məmmədov da «Lexus-JEEP» markalı maşınla onların arxasınca gəlib, maşının arxasının bir hissəsini qarajın içərisinə salır. «Jiquli» markalı maşının qapılarını açıb, Z.Hacıyevaya təklif edir ki, düşüb başqa maşına keçsin. Lakin onun ayaqlarına kisə keçirildiyinə və tərpənə bilmədiyinə görə Aslanbek Çintamirovla Musa Dabuyev köməkləşib Z.Hacıyevanı «Ciquli»ən düşürdüb onu «CİP»in arxa salonuna oturtdururlar.

Hacı bundan sonra Eldara oğurladıqları qadının həyat yoldaşı C.Hacıyevə ünvanlanan əvvəlcədən hazırlanmış məktubu verir və Nizami küçəsindəki «Zoomağaza»nın yaxınlığında yerləşən 73 saylı binanın girişindəki daşın altına qoymağı tapşırır. Eldar Rəhimov tapşırığı yerinə yetirir.

Hacı Məmmədov maşını dəniz kənarı şose yolla sürərkən Z.Hacıyevanı məcbur edir ki, başını aşağı əysin və səsini çıxarmasın. Hacı özünü Z.Hacıyevaya «Namiq» kimi təqdim edir. O, Z.Hacıyevaya xəbərdarlıq edir ki, əgər qışqırsa və maşınlarını saxlasalar onu güllələyəcək. Eyni zamanda ona təskinlik də verərək bildirir ki, bu onun biznesidir, qorxmasın, onu cəmi üç gün saxlayacaq. Həyat yoldaşı C.Hacıyev onun şərtləri ilə razılaşandan sonra azad olunacaq. Bunun üçün Hacı Z.Hacıyevadan həyat yoldaşına necə zəng etmək lazım gəldiyini soruşur. Z.Hacıyeva cavab verir ki, həyat yoldaşı tanımadığı telefon zənglərinə cavab vermir və ərinin sürücüsü Aydının 218-20-10 saylı telefon nömrəsini ona verir.

Lazımi ünvana çatdıqda onları gözləyən Fərhad qapını açır. Z.Hacıyevanı ikinci tikilidəki saunanın altında düzəlt-

dirdiyi zirzəmi-kameraya salırlar, əlindəki qandalı açır və qapını bağlayırlar. Çıxarkən ona başına keçirilən kisəni çıxarmağı tapşırırlar. Aslanbek və Musanın dediklərinə əməl edən Z.Hacıyeva kisəni başından çıxaranda özünü bunkerdə görür. Qolundakı saata baxdıqa əqrəblər 19:30-u göstərirdi.

Hacı Aslanbekin, Musanın və Fərhadın «əməliyyat»dakı işlərini bitmiş hesab edir və onları evə buraxır. Z.Hacıyevanın keşiyni çəkməyi monitor olan otaqda oturmaqla Əsgər İsgəndərova tapşırır.

Hacı saat 19:35 radələrində Z. Hacıyevanın mobil telefonundan Beynəlxalq Bankın İdarə Heyəti sədrinin sürücüsü Aydın Mehdiyevin 218-20-10 nömrəli mobil telefonuna zəng edir. Aydın Mehdiyev bu vaxt Beynəlxalq Bankın İdarə Heyətinin sədri C.Hacıyevi Montin qəsəbəsində hüzr yerinə aparmış və maşında oturub onun gəlişini gözləyirdi. Aydın Mehdiyev telefonun düyməsini basdıqda Z.Hacıyevanın mobil telefonundan onun səsinin yerinə xırıltılı kişi səsini eşidəndə təəccüblənir. Hacı bildirir ki, C.Hacıyevin həyat yoldaşı onların əlindədir, onu oğurlayıblar. Aydın Mehdiyev zəng edənin kimliyini soruşduqda Hacı bu sualı cavablandırmır. Aydın Mehdiyev telefonla Hacı ilə danışa-danışa mağara yaxınlaşır və C.Hacıyevə işarə edərək çölə çıxmasını xahiş edir. Aydın zəng edənə bir qədər gözlə deyərək, telefonu C.Hacıyevə verir. C. Hacıyev zəngin həyat yoldaşının telefonundan gəldiyini görür. Ancaq telefonda xırltılı kişi səsi eşidilirdi. Bu səs Hacının səsi idi. Hacı C.Hacıyevə deyir ki, Nizami küçəsi, 73 saylı ünvanda «Zoomağaza»nın yanındakı binanın dəhlizində daşın altında məktub qoyulub, orada onların şərtləri yazılıb. Bundan sonra telefon əlaqəsi kəsilir.

«Əməliyyat»ın uğurlu keçməsindən sonra Hacı özünə alibi yaratmaq məqsədilə Nailə Quliyeva ilə birlikdə Konservatoriyanın yaxınlığındakı «Fayton» kafesinə gəlirlər. Hacı bu günü qeyd etmək üçün hətta bacısı oğlu Elçin Əliyevi də

oraya dəvət edir. Lakin hadisə baş verən gün Elçin Əliyev bir qədər tələsərək, tanış qızlardan Solmazı, İrinanı, Gülarə və Elmar Məmmədovu saat 19 radələrində «Şır-Şır» restoranına yeyib-içməyə dəvət etmişdi. Elçin Əliyev deyilən vaxtda gəlib çıxmır. Elmar Məmmədov zəng edib gəldiklərini və restoranda onu gözlədiklərini dedikdə, Elçin bildirir ki, (Z.Hacıyeva barəsində keçirilən əməliyyatın başa çatmasını gözləyirdi) işdə onun yanında iclas gedir və bir azdan gələcəkdir. O, görüş yerinə gec gəlsə də, restoranda çox oturmur. Bir saatdan sonra «Hacı Məmmədovla görüşü var» – deyə tələsdiyini bildirir. Saat 21:30 radələrində Elmar Məmmədov onu dayısının dəvət etdiyi «Fayton» kafesinə aparır. Elçin Əliyev orada Z.Hacıyevanın azad edilməsi üçün həyat yoldaşı C.Hacıyevdən tələb olunacaq məbləğin qədərini açıqlayır. Dayısı Hacı Məmmədova bildirir ki, bu məbləğ 10 milyon avrodan az olmamalıdır. Hacı da bacısı oğlunun təklifi ilə razılaşır.

Hacı Məmmədov qeyri rəsmi yaşadığı arvadı Nailə Quliyeva və bacısı oğlu Elçin Əliyev ilə kafedə «uğurlu» əməliyyatı qeyd etdikləri bir vaxtda C.Hacıyev ona edilən telefon zəngindən sonra birbaşa iş yerinə gəlir. Yolda olarkən Hacı Məmmədov ona yenidən zəng edir və məktubu götürüb-götürməməsi ilə maraqlanır. C.Hacıyev də hələ yolda olduğunu deyir və iş yerinə çataçatda tanışı, Bakı şəhər Baş Polis İdarəsi Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə şöbəsinin rəisi Aydın Rzayevə zəng edərək, həyat yoldaşı Z.Hacıyevanın cinayətkarlar tərəfindən oğurlanmasını xəbər verir və təcili onunla görüşmək istədiyini bildirir. C.Hacıyev əvvəl Aydın Rzayevlə görüşür, sonra isə sürücüsü ilə birlikdə məktub qoyulan ünvandan polietilen kisəni götürürlər. Kisənin içərisindəki məktub kiril əlifbasında rus dilində yazılmışdı. Məktubda «bu biznesdir, əgər kimsə bilsə, yoldaşınız öldürüləcək. Pulunuzu verin, yoldaşınızı azad edək». Hətta pulun məbləği – 10 milyon avro da qeyd olunmuşdu.

Bundan sonra C.Hacıyev və Aydın Rzayev Beynəlxalq Banka gəlirlər. Bakı şəhər Baş Polis İdarəsi Cinayət Axtarış İdarəsindən Nizami Qasımov və iki əməkdaş da onlara qoşulur. Artıq 2005-ci il 10 fevral hadisəsi bütün dövlət orqanlarına məlum olur. Hüquq-mühafizə orqanı əməkdaşları səhərə qədər C.Hacıyevin iş otağına toplaşıb, baş verən hadisə ilə bağlı müxtəlif fikirlər səsləndirirlər. Bakı şəhər Baş Polis İdarəsinin rəisi Məhərəm Əliyev, müavini Cavadağa Sultanov və idarənin digər əməkdaşları da Z.Hacıyevanın axtarışı üçün məsləhətləşmələr aparırlar.

Son illərdə baş verən adam oğurluqlarının, qətl cinayətlərinin üstünün açılmaması və yenidən qadının oğurlanması dövlətin yüksək səviyyədə işə qarışmasına və hüquq-mühafizə orqanlarının məsuliyyətinin artırılmasına gətirib çıxartdı. Bundan sonra Z. Hacıyevanın oğurlanması ilə bağlı cinayət işinin istintaqı və əməliyyat-axtarış tədbirləri Milli Təhlükəsizlik Nazirliyinə tapşırıldı.

Milli Təhlükəsizlik Nazirliyi Z.Hacıyevanın oğurlanması ilə bağlı əməliyyat-axtarış fəaliyyətinə start götürdüyü bir vaxtda Hacı Məmmədov C.Hacıyevdən həyat yoldaşının azad edilməsi üçün hansı yolla pul alacağını fikirləşirdi. Bu məqsədlə Nailə Quliyeva Hacının diktəsi ilə rus dilində C.Hacıyevə və Z.Hacıyevanın bacısına ünvanlanan məktublar yazır, girovun müraciətlərini audio və videokasetlərə köçürub onlara göndərir.

Asan yolla üç gün ərzində 10 milyon avro qazanmaq istəyən Hacı Məmmədovun arzusu baş tutmur. Onun tələblərinə hələlik cavab verən olmur. Bu sahədə peşəkar olan Hacı Məmmədov əvvəl bir o qədər narahatçılıq keçirməsə də, havadarlarının ona Z.Hacıyevanın azad olunması istiqamətində güclü iş aparıldığını xəbər verdikdə canına qorxu düşür. Odur ki, hadisənin üçüncü günü yenidən Z.Hacıyevanın saxlandığı bunker-kameranın qapısı arxasından qadına narazılıqla həyat yoldaşının yaxşı iş görmədiyini, hüquq-mühafizə orqanla-

rına xəbər verdiyini bildirir. Hacı Məmmədov eyni zamanda girova eşitdiririr ki, ərinin hüquq mühafizə orqanlarına xəbər verməsi onları heç də qorxutmur. Çünki onların əlləri uzundur və hər yerdə, hətta inzibati orqanlarda da öz adamları var. O, oğurlanan nə birinci adamdır, nə də ki, axırıncı. Ona qədər həmin bunkerdə başqa şəxslər də olublar. Bu işlə o, 15 ildir ki, məşğul olur. Əvvəlki işlərdə də həmişə belə olub. Oğurlanan şəxslərin qohumları əvvəlcə hüquq mühafizə orqanlarına müraciət ediblər. Lakin sonradan bunun mənasız olduğunu anlayıb, onların şərtləri ilə razılaşaraq tələb olunan pulu veriblər. Bundan sonra oğurlanan şəxsi azad ediblər.

Hacı Məmmədov Z.Hacıyevaya xəbərdarlıqdan sonra Babək prospektindəki «Qarabulaq» ofisinə gəlir və Fərhad Məmmədbəyovu yanına çağırır. Ona içərisində məktub olan qara polietilen paketi verir və tapşırır ki, onu «Caspian Şhoping Senter» mağazasının yaxınlığında, şose yolun kənarındakı iri reklam lövhənin altına qoysun. Sonra isə verdiyi telefon nömrəsindən Z.Hacıyevanın Lena adlı rəfiqəsinə zəng edib desin ki, məktubu götür və C.Hacıyevə çatdır. Fərhad Məmmədbəyov əlindəki paketi deyilən yerə qoyur, «Hyatt Regency» otelinə yaxın yerdən avtomat telefondan Lenaya zəng edir və ona deyilənləri təkrar edir.

Hacı Məmmədov çətinə düşdüyünü hiss edir. Lakin özünü sındırmadan qapı arxasından Z.Hacıyeva ilə danışıqları davam etdirir və bildirir ki, həyat yoldaşı onların şərtləri ilə razılaşmır. Milli Təhlükəsizlik Nazirliyi artıq məsələdən xəbərdardır, onları izləyirlər. Onların əlaqə saxladıqları avtomat telefon dəstəklərini kəsiblər, barmaq izlərini götürüblər.

«Monitor» jurnalının baş redaktoru Elmar Hüseynovun qətlindən sonra məsələ bir az da qəlizləşir. Hacının adamları ona xəbər verirlər ki, Prezidentin yanında Təhlükəsizlik Şurasının müşavirəsi olub. Məsələ çətinləşib, ehtiyatlı olsun. Bu məsələdə Milli Təhlükəsizlik Nazirliyinin işə qarışması onların məhvinə gətirib çıxara bilər.

Bu məlumatdan sonra Hacı heç nə olmamış kimi, tövrünü pozmadan bunkerə qayıdır. C. Hacıyevdən tez bir zamanda istədiklərini almaq üçün Z.Hacıyevaya təzyiq, hədə-qorxu gəlib yenidən məktub yazmağa məcbur edir.

Ona görə də Z.Hacıyeva yenidən həyat yoldaşı C.Hacıyev və bacısı Dilarəyə eyni məzmunlu məktublar yazır. Hacı məktubları Fərhada verib tapşırır ki, onları Şeyx Şamil küçəsi, 10 saylı binanın dəhlizinə qoysun və Z.Hacıyevanın bacısı Dilarəyə zəng edib məktub qoyulan yeri desin. Fərhad Məmmədbəyov dəstə başçısının ona verdiyi «Nokia» markalı mobil telefonla Dilarə Yüzbaşovanın evinə zəng edir və Hacının tapşırıqlarını ona çatdırır. Həmçinin Dilarəyə xəbərdarlıq edir ki, məktubu götürməyə tək getsin.

Dilarə Yüzbaşova Fərhad Məmmədbəyovun dediyi ünvanı əvvəllər şəhərin həmin ərazisində yaşadığı üçün asanlıqla tapır. Dəhlizdə qapının arxasında qara polietilen paketə qoyulmuş məktubu götürür və bacısının dəstixətti ilə yazılmış məktubu oxuyur və onun həyat yoldaşı C. Hacıyevə çatdırır. Bu Hacı Məmmədovun hədə-qorxu ilə Z.Hacıyevaya yazdırdığı sonuncu məktub, Fərhad Məmmədbəyovun isə yerinə yetirdiyi son tapşırıq olur. Lakin bu sonluqlar bununla bitmədi. Hacı Məmmədov və onun cinayətkar fəaliyyətinin sonluqlar mərhələsi hələ yenicə başlayırdı.

Hacı Məmmədov heç xəyalına belə gətirmirdi ki, onun cinayətkar fəaliyyətində sonluqlar ola bilər. Bir neçə gün bundan əvvəl o, bunkerdə olan girovuna qapı arxasından etdiyi söhbətlərdə deyirdi ki, bu onların nə birinci, nə də axırıncı işidir. Deməli, o, özündən razı və arxayın halda bundan sonra da hələ öz cinayətkar fəaliyyətini uzun müddətə davam etdirmək niyyətində idi.

Odur ki, o, girovluqda saxladığı şəxsin bacısına yazdığı müraciətin C.Hacıyevə təsir göstəriləcəyinə inandığından belə hesab edirdi ki, o razılaşacaq və saxladığı girovun azad edilməsi üçün yaxın vaxtda ona 10 milyon avro verəcəkdir.

Bu ümidlə Hacı Məmmədov martın 9-dan 10-na keçən gecə qeyri-rəsmi yaşadığı arvadı Nailə Quliyevanın adına olan Bakı şəhəri, R. Bağırov küçəsi 33, mənzil 6-da uzanıb rahatca, xorna çəkib şirin-şirin uyduğu həmin gecə Hacı Məmmədovun bu mənzildə yatdığı son gecə oldu.

10 mart 2005-ci ildə gecə saat 2-3 radələrində Hacı qəflətən yuxudan oyanır və ətrafında müdhiş bir mənzərə görür. Hətta yüksək rütbəli havadarları da bu təhlükədən onu xəbərdar edə bilməmişlər, qolları qandallanmış Hacı Məmmədov «ola bilməz, bu həqiqət deyil, bu yuxu ola bilər» – deyə bağırır. Bu dəhşətli yuxu deyildi, bu həqiqət idi.

Respublika Baş Prokurorluğu və Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində 10 fevral 2005-ci ildə oğurlanaraq, Xətai raynunun Keşlə qəsəbəsində Hacı Məmmədovun qeyri-rəsmi nigahda olduğu Nailə Quliyevanın evində saxlanılan Z.Hacıyeva azad edildi. Banda üzvü Əsgər İsgəndərov intihar etdi. Hacı Məmmədovun bacısı oğlu, Birləşmiş Universal Səhmdar Bankın (Kapital bank) sədr müavini Elçin Əliyev də intihara cəhd edərək, tapanca ilə özünü yaraladı.

Hacı Məmmədovdan başqa bandanın 11 üzvü, o cümlədən, cinayətkar birliyin üzvlərindən Fərhad Məmmədbəyov, Malik Məmmədov, Faiq Quliyev, Rövşən Ağayev, Nərimanov rayon Mühafizə İdarəsinin növbətçi baş inspektoru, polis kapitanı Eldar Rəhimov, başqa polis əməkdaşı Mehman Həsənov, həmçinin Yagir Məmmədov, Rusiya Federasiyası Çeçenistan Respublikasının vətəndaşları Aslanbek Çintamirov, Musa Dabuyev, Husain Abdulvahabov və başqaları həbs edildilər.

Martın axırına kimi daha 6 nəfər, 2006-cı il yanvarın 4-də isə cinayətkar bandanın axırıncı üzvü də cinayət məsuliyyətinə cəlb olundu.

«Qara Kəmər» əməliyyatı on ilə yaxın bir müddətdə Respublika daxilində, xüsusilə, Bakıda çoxsaylı cinayətlər törə-

dən mütəşəkkil cinayətkar bandanı aşkara çıxardı və müəyyən etdi ki, bu cinayətlərin başında xidməti vəzifəsinə görə cinayətkarlığa qarşı mübarizə aparmalı olan, Daxili İşlər Nazirliyində Cinayət Axtarışı İdarəsinin baş əməliyyat müvəkkili polis polkovnik-leytenantı Hacı Məmmədov və onun yüksək rütbəli himayədarları dururmuş.

Respublika Baş Prokurorluğu və Milli Təhlükəsizlik Nazirliyi tərəfindən «Qara Kəmər» şərti adı altında keçirilən ardıcıl, məqsədəyönlü əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri nəticəsində 10 ilə yaxın davam edən adam oğurluqları, qətllər və digər ağır cinayətlər törətmiş banda üzvləri zərərsizləşdirilməklə, banda üzvlərinə başçılıq edən Hacı Məmmədovun qara əməllərinə son qoyuldu.

Abşeron, Xətai, Yasamal və Qaradağ rayonlarında, habelə Sumqayıt şəhərində təhlükəli bandaya məxsus evlərdən, qarajlardan, Qusar rayonundakı «Qarabulaq» istirahət mərkəzindən çoxsaylı avtomat silahlar, müxtəlif markalı tapançalar, karabinlər, çoxlu sayda patronlar, dolu və boş sandıqçalar, böyük dağıdıcı gücə malik qumbaralar, trotil şaşkalar, alışdırıcılar, qaz silahı, həmçinin xəncər, qılınc, kortik, süngü bıçaqlar, küllü miqdarda dollar və avro, pariklər, maskalar, gecəgörmə cihazları, xüsusi polis geyimləri, avtomobil nömrə nişanları, Sim-kartlar, narkotik vasitələr və digər əşyalar götürüldü.

Son söz

Nəhayət, on ildən sonra Bakı şəhəri, Səməd Vurğun küçəsi, 30 ünvanında yerləşən Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublika Məhkəməsinin qapıları Hacı Məmmədov, onun yüksək rütbəli havadarları və digər banda üzvlərinin üzünə açıldı. Lakin onlar könüllü, binanın fasadı tərəfdən, əsas qapıdan girmədilər.

Məhkəmə binasına onları Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Əlahiddə müşahidə batalyonunun əsgərləri dustaq avtomaşınlarla arxa qapıdan gətirib, məhkəmənin 3 saylı iclas zalında dəmir barmaqlığa saldılar.



1994-cü ildən 2005-ci ilin martına kimi cinayətkar bandanın hesabında istintaq orqanına məlum olan 30-dan çox cinayət hadisəsi qeydə alınmışdı. Məhkəmə iclas zalının dəmir barmaqlıqları arasında özlərinə yer tapan 26 nəfər bunlar idi: Hacı Məmmədov, Nailə Quliyeva, Musa Dabuyev, Eldar Rəhimov, Nizami Abdullayev, Fərhad Məmmədbəyov, Aslanbek Çintamirov, Əliqulu Quliyev, Malik Məmmədov, Sidek Abdulvahabov, Husain Abdulvahabov, Ədalət Əsədullayev, Fariz Həmidov, Faiq Quliyev, Elçin Əliyev, Zakir Nəsirov, Nicat İsmayılov, Kamil Sədrəddinov, Elşən Mirzəyev,

Yagir Məmmədov, Rövşən Ağayev, Mehman Həsənov, Novruz Nuriyev, Aqil Hüseynov, Azər Əliyev və İbrahim Bağırov.

Əgər Hacı Məmmədov ona hədə-qorxu gələn cinayətkar silahdaşlarından Şirxan Albiyevi, Boris Ayyubovu və Ruslan Ukuşevi qətlə yetirməsəydi və silahlı basqınlarda iştirak edən, lakin istintaqda şəxsiyyətləri müəyyən edilməyən Rizvan, Ramazan, Albert, Osman, İsa, Haron, Balvadi və adları məlum olmayan digər cinayətkarlar da yaxalansaydı, onların sayı daha çox olardı və məhkəmə iclas zalındakı dəmir barmaqlıq onlara darısqallıq edərdi.

Dəmir barmaqlıqda bir-birinin yanında sığınıb oturan 26 nəfərin heç biri artıq nə vəzifələrinə görə, nə də rütbələrinə görə bir-birlərindən fərqlənmirdilər. Hamısı eyni bir hüquqi vəziyyətdə idilər.Onlar öz əməlləri ilə özlərinə təqsirləndirilən şəxs hüquqi statusunu qazanmışdılar.

Hacı Məmmədov silahlı basqınları təşkil edərkən və həyata keçirərkən oğurladığı adamların başına qara kisəni keçirərkən, girovun qulaqını kəsərkən, qollarını arxaya burub qandalla bağlayarkən, yeşiyin içərisinə otuzdurub mismarla qapağını bərkidərkən başına gələ biləcəyini heç vaxt ağlına belə gətirməmişdi.

Lakin belə olmadı. «Özgəyə quyu qazan özü düşər» el sözü öz yerini tapdı. Özgələri üçün düzəltdirdiyi dəmir barmaqlıqlar axırda onun özünə, havadarlarına və digər banda üzvlərinə qismət oldu.

Təqsirləndirilən 26 nəfərin cinayət işinə Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublika Məhkəməsinin sədr müavini Əli Seyfəliyevin sədrliyi, hakimlərdən Sədrəddin Hacıyev və Ələvsət Abbasovdan ibarət tərkibdə baxılırdı. Anar Qasımov və E.Abdullayev isə məhkəmə baxışında katiblik edirdilər.

Dövlət ittihamını Azərbaycan Respublika Baş Prokurorluğunun Dövlət İttihamının Müdafiə İdarəsinin rəis

müavini Abdulla Yusifov və idarə prokuroru Bəşir Cəfərov müdafiə edirdi.

Məhkəmə prosesində təqsirləndirilən 26 şəxsin hüquqlarını 27 müdafiəçi müdafiə edirdi. Məhkəmə iclas zalında təqsirləndirilən şəxslərin əməllərindən mənəvi, maddi və fiziki zərərçəkən 32 şəxs və 11 nəfər zərərçəkən şəxsin nümayəndəsi iştirak edirdi.

Hacı Məmmədov, Musa Dabuyev, Aslanbek Çintamirov, Sidek Abdulvahabov, Fərhad Məmmədbəyov, Nizami Abdullayev, Eldar Rəhimov, Rövşən Ağayev, Malik Məmmədov, Nailə Quliyeva və Əliquli Quliyev məhkəmədəki ifadələrində adam oğurluqlarını, qətl hadisələrini və digər silahlı basqınları qismən də olsa bir yerdə törətdiklərini, aldıqları pulu aralarında böldüklərini göstərdikləri halda, Husain Abdulvahabov, Zakir Nəsirov, Kamil Sədrəddinov, Elçin Əliyev və digərləri bunu qəti şəkildə inkar edirlər. Son sözlərində isə məhkəmədən onlara rəhm edilməsini, ədalətli hökm çıxarılmasını, bəziləri isə hətta onlara bəraət verilməsini gözləyirdi.

Məkəmə baxışında iştirak edən zərərçəkənlər də məhkəmənin çıxaracağı hökmün qanuni, əsaslı və ədalətli olmasının tərəfdarı idilər. Lakin aldıqları mənəvi, fiziki və maddi ziyana görə bəzi təqsirləndirilən şəxslərin son sözlərində «rəhm edilməsi» ifadələrini işlətmələri zərərçəkənlərə daha ağır gəlirdi.

Ona görə ki, həmin cinayətkar birliyin üzvləri onların yaxınlarını qətlə yetirməklə, həmin evlərin işıqları sönmüşdü. Ailələr başsız, valideynlər övladsız, uşaqlar atasız, bacılar qardaşsız qalmışdı. Qohumlar əzizlərini itirmişdilər. Vurulan bu ağır yaraları heç nə ilə sağaltmaq mümkün deyildi.

Həmin zərərçəkənlər pula görə dövlət adamlarını, iş adamlarını, həmçinin cavanı da, qocanı da, qadını da aylarla havasız, qaranlıq və rütubətli armaturdan qaynaq edilən

zirzəmilərdə saxlamaqla, qulağını kəsib fiziki ağrı, işkəncə verməklə, canlı insanı yeşiyin içərisinə oturdub qapağını mismarlamaqla, həm onların özlərinə, həm də qohum-əqrabasına mənəvi əzablar verən, son nəticədə onların girovluqdan azad edilməsi üçün külli məbləğdə pullarını alıb illər böyu onları borcun içində saxlayanlara «rəhm edilə bilməz» kimi ifadələrlə məhkəmədə çıxışlarını tamamlayırdılar.

İttiham tərəfi dövlət ittihamını, təqsirləndirilən şəxslərin hüquqlarını müdafiə edən vəkillər müdafiə çıxışlarını bitirdikdən sonra məhkəmə heyəti səkkiz aydan artıq davam edən məhkəmə baxışına nəticə verir, təqsirləndirilən şəxslərin əməlləri ilə bağlı toplanan və tədqiq edilən sübutlara hüquqi qiymətvermə mərhələsinə başlayır.

Yalnız 16 yanvar 2007 ci il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublika Məhkəməsi dövlət adından 26 nəfər təqsirləndirilən şəxsin 26-nı da təqsirli bildi və ittihamedici hökmü elan etdi.

Məhkəmənin hökmü ilə Hacı Məmmədov, Musa Dabuyev, Eldar Rəhimov, Fərhad Məmmədbəyov, Aslanbek Çintamirov, Malik Məmmədov, Husain Abdulvahabov, Zakir Nəsirov, Kamil Sədrəddinov, Yagir Məmmədov ömürlük həbs cəzasına, Sidek Abdulvahabov 17 il 3 ay 9 gün, Nizami Abdullayev və Rövşən Ağayevin hər biri 15 il, Nailə Quliyeva 13 il, Ədalət Əsədullayev və Novruz Nuriyevin hər biri 12 il, Əliqulu Quliyev və Nicat İsmayılovun hər biri 10 il, Elçin Əliyev və Faiq Quliyevin hər biri 9 il, Fariz Həmidov, Mehman Həsənov və Elşən Mirzəyevin hər biri 8 il müddətinə azadlıqdan məhrum edildi. Aqil Hüseynov və Azər Əliyevə təyin olunan cəzalar şərti hesab edildi. İbrahim Bağırov barəsində isə cinayət təqibinə xitam verildi.

Beləliklə, on ildən artıq bir müddətdə fəaliyyət göstərən, aşkar olunmaz və gözə görünməz hesab olunan və uzun

müddət cəzasız qalan mütəşəkkil cinayətkar bandanın fəaliyyətinə son qoyuldu. Bakı şəhəri və Respublikanın bütün bölgələri təhlükəli cinayətkarlardan təmizləndi və onlar layiqli cəzalarını aldılar.

Hər bir şəxsin həyatı və yaxınlarının təhlükəsizliyi dövlət tərəfindən təmin edildi.

İstifadə edilən ədəbiyyat

1. Hacı Məmmədov və qeyriləri haqqında olan cinayət işinin istintaq materialları.

2. Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin Hacı Məmmədov və qeyriləri haqqında olan 16 yanvar 2007-ci il tarixli qanuni qüvvəyə minmiş ittihamedici hökmü və məhkəmə iclas protokolu.

3. Cinayət Məcəlləsi.

4. V.Şükürovun «Taleyim mənim» kitabı

Mündəricat

MTN-in «Qara Kəmər» əməliyyatı Hacı Məmmədovun onillik qara əməllərinə son qoydu 5
«Qarabulaq» qara əməllər məskəni 11
Günahsızların qətlinə buludlar da ağladı 21
Onun özü də çeçəndir 40
Rayon hərbi komissarının köməkçisi istiqamət verir . . . 46
Qonşunun mənzilinə basqın planı 51
«Qarabağ» əməliyyatı 57
Ailəvi dostunun oğluna da qıydı 73
Qardaşların Hacı ilə son cinayəti 89
Qonşuların qənimi 103
Ana tələbi 114
«Qarabulağ»ın ilk qonağı 135
Boşa çıxan basqın 145
Qanlı dəhliz 150
Kombinatın müdiri də zirzəmidə 158
Hacı Məmmədov izi itirir 170
Rəis Hacıya yol göstərir 196
Ağsaqqallığın da düşər-düşməzi olarmış 206
Hacı Məmmədov meydan oxuyur 223
Ana namaz üstə olanda 232
Qoca kişi də Hacının zirzəmisində 237
General sifarişini geri götürdü 252
Hacı Məmmədovun on birinci qətli 258
Hacı Məmmədovun son gecəsi 264
Son soz 279
İstifadə olunan ədəbiyyat 284

Qeyd üçün

Qeyd üçün

Vəkil Şükürov

"Qara kəmər" əməliyyatı

(Sənədli xronika)



Redaktor: Zərif CƏFƏROVA
Dizayn və tərtibat: Rauf KƏRİMOV
Səhifələyicilər: Araz AŞUROV
Ceyhun MAHMUDOV
Korrektor: Suğra OSMANOVA

Yığılmağa verilmişdir: 04.08.2009
Çapa imzalanmışdır: 05.18.2009
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 18,0
Sifariş: 71. Sayı: 500 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ
Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com